ŞƏRQ ÖLKƏLƏRİ BEYNƏLXALQ MEMARLIQ AKADEMİYASI

EASTERN COUNTRIES INTERNATIONAL ACADEMY OF ARCHITECTURE

МЕЖДУНАРОДНАЯ АКАДЕМИЯ АРХИТЕКТУРЫ СТРАН ВОСТОКА

# MEMARLIQ, ŞƏHƏRSALMA TARİXİ VƏ BƏRPASI

# THE HISTORY OF ARCHITECTURE, TOWN-PLANNING AND THE RECONSTRUCTION OF MONUMENTS

# ИСТОРИЯ АРХИТЕКТУРЫ, ГРАДОСТРОИТЕЛЬСТВА И РЕСТАВРАЦИИ

Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyası
elmi nəzəri məcmuəsi
1998-ci ildən nəşr olunur

**Cild 23 № 2**
**Vol 23 № 2**

**BAKI – 2023**

**ŞƏRQ ÖLKƏLƏRİ BEYNƏLXALQ MEMARLIQ AKADEMİYASI**

**EASTERN COUNTRIES INTERNATIONAL ACADEMY OF ARCHITECTURE**

**МЕЖДУНАРОДНАЯ АКАДЕМИЯ АРХИТЕКТУРЫ СТРАНВОСТОКА**

**Təsisci:**
**Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyası və AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun "Memarlıq, şəhərsalma tarixi və bərpası" şöbəsi**

**REDAKSİYA HEYYƏTİ**
Elibay Qasımzadə - ŞÖBMA-nın sədr müavini, Azərbaycan
Ərtegin Salamzadə - ŞÖBMA-nın həqiqi üzvü, Azərbaycan
Ahmet Vefik ALP - ŞÖBMA-nın həqiqi üzvü, Türkiyə
İskəndər Əzimov - ŞÖBMA-nın həqiqi üzvü, Özbəkistan Respublikası
Ramiz Əbdülrəhimov - ŞÖBMA-nın həqiqi üzvü, Azərbaycan
Aybəniz Həsənova - ŞÖBMA-nın həqiqi üzvü, Azərbaycan
Nizami Nağıyev ŞÖBMA-nın həqiqi üzvü, Azərbaycan
Rayihə Əmənzadə ŞÖBMA-nın müxbir üzvü,
Kubra Əliveva - Azərbaycan
Nərgiz Abdullayeva - Azərbaycan
Səbinə Hacıyeva - Azərbaycan
Sevil Sadıxova - Azərbaycan
Hesen Xelil Zunus - İran İslam Respublikası

**Baş redaktor:** Rahibə Əliyeva, ŞÖBMA-nın müxbir üzvü,
**Redaktor:** Sevinc Tangudur, ŞÖBMA-nın həqiqi üzvü,
**Məsul katib:** Samirə Abdullayeva, ŞÖBMA-nın müxbir üzvü

**Məcmuə ildə iki dəfə dərc olunur.**
**Website: http://ecia-academy.org**
**E-mail: info.ecia.academy@gmail.com**
**Ünvan:** Azərbaycan Respublikası, Bakı şəhəri, Murtuza Muxtarov küç, 24
**Tel: +994 070 613-38-53**

*Məcmuənin üz qabığında – Fiqarov qardaşlarının yaşayiş evi XX əsr*

**Cild 23 № 2 2023**
**Vol 23 № 2 2023** **ISSN 2311-5777**



***Akademik Şamil Fətullayev-Fiqarovun 95 illik yubileyinə həsr olunur***

***95 th anniversary of academician Shamil Fatullaev-Figarov Dedicated***

***95 летию академика Шамиля Фатуллаева-Фигарова посвещается***

*Bu il, -2023-cü ildə anadan olmasının 95 illik yubileyini qeyd edəcəyimiz akademik Şamil Fətullayev-Fiqarov Azərbaycan memarlıq elminin fenomenlərindən biri kimi, həm də ensiklopedik biliyə malik alim olmuşdur. Onu nəinki Azərbaycanda, eləcə də Yaxın Şərq, Avropa ölkələrində dərin bilikli bir şəxsiyyət kimi tanıyır, tez-tez ona memarlıq irsinin tədqiqi ilə bağlı müraciət edirdilər. Böyük memar XIX-XX əsr memarlığının tədqiqinə ilk cigır açmaqla, bu mədəni irsi təkcə memarların deyil, eləcə də cəmiyyətin maraq dairəsinə daxil etmişdir.*

*Şamil Fətullayev-Fiqarov 24 dekabr 1928-ci ildə Bakıda anadan olmuşdur. XV əsrdən tanınmış qədim Dərbənd nəslindən olan Şamil Fətullayev-Fiqarovun babası, Hacı Zülfüqar bəyin nəvəsi, 1937-ci ildə həbs edilmiş və güllələnmiş Əli Mirzə Fiqarov Dərbənd şəhərinin iri həcmli torpaq mülkiyyətçisi və balıqçılıq təsərrüfatçısı idi.*

*Şamil Fətullayev-Fiqarov 1953-cü ildə Azərbaycan Politexnik institutunun memarlıq-inşaat fakultəsini bitirmişdir. 1956-cı ildə Azərbaycan EA-nın Memarlıq və İncəsənət institutnun aspirantı olmuş, 1963-cü ildə namizədlik, 1990-cı ildə doktorluq dissertasiyasını müdafiə etmiş və professor elmi adı almışdır.*

*Azərbaycan Dövlət mükafatı laureatı və əməkdar memarı, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvi, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının prezidenti, Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvi (Moskva), Türk incəsənəti üzrə Beynəlxalq konqresin həqiqi üzvi, memarlıq doktoru, professor, SSRİ-nın «Şöhrət nişanı ordenli», Prezident fərmanı ilə təltif edilmiş «Şöhrət ordenli», 50 il memarlıq sahəsində fəaliyyət göstərmiş əmək veteranı Şamil Fətullayev-Fiqarov Seyfulla oğlu memarlıq tarixi və nəzəriyyəsi, eləcə də milli memarlıq abidələrinin bərpası sahəsində göstərdiyi xidmətlərinə görə nəinki respublikamızda, Yaxın Şərqdə, hətta Avropa ölkələrində, tanınan dəyərli alimlərimizdən biridir. Azərbaycan memarlıq tarixinin XIX-XX əsr dövlətlərinin tədqiqi məhz onun adı ilə bağlıdır. Azərbaycan memarlığı və şəhərsalması tarixi üzrə böyük elmi baza sayılan Ş.Fətullayev yaradıcılığının özü bir elmi məktəbdir. Məhz bu*

*məktəbin elmi bazasında ilk dəfə tanınan Zivərbəy Əhmədbəyovun, Qasımbəy Hacıbababəyov, Kərbəlayi Səfixan Qarabaği, Məşədi Mirzə Qafar və s. yaradıcılığı onun tərəfindən işıqlandırılmışdır. Bu sahədə alim dəyərli sənət əsərləri yazıb çap etdirilmişdir. Bundan sonra, tarixi memarlarımızın həyat və yaradıcılığı gənc alimlərimizin də tətqiqat obyektinə çevrilmişdir. Azərbaycan milli memarlıq tarixinin dünya miqyasında təbliğ olunmasında da Ş. Fətullayevin xidmətləri böyükdür. Bu baxımdan o, Polşa (1971), İran (1991-1998-illər), Türkiyə (1991) İordaniya (1996), Hollandiya (1999) və s. ölkələrində keçirilən beynəlxalq konfranslarda uğurla çıxış edərək Azərbaycan memarlığını layiqincə təbliğ etmişdir. Alimin rəhbərliyi altında 15 nəfər elmlər namizədi, 4 nəfər elmlər doktoru yetişmişdir.*

*Geniş spektrdə tədqiq etdiyi, 1963-cü ildə Bakıda "XIX-XX əsr Azərbaycan şəhərlərinin yaşayış binaları", 1978-ci ildə Leninqradda "XIX-XX əsrin əvvəlləri Bakının şəhərsalma memarlığı", 1986-cı ildə "XIX-XX əsrin əvvəlləri Azərbaycanın şəhərsalma memarlığı" (yenə də Leninqradda), 1996-cı ildə Tehranda Azərbaycan məscidləri" və 1998-ci ildə Ankarada "Bakının Memarlıq ensiklopediyası", 2000-ci ildə yenə də Tehranda "İran şəhərləri Qacarlar dövründə", 2003-cü ildə "Abşeron memarlığı" monoqrafiyaları çap olunmuş və o cümlədən bu müddət ərzində 90-dan çox elmi məqalələri müxtəlif jurnallarda dərc olunmuşdur.*

*2013-cü ildə alimin 4 kitabı ; "XIX-XX əsrin əvvəlləri Bakının şəhərsalma memarlığı", "XIX-XX əsrin əvvəlləri Azərbaycanın şəhərsalma memarlığı", "Bakının Memarlıq ensiklopediyası" və "Abşeron memarlığı" yeni nəşrlə 3 dildə (azərbaycan,ingilis,rus) çap olunmuşdur. Eləcə də "Bakı memarları – XIX əsrin axırı – XX əsrin əvvəllərində", "Qacarlar - Şərq mədəniyyətinin yeni səhifəsi" - 3 dildə, "Azərbaycan memarlığının klassikləri" – 2 dildə nəşr edilmişdir.*

*2014-cü ildə Şamil Fətullayev-Fiqarov akademik adına layiq görülmüşdür.*

*Toplunun bu nömrəsində görkəmli memarın həyat və yaradıcılığına həsr olunmuş məqalələr yer almışdır.*

*Bu il, eləcə də AMEA-nın yaranmasında rüşeyim rolunu oynamış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin 100 illik yubileyi qeyd olunmaqdadır. Təqdim olunan nömrədə, Cəmiyyətin, daha sonralar isə AMEA-nın tərkibində fəaliyyət göstərmiş arxeoloq və memarların Azərbaycanın memarlıq irsinin tədqiqindəki fəaliyyəti, eləcə də Cəmiyyətin ölkədə şəhərsalmanın inkişafındakı roluna həsr olunmuş məqalələr də maraq doğurur.*

*Memarliq tarixi və nəzəriyyəsi, abidələrin bərpasi bölməsində davamlı olaraq, bu günümüzün aktual problemlərindən- Qarabağ mədəni irsinin tədqiqi və bərpası, memarlıq və şəhərsalma problemlərinin araşdırılması əsas yer tutur. "Şuşanın şəhərsalması və memarlığı XIX-XX əsrin əvvəlləri (karvansaray)", "Şuşada Mehmandarovlarin evi – dünən və bu gün", "Qarabağ memarliğinin təkamül yolu", "Qarabağin erkən orta əsr şəhərlərinin və müdafiə istehkamlarinin formalaşmasi və muzeyləşdirilməsi", "1894-cü il Çanaxçi kəndində monastir və qəbirstanliq" adlı məqalələri oxucuların marağına səbəb olacaq.*

*Toplunun bu bölməsində memarlıq tiplərindən olan xanəgahların tədqiqinə həsr olunmuş "Şeyx Şıxabetdin Əhərinin xanəgahı ilə Şeyx Xoca Əhməd Yasəvinin xanəgahının müqayisəli təhlili" və "Quba-Qusar rayonlarinın mədəni irsinin qorunmasi" adlı məqalələri də böyük maraq doğurur.*

*Şəhərsalma, landşaft memarliği və dizayn bölməsində Region və şəhərlərin hüdudlar (həddlər) təhlili, iri ticarət mərkəzlərinin nəqliyyat xidmətinin ümumi prinsipləri işıqlandırılmışdır.*

*Toplunun sənətşünasliq bölməsi rəngarəng məqalələri ilə yenə də oxucuların elmi, bilik səviyyəsinin kamilləşməsinə öz töhvələrini vermiş olacaq. "Azərbaycani müasir və qüdrətli dövlətə çevirən ideyalar müəllifi", "Kitabi-dədə Qorqud dastaninda qopuz semantikasi", "Abbas Mirzə Şərifzadənin Azərbaycanda musiqili teatrının təşəkkülündə rolu", "Türk mifoloji təsəvvüründə şər qadin obrazi", "Qədim Göytürk əlifbası və Azərbaycan xalçalarının ornamentləri" və digər sənətşünaslıq səpgili, maraqlı məqalələr bu nömrənin oxucular olan töhvəsidir.*

***MEMARLIQ TARİXİVƏ NƏZƏRİYYƏSİ, ABİDƏLƏRİN BƏRPASI***

**Sevinc Tangudur**

AMEA Memarlıq və İncəsənət İnstitutu
ŞÖBMA-nın həqiqi üzvü,
memarlıq üzrə fəlsəfə doktoru, dosent

**UDC 72.01**

# ARCHITECTURAL PHENOMENON ACADEMIC SHAMIL FATULLAYEV-FIGAROV

**Abstact:** The formation of a state's architectural history is often connected with the names of famous personalities raised by the people. One of these personalities is the architectural phenomenon academician Shamil Fatullayev-Figarov. His works are an important contribution to world architecture. Academician Shamil Fatullayev-Figarov's role in study and promotion of our architectural history during the period of economic development in our country is irreplaceable.

Shamil Fatullayev-Figarov is an outstanding scientist in the sphere of the history and theory of architecture of Azerbaijan.

**Keywords:** Shamil Fatullayev-Figarov, architecture and town-planning XIX-XX century, period of capitalism

Sh.S. Fatullayev-Figarov’s great service is that he is a discoverer in the sphere of the study and propaganda of urban-planning and architecture of Azerbaijan of the XIX – early XX centuries, practically unknown even to specialists on the history of architecture.

His researches can by right be called pioneering work by choice of the theme and breadth of approach, as well as by profundity and solidity of apprehension of the material. It is unique by problems and subject of investigation. Sh.S. Fatullayev-Figarov’s works make important alterations in traditional characteristics of the history of art of Azerbaijan. Owing to Fatullayev-Figarov’s works there has been created a base-foundation for further profound researches of many problems which became independent themes for masters’ and doctors’ theses.

This base – foundation became the school for scientific investigations. There has been formed a fundamental architectural – scientific school of

Shamil Fatullayev-Figarov. On the basis of the research of architecture and urban-planning of Azerbaijan there has been planned a new direction in the study of the history of architecture of these countries.



**Figur 1. The XXII World Congress of Architecture. Istanbul. 2005**



**Figur 2. On the anniversary of Galina Mikeladze. Baku. 2011**

Shamil Fatullayev-Figarov's name is connected with the study of the epoch of capitalism which didn't attract the researchers' attention who considered it to be not interesting with its stylistic directions of eclecticism and stylization. Underestimating this architectural age, buildings occupying vast town territories with squares, green plantations, public gardens, boulevards and chiefly architectural buildings, dwelling houses, public and administrative erections, the researchers failed to take into consideration the significance of architecture and town-planning of this period, i.e. the XIX – early XX centuries.

For the first time in Azerbaijan and the Near East he began to study the architecture and town-planning of this period. Shamil Fatullayev is a unique person in our culture.

Two great cities and both of them on the Caspian seashore, Derbent and Baku had a considerable influence upon his formation giving moral and ethic support. Derbent is a city which Persian shahs, Roman imperors, Khazar khagans, Arabic khaliphate, Mongols and Turkish sultans and Russian tsars has had a claim on since the time of its appearance.

Having been born in Baku, surrounded with magnificent and effectively built edifices, which drew his attention with variety of compositional methods, forms and motifs perfectly carried out of Baku limestone.

Shamil Fatullayev-Figarov distinctly realized that the period under review is not a new phenomenon in the architecture, but owing to social-economic transformations, the development of building techniques and materials putting forward another attitude to architectural problems had become an original solution of the new architectural tasks.

But the architecture of the ancient Rome made a start from classical Greece, the famous age of Renaissance appeared and expressed itself as a result of the study of the architecture of Roman Empire. All the following periods of the development of architecture and the formation was marked under the influence of previous classical images. That's why there is nothing surprising in the architecture of the XIX-XX centuries when it appealed to the past and expressed its attitude to the present. Nobody paid attention to the appearance of the architecture of modern, which became the forerunner of the contemporary architecture.

Sh. S. Fatullayev-Figarov's interest doesn't limit itself to this period of architecture and town-planning, it always embraces a wide range of problems. He was interested in the monuments of Caucasian Albany which he had measured with great enthusiasm, then engaged in Gajars period in Iran (XIX-XX cc.), published in 2000 in English and Persian languages in Tehran. Monumental architecture of Ahemenies and Sasanies with their figurative volumetric – plastic interpretation attracted his attention.

In his monographs on the history of architecture and town-planning, on the study of monuments of architecture Sh.S. Fatullayev-Figarov precisely determined the method of typological classification on the planning structure of the solution of buildings. Now this method is widely used in the works of post-graduates and those who work for Ph. D. degree.

The analysis of planning of Azerbaijan towns showed that the basis of their buildings made up edifices of the XIX – early XX centuries, and this situation imposes a high responsibility in the reconstruction of historical quarters to manifest a special attention to great architectural heritage, because the structures of that period are monuments of town-planning art, valuable works of national architecture. General underestimation of the architecture and town-planning of that period was as a whole redoubled with the absence of fundamental researches revealing their significance in the history of Azerbaijan architecture.

For recreating of the general view of development of Azerbaijan architecture it was necessary to study, investigate and systematize heterogeneous materials and formulate scientific conclusion and substantiation assumed as a basis of critical analysis of the research. The analysis of the development of the architecture of main types of buildings and structures made it possible to reveal the artistic direction of stylistic peculiarities of the architecture of pre-revolutionary period.

Investigations, measures and study of the works of national architecture gave the opportunity to determine peculiar essence of architectural occurences proceeded in Azerbaijan in the XIX century owing to historical peculiarities of the development of the country where local and European schools of architecture came across. In the process of systematization, classification of types of buildings and structures and their analysis there were chosen the most

typical works of that period. Among them there are dwelling, public, industrial and transport structures.

Characterizing Sh. S. Fatullayev-Figarov first of all should be noted the breadth of his interests and versatility of the talent. He is gifted, possessor of non-typical thinking. He combines constant deep interest in the theory of architecture with lively apprehension of the life, aspiration to understand and describe its beauty on the paper. Being exceptionally picturesque creative man he could time again supplement a typical model of his generation with his works.

Sh. S. Fatullayev-Figarov is a connoisseur of refined manners, aesthete, contemplates the world with keen glance, demands from collegues high ethics and broad cultural outlook. The architecture is for him first of all one of methods of expression of aesthetic ideal.

Working at the Institute of Architecture and Art of the NAS of Azerbaijan he trains highly skilled scientific personnel. Post-graduate courses of the Institute of Architecture and Art of the NAS of Azerbaijan Republic is a unique phenomenon in the history of training of high architectural personnel in our country.

Under the leadership of prof. Sh. S. Fatullayev-Figarov the graduates are suggested the ability of analysing, using of materials, literature, thinking broadly, carrying out scientific researches as far as it is necessary for architects – professionals who will have to solve complicated complex of social, functional-technical and artistic problems.

The ancient profession of architect has been shaped in the course of many centuries. It was altering, improving, meeting the requirements of the human society. In each historical period there manifested themselves characteristic peculiarities of formation and development of the profession of architect determined by the level of social development, the range of scientific and technical knowledge, the essence of social and class mode of life, ideological conceptions in their historical development.

As in any kind of art in the formation and perfection of the architecture the personality of the architect-master is not of little importance. The history of architecture preserved for us the names of prominent architects and scientist – architects who made great scientific – creative contribution to the development of the architecture.

The conception of history of architecture and urban-planning of Azerbaijan and Near Eastern region is confirmed in scientific school created by professor Sh.S. Fatullayev-Figarov, in dissertation themes of graduates and researchers, in many monographs and investigations. More than half a century experience and knowledge of foreign history of architecture and urban-planning is magnificent. A man of great talent, he made an enormous

contribution to these spheres of architecture, his role and significance before contemporary architectural science is incontestable.

In order to keep all these great irreplaceable services alive and to pass them on to future generations, in order to ensure that the genius master Şamil Hodja, who brought a valuable "treasure" to the history of architecture, is recognized internationally, in 2010, I fulfilled my duty and prepared my book "Architecture in the Life of Shamil Fyatullayev-Figarov" and presented it to the reader in 3 languages.

The book consists of 4 chapters:

Chapter I – Years of formation of the architect Shamil Fatullayev-Figarov;

Chapter II - Monographs and architectural drawings;

Main-types of edifies in the building of Azerbaijan towns;

Chapter III - Professor Shamil Fyatullayev-Figarov's participation of the International Congresses, Conferences, Symposiums;

Chapter IV - The role and importance of scienlific - architectural activity of professor Shamil Fatullayev-Figarov in the history architecture of Azerbaijan, countries of the Near and Middle East.

The book also includes information about Shamil Fyatullayev-Figarov's paintings, the diplomas and edicts he received, as well as his books, which are considered very valuable and indispensable for our republic.

**Referens:**

1. Tangudur S.M., Şamil Fətullayev-Fiqarovun həyatında memarlıq. 2010. Ege Basım/İstanbul.

**Sevinc Tangudur**

## Memarliq fenomeni akademik Şamil Fətullayev – Fiqarov

**Açar sözlər:** Şamil Fətullayev - Fiqarov, canlı ensiklopediya, XIX-XX əsr memarlığı və şəhərsalması, kapitalizm dövrü.

Bir dövlətin memarlıq tarixinin formalaşması çox hallarda xalqın yetiştirdiyi tanınmış şəxsiyyətlərin adı ilə bağlı olur. Belə şəxsiyyətlərdən biri də memarlıq fenomeni akademik Şamil Fətullayev–Fiqarovdur. Onun əsərləri dünya memarşünaslığına əhəmiyyətli töhvədir. Ölkəmizdə iqtisadi baxımdam inkişaf müşahidə olunduğu bir dövrdə, memarlıq tariximizin öyrənilməsində və təbliğində akademik Şamil Fətullayev–Fiqarovun rolu əvəzolunmazdır.

Şamil Fətullayev–Fiqarovun adı, tədqiqatçıların diqqətini qətiyyən cəlb etməyən, özünün üslub istiqamətlərinin eklektik və üslubluğu ilə az

məzmunlu, eləcə də maraqsız sayılan kapitalizm dövrü memarlığının və şəhərsalma tarixinin öyrənilməsi ilə bağlıdır. Bu memarlıq əsrini, şəhərin böyük ərazilərini meydanlarla, yaşıllıqlarla, bağlarla, bulvarlarla və ən əsası, memarlıq baxımından əsrarəngiz monumental, yaşayış evlərini, ictimai və inzibatı tikililəri lazımınca dəyərləndirməyən tədqiqatçılar bütöv bir dövrün, yəni XIX əsrin sonu XX əsrin əvvəllərinin memarlığı və şəhərsalmasının əhəmiyyətini nəzərdən qaçırmışlar. Tədqiqatçı alim, Azərbaycanda və Yaxın Şərqdə ilk dəfə olaraq bu dövrün memrlığı və şəhərsalmasını öyrənməklə məşğul olmağa başlamışdır.

**Севиндж Тангудур**

## Архитектурный феномен академик Шамиль Фатуллаев – Фигаров

**Ключевые слова:** Шамиль Фатуллаев Фигаров, градостроительство и архитектура XIX-XX века, эпоха капитализма.

Формирование архитектурной истории государства часто связано с именами известных личностей, воспитанных народом. Одним из таких личностей является архитектурный феномен академик Шамиль Фатуллаев-Фигаров. Его работы являются важным вкладом в мировую архитектуру. В период экономического развития нашей страны роль академика Шамиля Фатуллаева-Фигарова в изучении и популяризации нашей архитектурной истории незаменима.

Имя Шамиля Фатуллаева-Фигарова связано с изучением архитектуры и градостроительства эпохи капитализма, которое совершенно не привлекало внимания исследователей, считавших малосодержательной и неинтересной, со своими стилистическими направлениями эклектики и стилизации. Недооценивая данную архитектурную эпоху, застройку, занявшую обширные городские территории, с площадями, зелеными насаждениями, скверами, бульварами, и главное архитектурно выдержанными зданиями, жилыми домами, общественными и административными постройками, исследователи упустили из виду значимость архитектуры и градостроительства масштабного периода XIX – начала XX веков.

**Rahibə Əliyeva**

AMEA-nın Memarlıq və İncəsənət İnstitutu
BMA-nın professoru, ŞÖBMA-nın müxbir üzvü,
memarlıq doktoru,
rahibe_eliyeva@mail.ru

**UOT 72.01**

# ABŞERON MEMARLIQ İRSİ AKADEMİK ŞAMİL FƏTULLAYEVİN TƏDQİQAT OBYEKTİ KİMİ

**Xülasə.** Məqalə Şamil Fətullayev-Fiqarovun tədqiqatlarında Abşeron memarlığının sosial-iqtisadi, iqlim və coğrafi xüsusiyyətlərindən asılı olaraq memarlıq və şəhərsalma xüsusiyyətlərinin formalaşmasına həsr edilmişdir. Şamil Fətullayev 19-20-ci əsrlərdə hərbi, mülki, memorial tikililərini və neft maqnatlarının Abşeron villalarını tədqiq edib. Onun "Abşeron memarlığı" monoqrafiyası fundamental elmi əsər kimi XIX-XX əsrin əvvəllərində Abşeron memarlıq irsinin təsnifatı, memarlıq-planlaşdırma strukturu, məkan-planlaşdırma və kompozisiya strukturunu, habelə memarlar haqqında məlumatları özündə əks etdirir. Şamil Fətullayev-Fiqarov 19-20-ci əsrlər memarlığının ilk tədqiqatçısıdır.

**Açar sözlər:** Akademik Ş. Fətullayev-Fiqarov, Abşeron memarlığı, hərbi-müdadiə, dini, mülkü, xatirə tikililəri.

**Giriş.** Abşeronun coğrafi mövqeyinin Xəzər dənizi sahillərində olması, onun sosial-iqtisadi şərtləri, tarixi inkişafı bu yarımadanın daxili sisteminin xüsusiyyətlərini müəyyən etmişdir. Abşeronun zəngin maddi-mədəni irsi kurqanlarda arxeoloji qazıntılar nəticəsində aşkarlanmış antromorfik heykəllər, üzərində çılpaq fiqurların əks olunduğu qablar, dövrünün bədii təsvir problematikası üzrə unikaldır və hər biri qədim Abşeron mədəniyyətinin inkişaf mərhələlərini əks etdirir. Barelyeflərin yüksək plastik həlli, rəsmlərin incə təsviri, formaların reallığı insan beynində Abşeronun yaşayış məskənlərinin qədim dövrünün təsvirini yaradır. Bu tarixi kəndlər min illər boyu fərdi şəhərsalma nümunəsi kimi mövcud olmuşlar. Onlar Abşeron tarixinin müxtəlif dövrlərində formalaşmış və inkişaf etmişdir. Onların şəhərsalma quruluşu və hüdudları memarlığın xüsusi aləminə, qədim təbiətin üfüqi xətti fonunda, dəqiq həndəsi forması və fiqurları ilə daxil olmuşdur. Abşeronun infrastrukturu bir çox yüzilliklər ərzində, daimi müharibələr və sarsıntılar şəraitində inkişaf etmiş, enişlər və yüksəlişlər iqtisadi hadisələri müşahidə etmiş və bu öz növbəsində ölkənin memarlıq inkişafına güclü təsir

göstərmişdir. Abşeron yarımadasının o qədər də böyük olmayan ərazisində, Şirvanşahlar sülaləsi (XIXV əsrlər), Səfəvilər dövləti(XVI-XVIII əsrlər), Bakı xanlıqları(XVIII əsr) və kapitalizm dövrünün (XIX-XX əsrlərin əvvəlləri) daşlarda donub qalmış memarlıq irsi onun tarixini yazmışdır. Cənub günəşinin bol işıq və kölgələri sayəsində burada təsadüfi heç bir forma və həcmilik yoxdur, həndəsədə olduğu kimi hər şey rasional, eyni zamanda təbiidir. Abşeronun müəyyən bir vaxtlarda ticarət yollarından kənarda qalmasına baxmayaraq, onun qədim dövrlərdən tanınan nefti, duzu, zəfəranı, Xəzər dənizi sahilində yerləşməsi ilə dəniz məhsullarına sahib çıxması, onun beynəlxalq əlaqələrə cəlb olunmasına şərait yaratmışdır. Bura həm də özünü təbii alovların çıxdığı bir məkan kimi Hindistan zəvvarlarını da özünə cəlb etmişdir. Böyük təbii sərvətlərin və coğrafi imkanların mərkəzləşdiyi Abşeronda 39 tarixi məntəqə, özünəməxsus memarlıq, şəhərsalma mədəniyyətini yaratmışdır. Abşeronun möhtəşəm əhəngdaşının yaratdığı memarlıq "möcüzələri", Suraxanıda Atəşgah məbədi, Mərdəkan, Ramana, Şağan, Nardaranın hərbi-müdaiə qurğuları, Sanqaçalın, Balaxanının karvansarayları, Qala, Mərdəkan, Maştağa, Keşlənin qum hamamları, orta əsr yadigarları Tuba-Şahi, Hacı-Ramazan, Hacı Baxşı və s. məscidləri təkamül prosesində, XIX-XX əsrin əvvəllərində Avropa memarlığının, müxtəlif memarlıq-dizayn üslublarının təsiri altında, böyük həcm-məkan tutumlu dini tikililərin Əmircanda M.Muxtarov, Nardaranda Ağa, Cümə məscidlərinin, Buzovnada Eldarovların məscidlərinin tikintisinə kimi inkişaf etmişdir. Məhz bu tikililər Abşeronun yaşayış məskənlərinin mərhələlərlə inkişafına yardımçı oldu və nəticədə tarixi kəndlər, Mərdəkan, Qala, Şağan, Maştağa, Balaxanı və s. öz tam memarlıq simasını almış oldu.

**Tədqiqat.** Şamil Fətullayev-Fiqarovun bu məkanın özünəməxsus gözəllikləri ilə tanışlığı hələ kiçik yaşlarında Abşeron bağlarına valideynləri ilə gedərkən başlamışdır. Abşeron memarlığına olan məhəbbət isə tələbə olduğu, 1947-ci ildə ADNA-nın inşaat fakultəsinin memarlıq şöbəsinə daxil olub orada oxuyarkən Bakı və Abşeronda yerləşən abidələrin sevə-sevə rəsmlərinin çəkilməsi və ölçülməsində yaranmışdı. Demək olar ki, tələbəlik illərini Abşeron qalalarının, məscid və hamamlarının rəsmlərinin çəkilməsi ilə keçirmiş Şamil Fətullayevin bu peşəkar memarlıq sahəsi ilə ilk tanışlığı idi. İnstitutu bitirdikdə Mərdəkan qalasının bərpa layihəsini diplom işi kimi müdafiə etmişdi. Fətullayevin ilk peşəkar işi 1952-ci ildə Abşeronda yerləşən qalaların tədqiqi və ölçülməsi ilə başlamış və sanballı monoqrafiyalarında öz əksini tapmışdır. Akademik Azərbaycanın digər regionlarının memarlığını öyrənməklə, onların fonunda Abşeron memarlığına nəzər salmaqla davamlı olaraq böyük həcmli tədqiqatlar üçün materiallar toplamışdır. Bu uzun bir proses idi. Yarımadanın 39 kəndində tədqiqat apararaq buradakı memarlıq irsini bircə-bircə tədqiq edərək ölçmək, həm böyük zəhmət, həm də böyük vaxt

tələb edirdi. Yaxşı xatırlayıram, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda aspirant olarkən, elmi rəhbərimin öz istirahət günlərini Mərdəkanda ölçü işlərində keçirdiyinin şahidi olmuşam. Qışın soyuğundan, yayın istisindən asılı olmayaraq, tədqiqatçı-alim öz fotoaparatı və metrəsi ilə ölçü işlərində idi. Neçə illər sonra mən Abşeron qoruqlarını tədqiq edərkən, yerli əhali mənə Şamil müəllimin bu yerlərdə ölçü işləri ilə məşğul olduğu barədə məlumat vermişdi. Şamil müəllim tədqiqatları zamanı abidələrin qorunub-saxlanılmasına da xüsusi diqqət və qayğı göstərir, onların bərpa layihələrini işləyib-hazırlayırdı. Belə bir faktı diqqətə çatdırmaq istəyirəm, Novruz bayramı qabağı, çərşənbə axşamlarının birində, kollektiv şəkildə Memarlıq və İncəsənət İnstitutunun memar əməkdaşları ilə birlikdə Mərdəkandakı Pir Həsən türbəsinə və Axund Əbuturabın məqbərəsinə ekskurs etmişdik. O dövrün “Bərpaçı” adlanan institutunda çalışan erməni ustaları tərəindən abidədə bərpa işləri aparılırdı. Şamil müəllim işin gedişatı ilə maraqlanarkən, məqbərənin “sağlam” sütununun yenisi ilə əvəzləndiyini gördükdə xeyli əsəbiləşdi və sütunun yerinə qoyulmasını tələb etdi. Bizim Bakı kəndlərinə belə ekskursiyalarımız Şamil müəllimin başçılığı ilə dəfələrlə baş tutmuşdur. Abşeron abidələrinin orta əsr memarlığı artıq uzun zamandan bəri müxtəlif tədqiqatçıların hədəində olsa da, Şamil Fətullayevin məqsəd bir idi, “Abşeron memarlığı” monoqraiyası yazılmalı idi. Faktiki olaraq kitab, Abşeron memarlığının qanunauyğunluğunun mahiyyətinə varmağa imkan yaradan tam miqyaslı tədqiqat və müəllif ölçüləri bazası üzərində qurulmalıydı. Uzun illərin tədqiqatları yaşayış məntəqələrinin planlaşdırılmasında mərkəzi mövqe tutan Abşeronun hərbi-müdaiə qalalarının, kənd quruluşunda dominant mövqeyə malik dini tikililərin, gözəl forma və siluetli gümbəzləri, qırmızı kərpicdən tikilmiş şaquli baca boruları olan hamamların, hörmətli şəxslərə tikilmiş türbələrin, su təchizatı qismində istifadə olunan ovdanların möhtəşəm simalarının təsnifatlarının işlənməsinə yardımçı oldu. 2007-ci ildə “Abşeron memarlığı” monoqraiyası işıq üzü gördü. Bu monoqrafiya fərqli monoqraiya idi. Abşeron memarlığına, onun plastik ağ əhəngaşına böyük məhəbbət bəsləyən Şamil Fətullayev, kitaba öz qəlbini, məhəbbətini vermişdi. Xüsusilə müəllif tərəindən ilk “cığırını” açdığı XIX-XX əsrin əvvəllərində inşa olunmuş memarlıq irsi diqqətdə saxlanılırdı. Yarımadanın yaşayış məskənlərində ictimai xarakterli orta əsr memarlıq nümunələri qənaətbəxş səviyyədə olsa da, “neft bumu” Abşeron memarlığının inkişafında böyük rol oynamışdı. Məhz kapitalizm dövründə yaşayış məskənlərinin orta əsrlərdən bəri formalaşmağa başladığı şəhərsalma quruluşu, xüsusilə məhəllə sistemi tamamlanmışdır. Şamil Fətullayev monoqraiyada Abşeronun 24 kəndinin relyef-iqlim, strateji xüsusiyyətlərini nəzərə almaqla şəhərsalma və məhəllə quruluşunu tədqiq etmişdir. Kəndlərin memarlıq abidələrinin inkişafını mərhələlərlə inkişafını izləyən müəllif, onların şəhərsalma düyünlərinin, küçə şəbəkəsinin

formalaşmasındakı rolunu açıqlamışdır. Şəhərsalma faktoruna çevrilmiş kəndlərin dominantlarının yaşayış məskəninin siluetində yeri vurğulanmışdır. Abşeron abidələrinin ilk dəfə olaraq müəllif tərəindən plan quruluşuna görə tipoloji təsnifatı hazırlanmışdır. Monoqraiyada Qərbi Avropa memarlığında bənzəri olmayan, Yaxın və Orta Şərqin hərbi memarlığında müstəsna bir hal olan Abşeron qalaları, Şamil müəllim tərəindən memarlıq abidələrinin ilkin tiplərindən olmaqla tədqiq edilmişdir. Tarixi kəndlərdə tikilmiş qalalar, bu və ya digər yaşayış məntəqəsinin salınmasına səbəb olmuş, tariximizin inqilabdan sonrakı dövründə, yeni gələn nəsillər tərəindən dağıdılmışdır. Qalalar Balaxanı, Bilgəh, Binə, Buzovna, Qala, Keşlə, Mərdəkan, Maştağa, Məhəmmədi, Nardaran, Ramanı, Şağan, Şüvəlan kəndlərində inşa olunmuşdur. Onların arasında yalnız Mərdəkan (1187,1204), Ramanı (XIII), Nardaran (1301), Bilgəh (XIII) və Şağan (XII-XIII) kəndlərindəki qalalar bütövlükdə qorunub saxlanmışdır. Şamil Fətullayevin tədqiqatlarına görə, Qala (XIII-XIV), Buzovna (XII-XIII), Balaxanı (XIII-XIV) kəndlərində bu qalaların qalıqları qalmışdır, digər qalaların memarlıq-planlaşma, həcm-məkan xüsusiyyətləri haqda məlumatları tədqiqatçı arxiv materiallarına və yerli sakinlərlə söhbət əsnasında əldə etmişdir. Qalaların dislokasiyasını aparmış alim, onları planlaşdırma və həcm-məkan həllinə görə: düzbucaqlı və dairəvi donjonlu tipə bölmüşdür. Abşeronun tarixi kəndlərinin memarlıq siluetinin formalaşmasına təsir göstərən tikililər arasında müdaiə tikililərindən sonra, böyük həcm və memarlıq xüsusiyyətinə malik dini tikililər, müəllif tərəindən ikinci tip abidələr kimi qeydə alınmışdır. Dini binalar məzmununa görə daha ideoloji, memarlıq-konstruktiv baxımdan isə daha sanballı idilər. Alim onların kəndin quruluşunda, məhəllənin vacib elementi kimi hamamlar, ovdanlar kimi mülki tikililər üzərində dominantlıq edərək, müsəlman ənənələrinə əsaslanaraq bu tikililərlə qarşılıqlı əlaqədə olduğunu göstərmişdir. Şamil Fətullayev Abşeron məscidlərini xronoloji olaraq 5 dövrə bölmüş (XIV-XV, XVII-XVIII, XIX, XIX əsrin ikinci yarısı, XX əsrin əvvəli), plan kompozisiyası xüsusiyyətlərinə görə isə 7 tipdə təsnifləndirmişdir. “Abşeron memarlığı” monoqraiyasında müəllif, memarlıq tikililərinin 3-cü tipinə aid etdiyi hamamların yaşayış məntəqələrinin planlaşmasında və abadlaşmasında dini binalardan sonra daha aktiv rol oynadığını göstərməklə, onların gigiyena obyektləri olmaqla yanaşı, həm də çox funksiyalı təyinatını vurğulayır. Hər zaman islam dininin tələblərinə uyğun olaraq, dini tikililərin təsir zonasında yerləşən bu mülki tikililər məhəlli düyünlərin formalaşmasında çox zaman şəhərsalma faktoruna çevrilmişlər. Plan-kompozisiya xüsusiyyətlərinə görə müəllif hamamları 4 tipoloji təsnifata bölmüşdür. Bunlardan üçü XIX-XX əsrlərdə inşa olunmuş Avropa üslublu hamamları, III tip hamamlar isə orta əsrlərin Şərq üslublu “Qum” hamamlarını əhatə edir(Nardaran-1388, Maştağa-XVIII əsr, Bilgəh). Şamil Fətullayev-Fiqarovun Abşeron tədqiqatlarında

ovdanlar və karvansaraylar özünəməxsus yer tutur.Yarımsəhra ərazidə yerləşən Abşeron əhalisinin suya tələbatının ödənməsinə xidmət edən ovdanlar, yalnız yarımadaya məxsus özünəməxsus obyektlər kimi Azərbaycan memarlığı tarixində istisna bir hal kimi müəllif tərəindən qiymətləndirilir. Onlara yalnız kəndlərdə deyil, həmçinin kəndləri bir-birilə əlaqələndirən yollar boyunca, karvansaraların yanında və hətta əhalinin çox az olduğu uzaq yerlərdə, karvan yolları üzərində də təsadüf etmək mümkün idi. “Abşeron memarlığı” monoqraiyasında yer almış, mülki tikililərin ən əhəmiyyətli yerlərindən birini tutan karvansaraylar, əsasən ticarət yollarının üstündə və tarixi yaşayış yerlərində yerləşirdi. Alimin tədqiqat obyektinə çevrilmiş dövrümüzə gəlib çatmış karvansaraylar əsasən XIV-XVII əsrləri əhatə edir. Çoxsaylı karvansaraylar Şirvanşah I Xəlilullahın dövründə Bakı qalasında və yarımadanın müxtəlif kəndlərində inşa olunmuşdur. Fərqli planlaşma sistemli, müxtəlif motiv və üslublu karvansaraylar, daxili, qapalı həyətli (Sanqaçal, Miəcik) və nisbətən kiçik ölçülü, həcmi vahidlər (Balaxanı, Nardaran) kimi orta əsrlərdə öz həllini tapmışdır. Şamil Fətullayevun Abşeron memarlığında xüsusi əhəmiyyət verdiyi tikililərdən biri də, ilk dəfə elmi ədəbiyyatlarda müəllif tərəfindən işıqlandırılan dəvəliklərdir. Onun qeydlərinə görə dəvəliklər Buzovna, Maştağa, Bilgəh, Nardaran kəndlərinin ərazisində tikilsə də, hal-hazırda yalnız Güzdək kəndinin hər bir malikanəsində rast gəlinir. Tağ-tavan örtüklü bu mülki tikililər, öz böyük həcm-məkan həlli ilə yaşayış tikililərindən seçilirdi. Abşeronun xatirə tikililəri tarixi-memarlıq və bədii nöqteyi-nəzərindən çox böyük maraq kəsb etməklə Şamil müəllimin də nəzərindən kənarda qalmamışdır. Artıq min illər müxtəlif həcm-məkan kompozisiyasına, planlaşdırma traktovkasına və əhəmiyyətinə malik olan bu tikililər, zəngin mədəniyyəti göstərməklə tarixi dövlət haqqında məlumat verir. Xatirə memarlığının bariz nümunəsi olan türbələri, tədqiqatçı araşdırmalarına görə xronoloji olaraq 4 dövrə (XIV, XIV-XVII, XVIII və XIX-XX əsrlər), memarlıq-planlaşdırma baxımından hər biri fərdi inkişaf xüsusiyyətinə görə 5 qrupa bölmüşdür. Bu türbələrin ən maraqlısı birinci qrupa, orta əsrlərə təsadüf edən Buzovna (1306), Şağan (1320), Suraxanı (1400) türbələridir ki, bu tikililər xristian şəxslərə mənsub olaraq, hündür qaya üstündə inşa olunmuşdur. 4-cü qrupa daxil edilmiş türbələr pavilyon üslublu olub, atəşpərəstlərin cahartağını xatırladır. Bu qrupun bariz nümunələrindən olan Mərdəkandakı səkkizsütunlu Axund Əbuturab məqbərəsi M.Muxtarovun sifarişi ilə İ.K. Ploşko tərəindən layihələndirilmişdir. Məzmununa görə dünyəvi səciyyəli tikilidə daş divarlar öz əhəmiyyətini itirmişdir. Abşeron memarlığının tədqiqində akademik Şamil Fətullayev-Fiqarovun diqqətini çəkən və ilk dəfə onun tərəindən araşdırılması, memarlıq elminə yeniliyi ilə qədəm basan Abşeron villalları olmuşdur. Yarımadanın şimal sahilləri əlverişli iqlim xüsusiyətləri ilə neft milyonçularının diqqətini cəlb etmiş və bu

əraziləri özlərinin bağ sahələri kimi seçmişlər. Tədqiqatçı-alim naturada və arxiv materiallarına əsasən 23 villanın, onların sahiblərinin, villaların Qərbdən dəvət olunmuş memarlarının adlarını monoqraiyasında dərc etdirmişdir. Müəllif, bu villaların Bakı kəndlərinin, xüsusilə Mərdəkanın şəhərsalma inkişafındakı rolunu vurğulamaqla, M. Muxtarovun, H.Z. Tağıyevin, T.Aşurbəyovun, Ş. Əsədullayevin və s. neft milyonçularının bağ-villalarının baş planlarını, fotolarını təqdim edir. İlk dəfə olaraq, oxucunun gözü önündə nə vaxtsa (xüsusilə Sovet dönəmində) girişi qadağa olunmuş yeni tip memarlıq nümunələrinin səhifəsi açılmış olur. Şamil Fətullayev-Fiqarovun fədakar əməyi məhz onun həmin obyektləri tədqiq etməsindədir. Alimin daha bir fədakarlığı onun hər kəsin ehtiyatla yanaşdığı kapitalizm dövrü memarlığının tədqiqindədir. O, zamanından asılı olmayaraq orta əsrlərdən başlayaraq, Sovet dönəminə kimi Abşeronun müxtəlif tipli abidələrini tədqiq etmiş, ilk dəfə olaraq memarlıq elmində abidələrin təsnifatını işləmişdir. Şamil müəllim eləcə də müxtəlif tipli abidələrin hansı dövlət başçılarının dövründə, kim tərəindən sifariş olunmasını və ustad-memarların adlarını abidələr üzərindəki epiqraik kitabələrdən müəyyənləşdirmişdir.

**Nəticə.** Ümumiyyətlə fundamental tədqiqat işi olan bu monoqrafiya, baş planları, cizgiləri, fotoları, arxiv sənədləri ilə zəngin olmaqla, müəllifin silsilə monoqrafiyaları kimi oxuculara böyük hədiyyəsidir. Bu gün aramızda olmayan akademik, alim, həyatını memarlıq irsinin tədqiqinə həsr etməklə, Azərbaycanın XIX-XX əsrin əvvəlləri dövrünün ağ kağız vərəqi kimi qalmış səhifəsini sağlığında doldurmaqla, onu öz adıyla bağlamışdır.

## Ədəbiyyat.

1. Fətullayev-Fiqarov Ş., Abşeron memarlığı. Bakı,2013.

**Rahiba Aliyeva**

## Apsheron architectural heritage academic Shamil Fatullayevin as an object of research

The architecture of Absheron in Shamil Fatullayev-Figarov’s researches The article is dedicated to the formation of architectural and town-planning peculiarities of the architecture of Absheron depending on socio-economic, climatic and geographic signs in Shamil Fatullayev-Figarov’s investigations. Shamil Fatullayev

has studied military, civil, memorial structures and oil magnates' villas of the XIX-XX cc. in 24 from 39 villages of Absheron from the model and according to archive materials. His monograph "Architecture of Absheron" as a fundamental work includes the classiication, architecturalplanning, volumetric-planning, compositional structure of architectural heritage of Absheron at the beginning of the XX century as well as the information about architects and customers of these buildings. Shamil Fatullayev is the irst researcher of the architecture of the XIX-XX cc. Key words: Shamil Fatullayev-Figarov, architecture of Absheron, militarydefensive, religious, civil, memorial structures.

**Рахиба Алиева**

## Апшеронское архитектурное наследие как объект исследования академика Шамиля Фатуллаева

**Ключевые слова:** Аладемик Шамиль Фатуллаев-Фигаров, архитектура Абшерона, военно-оборонительные, религиозные, гражданские, мемориальные сооружения.

Статья посвящена формированию архитектурных и градостроительных особенностей Апшерона в зависимости от социально-экономических, климатических и географических признаков в исследованиях Шамиля Фатуллаев-Фигарова. Шамиль Фатуллаев изучил военные, гражданские, мемориальные сооружения и Апшеронские виллы нефтяных магнатов XIX-XX вв. в 24 из 39 сел Апшерона с натуры и по архивным материалам. Его монография «Зодчество Апшерона», как фундаментальный научный труд, включает в себя классификацию, архитектурно-планировочную структуру, объемно-планировочную и композиционную структуру архитектурного наследия Абшерона начала XX века, а также информацию об архитекторах и заказчиках этих зданий. Шамиль Фатуллаев-Фигаров является первым исследователем архитектуры периода XIX-XX вв.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası İSSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 20-23

**Самира Абдуллаева**

Институт Архитектуры и Искусства НАНА,
член корреспондент МААСВ,
профессор МААМ, доцент
memar_s@mail.ru

**УДК 72.01**

# ШАМИЛЬ ФАТУЛЛАЕВ-ФИГАРОВ — УЧЕНЫЙ С МИРОВЫМ ИМЕНЕМ

**Аннотация**: Статья освящается 95 летию выдающегося азербайджанского архитектора, известного ученого Ш.С. Фатуллаеву - Фигарову. Он провел огромную исследовательскую работу в области изучения истории архитектуры Азербайджана. Его труды являются настольными книгами современников, изучающих архитектору и градостроительство Азербайджана.

**Ключевые слова:** Шамиль Фатуллаев-Фигаров, ученый, исследователь, архитектор.

Известный ученый, президент Международной Академии Архитектуры Стран Востока, действительный член Национальной Академии Наук Азербайджана, член-корреспондент Международной Академии Архитектуры, действительный член Международного Конгресса по Турецкому Искусству Шамиль Сейфулла оглы Фатуллаев-Фигаров занимает особое почетное место среди историков и теоретиков архитектуры.

Ш.С. Фатуллаев-Фигаров родился 24 декабря 1928 года в Баку. Еще со школьных лет у него проявилась тяга к рисованию, любовь к искусству и архитектуре. Став студентом архитектурно-строительного факультета Азербайджанского Политехнического Института (1947 г.), Ш.С. Фатуллаев одновременно принимал участие в изучении и реставрации богатейшего наследия памятников зодчества Азербайджана. Годы работы в научно-реставрационной производственной мастерской стали решающими для становления его творческой индивидуальности и дальнейшей научной деятельности.

Для того периода архитектура Азербайджана эпохи капитализма была мало изучена. И Шамиль Сейфулла оглы Фатуллаев-Фигаров успешно защищает кандидатскую диссертацию на тему «Жилые дома в

застройке городов Азербайджана на рубеже XIX-XX вв.». Эта тема была выбрана не случайно. Отношение многих ученых к архитектуре указанного периода в бывшем Союзе было довольно пренебрежительное и не находили отражения в научных исследованиях.

В дальнейшем материалы этого фундаментального исследования легли в основу одноименной монографии «Градостроительство Баку XIX-начала XX века». Раскрыв закономерности градостроительного развития Баку, специфику его застройки, изучив и описав богатое архитектурное наследие  и творческую деятельность Бакинских зодчих, Ш.С. Фатуллаев значительно расширил и углубил тему исследования теории Азербайджанской архитектуры. «Реабилитация» архитектуры и искусства градостроительства Азербайджана этой эпохи прочно связана с именем Ш.С. Фатуллаева.  [1 с.34-36]

Этот ученый провел огромную исследовательскую работу в области изучения истории архитектуры Баку, сыграл значительную роль в выявлении многих архитектурных памятников, утвержденных в качестве государственных заповедников, а также реставрации памятников национальной архитектуры в Азербайджане.

В течение своей научной деятельности, Ш. Фатуллаев исследовал различные этапы развития истории азербайджанской архитектуры. В центре внимания ученого находилось исследование азербайджанских городов, в архитектурно-планировочной структуре которых в конце XIX — начале XX вв. произошли серьезные перемены. В своих трудах автор последовательно изложил развитие всей архитектурно-планировочной структуры Баку и других городов республики, дал подробный анализ формирования городских центров, основных магистралей, подробно описывая элементы объемно-пространственной структуры города и зеленой архитектуры.

Практически все его работы иллюстрированы не только редкими архивными фотографиями, а также его собственными сделанными с огромным мастерством рисунками.

Этот человек, влюбленный в историю, культуру и архитектуру, стал автором более ста публикаций, девяти монографий, посвященных основным архитектурным стилям и национальным архитектурным традициям. Среди них «Градостроение и архитектура Азербайджана в начале XIX-XX вв.», «Мечети Азербайджана», «Города Ирана эпохи Гаджаров», «Архитектура Абшерона» и др

Своими содержательными докладами по актуальным проблемам архитектуры и градостроительства он всегда достойно представлял азербайджанскую науку и культуру на престижных научных симпозиумах и конференциях. Он был поистине пропагандистом истории национальной архитектуры Азербайджана во всем мире.



.

**Рисунки Ш.С.Фатуллаева-Фигарова**

**Литература:**

1. Авалов Э., Творчество им научная деятельность профессора Ш. Фатуллаева-Фигарова, Проблемы искусства и культуры №2 (48), Баку, 2014
2. Tangudur S. Şamil Fətullayev-Fiqarovun həyatında memarlıq. 2010. Ege Basım/İstanbul.

**Samira Abdullayeva**

**Shamil Fatullaev-Figarov is a world famous scientist.**

**Key words:** Shamil Fatullaev-Figarov, scientist, researcher, architect.

The article is dedicated to the 95th anniversary of the outstanding Azerbaijani architect, famous scientist Sh.S. Fatullaev-Figarov. He carried out enormous research work in the field of studying the history of architecture of Azerbaijan. His works are reference books for contemporaries studying architecture and urban planning in Azerbaijan.

**Samira Abdullayeva**

## Şamil Fətullaev-Fiqarov dünya şöhrətli alim

**Açar sözlər**: Şamil Fətullayev-Fiqarov, alim, tədqiqatçı, memar.

Məqalə görkəmli Azərbaycan memarı, tanınmış alim Ş.S. Fətullayev-Fiqarov. O, Azərbaycan memarlıq tarixinin tədqiqi sahəsində çox böyük tədqiqat işləri aparmışdır. Onun əsərləri Azərbaycanda memarlıq və şəhərsalma sahəsində təhsil alan müasirlər üçün istinad kitablarıdır.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası İSSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 24-28

**Tamaşa İsayeva**

"Memarlıq abidələrinin qorunması
və bərpası problemləri" şöbəsi
elmi işçi

**UOT 72.01**

# ŞAMİL FƏTULLAYEV-FİQAROV TƏDQİQATÇI MEMAR, ALİM

**Xülasə:** Tədqiqatçı alim-memar Şamil Fətullayev təxəyyülünün məhsulunu yaradıcılıq fəaliyyətində işıqlandıraraq onu həyat tərzinə çevirərək yaşayanlardandır. Memarlıq irsimizi zənginləşdirən ayrı-ayrı memarlıq nümunələrinin struktur quruluşunu, forma məzmun bağlılığını, bədii obraz xüsusiyyətlərini məharətlə təhlil edərək onların bərpa problemlərinin həllində özünün faydalı töhvələrini vermişdir. Müəllifi olduğu bütün kitablarda alim Azərbaycan milli memarlıq irsimizin xarakterik çalarlarını əsas götürərək ona həssaslıyla yanaşaraq tədqiq etmişdir. Alim memarlıq abidələrinin dağıdılmasına,onların təhrif olunaraq yenidən bərpa olunmasına həmişə etirazını bildirmişdir, mütəxəssis bərpaçı memarların fikirlərinə hörmətlə yanaşaraq onları dəstəkləmişdir. Yüksək standartlara uyğun elmi əsərləri gənc tədqiqatçı alimlərin əsil elmi mənbəsi olmuşdur.

**Açar sözlər:** Şamil Fətullayev, memar, tədqiqatçı, memarlıq irsi, abidə, bərpa

Azərbaycan memarlıq irsinə və elminə yüksək dəyər verən, onu özünün yüksək səviyyəii tədqiqat işləri, fundamental elmi əsərləri ilə zənginləşdirən Şamil Fətullayev kimi mütəxəssislər Azərbaycanın memarlıq camiəsində özünəməxsus yer tutmuşdurlar.Tədqiqatçı alim-memar Şamil Fətullayev daim axtarışda olan, düşünən,təxəyyülünün məhsulunu yaradıcılıq fəaliyyətində işıqlandıran və onu həyat tərzinə çevirərək yaşayanlardandır. Ətrafındakı yaradıcı insanlarla ünsiyyətdə olaraq onların yaradıcı dünyalarına daxil olaraq həmin mühiti öz təxəyyülündən kecirərək kitablarında əks etdirmişdir. Memarın özünün söylədiyi kimi "Mən memarlıq şöbəsini təsadüfən seçməmişəm. Məktəbli ikən mən memar xalam qızının işlədiyi memarlıq emalatxanalarına baş çəkirdim və orada sonralar respublikanın tanınmış memarları olmuş Qəzənfər Əlizadəni, Ənvər Qasımzadəni, Hənifə Ələsgərovu, Həsən Məcidovu, Konstantin Sençixini, gənc və istedadlı Muxtar İmanovu, şəfiqə Zeynalovanı, Mövsüm Rəfilini və digərlərini görürdüm. Bu mühitdə hökm sürən güclü yaradıcılıq abu-havası gələcək memar kimi mənim formalaşmagıma öz təsirini göstərdi. Memarlıq irsimizi zənginləşdirən ayrı-

ayrı memarlıq nümunələrinin struktur quruluşunu, forma məzmun bağlılığını, bədii obraz xüsusiyyətlərini məharətlə təhlil edərək onların bərpa problemlərinin həllində özünün faydalı töhvələrini vermişdir.Azərbaycanın əksər bölgələrinin,əsasən Bakının və Abşeronun tarixi memarlıq abidələrinin bərpa işləri üçün tarixi,kartoqrafik materialların ölçülməsi ,onların müxtəlif aspektlərdən təsnifatı, çoxobrazlı kompozisiya fəndlərini və planlaşma həllərinə aydınlıq gətirmişdir. Ümumiyyətlə,tədqiqatçı alimin memarlığa yaradıcı münasibəti, zaman-zaman toplanmış olan yaradılıcıq təcrübəsi onun özünəməxsus dəsti xəttinin formalaşmasına səbəb olmuşdur. Şamil Fətullayev yalnız memarlıq elminin aparıcı alimlərindən deyil, eyni zamanda gənc memarların yaradıcı düşüncələrinə həssaslıqla yanaşaraq onların memarlıq mühitində mövqe tutmalarında yardımçı olan şəxsiyyətdir. Xüsusi ilə qeyd etmək lazımdır ki, bu gün Şamil Fətullayevin əvəzolunmaz əməyinin nəticəsidir ki, tarixin müxtəlif dörlərində zaman-məkan çərçıvəsində formalaşaraq inkişaf edən memarlıq abidələrimiz ayaqda qalmışdır. Şamil Fətullayev o insanlardandır ki,onun olduğu mühit insanlara çox müsbət təsir edərək yaratmağa,kreativ düşünməyə məcbur edir.Şamil Fətullayev özünün sanballı tədqiqat əsərləri ilə Azərbaycan memarlıq elmində mövcud olan böyük bir boşluğu doldurmuşdur.Onun “Abşeron memarlığı”, “Bakıda şəhərsalma XIX əsr vəXX əsrin əvvəllərində”, Bakının memarlıq ensiklopediyası”, “Qacarlar dövründə İran memarlığının və şəhərsalmasının inkişafı” və bir çox basqa əsərləri gələcək tədqiqatçı alimlər üçün sanki bir mayak rolunu oynayaraq onların bu sahədə inkişafına münbit şərait yaratmışdır. Dahi alimin fəaliyyəti yalnız elmi əsərlər yazmaqla tamamlanmamışdır,onun özünəməxsus üslubu ilə tarixi memarlıq abidələrimizi rəsmlərə çevirmişdir.

Xüsusi ilə qeyd etmək lazımdır ki, hər hansı bir abidənin və ya sıradan bir memarlıq nümunəsinin təhlili sadəcə onun texniki göstəricilərini və ya memarlıq xüsusiyyətlərini (özəlliklərini) sadalamaqla məhdudlaşmayan, daha geniş müstəvilərdə fərqli aspektlərdən baxılaraq xüsusi bir həssaslıq tələb edən məsələdir.

Bildiyimiz kimi memarlığın müxtəlif sahələrinin inkişafı üçün tələblər də fərqlidir. Buna baxmayaraq memarlıq nəzəriyyəsi,təcrübə və tədqiqat bir-biri ilə əlaqəli şəkildə aparılaraq eyni müstəvidə baxılarsa,tarazlıq və dayanıqlılıq daimi olar. Heç kəsə sirr deyil ki, Şamil Fətullayev üzərinə götürdüyü bu şərəfli vəzifənin böyük zövqlə,yaradıcı ruhla öhdəsindən layiqincə gələrək memarlıq camiəsində özünün mənəviyyəti və səmimiyyəti ilə yüksək status qazanmışdır.

 

Bildiyimiz kimi Bakı qədim şəhərlərdəndir.Onun haqqında fikir söyləmək özü böyük məəsuliyyət tələb edir.Alim özünün ” Bakıda şəhərsalma XIX əsr və XX əsrin əvvəllərində” Bakının şəhərsalma mərhələlərini tədqiqi, kapitalizm dörünün digər şəhərləri ilə ortaq cəhətlərinin olmasına baxmayaraq Bakının şəhərsalmasının inkişaf spesifikası, onun özünəməxsusluğu və bədii xüsusiyyətlərini çox ustalıqla göstərmişdir. “Abşeron memarlığı” əsərindəAbşeronda yerləşən yaşayış məntəqələrinin şəhərsalma strukturu tədqiq edilmiş, 71 məscid, 15-dən çox türbə,10 ovdan,Mərdəkan sarayları və nəhayət, Murtuza Muxtarovun, Şəmsi Əsədullayevin, Teymur bəy Aşurbəyovun, Kərbəlayı İsrafil Hacıyevin,Tağı bəy Səfərəliyevin, Məmməd bəy Xanlarovun vəbaşqalarının məşhur villalarını ölçü işlərini aparmış, onların təsnifatını müəyyənləşdirmişdir.Demək olar ki, müəllifi olduğu bütün kitablarda alimin Azərbaycan milli memarlıq irsimizin xarakterik çalarlarını əsas götürərək ona  həssaslıyla yanaşaraq tədqiq etmişdir. Tədqiqatçı alimin bu əməyi dövlətimiz daim diqqətində olmuş və ona elmdə ən yüksək dərəcə alan akademik adı layiq gördü. Məlumdur ki, Şamil Fətullayev Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun elmi müəssisə kimi formalaşmasında çox böyük əmək sərf edərək uzun illər  böyük korifeylərlə çiyin-çiyinə çalışaraq daim onlarla təmasda olmuş, elmi problemlərin həllində, yeni layihələrin hazırlanmasında öz tövhəsini əsirgəməmişdir.Eyni zamanda bir düddət institutun aparıcı vəzifəsi olan müdir kimi fəaliyyətini davam etdirmişdir. Ziyalı insanların ölkədə baş verən neqativ hallara qarşı fikir bildirməsi, cəmiyyəti maarifləndirməsi çox mühüm vəzifədir və Şamil Fətullayev bu vəzifənin öhdəsindən də layiqincə gələrək vətəndaş mövqeyini ortaya qoyaraq memarlıq irsimizə ögey münasibət göstərən insanlara daim qarşı çıxmışdır.Onların qorunmasını,müasir dövrün tələblərinə

uyğun olaraq funksiyasının verilməsini məqsədəuyğun saymışdır. Memar zaman-məkan çərçivəsində formalaşaraq, tarixin izlərini özündə yaşadan memarlıq abidələrinin dağıdılmasına,onların təhrif olunaraq yenidən bərpa olunmasına həmişə etirazını bildirmişdir, daima əsil tədqiqatçı, mütəxəssis bərpaçı memarların fikirlərinə hörmətlə yanaşaraq onları dəstəkləmişdir.

Xüsusilə qeyd etmək lazımdır ki, tədqiqatcı alim-akademik Şamil Fətullayev-Fiqarov eıə bir insanlardandır ki, onun barəsində yazmaq, söyləmək həm çox çətin, həm də çox şərəflidir.

ALLAH SİZƏ RƏHMƏT ELƏSİN, dahi insan.

**Ədəbiyyat:**


1. Fətullayev-Fiqarov Ş., Abşeron memarlığı .Azərbaycan Memarlar İttifaqı. 2013
2. Fətullayev-Fiqarov Ş., Bakıda şəhərsalma XIX əsr vəXX əsrin əvvəllərində. Azərbaycan Memarlar İttifaqı. 2013


**Tamasha Isayeva**

**Shamıl Fatullaev – Fıgarov, researcher, archıtect, scıentıst**

**Key words:** Shamil Fatullaev, architect, researcher, architectural heritage, monument, restoration.

Researcher-scientist-architect Shamil Fatullayev is one of those who, in his creative activity, illuminated the product of his imagination, turning it into a way of life. Skillfully analyzing the structural composition, the relationship between form and content, and the features of the artistic image of individual examples of architecture that enrich our architectural heritage, he made a fruitful contribution to solving the problems of their restoration. In all the books he wrote, the scientist studied the characteristic shades of our Azerbaijani national architectural heritage and approached it sensitively. The scientist always opposed the destruction of architectural monuments, their distortion, respected the opinions of restoration specialists and supported them. His high-level scientific works have become a kind of scientific source for young research scientists.

**Тамаша Исаева**

## Шамиль Фатуллаев – Фигаров, исследователь, архитектор, ученый

**Ключевые слова:** Шамиль Фатуллаев, архитектор, исследователь, архитектурное наследие, памятник, реставрация.

Исследователь-ученый-архитектор Шамиль Фатуллаев – один из тех, кто, освещаz свою творческую деятельность в свой образ жизни. Умело анализируя структурный состав, связь формы и содержания, особенности художественного образа отдельных образцов архитектуры, обогащающих азербайджанское архитектурное наследие, он внес свой плодотворный вклад в решение задач их реставрации. Во всех написанных им книгах ученый изучал характерные оттенки национального архитектурного наследия и чутко подходил к нему. Ученый всегда выступал против разрушения памятников архитектуры, их искажения, уважал мнения специалистов-реставраторов и поддерживал их. Его научные труды высокого уровня стали своеобразным научным источником для молодых ученых-исследователей.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası İSSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 29-35

**Elçin N. Əliyev**

AMEA-nın Memarlıq və İncəsənət İnstitutu
“Memarlıq abidələrinin qorunması
və bərpası problemləri” şöbəsi
elmi işçi

**UOT 72.01**

# FİQAROVLAR NƏSLİNİN LAYİQLİ NÜMAYƏNDƏSİ – GÖRKƏMLİ ŞƏXSİYYƏT AKADEMİK ŞAMİL FƏTULLAYEV FİQAROV

**Xülasə:** Məqalədə Azərbaycanın görkəmli alimi akademik Şamil Fətullayev Fiqarovun həyat və yaradıcılığı haqda məlumatlar öz əksini tapmışdır. Fiqarovlar ailəsinin layiqli davamçısı olan Şamil müəllim əsl ziyalı idi. O ömrünü elm üzərində qurmuş və ona sərf etmiş dahi bir şəxsiyyət idi. Şamil müəllim ətrafındakılara əsl insan obrazını aşılıyırdı. Elmi-yaradıcılıq fəaliyyətində ərsəyə gətirdiyi monumental əsərlər geniş oxucu auditoriyasının rəğbətini qazanmışdır. Bir çox memarlar və tədqiqatçı alimlər Şamil müəllimi özlərinin ustadı hesab etmişlər.

**Açar sözlər:** memarlıq, tədqiqat, yaradıcılıq, elmi əsərlər, rəssamlıq

Dahi şəxsiyyətlər haqqında danışmaq nə qədər qürurverici olsa da bir o qədər də bizlərdən böyük məsuliyyət tələb edir. Onları səciyyələndirən, adi insanlardan fərqləndirən əsas xüsusiyyətlər nədən ibarətdir? İnsanı şəxsiyyətə çevirən amillər hansıdır sualına cavab tapmaq üçün Şamil Fətullayev Fiqarov obrazına müraciət etmək kifayətdir. Bəzən insanın yaşam boyu əldə etdiyi hər hansı bir nailiyyəti onu dahiləşdirə, bütün dünyaya tanıda bilər. Lakin elə insanlar da var ki, onlar bir çox üstün cəhətləri ilə bizim təfəkkürümüzə əbədi həkk olunmuşlar. Şamil müəllim məhz bu qəbil insanlardan idi.

Şamil Fətullayev Fiqarov 24 dekabr 1928- ci ildə Bakı şəhərində keçmiş Abşeronski küçəsində yerləşən Fiqarovlara məxsus Bakının neft bumu dövründə inşa edilmiş monumental memarlıq nümunəsi sayılan üç mərtəbəli mülkdə dünyaya göz açmışdır. Bəlkə də bu möhtəşəm binanın əzəmətli divarları arasında uşaqlıq illərini keçirən balaca Şamil elə həmin memarlıq nümunəsinin ona bəxş etdiyi füsunkar gözəllikdən ilhamlanmış, qəlbində incəsənətə maraq yaranmışdı. Kiçik yaşlarından cücərməyə başlayan incəsənət sevgisi gələcəkdə görkəmli bir memarın ərsəyə gəlməsinə zəmin yaradacaqdır.

Mənim Şamil müəllimlə ilk tanışlığım 1992-ci ilə təsadüf edir. O zaman mən “Azərbaycan İnşaat Mühəndisləri İnstitutu”nun “Memarlıq” fakültəsində

təhsil alırdım. Tələbəlik illərinin sonuncu kursunda bizi müxtəlif layihə institutlarına praktikaya göndərirdilər. Elə həmin ildə məni "Azərbaycan Milli Elmlər Akademiyası"nın "Memarlıq və İncəsənət İnstitutu"nun "Müasir memarlıq şöbəsi"nə göndərmişdilər. O zaman həmin şöbənin müdürü Rəna xanım Əfəndizadə idi. Elmin və incəsənətin vəhdət təşkil etdiyi bir məkanda mən çox isti bir münasibətlə qarşılandım. Bu institutun ab-havası digər elmi tədqiqat ocaqlarından fərqlənirdi. Sanki özünü başqa bir sehrli aləmdə hiss edir insan. Bu məkanda özümü çox sərbəst və xoşbəxt hiss edirdim. Tanınmış incəsənət xadimlərinin, memarların arasında praktik təcrübə keçmək məni qürurlandırırdı. Həmin dövrdə "Müasir memarlıq şöbəsi"nin illik fərdi plan üzrə işi "Bakı şəhərinin köhnə məhəllələrinin rekonstruksiyası" layihəsi idi. Təsadüf elə gətirmişdir ki, mənim də təsdiq etdiyim diplom işim "Təzə pir məhəlləsinin rekonstruksiyası" layihəsi idi. Bəlkə də bu mövzu ilə şöbənin tədqiqatçılarının plan işi arasındakı paralellik mənə diplom işimi müvəffəqiyyətlə müdafiə etməyimə stimul verdi. Etiraf etməliyəm ki, gələcəkdə bu elm ocağında çalışmaq istəyi mənə əlçatmaz arzu kimi görünürdü. Hələ o zaman ağlıma belə gəlməzdi ki, bu arzu bir gün reallaşa bilər. Praktik təcrübəmi bitirib, bu məkandan ayrılmaq vaxtı gəlib çatdı. Məyus halda buranı tərk etmək məcburiyyətində idim. İnstitutu bitirdiyim il (1992) tələbələrin təyinatla ixtisas üzrə iş yerlərinə göndərilməsi prossesinə xitam verilmişdi. İxtisas üzrə iş tapmaq isə o qədər də asan deyildi. 1993-cü ilin aprel ayı idi. Hansı səbəbdənsə yolum yenə də "Memarlıq və İncəsənət İnstitutu"na düşdü. İnstitutun dəhlizi ilə irəliləyərkən Rəna xanım Əfəndizadə ilə qarşılaşdım. Bir az hal-əhval tutandan sonra işləyib- işləmədiyimi xəbər aldı. Mən hələ ki, müvafiq iş tapmadığımı söyləyəndə ani olaraq mənə sual verdi:

"-Elçin bizim institutda işləmək istəyərsən?"

Anidən verilən gözlənilməyən sual qarşısında donub qalmışdım.

"- Əlbətdəki istəyərəm.

- O zaman arxamca gəl."

Həmin illərdə Şamil müəllim "Memarlıq və İncəsənət İnstitutu"na rəhbərlik edirdi. Qeyd edim ki, Rəna xanımla Şamil müəllimin tələbəlik illəri eyni vaxta təsadüf etdiyi üçün bir-birlərinə ərklə yanaşırdılar.

Kabinetin qapısını açıb içəri girmək üçün izin istədi. İlk baxışdan qaraqabaq təəssüratı yaradan Şamil müəllim tez ayağa qalxıb gülümsəyərək "Buyurun, xoş gəlmisiz" deyə bizi kabinetinə dəvət etdi. Rəna xanım məni təqdim edərək institutda praktiki təcrübə keçdiyim, diplom işimi müvəffəqiyyətlə müdafiə etdiyim barədə məlumat verdi. Sonra isə Şamil müəllimdən məni işə götürməsi üçün xahiş etdi. Düzü, Şamil müəllimin verəcəyi cavab mənim üçün çox vacib idi. Lakin o ciddi vəziyyət alaraq cavab yerinə sualla Rəna xanıma müraciət etdi:

"Sənin şöbəndə işləməyinə razısansa, sabahdan əmrini verim."

Rəna xanım iki əlini havaya qaldıraraq "Əlbəttə, razıyam" deyə gülümsəyib məni təbrik etdi.



**Şəkil1. Şamil müəllim həmkarı Rəna Əfəndizadə ilə**

Həmin gün sevincimin həddi-hüdudu yox idi. Həm arzularım gerçəkləşmişdi, həm də görkəmli tədqiqatçı-memar ilə tanış olmuşdum.

Şamil Fətullayev Fiqarov ümumiyyətlə istər rəhbər, müəllim kimi, istərsə də dostluq münasibətlərində öz səmimiyyətini qoruyub saxlayan alimlərimizdən idi. Şamil Fətullayevin həyat və yaradıcılığı çoxşaxəli idi. O, tarix elminə yaxından bələd olduğu üçün elmi-tədqiqat işlərində araşdırma, təhlil etmək, nəticə çıxarmaq kimi məharətlərə malik idi. Tale belə gətirdi ki, bir neçə ildən sonra mən Şamil müəllimin şöbəsində fəaliyyətimi davam etdirməli oldum. Həmin illərdə Şamil müəllimi yenidən kəşf etməyə başladım. Daxili aləmi o qədər zəngin idi ki, ona müraciət edən insanlar özlərini fərqli bir aləmdə hiss edirdilər. Şamil müəllimin sitatları əbədi olaraq bizim hafizəmizdə yaşayacaqdır. Ən çox işlətdiyi cümləsi "Nə qədər sağam, soruşun." idi. Bir ömür boyu beynində cəmlənmiş elmi-informasiya xəzinəsini paylaşmaq, yeni nəslə əmanət qoymaq onun ən böyük səxavət göstəricisi idi.

Şamil Fətullayev Fiqarov hələ uşaq ikən mütaliə etmək məşğuliyyətini özündə formalaşdırmışdı. Doğulduğu evdə babalarından miras qalmış zəngin kitabxana onda kitaba qarşı böyük maraq oyatmışdı. Gələcəkdə isə özü bu kitabxananın zənginləşdirilməsində müstəsna rol oynayacaqdı. Şamil

müəllimlə aramızda olan münasibətlər zaman keçdikcə formasını dəyişməyə başlamışdı. İlk illərdə yalnız müəllim-tələbə, rəhbər-işçi münasibətləri getdikcə daha isti; dostluq, yoldaşlıq münasibətləri ilə əvəz olundu. Hər zaman belə bir insanın yanında olmaq mənə xüsusi zövq verirdi. Ondan öyrənmək, onun həyat təcrübələrinə yiyələnmək hər kəsə nəsib olmayan bir xoşbəxtlik idi.

Fiqarov soyadının tarixçəsini özünəməxsus yumor hissi ilə belə izah etmişdi: "Mənim ulu babam Hacı Zülfüqar bəy Dərbənddə yaşayıb. Çar rusiyası dövründə sərhəddi keçən zaman soy adlarını xüsusi kitabçaya qeyd edirmişlər. Babamdan adını soruşanda Zülfüqar bəy deyə cavab verib. Rus çinovniki hiddətlə,-Ne kakix Zül, ne kakix bek, pişi- Fiqarov!,-deyə qeydiyyata almışdılar. Repressiya illərində isə bizi Fiqarovlara qafşı hücumlardan qorumaq məqsədilə atam babamın adına uyğun olaraq Fətullayev soyadını rəsmiləşdirmişdi." Müstəqilliyimiz bərpa olunandan sonra o, hər iki soyadını istifadə edirdi.

Şamil müəllimi narahat edən daha bir məqam doğulduğu Fiqarovlara məxsus mülkün yaxınlığındakı küçənin hələ də Qubanov adlandırılması idi. Tale belə gətirir ki, müstəqillik illərində bir sıra küçə adlarının dəyişdirilməsi ilə bağlı təşkil olunan komissiyaya ekspert qismində Şamil müəllim də dəvət olunur. Aktual bir məsələni gündəmə gətirərək, Bakıda heç bir memarın adına küçə olmadığını vurğulayır. Təklif edir ki, Azərbaycanın ilk ali təhsilli memarı sayılan Zivər Bəy Əhmədbəyovun adının əbədiləşdirilməsi üçün müəllifi olduğu binaların yerləşdiyi Qubanov küçəsinə onun adı verilsin. Təklif yekdilliklə qəbul olunur və həmin küçənin Zivər Bəy Əhmədbəyov adlandırılmasına nail olur.

Şamil müəllimin professional yaradıcılığı beynəlxalq aləmdə ciddi qarşılanır və tanınırdı. Sovetlər dönəmində "Kapitalist dövrü memarlığı" haqda elmi iş yazmaq böyük cəsarət tələb edirdi. Kapitalist dövrünə olan maraq da onun uşaqlıq xatirələrinin məhsulu idi. Fiqarovların Bakı milyonçuları ilə təmasda olması ona bu mövzuya müraciət etməsi üçün zəmin yaratmışdı. Uşaq ikən böyüklərinin dilindən eşitdiyi maraqlı hadisələri cəmləşdirərək, gələcəkdə böyük əsərlər yaradacaqdı.

Şamil Fətullayev Fiqarovun tədqiqat işlərinə nəzər saldıqda onun nə qədər zəhmətkeş və iradəli olduğunu hiss etməmək mümkün deyil. Nəşr etdirdiyi kitabların geniş oxucu auditoriyasına hesablanması insanların maarifləndirilməsinə xidmət edir. Azərbaycanın memarlıq abidələrini dərindən tədqiq etməsi nəticəsində ərsəyə gələn əsərlər bu gün bir çox tədqiqatçı alimlərin istinad mənbəyidir. Məhz onun tərəfindən aparılmış memarlıq abidələrinin bölgüsü və təsnifatlandırılması bu gün həm tələbələrin, həm də tədqiqatçıların istifadə etdiyi qızıl ortadır. Şamil müəllimin çap olunmuş kitabları sırasında "XIX-XX əsrin əvvəllərində Azərbaycanda

Şəhərsalma və memarlıq", "XIX-XX əsrin əvvəllərində Bakıda Şəhərsalma", "Abşeron Memarlığı", "Bakının memarlıq ensiklopediyası" və s. manumental əsərlər yer almışdır. Akademikin elmi fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmırdı. O, eyni zamanda Azərbaycanda fəaliyyət göstərən Avropa memarlarının müəyyən olunması istiqamətində dəyərli tədqiqatlar aparmış və mühüm nəticələr əldə etmişdir. Məhz Polşa memarlarının müəyyən olunması istiqamətində apardığı tədqiqatlara görə Polşa xalqının qızıl medalı ilə təltif olunmuşdur.



**Şəkil 2. Şamil müəllim öz sevimli fotoaparatı ilə birlikdə**

Şamil Fətullayev Fiqarovun fitri istedadları silsiləsinə onun rəssamlıq qabiliyyəti də daxil idi. Adicə karandaşdan və yaxud diyircəkli qələmdən istifadə edərək möhtəşəm qrafik tabloları yarada bilirdi. Bu janrdan istifadə edən bir çox tanınmış rəssamlar mövcuddur. Lakin Şamil müəllimi onlardan fərqləndirən cəhət onu memar olması idi. Binaların fasadlarındakı ornamentləri dəqiqliklə təsvir etmək, perspektivaya dərindən bələd olmaq kimi üstünlüklər onu başqa rəssamlardan fərqləndirirdi. Şamil Fətullayev Fiqarov həm də fotoqrafik bacarığa malik idi. Baxış bucağının düzgün seçilməsi, işıq-kölgənin zaman vahidinin ustalıqla təyin edilməsi professional fotoların ərsəyə gəlməsində yardımçı olurdu.

Şamil müəllimin elmi-yaradıcı fəaliyyəti Dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir.

Ömrünün son illərini yaşayırdı. Ən böyük arzusu illərdən bəri üzərində çalışdığı "Qacarlar dövrü memarlığı" adlı monoqrafiyasının işıq üzü görməsi idi. Allah sevdiyi və seçdiyi bəndələrindən heç nəyi əsirgəmir. Onun son

arzusunun da reallaşmasına yardımçı oldu. Azərbaycan Memarlar İttifaqının təşəbbüsü ilə akademikin bütün kitabları, o cümlədən "Qacar dövrü memarlığı" da daxil olmaqla, bir neçə dilə tərcümə edilərək çap olunub oxucularına təqdim olundu.

Şamil müəllimin xatirəsi bizim qəlbimizdə həmişə yaşayacaq. Allah rəhmət eləsin!

## Ədəbiyyat:


1. Tangudur S. "Şamil Fətullayev Fiqarovun həyatında memarlıq" Bakı-2010
2. Fətullayev Fiqarov Ş. "XIX- XX əsrin əvvəllərində Bakıda şəhərsalma" Bakı 2013
3. Fətullayev Fiqarov Ş. "Abşeron memarlığı"


**Elchin N. Aliyev**

## A worthy representative of the Figarov generation - an outstanding personality academician Shamil Fatullayev Figarov

**Keywords:** Architecture, research, creativity, Scientific works, painting

The article contains information about the life and work of academician Shamil Fatullayev Figarov, a prominent scientist of Azerbaijan. Mr. Shamil, a worthy follower of the Figarov family, was a true intellectual. He was a genius who built his life on science and spent it on it. Teacher Shamil instilled a real human image in the people around him. The monumental works created by him in his scientific-creative activities have won the sympathy of a wide readership. Many architects and research scientists considered teacher Shamil to be their master

**Эльчин Н. Алиев**

## Достойный представитель рода Фигаровых – выдающаяся личность академик Шамиль Фатуллаев Фигаров

**Ключевые слова:** Архитектура, исследования, творчество, Научные труды, живопись.

В статье содержатся сведения о жизни и деятельности выдающегося ученого Азербайджана академика Шамиля Фатуллаева-Фигарова. Шамиль муаллим, достойный последователь семьи Фигаровых, был настоящим интеллигентом, построившим свою жизнь на науке и потратившим ее на изучение истории и архитектуры своей страны. Шамиль муаллим прививал окружающим людям настоящий образ человека-науки. Монументальные произведения, созданные им в ходе научно-творческой деятельности, завоевали симпатии широкой читательской аудитории. Многие архитекторы и ученые-исследователи считали его своим учителем.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası İSSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 36-41

**Lətifə Məmmədxanova**

Aərbaycan Memarlıq və İnşaat Universiteti,
baş müəllim
latifa.mammadkhanova@azmiu.edu.az

**UOT 72.01**

# ŞAMİL FƏTULLAYEV-FİQAROV XIX-XX ƏSRİN ƏVVƏLƏRİ MEMARLIQ İRSİNİN TƏDQİQATÇISI KİMİ

**Xülasə:** Azərbaycan memarlıq tarixinin XIX-XX əsr dövrlərinin ilk tədqiqi Şamil Fətullayev-Fiqarovun adı ilə bağlıdır.Görkəmli alim Şamil Fətullayev-Fiqarov kapitalizm dövrü memarlığının və şəhərsalma tarixinə çox ciddi yanaşmışdır. Başqa ölkələrin arxivlərində olan materiallar haqqında bu vaxta qədər heç kimə məlum olmayan bir çox işləri araşdırıb üzə çıxarmışdır. Tədqiqatçı-alim ilk dəfə olaraq yerli və Avropa memar və mühəndislərini tədqiq edərək onları elmə gətirmişdir.

**Açar sözləri:** Şamil Fətullayev-Fiqarov, XIX-XX əsrin əvvəlləri, şəhərsalma, saraylar,memarlar,mühəndislər.

Azərbaycan Dövlət mükafatı lauratı, əməkdar memar, memarlıq doktoru, professor,akademik Şamil-Fətullayev-Fiqarov əvəzedilməz bir alim-tədqiqatçı olmuşdur.Dərin elmi biliklərə malik olan alim 150-dən çox elmi tədqiqatların müəllifidir. “XIX-XX əsrin əvvələri Bakının şəhərsalma memarlığı” (1978); “XIX XX əsrin əvvələri Azərbaycan şəhərsalma və memarlığı” (1986); “Azərbaycan məscidləri” (1996); “Bakının memarlıq ensiklopediyası” (1998); “İran şəhərləri Qacarlar dövründə”(2000); “Abşeron memarlıgı” (2013); “Memar Məşədi Mirzə Qafar İsmayilov”(2013) monoqrafiyaları alimin fundamental tədqiqat əsərlərindəndir. Həmçinin elmi fəaliyyəti dövründə Şamil Fətullayev-Fiqarov aşağıdakı təltif və mükafatlara layiq görülmüşdür: “Azərbaycan SSR Dövlət mükafatı” (1988); “Şərəf nişanı” ordeni (1986); “Əmək veteranı” medalı (1989); “Azərbaycan SSR əməkdar memarı” fəxri adı (1979); “Şöhrət”ordeni(2000); İAAEC memarlığının inkişafrı sahəsindəki nailiyyətlərinə görə diplom(1999); Dizayn və memarlıq üzrə “Memarlıq mükafatı” (2005); Polşanın qızıl medalı. (2008).

Demək olar ki, Azərbaycan memarlıq tarixinin XIX-XX əsr dövrlərinin ilk tədqiqi onun adı ilə bağlıdır. Azərbaycan memarlıq tarixinin dünya miqyasında tədbiq olunmasında onun böyük xidmətləri olmuşdur. Görkəmli alim elmi fəaliyyəti dövründə müxtəlif ölkələrdə keçirilmiş beynəlxalq

konfranslarda, qurultaylarda iştirak etmiş və Azərbaycanı layiqincə təbliğ etmişdir. (şəkil1).

Vaxtı ilə tədqiqatçıların diqqətini cəlb etməyən, onlar üçün maraqsız sayılan kapitalizm dövrü memarlığı, tam əksinə olaraq Şamil Fətullayev-Fiqarovun marağına səbəb olmuşdur. Görkəmli alim XIX- XX əsrin əvvəlləri memarlığının tədqiqatçısı kimi İçəri şəhərin tarixi keçmişindən qaynaqlanır və araşdırmalara başlayır. O, XIX əsrin ikinci yarısından başlayaraq, şəhərin memarlıq-inşaat fəaliyyətində köklü dəyişikliklərin baş verdiyini qeyd edir. Bu dəyişikliklərin əsas səbəblərindən biri də neftdən gələn gəlirlər idi.




**Şəkil 1. Şamil Fətullayev-Fiqarovun qurultayda çıxışı**

XIX-XX əsrlərin dönəmində Bakı Cənubi Qafqazın zəngin təbii resurslarla, xüsusilə neftlə zəngin olan quru və dəniz nəqliyyat qovşağı idi. İri neft sənayesi, habelə sənayenin yardımçı şəhərlərinin yüksəlişi sayəsində Bakı ən yüksək sürətlə inkişaf edirdi. Bakı limanı Xəzər dənizində ən yaxşı liman, əlverişli buxta sayılırdı. Buxtalarla zəngin Bakı şəhərinin bir çox neft

maqnatlarının, milyonçularının çoxsaylı sifarişlərinin icrasını həyata keçirən yüksək ixtisaslı memar-inşaatçı, mülki mühəndisləri işə cəlb olunmuşdur.

1880-1914-cü illər arasında 25 il müddətində şəhərdə fundamental yaşayış evlərinin, sarayların, gəlir evlərinin, müxtəlif konsepsiyalı dini-ibadət binalarının, gözəl interyerli ictimai və mülki binaların inşası müşayət olunurdu.Bu inanılmaz idi. Bakı geniş inşaat meydanına çevrilmişdi. Mərkəzin məhəllələri inşa olunması, abadlaşdırılması, bank binaları, passajlar, teatrlar, inzibati binalar, su təchizatının qurulmasında memar və mülki mühəndislərin çox böyük zəhməti olmuşdur.XIX əsrin sonu XX əsrin əvvəllərinin memarlıq və şəhərsalmasının əhəmiyyətinin nəzərdən qaçırmayan tədqiqatçı-alim, Azərbaycanda dövrün memarlıgı və şəhərsalmasında mülki mühəndis və memrların ilk dəfə olaraq yaradıcılıgını tədqiq edərək, onları elmə gətirmişdir. O, yerli və Avropa memar və mühəndislərini:

Azərbaycan memar - mühəndisləri - Zivər bəy Əhmədbəyov (1873-1925 –ci illər), Qasım bəy Hacıbababəyov (1811-1874–cü illər), Məşədi Mirzə Qafar İsmayılov, Polşa memar- mühəndisləri – İosif Vikentyeviç Qoslavski (1865-1904-cü illər), İosif Kasperoviç Ploşko (1867-1931-ci illər), Kazimir Brunoviç Skureviç (1866-1950-ci illər), Yevgeni Yakovleviç Skibinski (1858-1919-ci illər), Alman memar-mühəndisləri – Nikolay fon der Nonne Avqustoviç (1834-1908-ci illər), İohan Vilhelm Edel (1863-1932 ci illər), Adolf Vilhelmoviç Eyxler (1869-1911-ci illər) və başqalarını xalqa tanıtmışdır. Onlardan ən fəalları Polşalı İ.V.Qoslavski, İ.K.Ploşko, Y.Y.Skibinski, K.B.Skureviç idi. Bu istedadlı memarların tikililəri Bakının əhəngdaşı ilə işləyən ustad bənnalarının sayəsində yüksək peşəkarlıq səviyyəsində inşa edilmişdir. İçəri şəhərdə binaların yarıdan çoxunu insa etmiş memarlar haqqında məlumat toplamışdır. Adları çəkilən memarlar Bakının inşasında məşhur memarlıq binaları ilə əhəmiyyətli izlər qoymuşlar.





**Şəkil 2. Milyonçu Murtuza Muxtarovun sarayı**

Milyonçu Murtuza Muxtarovun sarayı 1911-1912-ci illərdə memar İ.K. Ploşko tərəfindən layihələndirilmiş və inşa edilmişdir. (şəkil 2). Sarayın xarici görkəmi, fasadın detalları Fransız qotikası üslubunda tikilmişdir.

Polşalı İ.V.Qoslavskinin ən yaxşı nümunələri olan memarlıq əsərlərinin sifarişçisi milyonçu H.Z.Tagıyev idi. H.Z.Tağıyev sarayının müəllifi memar İ.V.Qoslavski idi. (şəkil 3). Binanın tikintisi üçün işlədilən insaat materialları Rusiya və Qərbi Avropadan gətirilmişdir.



**Şəkil 3. H.Z.Tağıyev sarayı**

Bu sarayların müəllifləri və digər memarlar layihələrində üzlük daşlarda adların qeyd olunmasına da yer ayırmışdılar.

Onların adları üzlük daşlarla işləyən usta Hacı Abbas, usta Hacı Xeyrulla və Məhəmməd-Hənifə, ağ üzlük daşyonan Usta Kərbalayı Mirzə (1855-1965-ci illər), Salman Atayev və Soltan, habelə interyerlərin tərtibatları Kərbalayı Məcid və Kərbalayı Sadıx idi. (şək.4) Tədqiqatçı alim Şamil Fətullayev – Fiqarovun axtarışları nəticəsində, əksəriyyət memar-mühəndislərin, bənnaların, ustadların adları aşkara çıxardılmış və bütun bunlari öz monoqrafiyalarında qeyd etmişdir. O, naturadan ölçü işləri aparır, dunyaca məhşur olan memarların əks etdirdikləri fasadlardakı proporsional bölgülər, kompozisiya üsulları, dəbdəbəli karnizlər onun məşğuliyyət mənbəyi idi. Hətta o, fasadlsrın, fraqmentlərin və detalların rəsimlərini çəkirdi.

Şamil Fətullayev-Fiqarovu özünün memarlıq və şəhərsalma tarixi ilə bağlı monoqrafiyalarında binaların planlaşma strukturu həllinin tipoloji təsnifatı metodunu çox dəqiq müəyyənləşdirilmişdir. Özünün üslub istiqamətlərinin eklektik və üslubları ilə, eləcə də kapitalizm dövru memarlığının və şəhərsalma tarixinin öyrənilməsi ilə bağlıdır.

Tikililər fərqli üsluba malik olub, şəhərin simasını formalaşdıran adi tikililər deyil, bu binalar Bakının mürəkkəb relyefli, dar küçəli məhəllələrindən ucalan fərdi memarlıq ifadəsinin düşünülmüş şəhəridir. Belə

ki, tarixi şəhərin ümumi plan-memarlıq quruluşuna daxil olan hər-bir tikili fəal bədii mövqeyə malikdir.




**Şəkil 4. Bina üzərində epiqrafik yazılar.**

Görkəmli alim Şamil Fətullayev-Fiqarov Bakıda geniş memarlıq-inşaat praktikasında, şəhərin məhəllələrini inşa edən memarlıq haqqında, eləcədə kapitalizm dövrü memarlığinin və şəhərsalma tarixinin öyrənilməsinə çox ciddi yanaşmışdır. Şamil Fətullayev-Fiqarova qədər heç kim XIX-XX əsrin əvvələrinə dair Bakıda şəhərsalmanın inkişafı və memarlığı ilə məşğul olmamış, tarixi mərhələlərini nəzərdən keçirə biləcək qədər geniş materiallar təqdim etməmişdir. Alim başqa ölkələrin arxivlərində olan materiallar haqqında bu vaxta qədər heç kimə məlum olmayan bir çox işləri araşdırıb üzə çıxarmışdır.Çoxillik iş prosesində monoqrafiyaları vasitəsilə bizə məlum olmayan materialları diqqətimizə çatdırmışdır.

Azərbaycan memarlıq və şəhərsalması tarixi üzrə yüksək səviyyəli,elmi biliyə malik olan Şamil Fətullayev-Fiqarov memarlığın klassiki hesab olunur. Bu günə qədər onun monoqrafiyaları yaradıcı insanlarin, tədqiqatçıların stolüstü vasitəsidir.

## Ədəbiyyat:


1. Ş.S.Fətullayev. XIX-XX əsrin əvvələri Bakının şəhərsalma memarlığı. Bakı 1978.
2. Ş.S.Fətullayev. XIX-XX əsrin əvvələri Azərbaycan şəhərsalma və memarlıgı. Bakı 1986.

**3.** Sevinc Tangudur. Samil Fətullayev-Fiqarovun həyatında memarlıq. Bakı 2010.
**4.** Şamil Fətullayev. https//az.wikipedia.org
**5.** Bakı memarları https//acıqkitablaraztc.gov.az

**Latifa Mammadkhanova**

## Shamil Fatullaev-Figarov about the architectural heritage of the early XIX-XX centuries as a researcher.

**Key words:** Shamil Fatullaev-Figarov, early XIX-XX centuries, urban planning, palaces, architects, engineers

The first studies of the history of architecture of Azerbaijan in the 19th-20th centuries are associated with the name of Shamil Fatullayev-Figarov. The outstanding scientist Shamil Fatullaev-Figarov took the architecture of the capitalist era and the history of urban planning very seriously. He researched and revealed a lot about materials in the archives of other countries that were previously unknown to anyone. For the first time, a research scientist studied the activities of local, European architects and engineers and attracted them to science.

**Латифа Маммедханова**

## Шамиль Фатуллаев-Фигаров об архитектурном наследии начала XIX-XX веков как исследователь.

**Ключевые слова:** Шамиль Фатуллаев - Фигаров, начало XIX-XX веков, градостроительство, дворцы, архитекторы, инженеры.

Первые исследования истории архитектуры Азербайджана XIX-XX связаны с именем Шамиля Фатуллаева-Фигарова. Выдающийся ученый Шамиль Фатуллаев-Фигаров очень серьезно подошел к архитектуре капиталистической эпохи и истории градостроительства. Он исследовал и раскрыл многое о материалах, находящихся в архивах других стран, которые до сих пор никому не были известны. Впервые ученый-исследователь изучил деятельность местных, европейских архитекторов, инженеров и привлек их к науке.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası İSSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 42-47

**Nigar Ramazanova**

AMEA Memarlıq və İncəsənət İnstitutu
“Memarlıq abidələrinin
qorunması və bərpası problemləri” şöbəsi
kiçik elmi işçi

**UOT 72.01**

# ŞAMİL FƏTULLAYEV-FİQAROV ƏVƏZOLUNMAZ ALİM

**Xülasə:** Əvəzolunmaz tədqiqatçı alim, memar Şamil Fətullayevin həyat və yaradıcılıq fəaliyyətini araşdırdıqca onun nə qədər mənalı, mənəvi zəngin, özünəməxsus yüksək bədii keyfiyyətə malik olan ömür yolu keçdiyinin şahidi oluruq. Alim akademikin fundamental elmi əsərləri, demək olar ki, ölkəmizin bütün bölgələrində, xüsusi ilə Bakı və Abşeronda tarixi memarlıq abidələrimizin üzərində apardığı tədqiqat işləri Azərbaycan memarlıq irsinin zənginləşməsində çox böyük əhəmiyyət kəsb etmişdir. İçəri Şəhərin və Bakının tarixi memarlıq abidələrini dərindən tədqiq edərək onları memarlıq ensklopediyası kimi əbədiləşdirdi. Samil Fətullayevin tarixi kecmişimizdən faydalanaraq illərlə topladığı təcrübə, bədii və yaradıcı düşüncəsi gələcək tədqiqatçı memarların,bərpaçıların da köməyinə çatmışdır. Dahi alim,tədqiqatçı mütəxəssis, bərpaçı memarlıq memarlıq aləmində özünəməxsus imzasını qoymışdur.

**Açar sözlər:** Şamil Fətullayev, əvəzolunmaz memar, tədqiqatçı, yaradıcılıq fəaliyyəti, abidə, bərpa.

2023-cü il dekabr ayının 24-də memarlıq irzimizə yüksək dəyər verən və ondan qaynaqlanaraq yaradıcı fəaliyyəti ilə onun inkişafında əvəzolunmaz rolu olan Şamil Fətullayev-Fiqarovun 95 yaşı tamam olur. Əvəzolunmaz tədqiqatçı alim, memar Şamil Fətullayevin həyat və yaradıcılıq fəaliyyətini araşdırdıqca onun nə qədər mənalı, mənəvi zəngin, özünəməxsus yüksək bədii keyfiyyətə malik olan ömür yolu keçdiyinin şahidi oluruq.Memar akademik Şamil Fətullayev adı onun həm yaradıcı təcrübə-memarıq, həm də elm-memarlıq sahəsində olan əvəzolunmaz fəaliyyətini göz önünə gətirir. Alim akademikin fundamental elmi əsərləri elm-memarlıq sahəsində elmi tədqiqatla məşğul olan bütün tədqiqatçıların və gələcək tədqiqatçı alimlərin istinad mənbəsi olmuşdur. Onun “Abşeron memarlığı”, “Bakıda şəhərsalma XIX əsr vəXX əsrin əvvəllərində”, “Bakının memarlıq ensiklopediyası”, “Bakı memarları XIX əsrin sonu-XX əsrin əvvəlində”, “Qacarlar dövründə İran

memarlığının və şəhərsalmasının inkişafı” və s. bir çox başqa fundamental elmi əsərləri elm-memarlıq aləminə verdiyi qiymətli töhvəsidir. (**şək. 1)**




**Şəkil – 1 Şamil Fətullayev-Fiqarovun elmi**

“Bakının memarlıq ensklopediyası” əsərində İçəri Şəhərin, Bakının tarixi şəhərsalma strukturunun və memarlığının inkişafının təkamül prosesini ustalıqla tədqiq etmişdir. “Bakı yalnız təbii-coğrafi mövqeyi vəilkin orta əsrlərdən XX əsrin əvvəllərinə qədərkecdiyi tarixi inkişaf yolu, Şərq və Qərbbədii mədəniyyətlərinin qovuşduğu nadir məkan kimi tanınmır. Bu şəhər-unikal memarlıq fenomenidir. Bu məkanda yerli memarlıq ənənələri, yüksək inşaat mədəniyyəti, xalq arasından çıxmış peşəkar memarların birgə yaradıcılığından qaynaqlanan özünəməxsus bədii sistem təşəkkül tapmışdır. Belə bir sintez məcmu halında məzmuna, həcmi həllinə siluetinə görə fərqlənən çox gözəl tikililər ərsəyə gətirmişdir.”( Bakı memarları XIX əsrin sonu-XX əsrin əvvəlində. Səh. 3). Şamil Fətullayev demək olar ki, İçəri Şəhərin və

Bakının tarixi memarlıq abidələrinin, onların səhərsalma strukturunun bütün xarakterik xüsusiyyətlərini, tikilmə tarixlərini, üslublarını, memarlarını mümkün olduğu qədər bu əsərində işıqlandıra bilmişdir. Azərbaycan memarlıq tarixinin XIX-XX əsr dövrlərinin tədqiqi məhz onun adı ilə bağlıdır. Azərbaycan memarlığı və şəhərsalma tarixi üzrə dərin elmi biliklərə malik olan Ş.Fətullayev öz elmi məktəbini yarat-mış-dır. Əlbəttə belə yanaşma Azərbaycan memarlıq irsinin zənginləşməsində çox böyük əhəmiyyət kəsb etmişdir. Tədqiqatçı memarın qrafik cizgilərlə işlədiyi İçəri Şəhərin forştadla birgə planı, Bayıl qalasının planı və bir çox başqa cizgiləri onun tədqiqat işlərinə nə qədər həssaslıqla yanaşdığını sübut edir. (**şək. 2) Şəkil**-Şamil Fətullayevin “Bakı memarları XIX əsrin sonu-XX əsrin əvvəlində” əsərində adından da göründüyü kimi Bakının memarlıq obrazının formalaşmasında müstəsna rolları olan memarların yaradıcı fəaliyyətləri öz əksini tapmışdır. “Bakı 1880-ci ildən 1914-cü ilə qədər olan 25 il ərzində vahid memarlıq – planında sanki birnəfəsə tikilmişdir. Şəhərin bütün tarixi məhəllələri, baş

magistral yolları qədim İçəri Şəhərin ətrafında formalaşmışdır.Qasım bəy Hacıbababəyov, Zivər bəy Əhmədbəyov, E. Y. Skibinski, İ. V. Qoslavski, A. S. Kandinov, A. Konşinski, F. Lemkul, İ. Ploşko, N. V. Tverdoxleb, K.B. Skureviç, N. A. fon der Nonne, P. Ştern, İ. Edel, A. Eyxler və başqalarından ibarət olan memarlar pleyadası yerli sifarişçilər və H. Z. Tağıyev, Musa Nağıyev. Şəmsi Əsədullayev, İsa bəy Hacınski, Teymur bəy Aşurbəyov və başqa neft maqnatlarının sayəsində şəhərin memarlıq palitrasını yaratmışlar" (Bakı memarları XIX əsrin sonu-XX əsrin əvvəlində. Səh. 4). Bu memarların müxtəlif üslublarda, daha çox klassik üslubda inşa etdiklərləri inzibati, dini tikililərin, yaşayış binalarının və başqa təyinatlı tikililərin fotoşəkilləri, memarın dəstixətti ilə işlənmiş plan və kəsik cizgiləri əsərin bədii tərtibat həllini daha da zənginləşdirmişdir. Şamil Fətullayevin memarlıq elminə bəxş etdiyi bütün əsərləri dəyərli və əvəzolunmazdır.Qeyd etmək lazımdır ki, tədqiqatçı alim yalnız Bakı və Abşeronun minillərlə formalaşan səhərsalma struktur quruluşunu, tarixi memarlıq abidələrinin tədqiqi ilə deyil, demək olar ki,ölkəmizin əksər bölgələrinin memarlıq irsi nin tədqiqi ilə məşğul olmuşdur. Bütün əsərləri tədqiqatçı memar alimin yaradıcı ruhunun təzahürüdür.Özünün yaradıcılıq fəaliyyətində memarlıq aləminə xas olan bütün incəlikləri dərindən analiz etmiş, üzərinə düşən öhdəlik və vəzifəni tam mənada dərk edərək təcrübə toplamış və bunu əsərlərində paylaşmışdır.Alimin memarlıq aləminə belə bir aspektdən yanaşması onun tədqiqatlarının yüksək zəkanın məhsulu olduğuna dəlalət edir. Bir sözlə, Dahi alim, tədqiqatçı mütəxəssis, bərpaçı memarlıq memarlıq aləmində özünəməxsus imzasını qoymışdur.

26 aprel 1988-ci ildə "XIX əsr və XX əsrin əvvəlində Azərbaycanda






**Şəkil-2. İçəri Şəhər Forştatla Bayıl Qalasının planı**

şəhər tikintisi və memarlığı" kitabı üçün Azərbaycan Dövlət mükafatı ,1986-

cı ildə"Şərəf nişanı" ordeni , 1989-cu ildə 25 apreldə "Əmək veteranı" medalı, 5 dekabr 1979-ci il əməkdar memar fəxri adı, 19 aprel 2000-ci ildə "Şöhrət" ordeni,16 yanvar 1999İAAEC arxitekturanın inkişafı sahəsindəki nailiyyətlərinə görə diplomu, Dizayn və memarlıq üzrə "Memarlıq mükafatı − 2005" diplomu, 2008-ci ildə Polşanın qızıl medalı və s.kimi təltiflər onun bu əməyinin mükafatıdır.Sonda dövlətimiz memar alimə Azərbaycan Milli Elmlər Akademiyasının akademiki kimi ən yüksək ada layiq görmüşdür. Ş.Fətullayev 2014-cü ildə həqiqi üzvü seçilmişdir.
Memar, eyni zamanda demək olar ki,çoxlu sayda memarlıq abidələrinin rəsmlərini özünəməxsus qrafik üslubda işləmişdir. (ş**ək. 3)**





**Şəkil-3. Ş.Fətullayevin rəsmləri**

## Ədəbiyyat:


1. Fətullayev-Fiqarov Ş., Abşeron memarlığı .Azərbaycan Memarlar İttifaqı**. 2013**
2. Fətullayev-Fiqarov Ş., Bakıda şəhərsalma XIX əsr vəXX əsrin əvvəllərində. Azərbaycan Memarlar İttifaqı**. 2013**
3. https://az.wikipedia.org/wiki/Şamil_Fətullayev
4. https://science.gov.az/az/forms/skonchavshiesya-deystvitelnyie-chlenyi/2616

**Nigar Ramazanova**

## Shamil Fatullaev-Figarov is an indispensable scientist

**Key words:** Shamil Fatullayev, irreplaceable architect, researcher, creative activity, monument, reconstruction

As we explore the life and creative work of the invaluable researcher, scholar, and architect Shamil Fatullayev, we bear witness to the profoundly meaningful, spiritually rich, and uniquely artistic journey he traversed. The academic's fundamental scientific works, particularly his research on the historical architectural monuments in various regions of our country, most notably in Baku and Absheron, have played a pivotal role in enriching the architectural heritage of Azerbaijan. Through his in-depth research

of the historical architectural monuments in Baku's Inner City and throughout Baku, he has immortalized them as an architectural encyclopedia. Shamil Fatullayev's experience gathered over the years using our historical past, along with his artistic and creative thinking, has proven to be of great assistance to future researchers, restorers, and architects. This brilliant scholar, researcher specialist, and architectural restorer has left his unique mark on the world of architecture.

**Нигяр Рамазанова**

## Шамиль Фатуллаев-Фигаров незаменимый ученый

**Ключевые слова:** Шамиль Фатуллаев, незаменимый архитектор, исследователь, творческая деятельность, памятник, реконструкция

Исследуя жизнь и творческую деятельность незаменимый ученого и архитектора Шамиля Фатуллаева, мы становимся свидетелями глубокого и значимого пути, который он прошел, обогатив свою жизнь духовно и обладая уникальными художественными качествами. Фундаментальные научные работы этого академика, в частности его исследования искусства архитектуры исторических памятников в различных регионах нашей страны, особенно в Баку и Апшероне, имели решающее значение для обогащения архитектурного наследия Азербайджана. Через глубокие исследования исторических архитектурных памятников в Ичеришехер и по всему Баку, он вечно запечатлел их как

архитектурную энциклопедию. Опыт, накопленный Шамилем Фатуллаевым на протяжении многих лет, используя наше историческое прошлое, в сочетании с его художественным и креативным мышлением, оказал огромную помощь будущим исследователям, реставраторам и архитекторам. Этот выдающийся ученый, исследователь-специалист и архитектурный реставратор оставил свой уникальный след в мире архитектуры.

**Rahibə Əliyeva**

AMEA-nın Memarlıq və İncəsənət İnstitutu
BMA-nın professoru, ŞÖBMA-nın müxbir üzvü,
memarlıq doktoru,
rahibe_eliyeva@mail.ru

**Şənər Rzayev**

memarlıq üzrə fəlsəfə doktoru,
dosent

**UOT 72.01**

# AZƏRBAYCAN MILLI ELMLƏR AKADEMIYASINDA MEMARLIQ İRSİNİN TƏDQİQİ TARIXINDƏN

**Xülasə.** Məqalədə orta əsrlərdən XX əsrin əvvəllərinə kimi Azərbaycanın mədəni irsinə olan maraq işıqlandırılmaqla, AMEA-nın yaranmasında ilkin rüşeym rolunu oynamış və 1923-cü ildə yaradılmış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaranması, onun inkişafı ilə Memarlıq və İncəsənət İnstitutunun 1945-ci ildə Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli tərəfindən təsis edilməsindən bəhs olunur. İnstitutun fəaliyyəti dövründə M.Useynov, S.Dadaşov, Ə.Salamzadə, İ.Bretanitskiy, Ş.Fətullayev, N.Rzayev və s. adları ilə bağlı olan ölkənin memarlıq irsinin elmi və bərpa işləri araşdırılır.

**Açar sözlər:** Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti, Dövlət Elmi Tədqiqat İnstitutu, AMEA, memarlıq irsi, tədqiqat, memarlar.

**Giriş**.Azərbaycan mədəniyyətinin- ədəbiyyat, musiqi, xalçaçılıq və digər dekorativ incəsənət növlərinin orta əsrlərdə çiçəklənməsi onun dünya əhəmiyyətinə qədər yüksəlməsinə səbəb olmuşdur. Bu sözləri bütünlüklə Azərbaycanın qədim və orta əsrlərin unikal tarixi abidələrinə də aid etmək olar. Hələ orta əsrlərdə Azərbaycana səyahət etmiş tacirləri, səyyahları, coğrafiyaşünasları bu ölkənin mədəni irsi, memarlıq abidələri də cəlb edirdi. İtalyan səyyahı Marko Polo (XII əsr), X əsr ərəb səyyahları İstəxri və İbn Haqvəl, XIII əsr flamand səyyahı rahib Rubrik Vilehelm, XIV-XV əsrlərdə yaşamış Şərqin tanınmış səyyahı, coğrafiyaşünas və astronomu Əbdürrəşid Bakuvi Azərbaycanın təbii şəraitindən, onun son dərəcə zəngin maddi nemətlərindən bəhs edərək çoxlu məlumatlar vermişlər.

Görkəmli türk səyyahı Evliya Çələbinin (1646-1666) Azərbaycanda keçirdiyi günlərini "Səyahətnamə" adlı kitabında qeydə almışdır. Kitabda XVII əsr Azərbaycanının tarixi, coğrafiyası, ölkədəki siyasi durum, əhalisi, onun məşğuliyyəti, məişəti barədə qiymətli bilgilər öz yerini tutur. Evliyanın səyahət yolu qədim Azərbaycan torpaqlarından - Urmiyədən başlamış Naxçıvan, İrəvanı keçməklə, Təbrizə, Bakıya uzanır. Bir çox səyahətçinin qeydlərində - E. Kempfer (XVII əsr), S. Qmelin (XVIII əsr), P. I Lerx (XIX əsr) - Şirvanşahlar saray kompleksi qeyd olunur. Avropalı səyyahlar E. Kempfer, P.Vilot və başqalarının qeydlərində atəşpərəstlərin Suraxanıda yerləşən Atəşgah məbədindən də bəhs edilmişdir.

XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın zəngin mədəni irsi məşhur rus və xarici elm xadimlərini və səyahətçilərinin tədqiqatlarını təqdim edir. L.Yankovskinin "Qədim Qafqaz Albaniyası haqda" (1846), F.Bayern "Qafqazda qədim tikililər haqda" (1871), N.Karaulovun "Ərəb yazıçılaının Qafqaz, Ermənistan və Aərbaycan haqda məlumatları" (1903), İ.Lerxin " Bakıya səyahət" (1790), İ.Berezinin "Dağısatan və Zaqafqaziyaya səyahət" (1849), A. Jukovskinin "Bakının nəşr olunmamış qədim əşyaları" (1859), B.Dornun "Qafqaza və Xəzər dənizinin cənub sahillərinə səyahətinin hesabatı(Azərbaycanın abidələri haqda)(1864), Q. Caneridzenin " Yeni Tağıyev teatrı"(1909), O.Abuyevin "Bakıda Xan evi" (1917), V.Silosaninin "Bakıda qədim abidələr" (1921), Y.Paxomovun "Bakının Şirvanşahlar sarayı" (1924) və s. misal göstərmək olar. XIX əsrin ikinci yarısından etibarən xarici mütəxəssislərin iştirakı ilə kəşfiyyat xarakterli arxeoloji tədqiqat işləri, habelə tarixi-memarlıq dəyərə malik tikililərdə təmir-yenidənqurma işləri aparılmışdır. Arxeoloji tədqiqat işləri əsasən Naxçıvanda, Bərdə şəhəri xarabalıqlarında, Xaraba-Gilanda, Qəbələdə və s. aparılmışdır.Tarixi-memarlıq dəyərə malik abidələrimizdən olan Şamaxıdakı "Cümə" məscidində əsrin əvvəllərində Z.Əhmədbəyov və Y.Ploşko tərəfindən bərpa-yenidənqurma işləri aparılmışdır. Həmin dövrlərdə diqqətin az olması və elmi-baxışın zəif olması səbəbindən tarixi-memalıq dəyərə malik tikililərdəki işlər elmi tədqiqatlara əsaslandırılmadan aparılırdı. 1920- ci ilə kimi respublikamızda abidələrdə tələb olunan səviyyədə tədqiqat, bərpa-konservasiya işləri aparılmamışdır.

**Tədqiqat**. 1923-cü ilə kimi hələ də Azərbaycanda elmi mərkəz mövcud olmamışdır. Məhz bu məqsədlə, elmin vahid bir mərkəzdən idarə olunması üçün 1923-cü ildə Nəriman Nərimanovun təşəbbüsü iə Bakıda Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti — onun təbii sərvətlərini, iqtisadiyyatını, tarixini, fəlsəfəsini, incəsənətini və s. öyrənən elmi mərkəz yaradılaraq, 1929-cu ilədək fəaliyyət göstərmişdir və 1925-ci ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin tabeliyinə verilmişdir. Respublika ərazisini planlı və hərtərəfli tədqiq etmək üçün Naxçıvan MSSR (Naxçıvanı Tədqiq və Tətəbbö

Cəmiyyəti), DQMV və qəza mərkəzlərində cəmiyyətin şöbələri yaradılmışdır. Cəmiyyətin mövcud olduğu illərdə memarlıq irsinin tədqiqi əsasən tarixçi-arxeoloqlar Y. Paxomov (1924), Meşşaninov, V.Sısoyev (1925), A.Fituni (1927), Nasifi-Aleksandroviç (1927), S.Aşurbəyli (1930) və s. tərəfindən Bakının Şirvanşahlar sarayı və Qız qalasına həsr olunmuşdur.

Qeyd etmək lazımdır ki, memar-tarixçi, şərqşünas alim Şeblıkin memarlıq irsinin tədqiqinin əsasını qoymuşdur (Nizami dövrü Azərbaycan memarlıq abidələri-1940-cı il) İlk dəfə O, Niyazi Rzayevlə birlikdə bölgələrə səfər etmiş, abidələrin rəsmlərini çəkmişdir.

1925-ci ildə Cəmiyyət Azərbaycan hökumətinin sərəncamına verildi. 1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yenidən təşkil edilərək Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu (DETİ) adlandırıldı. Azərbaycanda elmi tədqiqatların yüksək səviyyədə aparılmasını və inkişaf etdirilməsini, elmi və elmi-xidmət müəssisələrinin işinin səmərəliliyinin yaxşılaşdırılmasını təmin etmək məqsədilə 1932-ci ildə Azərbaycan DETİ əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi təşkil edildi, 1935-ci ilin oktyabrında şöbə SSRİ EA Azərbaycan Filialına çevrildi. Filialın nəzdində mövcud bölmələr əsasında Kimya, Botanika, Zoologiya və Tarix, Etnoqrafiya və Arxeologiya, Dil və Ədəbiyyat elmi tədqiqat institutları, habelə Energetika, Fizika, Geologiya, Torpaqşünaslıq sektorları yaradıldı.

1945-ci ildə böyük Azərbaycan bəstəkarı, akademik Üzeyir Hacıbəyli tərəfindən Memarlıq və İncəsənət İnstitutu yaradılmış və ilk dövrlər Azərbaycan İncəsənət Tarixi İnstitutu adlandırılmışdır, institut M.Useynov və S. Dadaşov tərəfindən layihələndirilmiş hazırkı Ədəbiyyat muzeyinin binasında yerləşmişdir.1948-ci ildən 40 il ərzində İnstituta məşhur memar, akademik Mikayıl Useynov rəhbərlik etmişdir.

AMEA Memarlıq və İncəsənət İnstitutu özünün mövcudluğunun inkişafı tarixində bütün elmi potensialını Azərbaycan xalqının sənəti və estetik dünyagörüşünün tam mənzərəsinin yaradılmasına yönəltməyə çalışmış, XX əsrin 1950-60- cı illərindən başlayan memarlıq irsinin tədqiqi 1990-cı illərə kimi pik həddinə çatmışdır. Bu işin icra olunmasının birinci mərhələsində Mİİ-nin kollektivi tərəfindən "Azərbaycan memarlıq tarixi" (Moskva, 1963), "Bakının memarlıq abidələri" (Moskva, 1946), "IV-XVIII əsrlərdə Azərbaycan memarlığı" (Moskva, 1948), «Azərbaycan memarlıq abidələri» (Bakı, 1958), "Əcəmi Naxçıvani" (Bakı, 1976), "Azərbaycanın tarixi şəhərlərinin qorunması və rekonstruksiyası problemləri" (Bakı, 1979), "XIX – XX əsrin əvvəli Azərbaycanın şəhərsalma və memarlığı" (Leninqrad, 1986), "Nizami dövrü abidələri" və s. kimi elmi tədqiqatların nəticələri kimi dərc olunmuşdur.Sözügedən nailiyyətlər akademiklər Mikayıl Hüseynov,

Əbdülvahab Salamzadə, Şamil Fətullayev, professor Sadıq Dadaşov, İ.Bretanitskiy, N.Rzayev, Roza Salayeva, Elturan Avalov, Kamil Məmmədzadə, Kamal Məmmədbəyov, AMEA-nın müxbir üzvü Cəfər Qiyasi, Rizvan Bayramov və s. alimlərin adları ilə bağlıdır.

1952-1991-ci illərdə aparılmış bərpa-konservasiya işlərinin elmi əsaslarla, kompleks şəklində aparılmasının əsası qoyulmuşdur. Həmin illərdə "Xüsusi Elmi-Bərpa İstehsalat Emalatxanası"nın yaradılması işin başlanğıcı idi. Emalatxanaya ilk olaraq alim L.Bretanitskiy, sonralar isə Cəfər Qiyasi rəhbərlik etmişdir.İlkin olaraq 100-ə qədər abidədə, o cümlədən Bakıda memar Niyazi Rzayevin layihəsi əsasında "Şirvanşahlar Sarayı Kompleksi"ndə və Şəki Xan sarayında, həmçinin Naxçıvanda "Mömünə Xatun", "Yusif Kuseyir oğlu" və "Qarabağlar" türbələrində, Mərdəkandakı Düzbucaqlı və Dairəvi qəsrlərdə, Ramana qəsrində, Bərdə türbəsində, Mərəzədə Diri Baba türbəsində və s. tədqiq olunmuş digər əhəmiyyətli abidələrdə bərpa işləri aparılmışdır. İlkin olaraq dəqiq tədqiqat işləri aparılmış abidələrin bərpa layihələri hazırlanırdı. Lazım gəldikdə, tədqiqat işləri yenidən davam etdirilirdi. Əvvəlki illərdə aparılmış ölçü işlərindən fərqli olaraq, indiki ölçü işləri bərpa işlərinin aparılması məqsədilə aparıldığından, daha dəqiqlik tələb edirdi. 1952-1991-ci illərdə respublika ərazisində yerləşən 850-dən çox abidədə elmi-tədqiqat,layihələndirmə işləri, onların bir qismində bərpa, konservasiya və yenidənqurma işləri aparılmışdır.

Архитектура Кавказской Албании известна большим числом строений, насыщенных геометрическим элементами. В статье указано на то, что здания и сооружения этого периода, построенные из известкового камня, имели богатое архитектурное убранство.

**Zərnaz İmanzadə**

AMEA Memarlıq və İncəsənət İnstitutu
elmi işçi,
BMAM-ın professoru
zarnaz.imanzade @yahoo.com

**UOT 728.03**

# ŞUŞADA MEHMANDAROVLARIN EVİ – DÜNƏN VƏ BU GÜN

**Annotasiya:** Şuşanın qədim yaşayış evləri həm xalq memarlığının qiymətli nümunələri kimi, həm də vaxtilə bu şəhərdə yaşayıb yaratmış azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinə memorial abidələr kimi ikiqat əhəmiyyətə malik olub, xalqımızın milli sərvəti olan digər abidələr arasında xüsusi yer tuturlar. Böyük qayıdışla əlaqədar Şuşanın dircəlişi, orada olan abidələrimizin bərpası və onlara ilkin simalarının qaytarılmasının böyük əhəmiyyət kəsb etdiyi bu günlərdə Şuşanın yaşayış evlərinin öyrənilməsi və bərpası problemləri hər zaman olduğundan daha aktualdir. Məqalədə Şuşa yaşayış evlərinin ən maraqlı nümunələrindən biri olan Mehmandarov qardaşlarına məxsus yaşayış kompleksinin memarlıq xüsusiyyətləri qısa şəkildə nəzərdən keçirilir, Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş təmir-bərpa işləri haqında danışılır.

**Acar sözlər:** Şuşa, yaşayış evləri, memarlıq, bərpa, tarixi abidə

Məlum olduğu kimi, Şuşanın qoruq zonası Azərbaycan şəhərsalma sənətinin dövrümüzə qədər gəlib çatmış unikal nümunələrindən biridir və onun memarlığı Azərbaycanın memarlıq tarixində əhəmiyyətli yerə malikdir. Şuşanın planlaşma və tikinti mühitinə tam orqanik şəkildə daxil olan coxsaylı abidələr onların müxtəlifliyi və xüsusiyyətləri şəhəri azərbaycan mədəniyyətinin beşiyi adlandırmağa imkan verir.

XVIII-XIX əsr memarlığının bu gözəl nümunələri heç də onlardan az maraq kəsb etməyən ciddi bir mühit ilə - onların fonuna çevrilmiş, şəhərin inkişafının müxtəlif mərhələlərində formalaşmış məhəllələrdə tikililərin əsasını təşkil edən yaşayış evləri ilə əhatə olunmuşlar. Şuşanın qədim yaşayış evləri həm xalq memarlığının qiymətli nümunələri kimi, həm də vaxtilə bu şəhərdə yaşayıb yaratmış azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinə memorial abidələr kimi ikiqat əhəmiyyətə malik olub, xalqımızın milli sərvəti olan digər abidələr arasında xüsusi yer tuturlar.

Böyük qayıdışla əlaqədar Şuşanın dircəlişi, orada olan abidələrimizin bərpası və onlara ilkin simalarının qaytarılmasının böyük əhəmiyyət kəsb etdiyi bu günlərdə Şuşanın yaşayış evlərinin öyrənilməsi və bərpası problemləri yenə də həm dövlətimizin, həm də memar və sənətşünasların diqqət mərkəzindədir. Bu baxımdan Şuşanın ənənəvi yaşayış evlərinin memarlıq və planlaşma həlli barədə elmi məlumatlar, onların bərpası üçün təkliflər şəhərin dirçəlişi ilə məşğul olan bərpaçı memarlar, şəhərin memarlığını araşdıran tədqiqatçı alimlər, eyni zamanda Şüşa ilə maraqlanan sıravi oxucular üçün böyük maraq kəsb edir və onların tədqiqi bu gün hər zaman olduğundan daha aktualdir. Bu gün bu fəaliyyət daha intensiv olmalı, yaşayış evlərinin tarixinə, memarlıq simasına aydınlıq gətirən yazılar həm ölkəmizdə, həm də xarici informasiya vasitələrində çap olunmalıdır.

Şuşanın yaşayış evlərinin ən gözəl nümunələrindən biri də Mehmandarov qardaşlarına məxsus yaşayış kompleksidir.

XIX əsrdə Təzə məhəlləsində F.b.Köçərli küçəsində sərt relyefdə inşa edilmiş Mehmandarov qardaşlarına (Səməd bəy və Kərim bəy Mehmandarovlar) məxsus saray tipli malikanə kompleksi Şuşanın ölkə əhəmiyyətli abidələrindən biridir. (inventar **№-si: 347)** Bu kompleks qapalı həyətdə yerləşdirilmiş böyük yaşayış evi, kiçik yaşayış evi, ailə məscidi və bulaqdan ibarətdir. Bu evlər Azərbaycan yaşayış evlərinə xas olan bütün ənənələri özündə qoruyub saxlayaraq, müxtəlif texniki, konstruktiv və planlaşma fəndləri, memarlıq elementlərinin istifadə edilməsi yolu ilə özünə məxsus bir sima əldə etmişlər. (şək.1, 2, 3)




**Şəkil-1,2 Mehmandarovların məlikanəsinin əsas binası fasad, plan, kəsik, baş plan**




**Şəkil-3 Mehmandarovların məlikanəsinin əsas binası fasad, Ş. Fətullayev**

Planda kvadrat formada olan böyük yaşayış evi iki mərtəbəlidir. 2-ci mərtəbədəki 4 otaqdan 3-ü binanın arxa hissəsindəki verandaya, 4-cü - erkerli ziyafət zalı isə əsas fasada açılır. Veranda sütunlar vasitəsi ilə dörd bərabər aşırıma bölünür. Mərtəbələr arasında əlaqə binanın yan fasadında yerləşən taxta pilləkən vasitəsi ilə həyata keçirilir. Bu veranda və pilləkən binaya yüngüllük bəxş edir. Ev küçə fasadının çox maraqlı və səciyyəvi həlli ilə nəzəri cəlb edir. Birinci mərtəbədə yerləşən giriş portalı–alaqapı və erker fasadın kompozisiyasında mühüm rol oynayır. Pəncərə açırımları binaya xüsusi yaraşıq verir. Simmetrikliyin olmamasına baxmayaraq, evin əsas fasadı hissələrin harmonikliyi təəssüratını yaradır. Memar məhdud yerli inşaat imkanları şəraitində müxtəlif tikinti elementləri və konstruksiyalarından bacarıqla istifadə edərək binanın bədii ifadəliliyinə nail olmuşdur.

Binanın memarlığında geniş pəncərələr vasitəsiylə yaxşı işıqlandırılmış və usta Qəmbər tərəfindən zəngin bəzədilmiş qonaq zalı xüsusi yer tutur. (şək.4, şək.5) Bu evdə tavan bütöv kompozisiyalı boyalı təsvirlərlə bəzədilmişdir. Boyalı təsvirlər suvaq uzərində icra olunaraq tavanın bütün səthini əhatə edir.

2-ci evdə tavanın səthi kiçik kvadrat sahələrə bölünür və bu sahəciklər isə ayrı-ayrılıqda boyalı təsvirlərlə bəzədilir. Bu evin tavanı kvadrat sahəciklərin boyalı təsvirlərlə bəzədilməsinin yeganə nümunəsidir. Burada ayrı-ayrı kvadrat sahəcikləri dolduran təsvirlər bitki, həndəsi fiqurlardan, yaxud bunların qarışığından təşkil olunmuş və müxtəlif kompozisiya ququluşlarına malik olan qonçalardan (rozetka) ibarətdir.





**Şəkil-4,5 Mehmandarovların məlikanəsində divar və tavan bəzəkləri**

Ailə məscidinin interyerləri də Qənbər Qarabaği tərəfindən çəkilmiş və Şəki xan sarayındakı divar rəsmlərini xatırladan rəsmlərlə bəzədilmişdir.




**Şəkil-6 Ailə məscidinin baş fasadı və planı**




**Şəkil-7 Ailə məscidinin kəsiyi və baş planı**

Sovet dövründə bu evdə xalça muzeyi yerləşirdi. Məscid və bulaq isə digər məhəllə bulaqlarının oxşarıdır. (şək.6, 7)

Çox təəssüflə qeyd etmək lazımdır ki, 30 ilə yaxın erməni işğalı dövründə, yalnız Azərbaycan memarlıq tarixində deyil, həm də dünya memarlıq tarixində xüsusi yer tutan, özünə məxsus siması, kompozisiya prinsipləri olan, haqqında danışdığımız bu yaşayış evləri, dağıdılıb tökülərək yararsız hala salınmışdılar. (şək.8)



**Şəkil-8 Mehmandarovların məlikanəsi işqal**

Lakin böyük qələbəmizdən dərhal sonra azad edilmiş torpaqlarımızda, o cümlədən Şuşa şəhərində abidələrimizin, mədəni-tarixi irsimizin bərpa edilməsi, yenidən qurulması işlərinə start verildi. Dövlət başçısının 7 may 2021-ci il tarixli sərəncamına əsasən, Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi olan Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. “Azərbaycanın mədəniyyət paytaxtı-Şuşa şəhəri haqqında” 31 may 2021-ci tarixli Qanununda Şuşa şəhərinin ərazisində abidələrin bərpası, qorunması, öyrənilməsi, istifadəsi və təbliği ilə bağlı müddəalar öz əksini tapdı.

Şuşadakı bir sıra abidələrlə yanaşı Mehmandarovların da yaşayış kopleksində 2021-ci ildə bərpa işlərinə başlanıldı. Əvvəlcə ərazidəki ailə məscidi və bulaq təmir-bərpa edilərək, bulağın damı əvvəlki vəziyyətinə qaytarıldı. 2022-ci ilin sentyabrında İlham Əliyevin kompleksdə bərpa işləri ilə tanışlığı zamanı bulaq istifadəyə verildi.

Yaşayış evlərində isə bərpa işləri davam etdirilərək yalnız 2023-cü ildə başa çatdı. (şək.9, şək.10) Kompleksə daxil olan evin və məscidin dam örtükləri yeniləndi, tavanlar bərpa edildi. Malikanə kompleksinin dağılmış

divarı bərpa olundu, zədəli divarda bərkitmə işləri aparıldı. Evin döşəmə daşlarının dağılmış yerləri, pilləkən yenidən quruldu. Divar və tavandakı rəsmlər eskiz layihələri üzrə bərpa edildi. Məscidin güldəstəsi əvvəlki vəziyyətinə gətirildi. Hətta yaşayış evinin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edildi.

2023-cü ilin may ayının 9-da Mehmandarovların malikanə kompleksinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışı baş tutdu. Açılışda Respublikamızın Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak etdilər.

Görülmüş işlərdən sonra malikanə kompleksində XIX əsrin sonu – XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin xüsusiyyətləri əsas götürülərək "Qarabağ zadəganının evi" mövzusunda muzey ekspozisiyası tərtib edilmişdir. (şək.11,12,13,14) Ziyarətçinin özünü XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşamış azərbaycanlı zadəganının evindəki kimi hiss etməsi üçün otaqlar, 150-dən çox antiq əşyadan istifadə etməklə, o dövrün eksponatları ilə, XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid interyer qaydalarına uyğun tərtib edilmişdir.




**Şəkil-9, 10 Mehmandarovların məlikanəsi bərpadan sonra**



**Şəkil-11 Ailə məscidinin interyeri bərpadan sonra**



**Şəkil-12 Ziyafət zalının interyeri bərpadan sonra**





**Şəkil-13,14 Mehmandarovların məlikanəsinin interyerləri bərpadan sonra**

Bərpa zamanı bina, onun bədii simasına, tarixi interyerinə, dekor elementlərinə xələl gətirmədən, komfort şəraiti təmin edə biləcək texniki sistemlərlə təchız olunmuşdur.

Binanın həyətyanı sahəsində yaşıllaşdırma işləri aparılmışdır. Bütün bunlar ona dəlalət edir ki, dövlətimizin qayğısı nəticəsində Şuşa yaşayış evlərinin bərpası və qorunub saxlanılmasındakı yeni dinamika, onun tarixi yaşayış evlərinə yeni həyat bəxş edir, onların müasir həyat infrastrukturuna orqanik şəkildə daxil olmalarına köməklik edir, insanların qarşısında yeni-yeni qapılar açır. Bu isə, öz ata-baba yurdlarından didərgin düşmüş məcburi köçkünlərin qayıtmasına şərait yaratmaqla bərabər, Şüşanı sayı gündən-günə artan turistlər üçün daha da maraqlı və cəlbedici etməklə şəhərdə turizmin inkişafına şərait yaradır.

## Ədəbiyyat:


1. Авалов Э.В. Архитектура города Шуши. – Б., 1977
2. Salamzadə Ə.V., Ə.Ə.Sadıqzadə, XVIII-XIX əsrlərdə Azərbaycanda yaşayış
binaları, Bakı, 1961
3. Фатуллаев Ш.С., Градостроительство и архитектура Азербайджана XIX- начала XX века, Л.Стройиздат, 1986
4. https://az.wikipedia.orq/wikiMehmandarovlar
5. az.wikipedia.orq/wiki/Usta Qənbər_Qarabaği

**Zarnaz Imanzade**

## The Mehmandarovs' house in Shusha – yesterday and today

**Keywords:** Shusha, residential buildings, architecture, restoration, historical monument

The ancient residential buildings of Shusha, as valuable examples of folk architecture and as memorial monuments to outstanding representatives of Azerbaijani culture who once lived and worked in this city, have a double meaning. Nowadays, in connection with the great return, when the revival of Shusha, the restoration of our monuments there and the return of their original appearance, the problems of studying and restoring residential buildings are of great importance and very relevant. The article briefly examines the architectural features of the residential complex of the Mehmandarov brothers - one of the most interesting examples of residential buildings in Shusha. It also talks about the repair and restoration work carried out by the Heydar Aliyev Foundation in this complex.

**Зарназ Иманзаде**

## Дом Мехмандаровых в Шуше – вчера и сегодня

**Ключевые слова:** Шуша, жилые дома, архитектура, реставрация, исторический памятник.

Старинные жилые дома Шуши, как ценные образцы народной архитектуры и как мемориальные памятники выдающимся представителям азербайджанской культуры, некогда жившим и творившим в этом городе, имеют двойное значение. В наши дни, в связи с великим возвращением, когда возрождение Шуши, восстановление там наших памятников и возвращение им их первоначального облика, проблемы изучения и восстановления жилых домов имеют большое значение и весьма актуальны. В статье кратко рассмотрены архитектурные особенности жилого комплекса братьев Мехмандаровых – одного из интереснейших образцов жилых домов Шуши. В ней также речь идет о ремонтно-восстановительной работе, проводимой Фондом Гейдара Алиева в этом комплексе.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası İSSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 92-97

**Nigar Ramazanova**

"Memarlıq abidələrinin qorunması
və bərpası problemləri" şöbəsi
kiçik elmi işçi

**UOT 72.03**

# QARABAĞ MEMARLIĞININ TƏKAMÜL YOLU

**Xülasə:** Azərbaycanın ayrılmaz guşəsi olan Qarabağ bəşər sivilizasiyasının ilkin nümunələrinə rast gəlinən ən önəmli coğrafi məkanlardan biridir. Azıx, Tağlar mağaralarında aparılan tədqiqat işləri bu faktı sübut edir. Antik və Orta əsrlərdə Albaniyanın ən inkişaf etmiş vilayətlərini özündə birləşdirən Qarabağ bölgəsində tarixin müxtəlif dövrlərinə aid olan abidələr mövcuddur. Qarabağda mədəniyyətin inkişafını izləyərkən sahid oluruq ki,müxtəlif təyinatlı tikililərin yüksək bədii tərtibatını təsdiqləyən memarlıq abidələri 30 illik müharibənin dağıdıcı təsirinə məruz qalmışdir.

**Açar sözlər:** Qarabağ, memarlıq, tarixi abidə, inkişaf yolu, müharibə

Heç kəsə sirr deyil ki, bəşər sivilizasiyasının ilkin nümunələrinə rast gəlinən ən önəmli coğrafi məkanlardan biri də məhz Qafqaz bölgəsidir. Azərbaycanın ayrılmaz guşəsi olan Qarabağ bu baxımdan xüsusi əhəmiyyətə malikdir . İnsan övladının yaşaması üçün mülayim və münasib təbii şəraitə və zənginliklərə malik bu ərazidə paleolit dövrünə aid ilkin insan məskənləri aşkar edilmişdir. Ümumiyyətlə Qarabağ bölgəsində tarixin müxtəlif dövrlərinə aid olan abidələr mövcuddur.

Qarabağda Azıx, Tağlar mağaraları, Xocalı kurqanları, Babadərviş, Qaraköpəktəpə yaşayış yerləri və s, abidələr Azərbaycan arxeoloqları tərəfindən tədqiq edilmişdir. Bu tədqiq edilən abidələr, Qarabağda mövcud olan abidələrin demək olar ki, cüzi hissəsidir. Yaxın zamanda işğaldan azad edilmiş ərazilərimizdə yeni-yeni abidələrin tədqiqinə başlanılacaq.

Qarabağ əraziləri Antik və Orta əsrlərdə Albaniyanın ən inkişaf etmiş vilayətlərini özündə birləşdirirdi. Bu ərazilərdə xristian dövrünə aid çoxlu sayda memarlıq abidələri mövcud olub. Bundan əlavə Qarabağ ərazisində çoxlu sayda qalalar, qəsrlər inşa edilmişdir. Təəssüf ki, uzun illər işğala və talana məruz qalan bu ərazilərə məxsus abidələrin bir çoxu dağıdılmışdır. 30 illik işğal dönəmində Azərbaycan tarixi irsində mühüm yerə malik abidələrin dağıdılması planlı və məqsədyönlü şəkildə həyata keçirilmişdir. Əlbəttə ki,

işğal qüvvələrinin törətdikləri barbarlıq aktları sadəcə talan məqsədi daşımırdı. Burada əsas məqsəd tarixi təhrif etmək və Qarabağ bölgəsini süni şəkildə erməniləşdirmək idi. Əlbəttə ki, erməni işğalçıları bu məqsədə çatmaq üçün əsas əngəli, yəni Azərbaycan İslam memarlıq nümunələrini dağıtmaq, onları yer üzündən silmək istəyirdilər. Tariximizin ən önəmli və qədim səhifələrindən olan Alban mədəniyyəti və memarlıq nümunələri isə mütləq "erməniləşdirilməli" idi. Bu "erməniləşdirmək" əməliyyatının məqsədi hər kəsə məlum olduğumdan bu barədə çox danışmaq fikrində deyiləm.

İslam dininin Qafqaza doğru ekspansiyasından əvvəl bu coğrafiyada xristian dini geniş yayılmışdı. Əlbəttə ki, Azərbaycan ərazisində xristian məbədləri, kilsələri və s inşa edilmişdi. "Ərəb işğallarının başlanması ilə VII əsrin ortalarında Azərbaycan Ərəb Xilafətinin tərkibinə daxil oldu. İslam dininin yayılması ilə əlaqədar Azərbaycanın xristian əhalisi dağlıq zonalara çəkilməyə məcbur olub. Bu səbəbdən Qarabağın dağlıq əraziləri xristianlığın mərkəzinə çevrildi". Bu mövzuda tarixçi alimlərin kifayət qədər böyük və əhəmiyyətli araşdırmalarının olduğu hər kəsə məlumdur.

Azərbaycanın xilafətin tərkibinə qatılması onun sosial-iqtisadi və siyasi həyatında böyük dəyişikliklərə səbəb oldu. İslam dini tədricən Azərbaycanın bütün ərazilərinə yayılmaqda idi. Şübhəsiz ki, bu proses memarlıq sahəsinə də öz təsirini göstərməkdə idi. İslam dininin təsiri ilə Azərbaycan memarlığında yeni üslub, tikinti texnikası meydana gəldi. Yeni memarlıq nümunələrində əvvəllər formalaşmış yerli memarlıq ənənələrinin təsiri aydın sezilməkdə idi. Qarabağda mədəniyyətin inkişafını izləyərək aşkar edirik ki, arxeoloji qazıntıların nəticələri müxtəlif tikililərin yüksək bədii tərtibatını təsdiqləyir. Məsələn, kapitellərin künclərində qoç başlarının təsviri, Laçında, Qubadlıda, Xankəndidə, Şuşada, Ağdamda, Bərdədə tapılmış kolonnaların əsaslarının bədii tərtibatı xristian və bütpərəst memarlığının elementlərini özündə əks etdirir. Bunların analoqlarına Azərbaycanın Qəbələ, Mingəçevir, Təzəkənd, Şamaxı digər abidələrində də rast gəlinir.

XI-XII əsrlərdə Azərbaycan memarlığında Şirvan-Abşeron və Naxçıvan, Marağa məktəblərinin yaranma prosesi başladı. Əlbəttə ki bu proses yeni memarlıq nümunələrinin meydana gəlməsinə səbəb oldu. Qarabağ memarlığında bu məktəblərin hamısının təsiri özünü göstərir. Belə ki, burada çiy kərpic, bişmiş kərpic, əhəngdaşı, çay daşı və qarışıq materiallardan istifadə edilərək memarlıq nümunələri inşa edilməkdə idi. Qafqaz Albaniyasının tərkib hisssəsi olan Aşağı və Yuxarı Qarabağ ərazisində xristianlıq dövrünə aid bir çox abidələr var. Bu abidələr həm Azərbaycanda İslamdan öncə, yəni VII əsrdən əvvəl, həm də XII-XIII əsrlərdə -intibah dövründə tikilib.

Füzuli ərazisində Şeyx Yaqub türbəsi (XII əsr), Qoç Əhməd kəndində Cümə məscidi, Əhmədalılər kəndində Hacı Ələsgər məscidi, Mir Əli məscidi və XIV əsrə aid olan digər məbədlər, Babı kəndində yerləşən səkkiz guşəli Şeyx Babi Yaqub (XIII əsr) türbəsi, və digər abidələr buna sübutdur. Bir çox

tarixçilərin fikrinə görə tikilmə tarixinə görə ən qədim binalardan biri Füzuli bölgəsinin Şıxbabalı kəndindəki türbədir, Abidənin üzərindəki kitabədən onun 1272-ci ildə tikildiyi aydınlaşır. Bu türbə səkkizbucaqlı, yuxarısı çatmatağ şəkilli günbəzlə örtülüb.

Erməni vandallarının təcavüzünə məruz qalaraq dağıdılan qiymətli abidələrdən biri də Füzuli rayonu ərazisində yerləşən Qaraköpəktəpədir. Burada ilk araşdırmalar həvəskar alman arxeoloqu E.A.Resler, ondan sonra isə Rusiya İmperator Arxeoloji Cəmiyyətin üzvü A.A.İvanovski tərəfindən aparılıb. Təəssüf ki, adını qeyd etdiyimiz arxeoloqların tədqiqatları əsaslı bir nəticə verməmişdi.

1964-cü ildə arxeoloq Qüdrət İsmayılzadənin rəhbərliyi ilə burada əsaslı tədqiqatlar başlayır. Arxeoloji qazıntılar 80-ci illərin sonlarınadək davam etdirilir. Q.İsmayılzadənin tədqiqatları Qaraköpəktəpə haqqında təsəvvürləri köklü şəkildə dəyişdi. Aparılan arxeoloji tədqiqatlar abidənin e.ə. V minillikdən b.e XVIII əsrinə kimi yaşayış yeri olduğunu müəyyən edir. Burada aşkar edilən ən qədim saman qatışıqlı gil qablar eneolit dövrünə (e.ə IV-II minilliklər) aiddir. Tədqiqatçıların fikrincə, tapıntıların bir hissəsi Kür-Araz mədəniyyəti dövrünü əks etdirir. Bundan başqa, təpənin üst qatlarında son tunc, erkən dəmir və antik dövrlərə aid mədəniyyət nümunələri aşkar edilib götürülüb.

“Laçın rayonundakı Ağoğlan monastr kompleksi (IX əsr), Amaras monastr kompleksi (IV-IX-XII əsrlər), müqəddəs Yelisey məbədi kompleksi (V-XIV əsrlər) və Qandazar monastrı (1216-1240-cı illər), Aşağı Xaçın vilayətinin hakimi Həsən Cəlal tərəfindən bərpa edilib. Həsən Cəlal Qafqaz Albaniyasında uzun müddət hakimiyyətdə olmuş Mehranilər sülaləsinin və Gürcü çarı Tamaranın məşhur sərkərdələri Mxarqradzelilərin nəslindəndir. Bu dövrə aid olan maraqlı abidələrdən biri də Cicimli kəndində yerləşən Malik Əjdər türbəsidir. Bu abidəni ilk dəfə görmüş və nəşr etmiş İ.Şeblikin bu binanın Səlcuqilər dövrünə aid olduğunu qeyd edir, bu da onun tarixini təxminən XII əsrə və yaxud XIII əsrin əvvəllərinə aparır.

Onun sözlərinə görə, Kəlbəcər rayonu Vəngli kəndi ərazisində yerləşən Gəncəsər monastrı 1216-1238-ci illərə aiddir. (şək.1)

Həmin kəndə məşhur olan Xudavəng monastrı XIII əsr abidələri sırasında xüsusilə seçilir.

Şübhəsiz ki, bəhs etdiyimiz coğrafi ərazilərdə yerləşən ən önəmli abidələrdən biri də Cəbrayıl rayonu ərazisində yerləşən Xudafərin körpüləridir.

XIII əsr səyyahı Həmdullah Qəzvini "Nüzhət əl-qülub" əsərində Xudafərin körpüləri barədə məlumat verir. Bu səyyahın məlumatları xüsusilə maraqlıdır. Müəllif yazır ki, Araz çayı üzərində Zəngilan yaxınlığındakı (onbir aşırımlı) körpü hicri tarixi ilə 15-ci ildə (636-cı il) Məhəmməd peyğəmbərin

yaxın adamlarından Bərk ibn Əbdallah tərəfindən salınmışdır. Buna görə də "Xudafərin ", yəni "Allahın yaratdığı" və ya "Allah yaradan" körpü adlanır. On beş aşırımlı körpünü isə Karkar ticarət mərkəzinin yaxınlığında xeyriyyə məqsədilə Diya əl-Mülk Naxçıvaninin tikdirdiyi barədə məlumatlar mövcuddur.



**Səkil 1. Gəncəsər monastrı**

Zəngilanın memarlıq abidələrindən biri də, Məmmədbəyli kəndindəki türbədir. Türbənin giriş qapısı üstündə nəsx xətti ilə yazılmış ərəbcə kitabə var. Həmin kitabədə Qurandan ayə, türbənin kimə məxsus olduğu və nə vaxt tikildiyi göstərilib. Türbənin 678 yaşı var. O,Yəhya ibn Məhəmməd Əl-həcc Seyid Əlinin türbəsidir. Haçalı qülləsi Məmmədbəyli kəndinin yaxınlığında dağın döşündə yerləşir. (şək. 2)



**Şəkil 2. Xudavənd körpüsü**

“Şərifanda 1974-cü ildə aparılmış arxeoloji qazıntılar nəticəsində, xeyli miqdarda maddi-mədəniyyət qalıqları aşkar edilib. Əldə olunan arxeoloji materiallara əsasən, şəhər tipli yaşayış məskəni olan Şərifan XIV əsrdə salınıb və XVII əsrə kimi burada intensiv yaşayış olub. Bərdə şəhərində də bir sıra memarlıq abidələri zəmanəmizə qədər gəlib çatmışdır. Bu abidələrə misal

olaraq Tərtər çayı üzərindən salınmış məşhur körpünü (VII-XI əsrlər), "Axsadan baba" türbəsini (XIV əsr), İbrahim Məscidini (VIII-IX əsrlər) və s. göstərmək olar.

Ağcabədi rayonu ərazisində yerləşən Qalatəpə şəhər yeri qədim abidələrdən biridir. Burada Mil-Qarabağ arxeoloji ekspedisiyası T.R.Əliyevin rəhbərliyi ilə tədqiqat işləri aparmışdır. Arxeoloji qazıntı zamanı abidənin 0,7 metrlik üst təbəqəsinin IX-XIII əsrlərə aid olduğu müəyyənləşdirilib.

Qalatəpə şəhər yerində və onun ətrafında başlanan qazıntılar, burada Azərbaycanın zəngin mədəniyyətinin mühüm bir hissəsinin hifz olunaraq qorunduğunu aşkara çıxardı.

XIII əsr ərəb səyyahı Yaqut əl-Həməvi "Mücam əl-buldan" əsəsrində Bərdə şəhəri haqqında onun tikililəri haqda məlumat verir. Müəllif Beyləqan və Bərdə şəhərindəki tikililərin monqol-tatarların hücumları zamanı yerlə yeksan edildiyini xəbər verir. XIII əsr səyyahı Həmdullah Qəzvini "Nüzhət əl-qülub" əsəsrindəki Kür və Araz çayları arasındakı ərazini Aran vilayəti adlandırır.

“IX əsr ərəb səyyahı İbn Xordadbeh "Yollar və ölkələr haqqında kitab" əsərində Bərdə və Beyləqan şəhərlərinin çiy kərpicdən hörülmüş qala divarları ilə əhatə olunduqlarını bildirir.

30 il davam edən işğal ərzində erməni vandalları tərəfindən yuxarıda qeyd olunan tarixi-memarlıq abidələri dağıdılıb, talan edilib, qədim yaşayış məntəqələrindəki tarix, mədəniyyət və mənəviyyat abidələrimizə ciddi ziyan vurulub. Lakin 2020 ci ildə ali baş komandan İlham Əliyevin qətiyyətli siyasəti və ordumuzun qəhrəmanlığı sayəsində işğala son verildi. İndi biz memarlar, arxeoloqlar, tarixçilər üçün yeni imkanlar yaranmışdır. Qarabağın qədim tarixini daha dərindən öyrənmək, Qarabağ memarlıq nümunələrini tədqiq etmək və memarlıq irsini gənc nəsillərə ötürmək bizim ən önəmli vəzifəmizdir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Qarabağ-irsimizin əbədi yaddaşı. Bakı-2008.
2. Qasım Hacıyev. Qarabağın maddi və mənəvi mədəniyyəti. Bakı-2010
3. Авалов Э. Архитектура города Шуши. Баку-1977.
4. https://hit.az/az/olke/233981/qarabain-alban-xristian-irsi-ve-tarixi-memarliq-
5. https://culture.gov.az/az/umumi-xeberler/13256

**Nigar Ramazanova**

**The evolutionary path of Karabakh architecture**

**Key words:** Karabakh, architecture, historical monument, development path, war

Karabakh, an integral part of Azerbaijan, is one of the most significant geographical locations where the earliest examples of human civilization are found. Research conducted in the Azıkh and Taglar caves corroborates this fact. The Karabakh region, which combined the most developed provinces of Albania in ancient and medieval times, boasts a variety of historical monuments from different periods. When tracing the development of culture in Karabakh, we witness that architectural monuments confirming the high artistic arrangement of buildings for various purposes have been exposed to the disruptive impact of a 30-year war.

**Нигяр Рамазанова**

**Эволюционный путь архитектуры Карабаха**

**Ключевые слова:** Карабах, архитектура, исторический памятник, путь развития, война

Карабах, который является неотъемлемой частью Азербайджана, является одним из самых важных географических мест, где найдены ранние примеры человеческой цивилизации. Исследования, проведенные в пещерах Азых и Таглар, подтверждают этот факт. В регионе Карабаха, который объединял саморазвивающиеся провинции Албании в древние и средние века, существуют памятники истории, принадлежащие разным периодам. Изучая развитие культуры в Карабахе, мы видим, что архитектурные памятники, подтверждающие высокое художественное оформление зданий для различных целей, подверглись разрушительному воздействию 30-летней войны.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası İSSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 98-103

**Salina Aslanxanova**

AMEA Memarlıq və İncəsənət İnstitutu,
kiçik elmi işçi
salina.mamedguseynova@rambler.ru

**UOT 72.03**

# QUBA-QUSAR RAYONLARININ MƏDƏNİ İRSİNİN QORUNMASI VƏ MUZEYLƏŞDİRİLMƏSİ

**Xülasə:** Maddi-mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyətli işdir. Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsinə görə tarix və mədəniyyət abidələrini qorumaq hər bir vətəndaşın borcudur. Mədəni irsin qorunaraq gələcək nəsillərə çatdırılması üçün onların bərpa-təmir işlərinə xüsusi diqqət yetirilməli, abidələrin təbliği işində hökm sürən durğunluq aradan qaldırılmalı, abidələrin mühafizəsi üçün əhali arasında maarifləndirmə işləri aparmalıdır. [1]. İndi ölkəmizdə bu sahəyə ciddi fikir verilir. Abidələrin qorunması dövlətin daima diqqət mərkəzindədir. Bu ilk növbədə onların bərpa və konservasiyası ilə əlaqəlidir. Müstəqillik illərində ölkəmizdə bu sahədə bir sıra işlər görülmüşdür ki, bunlara Quba-Qusar bölgəsindəki mədəni irs nümunələrini də aid etmək olar.

**Açar sözlər:** bərpa, təbliğ, açıq səma altında muzey, konservasiya, mühafizə zona, elektron pasportlaşdırma

Tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması keçmiş SSRİ-nin Ümumittifaq Mədəniyyət İnstitutu tərəfindən hazırlanmış vahid prinsip əsasında aparılmışdır. 1969-cu ildən tətbiq edilən bu sistem mövcud olan və yeni üzə çıxarılan hər bir abidənin hökmən öz pasportu və qeydiyyat vərəqəsi olmasını tələb edirdi və onlarda abidə haqqında ətraflı zəruri informasiyalar toplanırdı. Sovet dövründə bu sistemə 1500 abidə daxil edilmiş və pasport almışdı. Quba-Qusar rayonlarında 1960-1980-ci illərdə tarix və mədəniyyət abidələrinin qorunması, təbliği və tədqiqi istiqamətində bir sıra bərpa- pasportlaşma işləri görülmüşdür. Hazırda elektron pasportlaşdırma və kataloqlaşdırmanın yeni milli standartları işlənib hazırlanır.

**Bölgədə aparılmış bərpa işləri və abidələrin müasir vəziyyəti.**

**Hil kənd məscidi.** 2019 -cu ildə - Qusarın Hil kəndində ölkə əhəmiyyətli memarlıq abidəsi sayılan məscid təmir edilib və təmirdən sonra istifadəyə verilib. Bərpa işləri zamanı binanın çöl divarları suvanıb, qapı və pəncərələri və dam örtüyü yenilənib. Qədim məscidin əvvəlki görünüşü tamamilə qorunub

saxlanılıb.Tarixi Hil məscidi əslən bu kənddən olan, hazırda Ukraynada yaşayan iş adamı Kərim Əliçoban oğlu Ilyasovun maddi dəstəyilə iki ay müddətinə bərpa edilib. [4]

**Xuray kənd məscidi.** Qusarın qədim məscidlərindən biri olan Xuray kənd məscidi tikildiyi tarix 1866- cı – ildə göstərilsə də arxivlərdə onun XVIII – əsrə aid olduğu götərilir. Məscidin tikintisində yerli ustalarla yanaşı Dağıstandan gələn Muhammməd adlı ustanın da əməyi olub. Sovet dönəmində kolxozun anbarına çevirildi. 2005 ci –ildə təmir olunaraq istifadəyə verimişdir.

**Əniq kənd məscidi.**Əniq kənd məscidində bərpa işləri 1980-ci ildə memar N.Musayev tərəfindən aparılmışdır. Hazırda günbəz paslanmış vəziyyətdədir. Uzun müddət bina anbar kimi fəaliyyət göstərmişdir. Məscidin hazırda təmirə ehtiyacı var, bünövrə ilə əlaqədar divarda çatlar yaranmışdır.

**Rustov və Xınalıq kənd məscidləri**. Quba rayonunun Rustov kəndindəki və Xınalıq kəndindəki məscidləri 2000-ci illərdə bərpa olunmuşdur. Xinalığın Əbu-Müslüm məscidi qəzalı vəziyyətdə olmaqla, çox hissəsi uçmuşdu. Məscidin bünövrəsi möhkəmləndirilmiş, uçmuş divarları, dam örtüyü, qapı və pəncərələri,ornamentli sütun və kapitelləri tam bərpa olunmuşdur.

**Tağlı körpü.** Keçmis mühəndis tikililərindən dövrümüzə qədər qorunub saxlanılan abidələr içərisində mühüm tarixi-memarlıq əhəmiyyətinə malik olanlardan biri də XIX əsrə aid Tağlı körpüdür. 2012 -2013 –ci illərdə aparılan təmir-bərpa işləri zamanı körpünün tağları üzərindəki çınqıl, asfalt qatı götürülüb, körpünün davamlılığını artırmaq məqsədi ilə kənardan əlavə dayaqlar tikilmişdir. Körpü memarlıq abidəsi kimi inventar nömrəsi 4598 ilə dövlətin mühafizə etdiyi abidələr siyahısına daxil edilmişdir.

**“Günbəzli hamam”.** 2015 –ci ildə Quba şəhərində XVIII-XIX əsrlərə aid olan “Günbəzli hamam” tarixi abidəsinin təmir-bərpa işləri Mədəniyyət və Turizm Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində, ABŞ Dövlət Departamentinin Səfirlərin Mədəni İrsin Qorunması Fondunun maliyyə dəstəyi ilə həyata keçirilmişdir.

**Alpan kənd məscidi.** Sovetlər dövründə taxıl anbarı qismində istifadə olunub. 1990-cı ildən sonra kənd camaatının öz dini etiqadlarına gizlin sitayiş etmələri artıq tarixdə qaldı və camaatın dini ayinlərin icrası üçün anbar kimi istifadə edilən məsçidin yenidən bərpasına ehtiyac duyuldu. Pasportlaşması 1986- ci ildə memar Nurəliyev Ç. G. tərəfindən aparılıb. Məscidin mühafizə zonası yoxdur.1996-cı ildə məscid kənd camaatı tərəfindən təmir edilmişdir. 1998-ci ildən etibarən kənd məsçidi Dini İcmanın Qərargahı və ibadət mərkəzi kimi fəaliyyət göstərir. Alpan kənd məscidi 2007-ci ildə Fəxri Əmirşah oğlu Aydəmirov məsçidin təmirinə köməklik etmiş, məsçid ətrafında hasar tikdirmiş dəstəmazxana inşa etdirmişdir.

**Yasab kənd məscidin** fasadın qərb hissəsindəki bünövrəsində deformasiya var. Məscidin mühafizə zonası yoxdur. Damın dəmir təbəqəsi korroziyaya uğrayıb. Hal -hazırda dağınıq vəziyyətdə fəaliyyət göstərmir.

**Xuluq kənd məscidi** Xuluq kənd məscidin binası artıq dağılmaq üzrədir. Sovet dövründə ondan anbar kimi istifadə olunub, heç vaxt təmir edilməyib. Bu tarixi abidənin qorunub saxlanmasından ötrü lazımi tədbirlər görülməlidir. Respublikamızın hər yerində tikinti-abadlıq işlərinin geniş vüsət aldığı indiki dövrdə Xuluq kəndi kənarda qalmışdır.

**Əniq qalası.** Qusar rayonunda ölkə əhəmiyyətli, dövlət tərəfindən qorunan iki tarixi abidədən biri rayonun Əniq kəndində yerləşən qaladır. V əsrə aid Əniq qalasının tədqiqata və təmirə ehtiyacı var. Böyük istehkam qalasının günümüzə qədər gəlib çatan hissələrində uzun müddətdir ki, restavrasiya işləri aparılmır. Yerli sakinlərin sözlərinə görə, qala divarlarının möhkəm materiallardan inşa edilməsi onların dağılmasının qarşısını alır. Qalanın yerləşdiyi Əniq kəndi o dövrün qədim ticarət mərkəzlərindən olub. Bunu kənddəki karvansaranın qalıqları, eləcə də qalanın müdafiə məqsədi ilə tikilməsi bir daha sübut edir.[5] Əniq Qusarın qədim abidələrlə zəngin yerlərindən sayılsa da, buranı ziyarət edən turistlərin sayı azlıq təşkil edir. Halbuki yaşayış məntəqəsi Şahdağ-Qış Yay Turizm Kompleksinin yaxınlığında yerləşir və bu marşrut üzrə il ərzində minlərlə turist hərəkət edir.





**Səkil-3 Əniğ qalasının qalıqları**

**Kirik kənd məscidi** çox bərbad vəziyyətdədir və tavanı tamamilə sökülüb dağılıb.

Sovet hakimiyyəti illərində məscid anbar, kitabxana, məktəb və ya digər məqsədlər üçün istifadə edilib.



**Şəkil 4. Kirik kənd məscidi**



**Şəkil 5. Ləçət kənd məscidi**

**Bölgədə memarlıq irsin qorunması muzeyləşdirilməsi.**

Region qədim, orta və yeni dövrlərə aid edilən tarixi-mədəni və memarlıq abidələri ilə (kurqanlar, yaşayış məskənləri, məscidlər, ziyarətgahlar və s.) zəngindir. Bu sərvətlərin çoxundan nəinki xarici turistlərin, heç yerli turistlərin də xəbəri yoxdur. Son illərdə rayonda bir neçə məscid uçurulub, bir neçəsi bağlanıb, halhazırda fəaliyyətdə olan məscidlərin isə 80%-nin köklü təmirə ehtiyacı var. Kəndlərdə məscidin həyətində satışına icazə verilib. Bölgənin tarixi-mədəni ehtiyatlarının turizm fəaliyyətində tanıdılması və onların muzeyləşdirilməsi dərketmə turizminin inkişaf etdirliməsinə səbəb ola bilər.

Tarix və mədəniyyət abidələrin səmərəli istifadə etmək üçün aşağdaki tədbirlər görülməlidir:

a) turizm bölgəsində yol-nəqliyyat qovşağının təkmilləşdirilməsi istiqamətində tədbirlər görünməlidir, lakin kəndlərə aparan yolların hazırki vəziyyəti qənaətbəxş hesab edilmir.
b) bölgələrə xas olan ən qədim adət-ənənələr, maddi və qeyri maddi mədəni irs məhz kəndlərdə məskunlaşan əhali tərəfindən yaşadılır.[2]
c) şimal bölgəsinin turizm ən qədim və ecazkar turizm kəndləri sayılan Xınalıq, Qonaqkənd (Quba), Ləzə (Qusar) və digər kəndlər etnoqrafik, ekoloji, dərketmə turizm marşumtlarının əsas mərkəzlərindəndir.
d) bu dəyərləri nümayiş etdirmək üçün sosial infrastrukturu təkmilləşdirmək və ölkə əhalisinin qədim mədəniyyətini ziyarətçilərə tanıtmaq regionda mədəni irsin inkişafına təkan verə bilər.
e) Quba –Qusar rayonların infrastruktur imkanlarının genişləndirilməsi bölgənin beynəlxalq turizm mərkəzinə çevrilməsinə səbəb olacaqdır.
f) Muzeyləşdirmənin əsas məqsədi qədim tikililərin yenidən canlandırılması və abidənin özəlliyini açıb göstərməkdir.

Abidələrin mühafizəsi işini təkmilləşdirmək məqsədi ilə aşağıdakı tədbirlər həyata keçirmək lazımdır:

- ✓ Mövcud siyahılar üzrə abidələrin tədqiq edilməsi və beynəlxalq standartlarla cavab verən yeni mükəmməl siyahının hazırlanması;
- ✓ Tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması işinin başa çatdırılması;
- ✓ Abidələrin elmi yolla işlənib hazırlanmış mühafizə zonalarının yaradılması;
- ✓ Abidələrin istifadəsi proqramının yaradılması və bu proqramın onların mövcudluğu və mühafizəsi tələblərinə cavab verməsi;
- ✓ Məqsədyönlü konservasiya və bərpa planının işlənib hazırlanması;
- ✓ Mədəni irsin mühafizəsi və bərpası sahəsində təhsil sisteminin yaxşılaşdırılması;
- ✓ Milli bərpa işləri istehsalı bazasının yaxşılaşdırılması və yaradılması;
- ✓ Mədəni irsin mühafizəsi və bərpası sahəsində mövcud qanunvericiliyin təshih edilməsi;
- ✓ Obyektlərin inkişaf planının realizasiyası;
- ✓ Gənc mütəxəssislərin Avropanın ali təhsil müəssisələrinə oxumağa göndərilməsi.

Bölgədə yerləşən tarixi əhəmiyyətli bir sıra tikililər uçmaq təhlükəsi ilə üz-üzədir. Bölgəyə gələn qonaqlara və turistlərə ilk növbədə tarixi abidələrimizi təqdim etdiyimizdən bu sahəyə diqqət daha da artırılmalıdır. Lakin rayon ərazisində hələ də təmirə ehtiyacı olan tarixi mədəniyyət abidələrimiz yetərli qədərdir. Bu problem dövlətin investisiya planlarına salınmalı, vəsait ayrılacağı təqdirdə qarşıdakı illərdə öz həllini tapmalıdır.

## Ədəbiyyat:


1. Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu
2. Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı
3. Şahin Fərzəlibəyli “Quba tarixi” (Bakı-2001).
4. Elbrus Şahmar “Qusar beşiyim mənim”
5. М. ДЖ. Халилов. Уточнение даты взятия и разрушения крепости Аниг. Тезисы докладов Первой научной конференции "История лезгин". Баку,1993.

**Salina Aslankhanova**

## Protection and museumification of cultural heritage Guba-Gusar district

**Key words:** restoration, popularization, open-air museum, conservation, security zone, electronic passportization.

The protection of historical and cultural monuments is a task of international importance. According to Article 77 of the Constitution of the Republic of Azerbaijan, the duty of every citizen is to protect historical and cultural monuments. In order to protect the cultural heritage and pass it on to future generations, special attention should be paid to their restoration and repair work, to eliminate the current stagnation in the promotion of monuments, to carry out educational work among the population on the protection of monuments [1]. Now in our country serious attention is paid to this direction.

**Салина Асланханова**

## Охрана и музеефикация культурного наследия Губа-Гусарского района

**Ключевые слова:** реставрация, популяризация, музей под открытым небом, консервация, охранная зона, электронная паспортизация.

Охрана историко- культурных памятников является задачей международного значения. Согласно статье 77 Конституции Азербайджанской Республики обязанностью каждого гражданина является охрана памятников истории и культуры. В целях охраны культурного наследия и передачи его будущим поколениям следует уделять особое внимание их реставрации и ремонтным работам, ликвидировать сложившийся застой в пропаганде памятников, проводить просветительскую работу среди населения по охране памятников [1]. Сейчас в нашей стране этому направлению уделяется серьезное внимание.

**Lətifə Məmmədxanova**

Aərbaycan Memarlıq və İnşaat Universiteti,
baş müəllim
latifa.mammadkhanova@azmiu.edu.az

**UOT 725.182**

# ABŞERONUN HƏRBİ MÜDAFİƏ TİKİLİLƏRİ

**Xülasə:** Yadellilərin hücumundan qorunmaq üçün Abşeron yarımadasında hərbi müdafiə qalaları tikildi.O dövrün qurğuları arasında bürclər və qəsrlər xüsusi yer tuturdu. Basqınlar zamanı bu bürclər və qəsrlər etibarlı sığinacaq funksiyasını daşıyirdı. Bu istehkamların strateji rolu böyükdür.

**Açar sözlər:** Abşeron, qala, istehkam, bürclər, müdafiyə

Yeralti və yerüstü sərvətlərlə zəngin olan torpağımız dəfələrlə yadellilərin hücumuna məruz qalmışdır.Yadellilərin hücumundan qorunmaq, düşmən müqavimətini qırmq, onları zəiflətmək məqsədilə müdafiə tikililəri - qalalar, istehkamlar inşa edilməyə başlandı. Müdafiə ücün inşa olunmuş qalalar, ehtiyatları olan və müstəqil idarə olunan strateji əhəmiyyətli məntəqə sayılırdı. Tarixi mənbələrə əsasən XI-XIII əsrlərdə Şirvanşahların möhkəmlənməsi nəticəsində Abşeron yarimadasının ərazisində inşaat işləri aparıldı. Çoxlu sayda hərbi müdafiə tikililəri - qalalar və istehkamlar inşa edildi. Divarların hündürlüyü 9-10 metrə, bəzən daha çox, 30 metrə qədər, divar qalınlıqları isə hündürlüyün üçdə bir hissəsini təşkil edirdi. Qala divarlarında mazğallar düzəldilir, yuxarısı merlonlarla hörülürdü. Qalanın içərisində sonuncu dayaq məntəqəsi kimi donjon tikilirdi.

O dövrün qurguları arasında bürclər və qəsrlər xüsusi yer tuturdu. Abşeron hərbi müdafə tikililəri yəni bürclər və qəsrlər müharibələrdə etibarlı sıgınacaq və işğalçılardan müdafiə funksiyasını yerinə yetirirdi. Abşeron yarimadasında tikilmiş qalaları nəzərdən keçirdikdə, onların çoxu sahil boyunca, bir qismi isə yarımadanın içərilərində yerləşdiyinin şahidi oluruq.Yəqin ki, bu qalalar sahil boyunca müşahidə aparmaq üçün tikilmişdir. Xüsusi ilə dənizdən olan hücumlar zamanı. Bu istehkamların strateji əhəmiyyəti böyük olub. Xəzər sahilinə basqınlar zamanı Abşeron qalaları müdafiə, hətta xəbərdarlıq funksiyasını yerinə yetirib. Yəni qalalarda neft yandırmaqla. Keçmişdə belə tikililər "Göz qalası",yəni nəzarət məntəqəsi

adlanırmış. Eyni zamanda qalalar basqın vaxtı, kömək gələnə qədər möhkəm sığınacaq və müdafiə məntəqəsi rolunu görürmüş.

Qərbi Avropanın qəsrlərindən fərqli olaraq Abşeron qalalarının daxili həyəti çox da geniş olmayıb.Yardımçı və xidməti tikililər qalaların xaricində yerləşirdi. Abşeronun bütün qalaları müdafiə sisteminə daxil idi. Bu istehkamlar demək olar ki, quruluşuna və memarlıq xüsusiyyətlərinə görə bir-birinə bənzəyirdi. Abşeron qalalarının çoxlu ümumi cəhətləri var idi. İnsaatçılar tikinti üçün seçdikləri yerə çox ciddi fikir verirdilər. Qala və bürcləri elə yerdə tikməyə çalışırdılar ki, həmin yer nisbətən yüksəkdə olsun və oradan ətraf yaxşı görsənsin. İnşa olunan qalaların hamısı kəndlərin kənarında və yaxud onlardan qıraqlarda yerləşirdi. Qalaların ətrafında tikilmiş bürclü, mazğallı daş divarlar göstərir ki, bu divarlar kiçik həyətlərin içərisində yerləşən bürclərin müdafiəsini qüvvətləndirmək üçün tikilmişdir. Abşeronun qala və bürclərinin planlarının əksəriyyəti, demək olar ki, eyni quruluşa malikdir. Donjonların planları dairəvi və ya düzbucaqlı formada olub. Hündürlüyü isə bir neçə: ikidən səkkizə qədər mərtəbəyə bölünmüşdür. Onların hamısı dördkünc qala divarları ilə əhatələnmişdir. Bürcun ətrafında qala divarları arasındakı məsafə 20-25 metrə qədər olurdu. Dördkünc bürclərin divarlarının eni dairəvi bürclərin diametrində olan ölçülərinə yaxındır- 3.5-5.5 metrə qədər, divarlarının qalınlıgı 2 metrə qədər. Demək olar ki, bürclərin bütün müdafiə vasitələri onun yuxarıda yerləşən meydançasında cəmləşmişdir. Bürcün bütün qatlarında içəriyə genişlənən mazğallar, əsasən ventilyasiya və işıqlandırma üçün nəzərdə tutulmuşdır. Yadellilərdən mühafizə olunanları su ilə təmin təmin etmək üçün həm qalaların həyətində, qalanın lap yaxınlığında, həm də qalanın daxilində su quyuları və çalaları qazılırmış. Su quyularının yerləşdirilməsi, sadə konolizasiya xətlərinin çəkilməsi bürclərin mühasirə zamanı müvəqqəti yaşayış yeri olduğunu göstərirdi. Aparılan qazıntı işlərində belə quyu və çalalara çox rast gəlinir. Abşeronun bir sıra qala və bürcləri zəmanəmizə qədər gəlib çatmamışdır. Onlar haqqında tam təsəvvür əldə etmək üçün bu dövrə çatanlar da tamamilə kifayətdir.

Abşeron qalalarından – Ramana, Nardaran,Mərdəkanda iki, Bilgəh, Qala kəndindəki Qala, Maştaga, Şüvəlan, Keşlə, Hövsan, Buzovna və başqalarını qeyd etmək olar. Abşeronda 30-a yaxın bürc-qala vardır. Üslub cəhətdən Abşeron memarlıq məktəbinə aid olan bu tikililər əhəng daşından tikilmişdir.[3] Bu qala bürclərdə birinci mərtəbənin hündür olduğunu və üst mərtəbələr arasındakı əlaqənin xüsusi qaydada təşkil edildiyini qeyd etmək lazımdır. Bəzi qalalarda ikinci mərtəbəyə ancaq birinci mərtəbənin tağ-tavanı və ya gümbəzinin ortasındakı deşikdən keçmək olardı. Yəqin ki, buraya taxta pilləkan və ya ip pilləkan vasitəsilə qalxırlarmış. Daş pilləkan isə, döşəmədən xeyli hündürdə, az qala birinci mərtəbənin tavanı altından başlanırdı. Belə bir quruluş birinci mərtəbəyə soxulan basqınçılara qarşı bir müdafiə tədbiri olub, onların üst mərtəbələrə çıxmasına maneçilik törədirmiş. Hərbi tikililər üst meydançadan müdafiə olunurmuş. Qala bürclərinin memarlığı , onların sadə

formada tikilməsi, divarların tamamilə bəzəksiz və hamar olması, pəncərələrin yarıq-mazğal şəklində qoyulması onların çətin alına bilən bir müdafiə qalası olmasına tamamilə uyğun gəlir. İçəri girməyi çətinləşdirmək üçün qəsdən balaca qoyulmuş giriş qapıları qalaya kənardan baxanlara daha böyük və əzəmətli görünürdü. İnşaatçı və memarlar ərazinin təbii şəraitindən bacarıqla istifadə etmiş, qala-bürclərin memarlıq görüntüsünü müvəffəqiyyətlə həll etmişlər.

Böyük qalalardan biri İşəri şəhərdə olan Qiz qalasıdır. (şəkil 1). Qız qalası qədim tarixi rəmzlərdən biri, milli memarlığın nümunəsidir. Hündürlüyü 28 metr, diametri 16-16.5 metr, divarların qalınlığı dib tərəfdə 5 metr, yuxarı tərəfdən isə 4 metr olan Qız qalası silindir formalı qaladan və cənub tərəfdən ona bitişik dayaq dəstəyinə oxşar iri tikilidən ibarətdir. Müxtəlif dövrlərdə qalanın möhkəmləndirilməsi məqsədiylə bərpa işləri aparılmışdır.Qala ətrafında və birinci mərtəbədə arxeoloji qazıntılar zamanı, qala divarlarının içində yerləşən su quyusu tapılmışdır.



**Şəkil 1. Qız qalası. XII əsr**



**Qız qalası. XII əsr**

Qız qalası silindir formalı qaladan və cənub tərəfdən ona bitişik dayaq dəstəyinə oxşar kontrforsdan ibarətdir. 2000-ci ildə Bakı qalası və Qız qalası UNESCO-nun Ümumdünya İrsi siyahısına salınmışdır.

Abşeron qalaları arasinda bu günə qədər öz əzəmətini qoruyub saxlayan , hündürlüyü 15 metr olan Ramana qalası Bakının Ramana kəndində ağ daşdan inşa olunmuşdur. [4] XIII əsrə aid olan bu qalanın tikilmə vaxtı dəqiq bilinmir. Müdafiə məqsədi ilə tikilmiş bu qala uzun müddət Şirvanşahlar dövləti dövründə qəsr kimi istifadə olunub. Ramana qəsri digər qəsrlərdən fərqli olaraq, başqa təbii şəraitdə qayalıqda yerləşir. (şəkil 2). Möhkəm qala divarlarının üzərində bucaqları Mərdəkan qəsrinin donjonunda olduğu kimi, üç cərgəli qülləciklərə gücləndirilmiş donjonun düzbucaqlı planlı həcmi ucalır. Qarşi-qarşıya qoyulmuş girişlər müdafiə üçün daha əlverişli şəraitin yaradılmasına xidmət edirdi. Abşeronun digər qəsrlərindən fərqli olaraq

divarlardakı dolama pilləkənlərə giriş hündürlükdən deyil, döşəmə səviyyəsində yerləşdirilmişdir.





**Şəkil 2. Ramana qəsri. XIII əsr** **Ramana qəsri. XIII əsr**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən dünya əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır. 2001-ci ildə Ramana qalası Xəzəryanı müdafiə qurğuları ilə birlikdə UNESCO-nun Ehtiyat siyahısına salınmışdır.

Abşeron yarmadasının Şimal-Şərq sahilində yerləşən düzbucaqlı Mərdəkan qalası XII əsrə aid edilir. Hündürlüyü 22 metr, divar qalınlığı 1.60-2.10 metr olan bu qala içəridən 5-mərtəbəyə bölünmüşdür.Qalanın yuxarı hissəsi maşekul qurşağı ilə qurtarır, eyni zamanda karniz vəzifəsini görür. (şəkil 3).



**Şəkil 3. Dördkünc Mərdəkan qalası. XII əsr**



**Şəkil 4. Dairəvi Mərdəkan qəsri. XIII əsr**

Mərdəkanda digər bir dairəvi donjonlu qalanı da qeyd etmək olar. 1232-ci ildə tikilmiş qalanın hündürlüyü 15 metr olmaqla, üç mərtəbədən ibarətdir. Digər qalalarda olduğu kimi divarın içində qoyulmuş daş pilləkanlar bir-birilə birləşdirilmişdir. Pilləkanın yolu birinci mərtəbənin döşəməsindən 3 metr yüksəkdə başlanır. Hər iki qalanın yuxarısı bir-birindən aralı olan maşikullarla qurtarır. (şəkil 4).

Abşeron memarlıq məktəbinin ən gözəl əsərlərindən olan qalalar haqqinda çox danışmaq olar.Onlar bizim ən guclu və möhtəşəm hərbi müdafiə tikililərimiz olub.

Gələcəkdə Abşeron müdafiə qalalarının UNESCO –nun Ümumdünya İrsi siyahısına salınması üçün Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təqdim olunması məqsədəuyğun hesab olunur.[5]

**Ədəbiyyat:**


1. Aşurbəyli. Bakı şəhərinin tarixi. Bakı, 2007
2. Мамедзаде К.М. Строительное искусство Азербайджана. (с древнейших времен до X1X века). Баку 1983
3. Fiqarov Ş.F.. Abşeron memarlığı. Bakı, 2013.
4. Усейнов М, Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. Москва, 1963.
5. https://az.wikipedia.org/wiki/Ab%C5%9Feron_istehkamlar%C4%B1


**Latifa Mammadkhanova**

**Military defensive structures of Absheron**

**Key words:** Absheron, structure, fortress, towers, shelter

Military defensive structures were built on the Absheron Peninsula to protect against enemy attacks. Among these structures were towers and a fortress. During the invasion of enemies, these structures were reliable shelters, which also played a great strategic role.

**Латифа Маммедханова**

**Военные оборонительные сооружения Апшерона**

**Ключевые слова:** Апшерон, сооружение, крепость, башни, укрытие.

Для защиты от нападения врагов на Апшеронском полуострове были построены военные оборонительные сооружения. Среди этих сооружений были башни и крепость. Во время нашествия врагов эти сооружения представляли собой надежные укрытия, которые также играли большую стратегическую роль.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası İSSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 109-112

**Aysel Hüseynova**

AMEA-nın Memarlıq və İncəsənət
İnstitututnun doktorantı

**UOT 726.2**

# ATABƏYLƏR MƏSCİDİ

**Xülasə:** Qədim ənənələrə malik Azərbaycan memarlığına yeni xüsusiyyətlər və

üslub İslam dininin qəbulu ilə daxil olmuşdur. İslamın qəbul edildiyi bütün ölkələrdə olduğu kimi Azərbaycanda da müsəlmanların ibadət yerlərinə – məscidlərə olan ehtiyacını ödəmək üçün ayrı-ayrı yaşayış məskənlərində məscidlər inşa edilməyə başlandı. Azərbaycan ərazisi səlcuqlar tərəfindən tutulduqdan sonra ölkədə məscid tikintisi genişlənir. Bunun isə əsas səbəbi səlcuq hökmdarlarının məscid tikintisinə böyük diqqət yetirməsi, bunun üçün hətta dövlət səviyyəsində çoxlu vəsait ayrılması idi. Azərbaycan ərazisində ilk məscidlər əsasən mərkəzi günbəzlə örtülmüş kub şəkilli binalardan ibarət olmuşdur. Ən parlaq nümunəsi kimi Naxçıvanda XII yüzillikdə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmiş Atabəylər və ya Came məscidini misal göstərmək olar.

**Açar sözlər:** Naxçıvan memarlıq məktəbi, Atabəy məscidi, memar Əcəmi, Sucas məscidi, məscid, ümumi, fərqli, tarix.

Naxçıvan bölgəsində bizə məlum olan ən qədim məscid Naxçıvan memarlıq məktəbinin banisi, Əcəmi Əbubəkr oğlu tərəfindən inşa edilmiş Naxçıvan şəhərində, XII əsrdə aid Came məscididir (şəkil 1). XIX yüzilliyin sonlarınadək mövcud olan, bizədək yalnız fotoşəkil və rəsmi gəlib çatmış bu məscid Atabəylər memarlıq kompleksinə daxil ən möhtəşəm memarlıq nümunələrindən biri olmuşdur [1, s. 19-21].

XIX yüzillikdə bu məscid haqda fransız səyyahı və arxeoloqu Jan Dyelafuanın çəkdiyi rəsm əsəri məlumat verir. Jan Dyelafua məscidin şəklini çəkməklə yanaşı, Naxçıvanda olarkən fasadı və frizikufi kitabələri ilə bəzədilən Came məscidi dağıdılması haqqında qeydlər də aparmışdı. Alman memarı E.Yakobstalın XIX əsrin sonlarında Naxçıvanda çəkdiyi fotoşəkillə məscid haqqında təsəvvür, müəyyən fikir yürütmək mümkün olmuşdur.

Mərənd və Urmiya məscidləri kimi Naxçıvan cümə məscidinin də günbəzlə örtülən kubvari gövdəsinin güney üzündən başqa, qalan üzlərinin hər birində iki sivri açırım olmuşdur. Bu fakt göstərir ki, Mərkəzi Azərbaycanda

XII əsrdə yerli monumental cümə məscidi tipi işlənib hazırlanmışdı. Foto sənədlərə əsasən Naxçıvan cümə məscidinin məqsurəsinin üç yandan yerləşgələrlə dövrələndiyi bəlli olur. Ancaq bu yerləşgələrin necəliyini daydınlaşdıran dəlillər yox dərəcəsindədir.

Naxçıvan şəhər Came məscidi haqqında V. A. Engelqardtın XIX yüzilliyin ortalarında yazdığı məlumatlarda, məscidin yonulmuş daşdan tağların, həmçinin 50 sajen aralıda məscid kompleksinə daxil olan və hər biri 10 sajen ucalığında olan bir cüt minarəyə malik qapı olduğunu qeyd etmişdir [2 səh 86].

"*Bu türk məscidi yonulmuş daşdan qurulmuş tağları olan iri tikilidir və onun içərisində yüksək işlməli müxtəlif yapma (gəctəraşlıq) naxışlar görünür. Binanın bir bölümü artıq uçmuşdur, qalanı sə uçmaq təhlükəsindədir. Ondan 50 sajen (təqribən 107 m) aralıda vaxtilə bu məscidə aid olan və yanlarında hər biri 10 sajen ( təqribən 42 m) ucalıqda qoşa minarəli qapı var. Məscidlə qapı arasındakı məkanı əvvəllər məscidə aid olan yardımçı tikililər tutrmuş, indi isə bu tikililər artıq olmayanda elə təsəvvür yaranır ki, qapı ona çox yaxın olan xüsusi qülləyə (Mömünəxatun türbəsi) məxsusdur."* [3 səh 48].

Bu yazılı təsvirə əsasən qoşa minarəli baştağın müxtəlif tikililərlə, yəqin ki, mədrəsə hücrələri və sütunlu qalereyalarla, cümə məscidinə birləşdiyini və bu baştağın məscid həyatinə açıldığını güman etmək olar.

Tarixi mənbələrdən Atabəylər MemarlıqKompleksinə mədrəsənin daxil olması bəllidir. Şübhəsiz ki, həmin mədrəsə cümə məscidi ilə birbaşa bağlı imiş. Qoşa minarəli baştağın Atabəylər kompleksi tərkibindəki dini-xatirə tikililərinin (məscid, türbə, mədrəsə) toplandığı iri həyətin alaqapısı olması ehtimal edilir.

Atabəylər memarlıq kompleksinin ilk tikililəri saray binası və dövlətxana olmuşsa, son tikilisi dövrümüzə ancaq təsvirləri çatmış giriş baştağı olmuşdur. Şərqşünas N. Xanıkov XIX yüzildə bu baştağı görmüş və qapısı üstündəki kitabədən onun *1187-ci ildə Azərbaycan Atabəylr dövlətinin atlı qoşununun başçısı və vergi yığanı əmir Nurəddin"* tərəfindən tikdirildiyini oxumuşdur. Həmin kitabə "*memar Əcəmi Əbubəkr oğlu Naxçivaninin əməli"* ifadəsi ilə bitirmiş. İri giriş tağı yanlardan dayaz və uca tağçalarla, yuxarıdan yazı qurşağı ilə qapanan mütənasib biçimli baştağın künclərindən silindrik gövdəli minarələr ucalırmış. İslam memarlığı tarixində belə quruluşlu ilk baştağlardan biri olan bu Naxşvan abidəsi Azərbaycan dini memarlığının orta XI-XII əsrlərdə necə yüksək mərhələyə çatdığının göstərgəsidir. Belə baştağ kompozisiyası sonrakı yüzillərdə İslam ölkələrinin çoxunda aparıcı bədii memarlıq fəndinə çevrildi.

Atabəylər memarlıq kompleksinə daxil olan bu məscid Naxçıvanda ən əzəmətli məscid olmaqla yanaşı, əhalinin ən çoxtoplaşdığı sosial siyasi və ideoloji mərkəz kimi uzun müddət şəhərin həyatında aparıcı rol oynamışdır.

XVII əsrdə məscid dağıntıya məruz qaldıqdan sonra öz aparıcı yerini şəhərdəki digər məscidlərə vermişdir.

Şəkildə binanın yalnız mərkəz hissəsi əks edilmişdir. Plan quruluşu kvadrat olan bu kubik həcm rəsmlərindən göründüyü kimi, çatma günbəzlə örtülmüş, dörd divarında qoşa tağları mövcuddur. Salonun açıq tağ şəklində olan yan divarlarının quruluşu göstərir ki, məscidin mərkəz hissəsi bir tərəfdən otaqlar və keçidlərlə əhatə olunmuşdur. [1, s. 186-187]

Atabəylər məscidinə oxşarı olaraq İranın Sucas şəhərində yerləşən Sucas Cümə məscidi misal göstərmək olar. Sultaniyyədən 52 km cənub – qərbdə olan Sucas şəhərini ən məşhur abidəsi olmaqla yanaşı Azərbaycanda İslam memarlığının inkişafı izləmək baxımından mühüm abidədir. Üstündə kitabəsi qalmayan bu abidənin tikilmə çağını araşdırmaçılar 1100-cü il olaraq qəbul edirlər.

Sucas Came məscidi öz lkin quruluşunu yaxşı saxlamış Səlcuqlu abidələrindəndir. Planı ənənəvi kvadrat biçimli olsa da, məscidin üzəri özümlü işlənmişdir. Onun mehrablı güney divarı açırımsızdır. Baş girişin olduğu quzey divarında iri bir qapı açırımı və içəridə onun yanlarında ensiz dayaz taxçalar olduğu halda, yan divarların iç səthinin ortasındakı tağçanın yanlarında iki nisbətən iri açırım verilmişdir. Mehrab çərçivəsinin yanlarını da onunla bir hündürlükdə dar tağçalar tutur. Açırım və tağçaların belə düzülüşünə başqa Səlcuqlu abidələrində rast gəlinmir [3, s.5]

Konstruksiya baxımından Sucas məscidi başqa səlcuq məscidlərindən seçilmir: kvadrat əsas, səkkizbucaqlı və onaltıbucaqlıdan ibarət keçid bölümü və günbəz çevrəsi. Onun bayır görünüşü isə üst-üstə kub, səkkizüzlü və günbəzdən ibarət yığcam tutumdur. Quzey divardakı qapı gözü ümumi tutumdan irəli çıxan baştağ şəklində olmuş, lakin indi baxımsızlıq üzündən dağılmış vəziyyətdədir. Abidənin bayır səthlərində bəzək işləri aşkar edilməmişdir.

Sucas məscidinin interyeri kərpic və gəc yapma bəzəklərin bolluğu və rəngarənkliyi, eləcə də gözəl kufi xəttli kitabələri ilə seçilir. Abidənin mehrabı ölşüdə iri olub yapma gəc bəzəklə sız süslənmişdir. Kitabələr işində günbəzin əsasını çevrələyən həndəsi naxış fonunda işlənmiş yazı qurşağı öz gözəlliyi ilə xüsusiylə seçilir.

Araşdırmaçılar müşahidəsinə görə Sucas came məscidi ayrıca, təcrid olunmuş şəkldə dayanmamışdı. Onun kub gövdəsinə birləşən başqa yerləşgələri və məscidn ümumi planını aydınlaşdırmaq üçün ətrafında arxeoloji qazıntı işlərinin aparılması vacbdir.

## Ədəbiyyat:

1. Hacıfəxrəddin Səfərli "Naxçıvan türk-islam mədəniyyəti abidələri". Naxçıvan,. 2007.
2. "Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri". Salamzadə Ə.V., Məmmədzadə K.M. – Bakı,.1985.
3. "Nizami dövrünün memarlıq abidələri". C. Qiyasi. Bakı, İşıq nəşriyyatı, 1991,

**Aysel Huseynova**

## Atabay mosque

**Key words:** Nakhchivan architectural school, Atabay mosque, architect Ajami, Sujas mosque, mosque, general, miscellaneous, history.

The first mosques on the territory of Azerbaijan consisted mainly of cubic-shaped buildings covered with a central dome. The most striking example is the Atabayler or Jame Mosque, built by Ajami Abubakr oglu Nakhchivan in Nakhchivan in the 12th century. The Sujas Juma Mosque, located in Sujas, Iran, is similar to the Atabaylar Mosque. Besides being the most famous monument of the city of Sujas, which is located 52 km southwest of Sultaniya, it is an important monument in terms of tracing the development of Islamic architecture in Azerbaijan. Researchers believe that this monument, which has no inscriptions, was built in 1100.

**Айсел Гусейнова**

## Мечеть Атабай

**Ключевые слова:** Нахчыванская архитектурная школа, мечеть Атабай, архитектор Аджами, мечеть Суджас, мечеть, общее, разное, история.

Первые мечети на территории Азербайджана состояли в основном из зданий кубической формы, покрытых центральным куполом. Самым ярким примером является мечеть Атабайлер или Джаме, построенная Аджами Абубакром оглы Нахчивани в Нахчыване в XII веке.Мечеть Суджас Джума, расположенная в Суджасе, Иран, похожа на мечеть Атабайлар. Помимо того, что это самый известный памятник города Суджас, который находится в 52 км к юго-западу от Султании, он является важным памятником с точки зрения отслеживания развития исламской архитектуры в Азербайджане. Исследователи полагают, что этот памятник, на котором нет никаких надписей, был построен в 1100 году.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası İSSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 113-117

**Aygün Əliyeva**

Azərbaycan Memarlıq və İnşaat Universitetinin
doktorantı,
Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "Memarlıq"
kafedrasının müəllimi
aygunbunyatova91@gmail.com

**UOT 725.182**

# QARABAĞIN ERKƏN ORTA ƏSR ŞƏHƏRLƏRİNİN VƏ MÜDAFİƏ İSTEHKAMLARININ FORMALAŞMASI

**Xülasə:** Hərbir xalqın memarlıq irsi dünya sivilizasiyasının bədii yaddaşının məhdud tərkib hissəsi kimi çıxış edir. Azərbaycan memarlığı dünya memarlıq irsində vacib yer tutmuş və Qədim Şərq sivilizasiyasının mədəni-tarixi mənbələrində dərin və möhkəm kök salmışdır.

Azərbaycan ən qədim zamanlardan bəri yüksək inkşaf etmiş şəhər mədəniyyətinin mərkəzlərindən biri olmuşdur. Yaxın və Orta Şərqin regionlarını birləşdirən mühüm ticarət yollarının kəsişməsində yerləşməsi bu şəhərlərin sənətkarlıq-ticarət, administrativ və mədəni inkşafında mühüm rol oynamışdır.

Orta əsrin yazılı mənbələrində Beyləqan, Dərbənd, Partav (Bərdə), Qiran (Kiran), Qəbələ, Baqavan (Bakı), Çola (Çoqa), Şəki, Qardman, Naxçıvan, Xalxal, Amaras, Xoy, Şiz, Gəncə, Şirvan, Şabran, Tovuz, Xunan, Kasal (Qazax), Şatur (Şatar) və.s. şəhərlərin adı çəkilir.

**Açar sözlər**:Qarabağ, erkən orta əsrlər, Qafqaz Albaniyası, şəhərsalma irsi, müdafiə istehkamları, inşaat texnikası

Demək olar ki, Azərbaycanın bütün ərazisində dağlıq və dağətəyi rayonlarında şəhər qalıqlarına rast gəlinə bilir. Yerli əhali tərəfindən bu cür qalıqlar Qalayeri, Govurqala, Torpaqqala, Şəhərgah və.s. kimi adlandırılır. Bu şəhərlərin qalıqları Azərbaycan tarixi elminin bir çox suallarına cavab verə bilər. Tədqiqatlar göstərir ki, qədim Azərbaycan şəhərləri müxtəlif yollarla yaranmışdır. Bəzi şəhərlər müharibələr, hərbi əməliyyatlara qarşı qala divarları və müdafiə qüllələri çəkilərək, qədim yaşayış məskənlərinin yerində yaranmışdı. Digərləri feodal qalaların və sərhəd məntəqələrin böyüməsi nəticəsində inkşaf etmişdir. Digər hissə isə müəyyən ərazilərdə təbii ehtiyatların (mis və dəmir filizi, duz, neft və.s.) istismarı ilə əlaqədar olaraq

artmışdır. Bəzi şəhər hissələri antik şəhər qalıqları əsasında və ya kül məbədlərdə formalaşmış, bəziləri bazar meydanlarında və.s. artmışdır.

Qədim Alban şəhərlərinin adı antik (Pliniy, Strabon, Klavdiy, Ptolomey), həmçinin ərəb, erməni və digər mənbələrdə çəkilir [3, səh.314 ].

IV əsrə qədər Qafqaz Albaniyasının siyasi və dini mərkəzi əsasən sol sahil hissədə cəmləşmişdir. Lakin buraya xəzər və hun tayfalarının yürüşü zamanı sağ sahilyanı əhəmiyyət daşımağa başladı. Belə ki, paytaxt və Alban katalikosların rezidensiyası əvvəldən sol sahil hissədə yerləşir və Qəbələ, Çola şəhərləri idi. Lakin artıq V əsrdə Albaniyanın şimal hissəsində mövcud olan hərbi-siyasi vəziyyətlə əlaqədar paytaxt və xristian mərkəzi Qarabağa, qədim şəhər Partava (daha sonra Bərdə) köçürülür.Tarixi faktlara əsasən Qafqaz Albaniyasının paytaxtı və eləcə də Qarabağın iri şəhəri- Partav (Bərdə) təkcə Azərbaycan yox həmçinin bütün Qafqazın erkən orta əsrlər mədəni və tarixi həyatında mühüm yer tutur. M.Kalankaytuklu yazır ki, Bərdə alban hökmdarı II Vaçe (459-484) dövründə VIII əsrin birinci yarısında əsası qoyulmuşdur. Bərdə həmçinin Xilafətin hərbi-siyasi mərkəzi, həmçinin böyük şəhər-qala olmuşdur [2, səh. 19].

Erkən orta əsr Bərdə indiki müasir şəhərdən 5 km aralıda yerləşirdi. X əsrdə şəhər Tər-tər çayı sahilində yerləşib, çox böyük ərazini əhatə edirdi. Şəhər qala divarları ilə möhkəmləndirilimiş, kvadrat formada olub, həmçinin “böyük istehkam” kimi səciyyələndirilirdi.

Bərdə İran, Mərkəzi Asiya, Cənubi Azərbaycan, Ermənistan, Gürcüstan, Bizans, Çimali Qafqazdan gəələn karvan yollarının kəsişməsində yerləşib, Yaxın və Orta Şərqin ən böyük ticarət mərkəzlərindən biri olmuşdur. Erməni tarixçiləri öz ənənəsinə sadiq qalaraq qədim Bərdənin irsini özünküləşdirməyə çalışsalar da, Bərdəni “Berdazor” adlandırsalar da, tədqiqatçılar təyin etmişdirlər ki, Bərdə əsası qoyldurğundan bəri ermənilərlə heç bir əlaqəsi olmamışdır. Bu faktı antik və orta əsr qaynaqları sübut edir. Bura Qafqaz Albaniyasının eləcə də Xəlifə valilərinin igamətgahı olmuşdur. Bərdə sözünün müasir adı buraya Cənubi Azərbaycanın Bərdə şəhərciyindən  Qarabağa köç olunması və köçərilərin bu şəhəri Bərdə adı cağırılması ilə bağlıdır.

Ümumiyyətlə Erkən və orta əsr şəhərlərinin atributları hesab edilən istehkamların tədqiqi, onların konstruktiv və tikinti xüsusiyyətlərində ümumi oxşarlıqların müəyyən edilməsi (texnologiya, tikinti materialları) artıq erkən orta əsrlərdə cəmiyyətin urbanizasiyasının təkamülünü izləməyə imkan verir. Bu dövrlərdə şəhərlərin müdafiə sisteminin xarakterinə müxtəlif coğrafi və iqlim şəraiti, bir sıra ərazilərdə əhəmiyyətl seysmiklik, müxtəlif regionların tarixi inkşafının xüsusiyyətləri, şəhərlərin iqtisadi inkşaf səviyyəsi böyük təsir göstərmişdir. Tədqiq olunan şəhərlərin tikinti texnikasının xarakterinə və müdafiə tikililərinin konstruktiv elementlərinə görə iki növ ayırmaq olar:

1.Bircinsli: a)xammal  b) daş

2.Birləşmiş: a)xammal-gil b)bişmiş kərpic və ya çay daşlarının növbələşməsi

Azərbaycanın şimal və şimal- qərbi şəhərlərin tədqiqi göstərir ki, bu ərazilərdə müdafiə istehkamlarında əsasən daş, cənub rayonlarda isə kərpic-memarlığı geniş yayılmışdır. Qala divarlarının və qüllələrin tikintisində çiy kərpicdən və gil kütlədən (mohr) istifadə edilməsi erkən orta əsr şəhərləri üçün xarakterikdir. Qarabağ ərazisində Çöl Ağdam şəhərinin divarları bu tip nümunələrdəndir. Tədqiqatlar göstərir ki, həmçinin Bərdə şəhərinin də qala divarları çiy kərpic və mohrdan ibarət olmuşdur. Arxeoloji tədqiqatlar göstərmişdir ki, Parfiya-Sasani tikinti texnikasında kürsülük və möhkəm platformalar çiy kərpicdən və ya mohrdan tikilirdi. Lakin erkən orta əsr Azərbaycan şəhərlərində daha çox bu tip tikintidə daşdan istifadə edilirdi.

Erkən orta əsrlərdə Qafqaz Albaniyasının dini, siyasi, mədəni mərkəzlərindən biri də Amaras şəhəri idi. Bu şəhər haqqında ilk orta əsr tarixçiləri Faxstos Buzandesi, M.Xoranesi, alban tarixçisi M.Kalankaytuklu, orta əsr tarixçisi Asoqik məlumat verirlər [1, səh.149]. Bəzi orta əsr tarixçiləri buranı kənd adlandırsa da, M.Kalankaytuklu Amarası şəhər adlandıraraq onun Haband nahiyəsinin Arsax vilayətində yerləşdiyini qeyd edir. Burada aparılan arxeoloji tədqiqatlar nəticəsində erkən ora əsrlərdə şəhər ərazisinin 7-8 hektardan artıq hissəsi qala divarları işərisində yerləşdiyi məlum olmuşdur. Həminin bu şəhərin antik alban şəhəri Anariakın yerində salındığı ehtimal edilir. Vaxtilə bu şəhəri yerli müsəlman əhali “Ağoğlan” adlandırmışlar. Məhşur tədqiqatçı-alim Z.İ.Yampolski “Ağoğlan” adının “Amaras” dan daha qədim olduğunu və bu adın burada yaşayan yerli əhalinin astral dini görüşləri ilə əlaqəli olduğunu qeyd edir.Kalankaytuklunun verdiyi məlumatlara əsasən burada yepiskopluq kafedralına malik kilsə, həmçinin monastr olduğu da qeyd edilir. Amaras şəhərində yepiskopluğun mərkəzi və dini igamətgahı yerləşirdi.

Yazılı mənbələr və arxeoloji tədqiqatlar östərir ki, erkən orta əsr şəhərləri adətən iki hissədən -möhkəmləndirilimiş hissə olan iç qaladan və şəhərin özündən ibarət idi. Möhkəmləndirilmiş hissə orta hesabla 20 h, şəhərin özü isə 40 hektar və daha çox sahəni əhatə edirdi. Albaniyaya ardı-arası kəsilməyən hücumlar, müdaxilələr nəticəsində əsasən ölkənin şimal hissəsini müdafiə etmək məqdəsilə burada hərbi müdafiə istehkamları inşa etmək və buranı möhkəmləndirmək lazım gəlirdi. Orta əsr ərəb coğrafiyaşünaslarının verdiyi məlumatlardan aydın olur ki, Sasani dövləti I Xosrov Ənuşirəvanın dövründə Albaniyada yerləşən möhtəşəm istehkamları möhkəmlətdi və Tabasarana qədər hərbi istehkamın divarlarını uzatdı. Bu haqda Musa Klanakaytuklu << Iran şahları ölkəmizi (Albaniya-T.M.) taqətdən sadılar; bu qəribə binanı tikmək üçün memarları səfərbərliyə alan və çoxlu müxtəlif material axtarıb tapan İran şahları həmin tikinti vasitəsilə Qafqaz dağları ilə Şərq( Xəzər) dənizi arasındakı keçidləri qapalı saxlayırdılar >>

## Ədəbiyyat:

1. T.M.Məmmədov "Qafqaz Albaniyası ilk orta əsrlərdə" Təhsil Nəşriyyatı Bakı-2006 400s.
2. M.Kalankatuklu "Albaniya tarixi" Avrasiya press Bakı-2006 səh.293
3. Ф.Мамедова "Кавказская Албания и Албаны" центр исследований Кавказской Албании, Баку -2005 səh.814

**Aygun Aliyeva**

## Formation of early medieval cities and defense fortifications of Karabakh.

**Key words**: Karabagh, early middle ages, Caucasian Albania, urban planning heritage, defensive fortifications, construction techniques

The architectural heritage of each nation acts as a limited part of the artistic memory of the world civilization. Azerbaijani architecture has taken an important place in the world architectural heritage and is deeply and firmly rooted in the cultural and historical sources of the Ancient Eastern civilization.

Azerbaijan has been one of the centers of highly developed urban culture since ancient times. The location at the crossroads of important trade routes connecting the regions of the Near and Middle East has played an important role in the craft-trade, administrative and cultural development of these cities.

In the written sources of the Middle Ages, Beylagan, Darband, Partav (Barda), Kiran (Kiran), Gabala, Bagavan (Baku), Chola (Choga), Sheki, Gardman, Nakhchivan, Khalkhal, Amaras, Khoi, Shiz, Ganja, Shirvan, Shabran, Tovuz, Hunan, Kasal (Kazakh), Shatur (Shatar), etc. cities are mentioned.

**Айгюн Алиева**

## Формирование раннесредневековых городов и оборонительных укреплений Карабаха.

**Ключевые слова**: Карабах, раннее средневековье, Кавказская Албания, градостроительное наследие, оборонительные укрепления, технология строительства.

Архитектурное наследие каждого народа выступает ограниченной частью художественной памяти мировой цивилизации. Азербайджанская архитектура заняла важное место в мировом архитектурном наследии и глубоко и прочно укоренена в культурно-исторических истоках древневосточной цивилизации.

Азербайджан издревле был одним из центров высокоразвитой городской культуры. Расположение на перекрестке важных торговых путей, соединяющих регионы Ближнего и Среднего Востока, сыграло важную роль в ремесленно-торговом, административном и культурном развитии этих городов.

В письменных источниках Средневековья Бейлаган, Дербанд, Партав (Барда), Киран (Киран), Габала, Багаван (Баку), Чола (Чога), Шеки, Гардман, Нахчыван, Халхал, Амарас, Хой, Шиз, Гянджа , Ширван, Шабран, Товуз, Хунань, Касал (Казах), Шатур (Шатар) и др. упоминаются города.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası İSSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 118-129

***ŞƏHƏRSALMA, LANDŞAFTMEMARLIĞI VƏ DİZAYN***

**Ağasəlim Əzizov**

Memarlığın əsasları kafedrası, AzMİU
memarlıq üzrə fəlsəfə doktoru, dosent

**UOT 711**

# REGİON VƏ ŞƏHƏRLƏRİN HÜDUDLAR (HƏDDLƏR) TƏHLİLİ

**Xülasə.** Hüdudlar (həddlər) təhlili regionlar və şəhərlərin gələcək inkişaf proqramlarının əsası və bazası olaraq, onların şəhərsalma nöqteyi nəzərindən əsas göstəricilərindəndir. Regionun və ya şəhərin ərazilərinin genişləndirilməsi zamanı hüdudlar (həddlər) təhlili mövcud məhdudiyyətlərin aradan qaldırılması, gələcək postmərhələ prosesinin inkişafına təsir edərək, bir sıra inkişaf variantlarını təklif edir. Bu da parametrlərin çoxluğuna istinadən onlardan ən optimal variantına yol açır. Seçilən optimal variantlar nəinki uzunmüddətli layihələr, hətta region və şəhərlərin perspektiv (konseptual) ümumi planlarının işlənilməsində aparıcı rolu oynayır. Müəllif şəhərlərin genişləndirilməsinin qarşısını alan bir sıra məhdudiyyətlərin aradan qaldırılması problemlərinə də toxunur. Bunlar relyefin mürəkkəbliyi, bataqlıqların mövcud olması və digər antropogen elementlərin ərazidə dislokasiyasıdır. Eyni zamanda ərazilərdə gələcək sənaye, intensiv inkişaf edən kənd təsərrüfatı və aqrar sənayesi obyektlərinin yerləşdirilməsinin mövcudluğu da təhlildə nəzərə alınır.

**Açar sözlər:** urbanizasiya, rayon plaşlaşdırılması, regional məskunlaşma sistemi, hüdudlar (həddlər), coğrafi məkan, məhdudiyyətlər, məsrəflər, resurslar

*«Hüdudların (həddlərin) təhlili – regiondar və şəhərlərin planlaşdırılmasında əsas vasitələrdən biridir»*

*Boleslav Maliş*

Bu sözləri görkəmli urbanistika üzrə dünya səviyyəli Polşa urbanist alim

Boleslav Maliş hələ XX əsrin axırlarında İtaliyanın Roma şəhərində keçirilən beynəlxalq urbanistika konqresində demişdir.

**Giriş.** Qeyd etmək lazımdır ki, hüdudların (həddlərin) təhlili ilk dəfə Polşada keçən əsrin 60-cı illərində həyata keçirilmişdi. Bu sənəd (təhlil) şəhərlər və regionların planlaşdırılması prosesinin perspektiv iyirmiillik dövrünü əhatə etməli idi. Metodoloji nöqteyi nəzərindən bu təhlil sənədi inkişaf proqramının tərtibatının mürəkkəbliyi ilə bağlı idi. Lakin bu mürəkkəbliyinin aradan qaldırıdması – inkişaf proqramının diskret vəziyyətinin ardıcıllıqla təhlilindən asılıdır. Qeyd etmək lazımdır ki, bu vəziyyətin üzə çıxması şəhər və regionun ərazi genişləndirilməsi zamanı (regionlar və şəhərlər) ərazilərinin gələcəkdə necə formalaşmasının təhlili ilə gündəmə gəlir. Bu və digər hallarda region və şəhərin genişləndirilməsi zamanı bir sıra müəyyən məhdudiyyətlərlə qarşılaşma məqamlarına rast gəlmək olar. Bu baxımdan belə bir məqamlar region və ya şəhərin ərazisinin genişləndirilməsi zamanı müəyyənləşir və əsas istiqamətlər müəyyən məhdudiyyətlərlə qarşılaşaraq şəhərin və regionun gələcək postmərhələ prosesinin inkişafına təsir göstərir. Lakin bunlara baxmayaraq şəhər və regionda ərazinin inkişafının konsepsiyalarından asılı olaraq bir sıra variantlar mövcuddur. Bu baxımdan parametrlərin çoxlu olmağına istinadən bunlardan ən optimal variantın seçilməsi vacibdir. Seçilən optimal variantlar nəinki uzunmüddətli layihələr, hətta perspektiv baş planların (ümumi planlar) işlənməsində də öz rolunu oynayır.

**«Hüdudlar (həddlər) inkişafı» və onların məsarifləri anlayışı**

Coğrafi məkan, təbiət və onun zənginliyi, həmçinin landşaftın antropogenliyi ilə fərqlənir. Bunlar şəhər və regionun bir sıra məhdudiyyətlərinin ortaya çıxmasının səbəbidir. Bu məhdudiyyətlər bir sıra məqamlara bağlanır:

1. Təbiət mühitinin çoxşaxəliliyi
2. Torpaqların istifadəsinin mövcud sistemləri
3. İnfrastrukturun xüsusiyyətləri
4. Şəhər və regionun mövcud infrastruktur elementlərinin inersiyası

Təbiət məhdudiyyətləri əsasən qapalı məkanlarda yerləşən (adalarda) bu və ya digər şəhərin əhalisinin artması ilə əlaqədar olaraq şəhər ərazisinin şəhərin sərhədlərindən qırağa çıxmasının qeyri mümkün olması kimi misal gətirmək olar. Bunlarla yanaşı şəhərin genişlənməsinin qarşını alan məqamlar – relyefin düzənli və ya təpəli olması, bataqlıqların və digər təbii antropogen elementlərin olmasıdır.

Bunlarla yanaşı region və şəhərin ərazisinin genişlənməsinə məne olan sənaye və ya yüksək intensivliyə malik olan kənd təsərrüfatı və aqrar sənayesi obyektləri də ola bilər.

Məlumdur ki, hər bir infrastruktur elementləri (nəqliyyat, su təchizatı, kanalizasiya və s.) müəyyən texnoloji göstəricilərə istinadən fəaliyyət göstərir,

bu baxımdan regionun və şəhərin genişlənməsi və inkişafı zamanı infrastruktur mütləq rekonstruksiya və ya yeni sistemlərin qurulmasına məruz qalmalıdır.

Şəhər ərazisinin genişlənməsi bir sıra obyektiv çətinliklərlə qarşılaşa bilər – şəhər mərkəzinin əsas struktur elementlərinin, nəqliyyat və mühəndis infrastrukturunun yenidən qurulmasıdır. Bu məhdudlaşmalar mütləq olmadığından – problem əlavə kapital vəsaitlər sərfiyyatı nəticəsində aradan qaldırıla bilər, bu da şəhərin yeni ərazilərinin istifadəsinin genişləndirilməsinə gətirir.

Beləliklə şəhər və regionun ərazisinin genişlənməsi pilləvari (hüdud və həddləri nəzərə alaraq) xarakterə malik olaraq sıçrayışlı proses kimi meydana çıxır. Qrafiki formada bunu əhalinin artımını X oxunun hüdud və həddlərin kapital məsrəflərini Y oxu üzərində göstərmək olar.

Qeyd etmək lazımdır ki, hüdud və həddlər məsrəfləri ümumi inkişaf məsrəflərinin bir hissəsini təşkil edir. Buna baxmayaraq məsrəflər çox vacib olaraq şəhərin gələcəkdə harada yerləşməsi və memarlıq-planlaşdırma layihələndirilməsi üçün bir bazis kimi istifadə olunur. Şəhərin inkişafının ümumi məsariflərini iki kateqoriyaya bölmək olar. Birinci kateqoriyanı «normal məsariflər» adlandırmaq olar. Bura şəhər sakinləri üçün nəzərdə tutulan yaşayış fonduna və digər idarələrə, xidməti bölgələrinə xərclənən vəsaitlər aiddir.

Qeyd etmək lazımdır «normal məsariflər» planlaşdırılan həyat standartlarından asılıdır. Bu o deməkdir ki, normal məsrəflər hər bir yerdə şəhər hüdudlarında aparılan yeni tikintilərin konkret yerləşdirilməsinə mane olmamalıdır. Əgər hüdudlar və hədlərin sərhədləri bir biri ilə kəsişməsi olsa şəhərin ərazidə inkişafı qeyri rasional sayılır.

Hüdudlar (həddlər) ərazidən kənarda yerləşən torpaqların mənimsənilsəsinə əlavə kapital qoyuluşlarını tələb edir. Bu əlavələr kapital qoyuluşların həcmi ərazilərin xüsusiyyətlərindən asılıdır. Bunlar da məsrəflərin iki formadan ibarət olduğunu müəyyən edir. Birinci formaya inşa edilən, lakin ilk baxışdan faydası olmayan tikintilərdir (körpü tikintisi vaxtı), lakin şəhərin çay sahilindən kənarda yerləşən ərazilərinin mənimsənilməsində aparıcı rol oynayan məsrəflərdir. Bunu da «sıçrayışları məsariflər» adlandırmaq olar. Hüdud və həddlərin məsrəflərinin ikinci forması artım xarakteri daşıyır. Bu məsrəflər əsasən nisbətən çox kapital qoyuluşunu tələb edir, bu da ərazinin bataqlıqlar və ya dağ təpələrdən ibarət olduğu zamanı meydana çıxır.

Qeyd etmək lazımdır ki, şəhərin müəyyən mərhələlərdə, inkişaf edildiyi zamanı ortaya çıxan bir sıra məhdudlaşmalar şəhərin genişləndirilməsinə və artmasına mane olaraq ümumiyyətlə praktiki olaraq onun inkişafını qeyri mümkün edir. Lakin bu kritik məhdudlaşmalar şəhərin inkişafına bir o qədər də mane olmur, yalnız şəhərsalmanın taktikasına dəyişikliklər edilməsini tələb

edir. Şəhərin inkişafı onun ayrıca hissələrinin inkişafına mane olmamalıdır. İqtisadi baxımdan bu məhdudiyyətlərin aradan qaldırılması yeni ərazi strukturların yaranmasından daha da sərfəli olur.

**Hüdudların (hədlərin) təhlilinin metodikası**

Metodikanın məqsədi şəhərin genişləndirilməsinin sərfəli və effektli variantlarının qiymətləndirilməsidir. Bu da həyat standartlarının artması şərtilə şəhər ərazilərinin genişlənməsi ilə birgə adıçəkilən ərazilərin təhlil aparılmasının vacib olmasını göstərir. Qeyd etmək lazımdır ki, şəhər məkanının mütləq artması, həyat standartlarının səviyyəsinin artması ilə uyğunlaşmalıdır. Bu baxımdan planlaşdırma prosesinin gedişatı ərazilərin şəhərdaxili tikintilərinə inteqrasiyası vacib məsələ kimi ortaya çıxır. Təhlil olunan ərazinin lokal bölünməsinin kriteriyaları əhalinin gündəlik miqrasiyasını nəzərə almaqla aparılmalıdır. Lakin ərazilərin hüdudları çərçivəsində aparılan tədqiqatlar əhalinin tələbatlarını ödəyən sahələri nəzərdə tutur: yaşayış zonaları, boş ərazilər və s. Sənaye zonaları tədqiqat proseslərindən kənarda qalmalıdır, çünki artmasına mane olan məqamlardır. Təbii və tarixi rol oynayan zonalar şəhərin ekspansiyasından qorunmalıdır. Bu ərazilərin sərhədləri hüdudlar və həddlər sərhədləri kimi qiymətlənməlidir.

Şəhərin genişlənməsi üçün ayrılan torpaqlar şəhərsalma nöqteyi nəzərindən üç məsələni əhatə etməlidir:

1. Şəhərin ətrafdakı mühitinin özəlliyi (fiziki-coğrafi durumu)
2. Torpaqların mövcud sistemli istifadəsi
3. Tələb olunan infrastrukturun təşkili

Bütün adı çəkilən məqamlarda hüdudlar (həddlər) sərhədləri mütləq müəyyən olunmalıdır. Burada kartoqramların istifadəsi mühüm rol oynayır. Hər bir xəritədə torpaqların üç kateqoriyaları göstərilməlidir: şəhərin inkişafı üçün ayrılan torpaqlar; şəhərin inkişafına mane olan yararsız torpaqlar; şəhərin inkişafı üçün müəyyən kapital qoyuluşu tələb edən torpaqlar.

Birinci kateqoriyalı torpaqlar hüdudların (həddlər) sərhədləri, üçüncü kateqoriyalı torpaqlar adı çəkilən sərhədlərdən kənarda, aralıda qalan ikinci kateqoriyalı torpaqlar isə hüdudlardan müəyyən məsafələrdə yerləşirlər.

Bu tədqiqatlar ümumi xəritədə öz əksini tapdıqdan sonra şəhərin mərhələli genişlənməsi prosesi həyata keçirilir.

Şəhər ərazisinin genişlənməsi bir neçə istiqamətlərdə gedən zamanı torpaqların müəyyən detallaşdırılması ortaya çıxır.

Bütün adı çəkilən tədqiqatların nəticələri ümumi xəritədə müqayisə edilərək şəhərin gələcək inkişafında müəyyən ərazilərin  inkişaf prosesinə kömək edir. Müəyyən çətinliklərin ortaya çıxdığı zamanı detallaşdırma aparılmalıdır, bu da şəhərin bir neçə istiqamətlərdə inkişafı zamanı həyata keçirilir. Əvvəlcə şəhərə yaxın ərazilər müqayisə olunur və hüdudların (həddlərin) kəsişməsi zamanı əhalinin artması nəzərə alınır.

Əlverişli ərazilərin hüdudlar (həddlər) çərçivəsində mənimsənilməsi

inkişafın birinci mərhələsi sayılır. Şəhərin genişlənməsi zamanı növbəti ərazilərin tədqiq olunması müəyyən edilir.

Beləliklə, qeyd etmək lazımdır ki, hüdudların (həddlərin) təhlili prosesi torpaqların şəhərin tərkibinə daxil olunmaqla şəhərin strateji inkişafına yol açır.

**Hüdudların (həddlərin) təhlilinin nəticələri**

Yuxarıda qeyd olunan təhlillərin əsasında aşağıdakıları qeyd etmək lazımdır. Hər bir ərazinin göstəricilərinə əsasən şəhərin genişləndirilməsi əlverişli seçimlərdən asılıdır. Bu da urbanlaşmış ərazilərdə əyalət rayonlarının şəhərin özəyinə yaxın müəyyən birlik yaradır. İki və artıq ərazilərdə hüdudlar məhdudiyyətlərinə laqeyd yanaşma məqsədəuyğun sayılmır.

Digər tərəfdən ərazinin mənimsənilməsində ardıcıllıq müəyyən edilsə bir sıra məqamların təshih olunması ortaya çıxır. Və nəhayət hüdudların təhlili (əhalinin sayına görə) şəhərin kompakt artımı baxımından dekonsentrasiyaya məruz qalmalıdır. Qeyd etmək lazımdır ki, hüdudlar (həddlər) təhlili eyni zamanda yüksək səviyyəli planlaşdırma (regional) zamanı da dəyərli rol oynayır. Bu tədqiqatlar şəhərin bütün rayonlarına şamil oluna bilər, bu da onların inkişafının məqsədyönlü aparılmasına dəlalət edir. Bu baxımdan hər hansı bir şəhərin hüdudlar (həddlər) məsrəfləri ciddi xarakterizə olunmalıdır. Hüdudlaşma (həddləşmə) xarakterini müqayisə etdikdə tədqiqatçı vacib informasiyanı əldə edir. Bunun əsasında bir sıra şəhərlərin sürətli inkişafının mənfəət və məsrəflərini nəzərə alınması vacibdir.

Bu informasiya hüdudlar (həddlər) təhlilindən sonra əldə edilir.

Bir sıra mütəxəssislər hüdudlar (həddlər) təhlilini tənqid edirlər. Onların fikrincə təhlillər şəhərin inkişafında yalnız hüdudların (həddlərin) araşdırmasından ibarətdir. Bu da müqayisə olunan mənfəətləri nəzərə almır. Qeyd etmək lazımdır ki, optimal variantın seçilməsi yalnız məsariflərin müqayisəsi zamanı əldə olunur.

Hüdudlar (həddlər) təhlilinin köməyilə üstün cəhədləri nəzərə alaraq ərazinin gələcək inkişafı əldə olunur. Əlbətdə üstün cəhədlər də eyni deyil: ərazi şəhərin mərkəzinə yaxın və ya uzaq ola bilər. Əlverişsiz ərazi olduğu zamanı onun yaxşılaşdırılması hüdudlar (həddlər) məsariflərinə daxil olmalıdır. Beləliklə, məsariflərin düzgün nəzərə alındığında ərazilərin qeyri uyğunsuzluğu heçə enir.

**Regional planlaşdırmada hüdudlar (həddlər) təhlilinin bilavasitə istifadəsi**

Yuxarıda adı çəkilən Polşa urbanist-alimi B.Maliş tərəfindən yaradılan «hüdudlar (həddlər)» nəzəriyyəsinin əsasında regionlar və şəhərlərin ərazilərinin genişlənməsi tədqiqatı regionlar və şəhərlərin planlaşdırılmasında bir vasitə rolunu oynayır.

Qeyd etmək lazımdır ki, B.Maliş öz elmi-tədqiqat araşdırmalarında «hüdudlar (həddlər)» nəzəriyyəsinin bir vasitə kimi tədbiqini yalnız şəhərlərə şamil edir, bu da şəhər sərhədlərindən kənada qalan əraziləri diqqətsiz qalaraq region, şəhər və digər yaşayış məntəqələrinin kompleks araşdırmalarını qeyri mümkün edir.

Regional planlaşdırmada təhlilin bilavasitə istifadəsi regionun iqtisadi inkişafı, sosial və təbiət resurslarından asılıdır. İqtisadi fəaliyyətin səviyyəsi resursların mənimsənilməsindən artıq olmamalıdır.

İqtisadi fəaliyyətin regionlar səviyyəsində növləri və həcmlərinin planlaşdırma həlləri yalnız regionlar və yaxud dövlətlər miqyasında aparılmalıdır, bu da lazım olan informasiyanın regionlar səviyyəsində olması göstərir. Təklif olunan metodika regionun resurslar kəmiyyətinin təhlilini nəzərə almaqla iqtisadi fəaliyyətinin bir sıra variantlarının seçilməsinə gətirib çıxarır, bu da ümumilli tələbatların ödənilməsinə cavab verir və regionun sadələşmiş modeli əsasında fəaliyyətini göstərir.

**Turizmin planlaşdırılmasında «sərfiyyat» və «əlverişliliyin» təhlili**

Təklif olunan təhlil İrlandiya Respublikasının Doneqal qraflığında BMT-nin inkişaf proqramı əsasında aparılan tədqiqatlara əsaslanır. Proqramın əsas məqamları bu məqalədə istifadə olunub.

Turizm regionun funksiyası olaraq ərazisində turizm nöqteyi nəzərində bir sıra məqamların olmasından asılıdır – təbiət və antropogen landşaftlara turistlərə xüsusi xidmət göstərən sahəsinə müəyyən xidmətlər, yaşayış fondu, iaşə xidmətləri, su təchizatı, kanalizasiya, nəqliyyat və s. Bura xidmət göstərən personal da daxildir.

Təhlil mövcud resursların uçotundan başlayar. Əlavə olaraq bura iki anlayışda daxil olur: mövcud və tələb olunan resurslar kəmiyyəti.

Tədqatın birinci mərhələsi aktivliyin mövcud səviyyəsini əhatə edir. Belə ki, müəyyən kapital qoyuluşunu tələb edən resurslar müəyyən olunur. Artıq olan resurslar isə gələcəkdə istifadə olunmalıdır.

Təhlilin ikinci mərhələsinə məqsədlər müəyyənlədirilərək inkişafın variantları seçilir.

Hər bir variant turistlərin (qrupların) ümumi miqdarını, tərkibini və onların resurslardan yaranmasını nəzərə alaraq almalıdır, bu da turizmin mövcud vəziyyətini göstərir.

**İqtisadiyyatın digər fəaliyyətinin "sərfiyyat" və "əlverişliliyinin" təhlili**

Aydındır ki, turizm regionun iqtisadi inkişafının bir formasıdır. Regionun başqa inkişaf formalarını kənd təsərrüfatının intensifikasiyası, industrilizasiya və xarici ticarət təşkil edir. Sənaye inkişafı zamanı bütün mövcud resurslar mütləq nəzərə alınır. Bura bütün mövcud xammal növləri (kənd təsərrüfatı, mineral ehtiyatlar və s.), infrastruktur sistemləri (dəmir yolları və avtostradalar, su təchizatı və kanalizasiya şəbəkələri, mövcud işçi

potensialı) daxildir. İstifadə edilən resursların həcmi (istehsalatın növləri və sahəsi üzrə), region üçün müəyyənləşdirilməsi planlaşdırılması kimi aparılır.

Tədqiqatın əsas məqsədi istehsalatın resursların növlərini nəzərə alaraq asılılığının müəyyənləşdirilməsidir, yəni resurslara tələbatı olan bir sıra sənaye sahələridir.

Nəticədə resursların artıq olması və ya çatışmazlıqları üzə çıxır, bu təhlilin ikinci mərhələsinin keçidinə yol açır. Bu baxımdan inkişafın bütün variantları bir sıra sahələrin uzlaşmasını nəzərə alaraq istehsalatın ümumi həcmi göstərilməlidir. İstehsalatın və əhəmiyyətli kapital qoyuluşlarının həcmini bildikdə ümumi kapital qoyuluşların hər variantı və inkişaf səviyyəsi üçün göstəricilər müəyyən edilir. Analoji olaraq digər fəaliyyət növlərini də təhlil etmək olaraq.

**Hüdudların (həddlərin) təhlilinin tədbiqi**

Yuxarıda qeyd olunan təhlilin metodlarının özəlliklərinə baxmayaraq bu metodlarda çatışmazlıqlara da rast gəlmək olur. Belə ki, resursların həcmlərinin inkişafının bütün mərhələlərində eyni kapital qoyuluşların tədbiqini istifadə oluna bilər. Bu baxımdan bütün resursların həcmlərinin artırılması üçün vaxtaşırı və ya birdəfəlik kapital qoyuluşların həyata keçirilməsi məqsədəuyğun sayıla bilər. Əslində bu belə deyil, çünki müəyyən resurslarda birdəfəlik kapital qoyuluşları müvafiq hesablamalara təsir edir. Bu da məsariflərin hesablanmalarının düzgün olmamasına gətirib çıxarır. Bu nöqteyi nəzərindən resurslar aşağıdakı formada təsnifatlaşır:

1. Kapital qoyuluşların artması nəticəsində resursların həcmləri artır, yəni xətti xarakter daşıyır (yaşayış fondu);

2. İri kapital qoyuluşu nəticəsində resursların həcmləri məqsədyönlü artır (infrastruktur sistemləri);

3. Praktiki nöqteyi nəzərindən resursların həcmlərinin artmaması (təbiət resursları);

Metodiki nöqteyi nəzərindən hüdudlar (hədlər) anlayışının tətbiqi resursların səviyyələrinin ikinci və üçüncü qruplara aid olmasını tələb edir. Səviyyələrin müəyyənləşdirilməsi isə xüsusi tədqiqatların aparılmasını tələb edir, bu da resursların gələcək formalaşdırılmasına təsir edir. Resrusların gələcək müqəddəratının baxılması zamanı səviyyələrin müəyyənləşdirilməsi xüsusi tədqiqatları tələb edir. Müəyyənləşdirilmiş hüdudlar (həddlər) səviyyələri aralıq səviyyələrini (variantlar) istisna edir, çünki kapital qoyuluşların dondurulmasını nəzərə alaraq qeyri effektiv sayılır. Resursların hüdudlar (həddlər) xüsusiyyətləri mövcud olduğu zamanı problemin sadələşməsi ortaya çıxır. Praktiki nöqteyi nəzərindən resursların birinci qrupuna aid (xətti dəyişikliklər) olan məsariflər hüdudlar məsariflərdən ayrı baxılmalıdır.

**Ərazinin hissəli bölünməsinin modeli**

Hüdudlar (həddlər) təhlillərinin tətbiqi modelini ilkin mürəkkəbləşməsini ortaya çıxardı.

Tədqiqatın ikinci mərhələsində regionun ərazisinin ölçüləri nəzərə alınmamalıdır. Lakin ərazinin ölçüləri təhlilin məqsədləri üçün vacib sayılır. Əgər regionun ərazisi həddindən artıq olsa resurslar istifadəçinin əldə edilə bilən sərhədlərindən kənara çıxır. Bu baxımdan region ərazisi bir neçə hissələrə bölünməlidir. Fəaliyyətin hər bir tipini araşdırdıqda bölünmənin kriteriyaları nəzərə alınmalıdır. Bölünmüş ərazilərin hər bir strukturu təhlil olunur. Tədqiqatın cəmləndirilməsini nəzərə alaraq aşağıdakıları qeyd etmək olar:

1. Regionda inkişafın optimal variantının həllinin müəyyənləşməsi
2. Resursların istifadəsinin əlverişli olmasını nəzərə alaraq kifayət qədər müsbət rolu
3. Regionun inkişafının mərhələli aparılması

**Çoxfunksiyalı model**

Qeyd etmək lazımdır ki, regionun bir istiqamətdə fəaliyyət göstərilməsi üçün həm sosial həm də iqtisadi nöqteyi nəzərindən məqsədəuyğun sayılır. Eyni zamanda çoxfunksiyalı yanaşma da təhlili mürəkkəbləşdirir.

**Şəhərlərin ərazilərinin hüdudlar (həddlər) təhlili**

Polşa urbanisti B.Maliş tərəfindən yaradılmış hüdudlar (həddlər) nəzəriyyəsi şəhərlərin ərazilərinin planlaşdırılmasında və inkişafında bir alət kimi mühüm rol oynayır. Lakin B.Maliş öz araşdırma və elmi tədqiqatlarında hüdudlar (həddlər) təhlilini yalnız şəhərlərə aid edirdi. Bu da təhlilin şəhər sərhədlərindən kənara çıxmamasına gətirib çıxarırdı. Dünyavi təcrübəyə nəzər yetirdikdə aydın olur ki, təhlillər yalnız regiondan başlayaraq şəhərin planlaşdırılmış rayonlarını da əhatə etməlidir, yəni region-şəhər-planlaşdırılmış rayon sxeminə uyğun aparılmalıdır.

Qeyd etmək lazımdır ki, şəhərin inkişafı diskret ardıcıllıqlardan ibarətdir. Buna rəğmən şəhərin ərazisinin gələcək inkişafının təhlili vacibdir. Ərazi inkişafı prosesində şəhər bir sıra müəyyən məhdudiyyətlərlə qarşılaşır, bu da şəhərin mərhələli inkişafı prosesinə mühüm təsir göstərir. B.Maliş məhdudiyyətləri üç qrupa bölür:

1. Təbiət mühitinin (özəlliyi) müxtəlifliyi
2. Mövcud torpaqdan istifadə sistemləri
3. İnfrastrukturun xüsusiyyətləri

**Şəhərin mövcud struktur elementlərinin inkişafında olan inersiya**

Beləliklə, relyefin dərə-təpəliklərin, bataqlıqların və çay üzərindən qarşıdakı sahilə keçid üçün körpü tikintisi ilə əlaqədar məhdudiyyətlərin aradan qaldırılması məsələsi həll olunmalıdır. Bu da əlavə kapital qoyuluşlarına gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, şəhərin ərazi inkişafında vaxtaşırı

“dondurulmalar” nəzərə çarpır. Bu məhdudiyyətlərin qarşılını almaq üçün əlavə sərfiyyatların məqsədəuyğun olmasından asılıdır. Əlavə sərfiyyatların qiymətləndirilməsi üçün hüdudlar (həddlər) məsarifləri gündəmə gəlir. Bunların ölçüləri yuxarıda göstərilən ərazilərin xüsusiyyətlərindən asılıdır. Şəhər ərazinin inkişafı variantları hüdudlar (həddlər) əyri xətt kimi göstərilir, bu da iqtisadi effektivliyi ilə müqayisə olunur. Sərfiyyatlar artıq dərəcədə yüksək olsa hüdudların səviyyəsi də yüksək olur, nəticədə “kritik hüdud” meydana gəlir. Bu “kritik hüdud” şəhərin gələcək inkişafına mane olmur. Bu zaman yalnız şəhərsalma taktikasının dəyişilməsinə diqqət yetirmək lazım olur. Eyni zamanda şəhərin genişləndirilməsi əvəzinə onun başqa-başqa hissələrinin yerdəyişmələri meydana çıxır: funksional profilinin və ya planlaşdırma strukturunun dəyişlənməsi, tikinti sıxlığın böyüməsi meydana gəlir.

Torpaqların (sahələrin) təhlili zamanı aşağıdakılara nəzər salmaq lazımdır:

a) təbiətin xüsusiyyətləri;

b) torpaqdan istifadənin mövcud sistemi;

c) tələb olunan infrasutrukturun təşkil edilməsi;

Regionun və şəhərin əhatəsinin sxemində müəyyən müsbət dəyişikliklər olunan zaman ərazi hüdudlar (həddlər) xətləri ilə sərhədləşir. Təhlil, şəhər ərazilərinin məqsədəmüvafiq və optimal variantının seçilməsinə, o cümlədən şəhərin strateji inkişafının müəyyən olunmasına təkan verir. Şəkil 1-də hüdudlar (həddlər) əmsalının artması nümayiş olunur.




**Şəkil 1. Şəhərin inkişafının təsdiqlənməsində həddlər (hüdudlar) təhlili (Y.N.Pertsik) [4]**

Beləliklə, hüdudlar (həddlər) təhlili şəhər ərazisinin genişlənmədirilməsi və ya ərazinin rekonstruksiyasının effekti variantının qəbul edilməsini qiymətləndirir. Qeyd etmək lazımdır ki, hüdudlar (həddlər) təhlili sənaye sahələri, tarixi əhəmiyyətli və digər tikintiyə yararlı olmayan ərazilərə şamil edilmir.

Şəhər məkanının inkişaf zonaları: 1 – cənub istiqamətində (sənaye müəssisəsinin sanitar zonasına qədər a); 2 – şərq istiqamətində (əlverişsiz ərazilərdə, dağ massivinə qədər); 3 – şəhərin yenidən qurulması (rekonstruksiyası); 4 – şimal istiqamətində, dəmir yolun kənarında (müəssisənin sanitar zonasına qədər b); 5 – qərb istiqamətində (çay kənarında). Şərti işarələr: I – çay; II – dəmir yolu; III – tikilmiş bina və qurğular; IV – «qarşısıalınmaz hüdudlar (həddlər)» xətti

**Nəticə.** Müasir dövrdə urbanistika elmi bir sıra elmi-tədqiqat və elmi araşdırmaların meydana gəlməsi müşahidə olunur. Bunlardan ən önəmli və məqsədyönlü, həmçinin XXI əsrə xas olan elmi-tədqiqat təhlilləri arasında region və şəhərlərin hüdudlar (həddlər) təhlili urbanistikada vacib rol oynayır. Aydındır ki, region və şəhərlərin gələcək inkişafında bir sıra məhdudiyyətlərə rast gəlinir. Bu baxımdan region və şəhərlərin hüdudlar (həddlər) təhlili önəmli bir prosedura sayılaraq məskunlaşma ərazilərində gələcək sənaye, inkişaf edən kənd təsərrüfatı və aqrar sənayesi zonalarının düzgün və məqsədyönlü dislokasiyasına kömək edir. Bu təhlillər nəticəsində inkişaf variantlarında da müsbət və ya mənfi yanaşmalar müəyyənləşdirilir.

## Ədəbiyyat:


1. Əzizov A.M. Şəhərsalmanın layihələndirilməsi. Bakı, 2019, 103 s.
2. Азизов А.М. Градостроительный каркас региональных систем расселения Азербайджана. Баку, 2018, 272 с.
3. Azizov A.M. Sustainable habitat as the main factor of urbanization. Problemy ekorozwoju/Problems of sustainable development. 2020, vol.15, no. 1, 135-148 p.
4. Перцик Е.Н. Город в Сибири. М., 1980, 286 с.
5. Great Britain, Grangemouth and Falkirk Regional Survey and Plan, Edinburg: HMSO, 1968
6. Boleslaw Malitsz. Threshold analysis as a tool in urban and regional planning/ Papers of the regional science association. Vol.29, 1972 (eleventh European congress, Rome, 1971)


**Aqaselim Azizov**

### Boundarıes (borders) analysıs of regıons and cıtıes

**Keywords:** urbanization, town planning, regional settlement system, boundaries (borders), geographic space, limitations, costs, resources

The analysis of boundaries (borders) underlies promising programs for

the development of regions and cities, is one of their main indicators in terms of urban planning. When expanding the territories of a region or city, the analysis of boundaries (borders) involves a number of development options, the elimination of existing restrictions affecting the development of the future post-stage process. This opens the way to the most optimal variant among them on a set of parameters. The chosen optimal options play a leading role in the development of perspective (conceptual) general plans not only long-term projects, but even regions and cities. The author also touches upon the problems of lifting a number of restrictions that prevent urban expansion. Among them are the complexity of the relief, the presence of swamps and the deployment of other anthropogenic elements in the area. At the same time, the analysis takes into account the presence of future industrial, intensively developing agricultural and agro-industrial facilities in the territories.

**Агаселим Азизов**

## Анализ границ (ограничений) регионов и городов

**Ключевые слова:** урбанизация, районное планирование, региональная система расселения, границы (пределы), географическое пространство, ограничения, затраты, ресурсы.

Анализ границ (пределов) является основой и базой будущих программ развития регионов и городов, и является одним из основных их показателей с точки зрения градостроительства. При расширении территорий региона или города анализ границ (пределов) предполагает ряд вариантов развития, влияющих на развитие будущего поэтапного процесса, устраняющих существующие ограничения. Это дает возможность выбрать наиболее оптимальный вариант по набору параметров. Выбранные оптимальные варианты играют ведущую роль при разработке не только долгосрочных проектов, но и перспективных (концептуальных) генеральных планов регионов и городов. Автор также затрагивает проблемы устранения ряда ограничений, препятствующих расширению городов. Это сложность рельефа, наличие болот и дислокация других антропогенных элементов на территории. При этом в анализе учитывается и наличие на территориях будущих промышленных, интенсивно развивающихся сельскохозяйственных и агропромышленных объектов.

**Yeganə Kərimli**

Azərbaycan Memarlıq və İnşaat Universiteti
"Memarlıq layihələndirilməsi və şəhərsalma" kafedrası,
baş müəllim
yegane.kerimli@gmail.com

**UOT 656.015**

# İRI TİCARƏT MƏRKƏZLƏRİNİN NƏQLİYYAT XİDMƏTİNİN ÜMUMİ PRİNSİPLƏRİ

**Xülasə:** Məqalə iri ticarət mərkəzlərinin nəqliyyat xidmətinin təşkilinə, onun ümumi prinsiplərinin elmi cəhətdən araşdırılmasına həsr edilmişdir. Burada - ticarətin, cəmiyyətin tarixi inkişaf prosesinin ən güclü amillərindən biri kimi ictimai həyata təsiri göstərilir. Eyni zamanda, ictimai-ticarət mərkəzlərinin şəhər strukturunda yeri, onların iri şəhər ansambllarının və komplekslərinin yaradılmasında rolu müəyyənləşdirilir.

Məqalədə ticarət mərkəzlərinin ərazisinin nəqliyyat karkasının həll olunmsı, avto-dayanacaqların tipləri və onların yerləşdirilməsi, dayanacaqda hərəkətin təşkili və avtomobillərin yerləşdirilmə qaydaları haqqında məsələlər araşdırılır. Yekun nəticə olaraq ictimai-ticarət mərkəzlərinin planlaşdırılmasının əsas çatışmamazlıqları üzə çıxarılır və iri ticarət müəssisələrinin nəqliyyat xidmətinin səmərəli təmin olunması üzrə tövsiyələr təqdim edilir.

**Açar sözlər:** ictimai-ticarət mərkəzləri, nəqliyyat xidməti, avto-dayanacaqların tipləri, hərəkətin təşkili

**Giriş.**Ticarət cəmiyyətin tarixi inkişafı prosesində ən güclü amillərdən biridir. Tarixdə elə bir dövr yoxdur ki, o, ictimai həyata az-çox təsir etməsin. Ölkə daxilində sadə əmtəə mübadiləsindən başlayaraq, bütün dünyaya yayılmış ən mürəkkəb kommersiya əməliyyatları şəbəkəsi ilə bitən müxtəlif ticarət münasibətləri həmişə bu və ya digər şəkildə ictimai həyatın müxtəlif tərəflərinə təsir göstərmişdir. Ticarət mərkəzləri dünya üzrə şəhərlərdə və başqa yaşayış yerlərində həyat keyfiyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayır.

Hələ qədim zamanlarda istehlakçı üçün onun asan hərəkət edəbiləcəyi komfortlu mühitin yaradılmasının vacibliyi qeyd edilirdi ("...ticarət yerləşgələrinin dəqiq və funksional strukturu yunan aqoralarının, roma forumlarının və şərq karvansaraylarının mühüm xüsusiyyəti olmuşdur").

Məsələn, qədim zamanlarda bazarlar şəhər məkanlarının vacib funksional hissəsi kimi baxılırdı, çünki burada ayrı-ayrı vətəndaşları və onların ev təsərrüfatını unikal sosil toplumda birləşdirən şəhər kommunikasiya mühiti yaranırdı. Müasir şəhərlərdə isə ictimai məkanlar başqa cür görünür, belə ki, onlar insanların ünsiyyəti üçün meydanlar deyil, “baxış” yerləridir.

1990-cı illərdə Azərbaycan müstəqillik əldə etdi. Bu zamana qədər 200 il davam edən müxtəlif inkişaf mərhələlərini keçən Qərb kapitalist cəmiyyəti 21-ci əsrin əvvəllərində müasir sosioloqların müəyyən etdiyi kimi “istehlak cəmiyyətinə” çevrilmişdi. Müstəqillik illərində Azərbaycanda pərakəndə ticarət sistemi əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır.

Azərbaycanda, o cümlədən, Bakıda - özündə əyləncə, idman, sağlamlıq və başqa ictimai funksiyaları birləşdirən iri ticarət mərkəzlərinin layihələndirilməsi və tikintisi nisbətən yeni, lakin sürətlə populyarlıq əldə edən tendensiyadır. Yerli praktikada ticarət-əyləncə mərkəzlərinin tikinti bumu (sıçrayışı) XXI əsrin əvvəllərində başladı, lakin, bu tip binaların yüksək populyarlığına baxmayaraq yerli memarlıq praktikasında belə ticarət mərkəzlərinin funksional-məkan təşkili və şəhərsalma yerləşdirilməsi haqqında bütöv təsəvvür hələ formalaşmayıb. Ətrafında əyləncə, inzibati, məişət, sağlamlıq və hətta yaşayış (otel) və başqa funksiyaların birləşdiyi maqnit –ticarət binalarına olan bugünku tələbat yeni memarlıq-planlaşdırılma, konstruktiv və şəhərsalma həlləri tələb edir.

Hələ, iyirminci əsrin 70-ci illərində dünya praktikasında xidmət müəssisələrinin iriləşdirilməsi tendensiyası, onların iri komplekslərdə xidmət sferasının başqa idarə və müəssisələri ilə uyğunlaşaraq birləşdirilməsi və nəqliyyat vasitələri ilə sıx qarşılıqlı əlaqəli şəkildə həll edilməsinə başlanılmışdı. Ticarət mərkəzlərinin memarlıq formalaşmasının tarixini təhlil edərkən qeyd etmək lazımdır ki, ticarət şəbəkəsinin təkmilləşməsi, onun maddi-texniki bazasının inkişafı, müasir ticarət üsullarının tətbiqi və xidmət mədəniyyətinin yüksəldilməsi - ticarət binalarının layihə həllərinin yaxşılaşdırılması ilə, onların həcmi-məkan və konstruktiv həllərinin təkmilləşdirilməsi ilə bilavasitə bağlıdır və elm və texnikanın qabaqcıl nailiyyətlərinin memarlıq-tikinti praktikasına tətbiqini tələb edir.

İctimai-ticarət mərkəzinin şəhər strukturunda yeri. İctimai-ticarət mərkəzi iri şəhər ansambllarının yaradılmasında əsas elementdir. O, yaşayış massivinin mərkəzində, şəhər meydanlarında, nəqliyyat qovşaqlarında və s. yerləşə bilər. Çoxfunksiyalı ticarət mərkəzlərinə inzibati, ictimai, mədəni-maarif, ticarət və məişət xidməti müəssisələri daxildir. Şəhərin özəyində müasir ictimai-ticarət mərkəzlərinin memarlığını formalaşdırarkən aşağıdakı prinsiplərə əsaslanmaq lazımdır:

-tarixi binaların və məhəllədaxili məkanların modernləşdirilməsi;

-piyada küçələrin və meydanların mərkəzin planlaşdırma strukturuna daxil edilməsi;

-yeraltı məkanlardan istifadə.

İctimai-ticarət mərkəzi mürəkkəb sosial funksiyaların həyata keçirilməsi ilə yanaşı, şəhərin mərkəzi ansamblı olmaqla ona ifadəlilik və orijinallıq verir. Bakı şəhərində belə ticarət mərkəzlərinə misal olaraq "Dəniz Mall", "Park bulvar", "Şərq Bazarı", "Gənclik Mall" və başqalarını göstərmək olar.

Baş planın həlli zamanı ərazinin hərtərəfli abadlaşdırılması, o cümlədən yaşıllaşdırma, piyada yollarının, istirahət zonalarının təşkili, kiçik memarlıq formalarının yerləşdirilməsi, vizual kommunikasiya sistemlərinin yaradılması mühüm məsələlərdir. İctimai - ticarət mərkəzinin layihələndirilməsi üçün ərazi təxminən 1,15-1,5 hektar sahəni tutur və aşağıdakı zonalardan ibarətdir: piyada, nəqliyyat, kommunal, şəxsi nəqliyyat vasitələri üçün dayanacaqlar. Piyada zonası yaşıllıq sahələri - hovuzların, xiyabanların, fəvvarələrin və başqa kiçik memarlıq formalarının daxil edilməsini nəzərdə tutur.

Nəqliyyat girişləri əsas piyada axınları ilə kəsişməməli və əsas nəqliyyat magistrqalları ilə yaxşı keçidlərə malik olmalıdır. Onlar təcrid olunmuş təsərrüfat həyati və ya ayrı-ayrı boşaltma meydançaları ilə bitə bilər. Nəqliyyat girişlərinin layihələndirilməsinin və yükləmələrin təşkilinin yeraltı səviyyədə həyata keçirilməsinə icazə verilir. Baş plan şəxsi nəqliyyat vasitələri üçün parkinq və ictimai nəqliyyatın dayanacaqlarını nəzərdə tutmalıdır. Tələb olunan dayanacaq yerlərinin müəyyən edilməsi üçün hesablama vahidi 100 m2 ticarət sahəsidir ki, bu da mövcud qaydalara əsasən 10 dayanacaq yeri tələb edir. Alıcıların avtomobilləri üçün dayanacaqlar ticarət obyektlərindən 150 m-dən çox olmayan məsafədə nəzərdə tutulmalıdır.

İctimai-ticarət mərkəzin ərazisinin təxmini hesablanmış göstəriciləri

| İctimai-ticarət mərkəzi ...min nəfər sakin üçün | Həcmi | Sahəsi, ha | | | | |
|---|---|---|---|---|---|---|
| | | Tikinti | Piyada zonaları (yaşıl zona və mövsümi ticarət nəz. alınmaqla) | Avto dayanacaq | Təsərrüfat zonası | Cəmi |
| 20 | 30000 | 0,3-0,4 | 0,6-0,8 | 0.06-0,09 | 0,15-0,2 | 1,15-1,5 |
| 30 | 40000 | 0,4-0,5 | 0,9-0,11 | 0.09-0,13 | 0,2-0,3 | 1,6-2,1 |
| 50 | 50000 | 0,5-0,6 | 1,2-1,4 | 0,15-0,2 | 0,25-0,45 | 2,1-2,6 |

Ticarət kompleksinin ərazisinin nəqliyyat karkası - əsas, köməkçi yollar və dayanacaqdaxili keçidlərdən ibarət şəbəkədir. Əsas avtomobil yollarının eni parklanma üsulundan və keçidin ikitərəfli və ya birtərəfli olmasından asılı olaraq, bir qayda olaraq, 8-9 metr, ikinci dərəcəli - 7 metr, daxili parkinq - üç metrdən altı metrə qədərdir. Əsas yollarda adətən birtərəfli nəqliyyat təşkil edilir, ikinci dərəcəli və parkdaxili yollarda - ikitərəfli hərəkət. Bu, həm işlək hissələrdə münaqişə nöqtələrinin sayının azaldılmasını təmin edir, həm də sürücülər üçün başa düşülən hərəkət sxemi formalaşdırır.

İri ticarət mərkəzlərinin ərazi planlaşdırılmasının təşkili məsələlərinin həllində əsas vəzifələrdən biri piyadaların təhlükəsiz hərəkətini təmin edən piyada yolları sisteminin və piyada zonalarının formalaşdırılmasıdır. Bundan əlavə, əsas nəqliyyat və piyada axınlarının kəsişmələrində əlavə hərəkətin təşkili tədbirləri tələb olunur.

**Mağazada və ya ticarət mərkəzində parkinqin təşkili.** İri ticarət mərkəzlərinin nəqliyyat xidməti onların ixtisaslaşması, ölçüsü və şəhər strukturunda yerləşməsi ilə diktə edilən bir sıra xüsusiyyətlərə malikdir.

Demək olar ki, bütün iri postsovet şəhərləri, o cümlədən Bakı şəhəri artıq avtomobillərin sayının artması problemi ilə üzləşib. Həddindən artıq yüklənmiş nəqliyyat yolları və qovşaqları, müəyyən saatarda olan tıxaclar, səkilərin və hətta həyətlərdəki qazonların avtomobillərlə sıx dolu olması adi hala çevrilmişdir. Bu problem bütün iri şəhərlərdə kəskindir. Çoxlu sayda şəxsi avtomobillərin hesaba alınmadığı sovet dövründəki şəhərsalma vəziyyətinin ağır mirası öz təsirini göstərməkdədir. Avtomobil sahibləri öz avtomobilrini ofisin və ya evin yaxınlığındakı pulsuz küncə "sıxışdırmağa" öyrəşmiş olsalar da, mağazanın qarşısında rahat parkinq görmək istərdilər. Mağaza – alıcıların dəvət olunduğu, xərclənən pul müqabilində onlara hər cür rahatlıq və zövq verməyə hazır olan yerdir. "Dayanacaq yoxdursa, alış-veriş də yoxdur" – bu gün bu fikirlə razılaşmamaq mümkün deyil. Mağaza ziyarətçiləri parkinqi fasadla eyni vaxtda görür və mağaza haqqında təəssürat elə buradan başlayır. Boş dayanacaq alıcıda mağazanın məşhur olmasına şübhə yaradır. Əlverişsiz bir dayanacaqda yer tapmaqda çətinlik çəkən müştəri isə mağazaya pis əhval-ruhiyyədə girə bilər. Xatırlatmaq istərdik ki, ticarət memarlığının əsas vəzifəsi müştərini cəlb etmək və yaxşı əhval-ruhiyyə yaratmaqdır, çünki insanlar yaxşı əhval-ruhiyyədə daha çox pul xərcləyirlər və xoş təəsürat yaranan yerlərə daha tez-tez gəlirlər. Roma imperatoru Mark Avrelinin dediyi kimi, "heç kim özü üçün fayda, mənfəət və həzz almaqdan yorulmaz".

Alıcıların dayanacağa girərkən düşündükləri başqa bir şey hərəkət rahatlığıdır. Həm alıcı maşının içində olarkən, həm də maşından çıxanda rahat olmalıdır. Alıcının avtomobilini saxladıqdan sonra mağazaya və ya ticarət mərkəzinə haradan daxil olacağı, aldığı malları avtomobilə necə

çatdıracağı, yaxud iri həcmli alış-verişləri yükləmək üçün maşına rahat yaxınlaşa bilməyi - bütün bunlar alıcı üçün əhəmiyyətli amillərdir. Buna görə də, ticarət müəssisəsinin parkinqi necə düzgün təşkil edilməsindən bəhs edək.

**Standartlar və hesabi göstəricilər.** Mağazalar və ticarət mərkəzləri üçün tələb olunan parkinq yerlərinin sayı hər 15-25 m2 satış sahəsinə 1 dayanacaq yeri nisbətində müəyyən edilir (Dövlət şəhərsalma norma və qaydaları. AzDTN 2.6 -1). Daha dəqiq hesablama üçün tənzimləmə aparılır və mağazanın (ticarət mərkəzinin) növü və müştərilərin şəxsi avtomobili ilə gəlmə xüsusiyyətləri nəzərə alınır.

Dayanacaq yerlərinin sayına aşağıdakı amillər təsir edir:

*Ticarət sahəsinin ölçüsü* - Dayanacaq yerlərinin sayı, məsələn, ticarət sahəsinin 10-15 m2 üçün 1 yerə qədər artırıla bilər. Bu hesablama şəhər hüdudlarından kənarda yerləşən iri ticarət müəssisələri üçün istifadə olunur - hipermarketlər və Cash & Carry (Cash & Carry – malların topdansatış, xırda-satış alış-verişini həyata keçirən, özünəxidmət formatında çoxpilləli ticarət müəssisəsidir). Ticarət meydançası 500-dən 1000 m2-ə qədər olan kiçik mağazalar üçün parkinq yerlərinin hesablanmış sayı 2,5 dəfə azaldıla bilər.

*Ticarət müəssisəsinin ixtisaslaşması* - Ticarət mərkəzində çoxlu sayda alıcı cəlb edən və ya ziyarətçini burada xeyli müddətə "ləngidən" müəssisələrin olması daha çox parkinq yeri tələb edir. Məsələn, kinoteatrlar, restoranlar, idman və əyləncə obyektləri. *Tələbatın və ziyarətçilərin say nisbəti* – ticarət müəssisəsində bəzi saatlarda müştəri ziyarətinin pik yüksəlmələri ola bilər. Belə vaxtlarda müəssisənin dayanacağı bütün arzu edən alıcıları yerləşdirmə potensialına malik olmalıdır, əks halda, mağaza, dayanacaqda bir neçə dəfə yer tapmayan müştərini birdəfəlik itirə bilər.

*Yaşayış və ya ofis ərazilərindən, stansiyalardan və ictimai nəqliyyat marşrutlarından uzaqlıq məsafəsi* - Aydındır ki, mağazaya piyada və ya avtobusla getmək çətin və ya qeyri-mümkün olduqda, parkinq yerlərinin sayı kifayət qədər olmalıdır. Belə ki, ictimai iaşə müəssisələri üçün masalardakı oturacaqların sayı nəzərə alınır və 6-12 oturacağa 1 dayanacaq yeri düşür. Restoranın kateqoriyasından asılı olaraq bu rəqəm dəyişə bilir, məsələn, “lüks” restoran üçün 6-7 oturacağa 1 dayanacaq, I sinif restoran üçün 10-12 oturacağa 1 dayanacaq yeri, kafe üçün 11-12 oturacağa 1 dayanacaq yeri hesablanır. Kompleksdə ofis funksiyası olduqda parkinq işçilərin sayına görə hesablanır və 3-5 nəfərə 1 parkinq yeri olmalıdır.

Ticarət müəssisəsinin əldə edəcəyi mənfəət - onun maşın dayanacağı ilə təmin olunma əmsalından asılıdır. Məsələn, deyək ki, bir mağazanın satış sahəsi 3500 m2-dir, tələb olunan dayanacaq yerlərinin sayı 140-dır. Layihənin isə cəmi 110 avtomobili yerləşdirmək imkanı var, müvafiq olaraq mağazanın dayanacaqla təminolunması 78,6% təşkil edəcək. Bu o deməkdir ki, hər beş potensial alıcılarından biri bu mağazanın dayanacağında öz

avtomobilinə yer tapmayacaq. Beləliklə, itirilmiş mənfəəti təsəvvür etmək olar.

Xarici təcrübədə ABŞ və Kanadada parkinq indeksi göstəricisindən istifadə olunur. Parkinq indeksi - Ümumi İcarəyə verilmiş Sahənin (GLA) hər 1000 kvadrat futuna düşən parkinq yerlərinin sayıdır. 1000 kvadrat fut 93 kvadrat metrə bərabərdir.

Ərazinin ölçüsündən və ticarət mərkəzinin növündən asılı olaraq ABŞ-da aşağıdakı dəyərlər qəbul edilir:

**GLA ölçüsü 4** - 25.000 ilə 400.000 kv fut arasında olan ticarət mərkəzləri üçün (2350 - 37200kv.m).

**GLA ölçüsü 4.5** - 400.000 - 600.000 kv fut (37 200 - 55 800 kv.metr) ticarət mərkəzləri üçün.

**GLA ölçüsü 5** - 600.000 kv.fut-dan (55,800 kvadrat metr) çox olan ticarət mərkəzləri üçün.

Kanadada rayon ticarət mərkəzi üçün 3.9, regionlararası üçün 5.5 göstərici məqbul hesab olunur. Beləliklə, görürük ki, pərakəndə satış obyekti nə qədər böyükdürsə, 100 kvadrat metrə bir o qədər çox parkinq yeri düşür. Texas Universitetinin professoru Reillynin klassik düsturunu xatırlayaq - böyük pərakəndə satış sahəsi daha böyük ərazidən alıcıları cəlb edir və onlar mağazaya və ya ticarət mərkəzinə çatmaq üçün uzun yol qət edə bilərlər.

*Ticarət və xidmət müəssisələrinin ixtisaslaşmasından* - Belə ki, hipermarket və ya çoxzallı kinoteatrın olduğu ticarət mərkəzində indeks dəyəri 6 və hətta 7 ola bilər. ABŞ-da belə hesab olunur ki, kinoteatrda hər 3 tamaşaçı yerinə bir parkinq yeri olmalıdır. Bizim ölkəmizdə kinoteatrların əsas ziyarətçiləri hələ avtomobil əldə etmək imkanı olmayan gənclər olduğu üçün vəziyyət bir qədər fərqlidir.

Ticarət mərkəzləində dayanacaq yerlərinni sayını müəyyən etdikdən sonra, tələb olunan ümumi sahəni hesablaya bilərik:

- Maşınların eninə düzülüşü ilə - 20 m2;
- Bucaq altında yerləşdirildikdə - 23 m2.
- Böyük avtomobillər üçün - 25 m2.

Peşəkar alıcılar üçün nəzərdə tutulmuş mağazaların böyük parkinq sahəsi olmalı və burada iri nəqliyyat vasitələri - mikroavtobuslar, furqonlar, yarı yük maşınları üçün yer ayrılmalıdır. Məsələn, Almaniyada parkinq sahəsinin 20%-ə qədəri onlar üçün ayrılıb. Belə nəqliyyat üçün yerin ölçüləri 6 x 2,5 m-dir.

İntensiv nəqliyyatın kiçik avtomobillərin populyarlığına səbəb olduğu ölkələrdə bəzən kiçik avtomobillər üçün yerlər ayrılır. Dayanacaqlarda velosipedlər, mopedlər, motosikletlər üçün yerlər də var. Velosiped üçün yerlər bağ evləri və kottec qəsəbələrinin yaxınlığında yerləşən mağazalar üçün də aktualdır. Lakin belə yerlərin etibarlı mühafizəyə ehtiyacı vardır.

**Dayanacağın yerləşdiyi yer.** Dayanacaqlar yerüstü, yeraltı, binanın damında və ya binaya bitişik (çox səviyyəli parkinq) ola bilər. Aydındır ki, yerüstü parkinq ziyarətçilər üçün daha əlverişlidir və sahibinə daha ucuz başa gəlir. Onun forması və konfiqurasiyası əhəmiyyət kəsb edir. Ərazidə binanın yerini və dayanacaq yerini təyin edərkən aşağıdakıları nəzərə almalıyıq: mağazaya yaxınlaşan ziyarətçilər üçün dayanacaq nə qədər görünür; dayanacağın nəzarəti və mühafizəsi varmı; ziyarətçilər ən ucqar nöqtələrdən girişə nə qədər piyada getməli olacaqlar.

Belə məlum olur ki, ən yaxşı variant binanın qarşısında yerləşən düzbucaqlı formada dayanacaqdır. L formalı dayanacaq düzbucaqlı formadan əlverişlilik baxımından bir qədər geri qalır, binanın ətrafında U formalı parkinq daha pis sayılır və ən pis həll müxtəlif yerlərdə yerləşən ayrı-ayrı dayanacaq parçalarıdır. Kommersiya memarlığı üzrə ingilis mütəxəssisi Nadine Beddington parkinqi elə yerləşdirməyi məsləhət görür ki, ən ucqar yerlərdən mağazalara qədər məsafə 200 m-dən çox olmasın.

Qeyd etmək vacibdir ki, gecə vaxtı yerüstü dayanacaqların perimetri, onun ucqar əraziləri və "ciblərinin" işıqlandırılmasına xüsusi diqqət yetirilməlidir. Açıq dayanacaqda minimum işıqlandırma 50 lx-dən (lüks) aşağı olmamalıdır.

Bir sıra ziyarətçilərin yeraltı dayanacaqlara münasibəti mənfidir. Yeraltı dayanacaq rahat olsa belə, ziyarətçilər yalnız yerüstü dayanacaqda bir yer olmadığına əmin olduqdan sonra ora gedirlər. Amma təbii ki, yerin məhdud olduğu şəhərin mərkəzində yeraltı parkinq ən əlverişli həll yoludur.

Damda və ya bir neçə səviyyədə parkinq yeraltından xeyli, hətta bir neçə dəfə ucuz ola bilər. Bu, bahalı yeraltı işlərin olmaması ilə bağlıdır: hidroizolyasiya, mürəkkəb hava mübadiləsi sistemləri və s. Bununla belə, yuxarıya giriş üçün əsas maneə rampanın çox yüksək bir yamacının və ensiz və kiçik radiusu olan döngənin olmasıdır. Pandusların uzununa və eninə mailiiliyi standartlaşdırılmamışdır, onlar layihədə "texnoloji tələblərə uyğun olaraq" qəbul edilməlidir. Xarici təcrübədə aşağıdakı eniş yamacları istifadə olunur: 10-12% - adi düzxətli rampalar; 8,5% - vintvari rampalar; 15% - dik Amerikan rampaları.

**Dayanacaqda hərəkətin təşkili.** Mağazanın girişi və digər mərtəbələrə keçidlər kimi, dayanacağa giriş də ziyarətçi üçün asan tapılmalıdır. Dayanacağa daxil olmaq üçün hara və nə vaxt dönmələri barədə ziyarətçilərə əvvəlcədən məlumat vermək lazımdır. İşarələrdə ox və döngəyə qədər olan məsafə olmalıdır. Aydın işarələr xüsusilə binanın qarşısında dayanacaq olmayan mağazalar üçün aktualdır.

İri ticarət mərkəzlərində avtomobil axınlarının və onların dayanacaq yerlərinin dərhal ayrılması vacibdir. Dörd əsas maşın axını var: müştəri avtomobilləri; mağazaya mal çatdıran yük maşınları; xidmətçilərin şəxsi nəqliyyatı; ictimai nəqliyyat (avtobuslar, marşrut taksilər).

**Dayanacaqda avtomobillərin yerləşdirilməsi**. Bir avtomobil üçün dayanacaq yerinin ölçüləri avtomobil yollarının enindən və yerləşdirmə üsulundan asılı olaraq qəbul edilir. Dar keçidi olan park yerinin eni artırılır ki, içəri girmək üçün real imkan yaransın.




**Şəkil 1. Eninə yerləşmə**




**Şəkil 2. Ensiz keçidi olan eninə yerləşmə**




**Şəkil 3. Bucaq altında yerləşmə**

Dayanacaq yeləri 45 və ya 60 dərəcə bucaq altında olarsa, giriş / çıxışın rahatlığı və sürəti artır, tıxaclar yaranmır. Küçədə bir mağazanın qarşısında parkinq zolaq şəklində eninə yerləşdirilirsə, bu həm yola düşən avtomobillər, həm də yüksək sürətlə hərəkət edən yoldan keçən avtomobillər üçün təhlükəli ola bilər.

Ancaq 90 dərəcə parkinqin tutumu təbii olaraq daha böyükdür. Şəkildəki cədvəldə səki xətti boyunca təxmini parklanma dərəcələri göstərilir:

| **Avtomobillərin səki xəttinə nəzərən bucaq altında yerləşdirilməsi** | **45 dərəcə** | **60 dərəcə** | **90 dərəcə** |
|---|---|---|---|
| **Eni, m** | **5** | **5,4** | **5,5** |
| **1avtomobilə düşən sahə** | **18** | **16** | **13** |
| **100m uzunluğunda zolaqda yerləşən maşınların sayı** | **31** | **38** | **43** |

İctimai-ticarət mərkəzlərinin planlaşdırılmasının əsas çatışmazlıqları:

1. Kompleksin yerləşdirilmə imkanlarından istifadə edilməməsi və şəhər strukturu ilə, ərazinin yaxınlığından və ya bilavasitə yaxınlığından keçən

piyada və avtomobil yolları ilə əlaqələndirilməməsi - Nəticədə ticarət obyekti özünü doğrultmur, üstəlik yerli sakinlərin narazılığına səbəb olur.
2. Səviyyələr arasında keçidlərin uğursuz təşkili - Alıcılar keçid nöqtələrini axtarmamalıdırlar: onlarla toqquşmalı və qarşılaşmalıdırlar.
3. Orientasiyanın çətinliyi, budaqlanmış marşrut, eyni əhəmiyyətlit keçidlər - Narahat və maraqsızdır.
4. Həddindən çox geniş keçid - Ziyarətçilər ancaq bir tərəfdən istifadə edirlər və ya hərəkət sərbəstliyindən yollarını itirirlər.

**İri ticarət mərkəzlərinin nəqliyyat xidməti üzrə tövsiyələr.**

İri ticarət kompleksləri üçün nəqliyyat xidməti məsələsinin həlli kompleksin fəaliyyətini təmin etmək, ona bitişik ərazilərə mənfi təsirini azaltmaq məqsədi daşıyır.

Bu məqsədlərə nail olmaq üçün bir sıra vəzifələri həll etmək lazımdır:

- iri ticarət komplekslərinin ərazisinə maneəsiz giriş və çıxışın təmin edilməsi;
- sahədə dayanacaqların tələb olunan tutumunun təmin edilməsi;
- ticarət mərkəzlərinin ərazisində nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz hərəkətinin təmin edilməsi;
- ticarət kompleksinin ixtisasının nəzərə alınması.
- Böyük ticarət kompleksinin ərazisində nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz hərəkətinə aşağıdakı tədbirlərin həyata keçirilməsi ilə nail olunur:
- Əsas, ikinci dərəcəli və parkdaxili keçidlər sisteminin təşkili. Əsas keçidlərin eni, bir qayda olaraq, 7,5-8 metrdən, ikinci dərəcəli keçidlər - 7 metr, parkdaxili - 6 metrdən az olmamalıdır.
- Yük və sərnişin daşımalarının kanallaşdırılmış hərəkətinin təmin edilməsi.
- Qovşaqlarda və kəsişmələrdə dairələrin radiuslarının normaya uyğun təşkili, eləcə də görünmə şəraitinin təmin edilməsi.
- Hərəkətin təşkili üçün texniki-informasiya vasitələrindən istifadə.
- Sürətin təmin edilməsi.
- Nəqliyyatın və piyada axınının intensivliyini nəzərə alan piyada keçidlərinin quraşdırılması.

## Ədəbiyyat:

1. Həsənov T.G., Y.S.Kərimli. Rayon və şəhərlərin planlaşdırılması: Ali təhsil müəssisələri üçün dərs vəsaiti.– Bakı, “Kooperasiya” nəşriyyatı, 2014, 329s.

2. Hüseynov E.F., N.O.Yusufova. Şəhərin çoxfunksiyalı kompleksləri. Bakı 2007.
3. Jacobs J. The death and life of great American cities. Harmondsworth, 1961.
4. Беддингтон Н. Строительство торговых центров. Москва, 1986.
5. Гостлинг Д. Майтленд Б. Проектирование торговых комплексов. Москва, Стройиздат, 1979.
6. Мейтленд Б. Пешеходные торгово-общественные пространства. Москва,
Стройиздат, 1989.
7. Нойферт Э. Строительное проектирование. Москва, Стройиздат, 1991.
8. Сапожников А. М., Земцов Ю.И., Каневский Е.Г. Принципы формирования ОТЦ крупных городов. МГЦНТИ, Обзорная информация выпуск 23, 1986.

**Yegana Karimli**

## General Prıncıples Of Transport Servıce Of Large Trade Centers

**Keywords:** public-trade centers, transport service, types of parking lots, organization of movement

The article is devoted to the organization of transport services of large shopping centers, and to the scientific study of its general principles. Here - the influence of trade on social life is shown as one of the strongest factors of the historical development process of society. At the same time, the place of public-commercial centers in the city structure, their role in the creation of large urban ensembles and complexes is determined.

The article discusses issues related to the solution of the road transport scheme of the territory of shopping centers, types of parking lots and their location, organization of traffic in the parking lot, rules for placing cars. As a result, the main shortcomings in the planning of public and shopping centers were identified and recommendations were presented for the effective provision of transport services for large commercial enterprises.

**Егана Керимли**

## Общие принципы транспортного обслуживания крупных торговых центров

**Ключевые слова:** общественно-торговые центры, транспортное обслуживание, типы парковок, организация движения.

Статья посвящена организации транспортного обслуживания крупных торговых центров и научному исследованию его общих принципов. Здесь рассматривается влияние торговли на общественную жизнь, как одного из сильнейших факторов исторического процесса развития общества. При этом, определяется место общественных и торговых центров в структуре города, их роль в создании крупных городских ансамблей и комплексов.

В статье рассматриваются вопросы, связанные с решением организации дорожного движения территории торговых центров, виды парковок и их расположение, организация движения на парковке, правила размещения автомобилей. В конце выявлены основные недостатки планирования общественно-торговых центров и представлены рекомендации по эффективному предоставлению транспортных услуг крупных коммерческих предприятий.

## SƏNƏTŞÜNASLIQ

**Nailə Rəhimbəyli**

AMEA Memarlıq və İncəsənət İnstitutunun
sənətşünaslıq doktoru, professor
nrahimbeyli@yahoo.com

**UOT 781**

# AZƏRBAYCANI MÜASİR VƏ QÜDRƏTLİ DÖVLƏTƏ ÇEVİRƏN İDEYALAR MÜƏLLİFİ

**Xülasə:** Azərbaycan tarixində və mədəniyyətində Heydər Əliyev fenomeninin öyrənilməsi və araşdırılması son on ildə vüsət alaraq elmi tədqiqatların obyektinə çevrilmişdir. Artıq dahi şəxsiyyətin siyasi fəaliyyəti, Azərbaycan dövləti və dövlətçiliyi, elmi, iqtisadiyyatı, mədəniyyəti, incəsənəti və digər sahələr üçün gördüyü işlər haqqında monoqrafiyalar, çoxcildliklər işıq üzü görmüşdür. 2023-cü il Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Heydər Əliyev ili" adlandırılması isə bu işin inkişafına və yeni mərhələsinə start vermiş oldu. Bu mənada ölkədə keçirilən silsilə tədbirlər, elmi konfranslar, o cümlədən, H.Əliyev haqqında yazılan çoxsaylı məqalələr, kitab və monoqrafiyalar aparılan işin yüksək nəticələri kimi özünü göstərmişdir. Təqdim edilən məqalə H.Əliyev fenomeninin Azərbaycan mədəniyyətində yeri və mövqeyi, onun inkişafına yönələn xidmətlərinin işıqlandırılması kontekstində aparılan araşdırmanı ehtiva edir. H.Əliyevin apardığı uğurlu mədəniyyət siyasətinin parlaq nəticələri haqqında artıq geniş məzmunlu əsərlər yazılmış, kitablar ərsəyə gəlmişdir. Onun bu sahədə gördüyü işlərin tarixi və mədəni mahiyyətini üzə çıxarmaq geniş tədqiqat işinin obyekti kimi həm aktual, həm də məsuliyyətlidir. Təqdim edilən məqalədə Heydər Əliyev və Azərbaycan mədəniyyəti, musiqisi, incəsənəti, ədəbiyyatı kontekstində bir sıra əsas məqamlara toxunulur və müəllif münasibəti işıqlandırılır. Burada ulu öndərin çoxcəhətli fəaliyyətinin mühüm tərəfləri bir daha vurğulanır. O cümlədən, Heydər Əliyevin Azərbaycan coxəsirlik dövlətçilik tarixində fəaliyyətindən bəhs olunur. Milli ideologiyanın yaradan və bununla da müstəqil Azərbaycana yeni inkişaf istiqamətlərini müəyyənləşdirən Heydər Əliyev incəsənətə, sənət adamlarına göstərdiyi diqqət, qayğı və dəyər milli mədəniyyətimizin irəliyə aparan böyük siyasəti açıqlanır. Onun təşəbbüsü və imzası ilə keçirilən yubileylər, tarixi hadisələr göstərilir. Elmi-intellektual sahədə qazanılan nailiyyətləri dövlət

quruculuğu prosesinin vacib şərti, etibarlı təminatı hesab edən Ulu Öndər milli təhsil sisteminin mütərəqqi prinsiplər əsasında inkişafı naminə bütün zəruri tədbirləri həyata keçirməsi vurğulanır.

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan dövləti, mədəniyyət, incəsənət, siyasi lider.

Heydər Əliyevin fəaliyyəti coxəsirlik Azərbaycan dövlətçilik tarixində özünəməxsus yer tutur. Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləndirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Fəaliyyəti ilə Azərbaycan sərhədlərindən çox uzaq və geniş arenada, dünya miqyasında böyük siyasi nüfuzu vardı. Dünyada baş verən bütün qlobal hadisələrə, beynəlxalq arenadakı proseslərə aktual çağırışla cavab verən Ulu Öndərin, zəmanəmizin görkəmli siyasi xadimləri ilə bir arada fəxri yeri var idi və bu gün də var. Heydər Əliyevin qiymətsiz tarixi nailiyyətləri, çox şaxəli siyasi fəaliyyəti dövlətimizin hərtərəfli inkişafına güclü impuls verərək Azərbaycanı yeni, irəliyə doğru yüksələn yola istiqamətləndirmişdir. Və bununla da Azərbaycan xalqının milli dövlətçilik və müstəqilliklə bağlı fikir və ideyalarının realizə edilməsinə stimul və özünü sonrakı illərdə doğruldan ümidlər vermişdir.

Tarixin qan yaddaşından məlumdur ki, bir çox məmləkətlər, dövlətlər, xalqlar, Şərq və Qərb arasında körpü rolunu oynayan qədim Azərbaycan bəzən obyektiv və subyektiv səbəblər üzündən həmçinin zəngin yeraltı və yerüstü sərvətlərinə, geopolitik –coğrafi mövqeyinə görə siyasi ideoloji çəkişmə və tarixi hadisələrin qaynar burulğanında yerləşən etnosların və dövlətlərin maraq təsir dairəsində olmuş və son nəticədə torpaqlarımızın, millətimizin parçalanmasına gətirib çıxarmışdır. Əsrlər boyu cənnət adlanan bu diyarda yaşamış müdriklər fikir zəka dünyamızın ən parlaq nümayəndələri Azərbaycanımızı xoşbəxt gələcəyə apara biləcək yolları arayıb axtarsalar da, bu yolun əvvəlini sonunu görə bilməmişlər. İdeal cəmiyyət axtarışlarını ictimai həyatın istiqamətləri üzrə xoşbəxt gələcəyə aparan yolların həqiqi cizgilərini başlıca istiqamətlərini zəfər salnaməmizdə ilk dəfə olaraq Memar Əcəmi ustalığı ilə məhz Heydər Əliyev vermişdir.

XX əsr Azərbaycan, öz mədəniyyəti, incəsənəti, ədəbiyyatı, musiqisi, bütövlüklə yeni inkişaf mərhələsi üçün tarixdə iz qoymuşdur. İstedadlı xalqımız qədim zamanlardan istər elmdə, mədəniyyətdə, istərsə də incəsənət və musiqidə gözəl əsərlər yaratmışlar. Azərbaycan professional musiqisinin

yaranması, bəstəkar məktəbi Şərqdə ilk operanın, musiqili komediyanın, qəzəl-romansın əks sədası dahi bəstəkar Üzeyir bəylə bağlı olduğu halda, milli simfonizmin inkişafı Qara Qarayev, Cövdət Hacıyevlə, simfonik muğam janrı Fikrət Əmirovla, milli balet Əfrasiyab Bədəlbəyli, vokal məktəbi dahi Bülbülün və Şövkət Məmmədovanın məktəbi, milli xoreoqrafiya ilk balet rəqqasəsi Qəmər Almaszadənin, rəssamlıq sahəsi - milli realist Bəhruz Kəngərli və karikatura sənətinin banisi Əzim Əzimzadənin adı ilə bağlıdır. Azərbaycan ədəbiyyatı və incəsənətinin, ədəbiyyatşünaslıq və dilçilik elmlərinin çox görkəmli nümayəndələri böyük dramaturq H.Cavid, şair M.Müşfiq, görkəmli nasir və ədəbiyyat tənqidçisi S.Hüseyn, Azərbaycan Respublikasının ilk (və son) himninin müəllifi məşhur şair Ə.Cavad, ədib və alim Y.V.Çəmənzəminli, filologiya professoru, poliqlot alim B.Çobanzadə, Bakıda ilk Şərq konservatoriyasını açmış Xədicə xanım Qayıbova, Azərbaycan nəsrinin canlı, təravətli, bədii surətlər və əlvan təsvir vasitələri ilə zənginləşməsində, dramaturgiyamızda lirik-psixoloji üslubun inkişafında İlyas Əfəndiyevin böyük yaradıcılıq xidmətləri olmuşdur.

Lakin biz bu gün tam əminliklə deyə bilərik ki, yuxarıda adlarını çəkdiyimiz şəxsiyyətlər və onlarla o dövrü paylaşan digər sənətkarlar əvvəlki əsrlərin nailiyyətlərindən faydalanaraq daha bitkin, dərin məzmunlu sənət nümunələri yaratmişlar. O nümunələr bizim tariximizi, mədəniyyətimizi, elmimizi zənginləşdirən yüksək sənət əsərləridir. Lakin XX əsrin ikinci yarısı Azərbaycan mədəniyyəti və incəsənəti tarixində daha zəngin və məhsuldar dövr kimi xüsusi öyrənilir. 1969-1982-ci illərdə Azərbaycanın Mərkəzi Komitəsinin I-ci katibi seçilən Heydər Əliyev, Azərbaycanın inkişafı naminə milli ədəbiyyatın, dramaturgiyanın və incəsənətin dünyada tanıdılması üçün mühüm işlər görmüşdür. Azərbaycanın qabaqcıl şəhərlərində muzeylər, teatrlar, kitabxanalar açılmış, həmin illərdə respublikaya eyni zamanda dünya mədəniyyətinə böyük tövhələr vermiş Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Səttar Bəhlulzadə, Rəsul Rza, Lətif Kərimov kimi korifeylər səmərəli fəaliyyət göstərmişlər. Heydər Əliyevin sayəsində repressiya qurbanları olan Mikayıl Müşviq, Hüseyn Cavid kimi gökəmli şairlər və digər yaradıcı adamlar unutqanlıq əsarətindən qurtulmuşlar.

1972-ci ilin aprelində Heydər Əliyevin görkəmli humanist şair İmadəddin Nəsiminin anadan olmasının 600 illiyinə hazırlıqla bağlı qərar qəbul edilməsinə nail olur, bir il sonra isə şairimizin şanlı yubileyi müttəfiq respublikaların çoxsaylı nümayəndələrinin iştirakı ilə Bakıda və Moskvada qeyd edilir.

1972-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının 50 illik yubileyi keçirilir. 1975 – ci ildə isə Üzeyir Hacıbəylinin 90 illik yubileyi Bakıda və Moskvada böyük təntənə ilə qeyd olunur. Elə həmin il "Koroğlu" operası yeni quruluşda tamaşaya qoyulur. İctimaiyyətin diqqəti Üzeyir bəyin irsinə,

bəstəkarın bənzərsiz musiqi yaradıcılığına, ədəbi fəaliyyətinə bir daha cəlb edilir. Ü.Hacıbəylinin publisistikası araşdırılarkən, XX əsrin əvvəllərində onu düşündürən milli oyanış problemləri - Heydər Əliyev fəlsəfi konsepsiyası bu və ya digər formada vurğulanır.

Milli özgürlüyün atributu olan xalçaçılıq tarixən mədəniyyətimizdə son dərəcə mühüm yer tutmuşdur. 1972-ci il aprelin 25-də Bakıda təntənəli şəraitdə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyi açıldı. Bundan bir ay sonra Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Aşıq Ələsgərin anadan olmasının 150 illiyi münasibətilə təntənəli yığıncaq keçirildi. Bu, həmin dövrdə görünməmiş hadisə idi. Vətəni Göyçə mahalı sovet dövründə Ermənistan SSR-in tərkibinə daxil edilən Aşıq Ələsgərin belə bir yubileyinin keçirilməsində məqsəd böyük el sənətkarını Azərbaycan xalqına qaytarmaqla yanaşı, həm də tarixən Azərbaycanın real sərhədlərinin necə oduğu, ulu ata-babalarımızın bu yerlərdə əzəldən yaşadıqları fikrini yeni nəslə çatdırmaq idi.

1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi qeyd edilir. Tanınmış səhnə ustaları Mehdi Məmmədov, İsmayıl Dağıstanlı və İsmayıl Osmanlı SSRİ xalq artisti fəxri adına layiq görülürlər. Yubiley tədbirində H.Əliyev böyük və dərin bir nitq söyləmişdi: "Teatr tamaşası həmişə bir bayramdır. Elə bir insan çətin tapılar ki, səhnə sənəti onun taleyində, dünyagörüşünün, estetik zövqünün formalaşmasında böyük rol oynamasın" [3, s.49]. Moskvada Azərbaycan Akademik Dövlət Dram Teatrının yubiley qastrolları böyük uğurla keçir.

Bir il sonra Bakıda xalqımızın görkəmli şairi Səməd Vurğunun ev muzeyi açılır. Bu tədbirdə iştirak edən H.Əliyev şairin ailə üzvləri ilə xatirələrini paylaşmışdı [4, s.177]. Dekabrda isə Səməd Vurğunun anadan olmasının 70 illiyi münasibətilə yaradılmış Ümumittifaq yubiley komissiyasının Moskvada birinci iclası keçirilir.

1976-cı ildə Moskvanın Böyük Teatrında Səməd Vurğunun yubileyi qeyd edilir. Elə həmin il İttifaqlar Evinin Sütunlu salonunda Müslüm Maqomayevin 90 illik yubileyi keçirilir. Dekabrın 12-də isə Azərbaycan memarı Əcəmi Naxçıvaninin anadan olmasının 850 illiyi münasibətilə, onun yaratdığı Mömünə xatın türbəsinin qarşısında bu dahi sənətkarın abidəsinin təməli qoyulur.

1977-ci il iyunun 20-də Azərbaycanda görkəmli opera müğənnisi Şövkət Məmmədovanın 80 illik yubileyi qeyd edilir. Həmin ilin oktyabrında Yaponiyada Azərbaycanın tarixi, elmi, milli-mədəni dəyərlərinə həsr olunmuş sərgi açılır, İtaliyanın Neapol şəhərində isə Azərbaycan mədəniyyəti günləri keçirilir.

1978-ci ilin fevralında Qara Qarayevin anadan olmasının 60 illiyi münasibətilə təntənəli yığıncaq keçirilir. Elə həmin gün böyük bəstəkara Sosialist Əməyi Qəhrəmanı adı verilir. Yubiler tədbirində Q.Qarayev öz fikirlərini səsləndirmişdi: böyük bəstəkarımız Qara Qarayev 1978-ci ildə

keçırilən 60 illik yubileyində cənab H.Əliyevi yüksək qiymətləndirərək demişdir: "Biz hamımız son illərdə respublikamızın həyatında necə böyük dəyişikliklər baş verdiyini, Heydər Əliyevin daim qayğısı sayəsində xalqımızın mənəvi və yaradıcılıq qüvvələrinin necə coşub-daşdığını yaxşı başa düşür və aydın görürük" [9]. Fevralın 15-də isə Moskva Konservatoiyasının Böyük salonunda ustadın yubileyi qeyd olunur.

1979-cu ilin yanvarında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşri və təbliği ilə bağlı xüsusi qərar qəbul edilir və geniş tədbirlər planı təsdiq olunur. Rəşid Behbudov başda olmaqla Azərbaycan incəsənət ustalarının İsveçdə konsertləri böyük uğurla keçir.

Azərbaycanın inkişafı yolunda Heydər Əliyevi xüsusi qayğılandıran məsələlərdən biri milli ədəbiyyatın, dramaturgiyanın və incəsənətin dünyada tanıdılması idi. Görülən bu işlər Azərbaycan xalqına öz ədəbiyyatı və mədəniyyətinin klassiklərini, böyük tarixi şəxsiyyətlərini daha yaxşı tanımağa, mədəni sərvətlərini və dəyərlərini qoruyub saxlamağa imkan vermişdir. XX yüzilliyin 1969-1982-ci illərində Azərbaycan müəyyən mənada milli hisslərin əsl intibah dövrünü yaşamışdır. Bu illərdə görülmüş bütün işlər Heydər Əliyevin siyasətinin əməli nəticələridir.

Heydər Əliyevin Azərbaycana rəhbər olaraq qayıdışını Azərbaycan mədəniyyətinin və incəsənətinin dirçəliş dövrü kimi təhlil etmək olar. Həmin dövr mədəniyyətdə bir sıra hadisələrlə xarakterizə olunur. Ədəbiyyata, dilə, incəsənətin müxtəlif sahələrinə yönələn xüsusi diqqət masştablı şəkildə təşkilati işlərdə özünü göstərmişdir.

Unudulmaqda olan möhtəsəm abidə "Kitabi Dədə Qorqud" yenidən xalqın yaddaşlarına qaytarıldı. 1997-ci il aprelin 20-də "Kitabi Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında" fərman və 1999-cu il fevralın 21-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" sərəncam imzalanmışdır. Onun sədrliyi ilə Dövlət Komissiyasının 1999-cu il 16 fevral, 1999-cu il 8 aprel və 2000-ci il 11 mart tarixli üç iclası keçirilmişdir. Heydər Əliyev Dədə Qorqudun bütün türk dünyasına məxsus olduğunu vurğulasa da, lakin onun vətəninin müstəqil Azərbaycan, sahibi isə azad Azərbaycan xalqı olduğunu xüsusi ilə qeyd etmişdir [5, s.19].

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin bu gün Lüksemburqda Rusiya Federasiyası səfirliyinin binası önündə yad edilməsi, dahi Azərbaycan mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyinə türkdilli dövlətlər qurumundan nümayəndələrin gəlməsi, N.Nərimanovun Tiflisdə ev muzeyinin açılması, Ulyanovskidə büstünün qoyulması, Molla Pənah Vaqifin Şuşadakı məqbərəsinin açılması, H.Cavidin qəbrinin Sibirdən doğma torpağı

Naxçıvana gətirilməsi və orada dəfn edilməsi H.Əliyevin Azərbaycan mədəniyyətinə dair siyasətinin bir hissəsidir.

Heydər Əliyev Azərbaycan mədəniyyəti haqda deyirdi: "Xalq bir çox xüsusiyyətlərilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir" [2, s.31].

Musiqi sənətimizin inkişafına xüsusi qayğı ilə yanaşan Heydər Əliyevin sərəncamı ilə 24 bəstəkar və musiqişünasa "Prezident təqaüdü" verilib. Onların bir çoxu "Şöhrət" ordeninə layiq görülüb. Tədqiqatçılar yazır ki, Arif Məlikov, Müslüm Maqomayev, Zeynəb Xanlarova, Arif Babayev, Habil Əliyev kimi musiqi xadimləri "İstiqlal" ordenilə təltif olunub.

Tədqiqatçılar qeyd edir ki, Heydər Əliyev özü də Azərbaycanın xalq mahnılarının vurğunu olub. Rəsmi yazılarda bildirilir ki, yeri gələndə, onun özü də zümzümə edərdi. Heydər Əliyev "Alagöz" mahnısı ifa edilərkən musiqiyə o qədər həssas yanaşırdı ki, lirik mahnı onu kövrəldirdi.

Müasir dövr yeni prinsiplər üzərində inkişaf edir və yeni üsullar, yanaşma diktə edir. Heydər Əliyevin mədəniyyət quruluculuğunda qoyduğu bünövrə möhtəşəm layihələrə və gələcəkdə Azərbaycan milli mədəniyyəti ilə bağlı bir sıra işlərin gerçəkləşməsi üçün zəmin yaradır. Belə ki, Qəbələdə keçirilən musiqi festivalı Azərbaycan xalqının əsrlər boyu yaradıb günümüzədək yaşatdığı milli musiqimizi dünyaya tanıtdırır. Bu da, Üzeyir Hacıbəyli, Qara Qarayev, Soltan Hacıbəyov kimi bəstəkarların əsərlərinin dünyaya tanıdılmasında mühüm roloynayır. Təsadüfi deyil ki, dünyanın müxtəlif yerlərindən konserti canlı izləmək üçün ölkəmizə gələn qonaqlar, sözügedən tədbirdə iştirak nəticəsində Azərbaycanın musiqi mədəniyyəti ilə tanış olur və bu xalqın yaradıcılıq imkanlarından bəhrələnirlər. Müntəzəm olaraq keşirilən Muğam festivalları və simpoziumlar qədim tarixə malik musiqi incimiz muğamın təbliğinə istiqamətlənən dünyəvi layihədir.

Bəşər tarixində silinməz iz qoymuş böyük şəxsiyyətlərin elm və təhsilə münasibəti bu sahələrin inkişafına verdikləri töhfələr onların əbədyaşarlığını təmin edən başlıca amillərdən biridir. Müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyev də idarəçiliyinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşaraq, ilk növbədə xalqın intellektual gələcəyini düşünmüşdür. Elmi-intellektual sahədə qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin vacib şərti, etibarlı təminatı hesab edən Ulu Öndər milli təhsil sisteminin mütərəqqi prinsiplər əsasında inkişafı naminə bütün zəruri tədbirləri həyata keçirmişdir. Sivil dünya gerçəklikləri ilə uzlaşan fəal maarifçilik kursunun həyata keçirilməsi, mütərəqqi yeniliklərin tətbiq olunması yolu ilə milli təhsil sisteminin müasirləşdirilməsi, dövlət idarəçiliyi üçün yüksək mənəvi-əxlaqi keyfiyyətləri, Intellekti, savadı ilə fərqlənən ixtisaslı kadrların yetişdirilməsi məsələləri ulu öndər Heydər Əliyevin fəaliyyətinin bütün mərhələlərində prioritet məsələlərdən olmuşdur. Ümummilli lider hələ Azərbaycana birinci

rəhbərliyi dövründə böyük uzaqgörənliyi ilə həyata keçirdiyi elm, təhsil və mədəniyyət siyasəti, müstəqillik illərində milli ziyalı elitasının intellektual potensialının yüksəkliyində özünü göstərməklə, aparılan islahatların praktik nəticələr verməsini təmin etmişdir.

Beləliklə, "Milli ideologiya konsepsiyası" Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycan müstəqillik əldə etdiyi gündən hazırlandı və getdikcə təkmilləşdirildi. Azərbaycançılıq ideologiyasının əsas müddəaları, ən güclü müxalifət partiyası kimi Azərbaycan xalqının mənafeyini ifadə edən iqtidar partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının Nizamnaməsində öz əksini tapdı.

**Ədəbiyyat:**


1. Aslanova R. Mənəvi dəyərlərin qlibal böhranı-müasir fəlsəfənin böhranı kimi // "525-ci qəzet", 3 oktyabr, 2012.
2. Əhmədzadə N. Heydər Əliyevin kəlamları / Bakı: QAN JN, 2017. 72 s.
3. Heydər Əliyev və mədəniyyət // Tər.: S.Məmmədliyeva, T.Əhmədov. Bakı: AZMTN, 2008, I cild. 472 s.
4. Heydər Əliyev mədəni irsimizin keşiyində / Bakı: Nurol, I kitab, 2001. 440 s.
5. Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri / Bakı: Nurlan, 2013. 192 s.
6. Qasımlı M.C. Heydər Əliyev - istiqlala gedən yol (1969-1987) // Bakı: Bakı Universiteti nəşriyyatı, 2006. 608 s.
7. Mehdiyev R. Qlobal informasiya və Azərbaycanda fəlsəfi fikrin yenidən nəzərdən keçirilməsinə dair // "Azərbaycan" qəzeti, 5 may, 2009.
8. Şəmsizadə N.Ş. Heydər Əliyev və azərbaycançılıq // Azərbaycan qəzeti, 4 may 2008. s.9.
9. Zöhrabov R.F. Heydər Əliyev və Azərbaycan Bəstəkarlar İttifaqı // Musiqi dünyası, 2004. №3-4 (21), s.3-11

**Naila Rahimbayli**

## The author of ideas that made Azerbaijan a modern and powerful state

**Keywords:** Heydar Aliyev, Azerbaijan state, culture, art, political leader.

Over the last ten years, scientific research has been devoted to the study and research of Heydar Aliyev's phenomenon in the history and culture of Azerbaijan. There have already been monographs and multi-volumes published about the genius' political activity, his contributions to the Azerbaijani state as well as statehood, science, economy, culture, art, and other fields. This initiative moved to a new stage of development upon the announcement of 2023 as the "Year of Heydar Aliyev" by the Azerbaijani President Ilham Aliyev. In this sense, a series of events and scientific conferences held in the country, including publishing numerous articles, books and monographs about H. Aliyev, have shown themselves as high results of the work carried out. The presented article contains research conducted to highlight H.Aliyev in Azerbaijan's culture and services aimed at its development. There has already been a great deal of literature written about the brilliant results of H. Aliyev's successful cultural policies. Providing a detailed analysis of his historical and cultural background is both relevant and responsible as an object of extensive research. The present article addresses a number of key points regarding Heydar Aliyev and Azerbaijan culture, music, art, and literature, and highlights the author's attitude. Burada ulu öndərin çoxcəhətli fəaliyyətinin mühüm tərəfləri bir daha vurğulanır. In particular, the activity of Heydar Aliyev in the history of Azerbaijan's statehood is discussed. Heydar Aliyev, who created the national ideology and thereby determined the new directions of development for independent Azerbaijan, shows the great care and love to art and artists. The historical events and jubilees held under his initiative and signature are given. It is emphasized that the Great Leader, who considered achievements in the scientific-intellectual field as an important condition and a reliable guarantee of the state-building process, have implemented all necessary measures for the development of the national education system based on progressive principles.

**Наиля Рагимбейли**

## Автор идей, превративших Азербайджан в современное и мощное государство.

**Ключевые слова:** Гейдар Алиев, Азербайджанское государство, культура, искусство, политический лидер.

Изучение и исследование феномена Гейдара Алиева в истории и культуре Азербайджана стало объектом научных исследований в последние десять лет. Политической деятельности гения, его работе, направленное на развитие азербайджанского государства и государственности, науки, экономики, культуры, искусства и других областей уже изданы монографии и многотомники. Провозглашение Указом Президента Азербайджана господина Ильхама Алиева 2023 года «Годом Гейдара Алиева» положило начало развитию и новому этапу этой работы. В этом смысле ряд мероприятий и научных конференций, проведенных в стране, в том числе многочисленные статьи, книги и монографии, написанные о Г.Алиеве, показали себя высокими результатами проведенной работы. Представленная статья содержит исследование, проведенное в контексте освещения роли и значения феномена Г.Алиева в развитии культуры Азербайджана. О блестящих результатах успешной культурной политики Г.Алиева уже написаны обширные труды и книги. Раскрытие историко-культурной сущности его творчества в этой области актуально и ответственно как объект обширного исследования. В представленной статье затрагивается ряд ключевых моментов в контексте Гейдара Алиева и азербайджанской культуры, музыки, искусства и литературы, освещается авторская позиция. Здесь еще раз подчеркиваются важные стороны многогранной деятельности великого лидера. В частности, обсуждается деятельность Гейдара Алиева в истории азербайджанской государственности. Гейдар Алиев, создавший национальную идеологию и тем самым определивший новые направления развития независимого Азербайджана, раскрывает внимание, заботу и ценность, проявленные к искусству и деятелям искусства, великую политику нашей национальной культуры. Юбилеи и исторические события показаны под его инициативой и подписью. Подчеркивается, что Великий Вождь, рассматривающий достижения в научно-интеллектуальной сфере как важное условие и надежную гарантию процесса государственного строительства, должен осуществить все необходимые меры для развития национальной системы образования, основанной на прогрессивных принципах.

**Гюльрена Мирза Гаджар**

Институт Архитектуры и Искусства НАНА,
ведущий научный сотрудник,
д. ф. по искусствоведению, доцент
email: li5613na@gmail.com

**УДК 7.03**

# К ЮБИЛЕЮ ФУАДА САЛАЕВА

**Аннотация**. Статья посвящается 80-летнему юбилею замечательного скульптора, народного художника Азербайджана, проректора по научной работе Академии Художеств Азербайджана, профессора Фуада Салаева.В ней рассматриваются годы становления скульптора, учеба, вехи и философия творчества, а также пластические задачи.

**Ключевые слова:** Фуад Салаев, азербайджанская скульптура, пластика, памятники, Азербайджанская Академия Художеств.

Фуад Салаев – один из ярчайших мастеров современного азербайджанского искусства. Он – автор множества скульптур, находящихся в музеях нашей страны и украшающих наш город, он – народный художник Азербайджана, профессор, проректор Академии Художеств по научной и творческой работе, академик Российской Академии художеств, лауреат различных премий. С детства его привлекали красота и пластика изобразительных форм и шедевров искусства. Лепить он начал в начальных классах школы, а уже к 6-ому классу желание стать художником захватило его полностью.

Блестяще проучившись в Художественном училище под руководством знаменитого скульптора Джалала Карягды, он уже в 1962 году участвовал на Республиканской выставке «Искусство - в быт» декоративной металлической скульптурой «Аисты». С самых первых шагов творческого пути Салаев будет привержен романтическому, камерному, экзистенциальному взгляду, его пластические искания будут развиваться в философском русле. В 1965 году Фуад Салаев поступает в МГХИ им. Сурикова. Впереди были 6 лет обучения, атмосфера новизны столицы, радость от искусства в учебе, музеях, выставках, новые люди, замечательные педагоги – пора взросления. Суриковский институт был высокой академической школой, это была

единая семья, где царила истинная демократия, где педагоги держали себя наравне со студентами и жили искусством. Все они были великие педагоги своего времени и Фуад – мюаллим вспоминает их с великой благодарностью и любовью. Он говорит: «Художником я стал в училище, но Суриковский институт научил меня отношению к профессии, профессионализму, ведь там была четкая академическая система обучения. А московские и питерские музеи дали возможность находиться рядом с шедеврами искусства!

В 1971 году, вернувшись с учёбы домой, Фуад Салаев полон идеями и энергией для их воплощения. Скульптор много и плодотворно работает к республиканским и Всесоюзным выставкам, выставляя станковые скульптуры, в 1975 году он вступает в члены Союза Художников и становится Лауреатом премии Ленинского комсомола, в 1977 году его избирают ответственным секретарём Правления Союза Художников Азербайджана, к этому времени он заканчивает Творческие мастерские Академии Художеств СССР (у Омара Эльдарова работой «Мать и дитя» в мраморе), получает за неё Диплом АХ СССР.

Мемориальная скульптура в творчестве Фуада Салаева представлена мемориальными досками Есенину, Кара Караеву, Юсифу Мамедалиеву, надгробиями в Аллее Почетного Захоронения Азаду Мирзаджанзаде в бронзе и Агилю Алиеву в мраморе. Портрет национального лидера президента Гейдара Алиева Салаев ваял трижды: в рост из мрамора для госпиталя Министерства Национальной Безопасности, полуфигуру в бронзе для Академии МНБ и для азербайджанского посольства в Египте.

С 1982 года Фуад Салаев начал преподавательскую деятельность в Институте Искусств на кафедре скульптуры, а в 2000 году, когда указом Президента Азербайджана Гейдара Алиева была организована Азербайджанская Государственная Академия Художеств – стал её Проректором по научной и творческой работе. С 2004 года он возглавляет там Диссертационный Совет по защитам. За эти годы он воспитал новое поколение скульпторов и художников. В 1991 году Фуад Салаев провёл персональную выставку в Анкаре в Государственном Музее искусств «Dəvət Rəsm və Heykel Muzesi», летом 1992 года – во Франции, в Париже, в «Ситэ дез Арт»

В 1993 году скульптуры малых форм Фуада Салаева экспонировались по линии БЦИ во Франции, в городе Карпантра, на фестивале искусств, а в 1994 году – на Выставке азербайджанских художников в знаменитом Папском Дворце Авиньона, где, в соседних залах Пале-де-Пап экспонировались Дали и Дюбюффе. Салаев повёз

тогда 7 работ: «Заложник», «Конец. Райские врата», «Судный день», «Медитация», «Вавилонская башня» и «Баланс».

Позволю себе привести цитату из своей статьи, написанной 30лет назад под впечатлением от этой знаменательной выставки 1994 года в Авиньоне.

«Фуад Салаев создает новое в рамках утонченной, эстетской профессиональной лепки. Отношение его со скульптурой есть прежде всего философский диспут с материалом, во времени и с вечностью, запечатляющий бег мыслей и эмоций. Главное для Фуада - внутренний смысл, красота и профессионализм. Философские искания приводят его в середине 80-х годов к камерности и отточенной филигранности формы, к малым размерам и абсолютному равновесию и гармонии формы и идеи. Эволюция мышления Салаева проходит через работы «Правитель», «Рыцарь», «Трон», «Боевой конь», «Медитация», «Конец - райские врата», «Вавилонская башня», «Вознесение», «Чистилище». Общая пластика формы переходит в необычно пульсирующую, богато проработанную пластику фактуры. Ритмы мелких, выразительных форм вплетены в цельные образы. Одухотворенная лепка подчеркивает тонкий цветовой вкус художника. Во всех его скульптурах явственно присутствие цвета и светотени. Фуад добивается этого путем использования различных методов многосложной обработки поверхности материала. Она может быть гладкой, шероховатой, матовой, полированной, посеребренной, позолоченной, просто бронзовой с тончайшими нюансами переливов, но всегда трепетно-живой».

Следующий важный год для Фуада Салаева – 1999, когда он выставил свои скульптуры в Лондоне, в азербайджанском культурном центре «Хумай». Перед этим выставка с огромным успехом прошла в Баку, в БЦИ и Государственном Музее Искусств.

В 2009 году Салаев выставил 7 своих работ в Новом Музее Современного Искусства, а в 2010 участвовал в проведённой там выставке «Наблюдающие за полетами». В 2012 году его работа также выставлялась в Париже на выставке, организованной Фондом Гейдара Алиева. В 2012 году ансамбль перед зданием Музейного центра дополнился вторым бронзовым всадником.

Бакинские городские скульптуры Салаева – не конкретные персонажи, это идеи, экзистенциальные идеи, разрабатываемые им уже более четверти века. Это идеи, волнующие человечество с самого начала его существования: добро, зло, власть, мораль, совесть, насилие, благородство, рыцарство – весь джентльменский набор Человека, обременённого Душой. Скульптуры Салаева всегда одухотворены, они пронизаны духовными исканиями, будь это гребцы на лодках или

акробаты, держащие равновесие вопреки гравитации или мыслители с претензией на величие, или рыцари - изгои на лошадях – все они странники в лодках Харона. Но это не мрачный взгляд скептика, это взгляд реально мыслящего художника, опаленного красотой и конечностью существования.

### Литература:

1. Каджар Гюльрена. В поисках прекрасного. Azerbaijan -İRS.Baku İstanbul, Mega, 1997, стр 56-69.

**Gulrena Mirza Qajar**

### Fuad Salayev's anniversary

**Key words**: Fuad Salayev, Azerbaijan sculpture, plastic, abstract and memorial sculptures, Azerbaijan Art Academy.

The article is dedicated to the 80th anniversary of Azerbaijan's outstanding sculptor, people's artist, vice-rector for science of the Azerbaijan Academy of Arts, professor Fuad Mahammad Amin oglu Salayev. Here, the sculptor's youth and educational years, creative stages and philosophy, as well as plastic goals are analyzed

**Gülrəna Mirzə Qacar**

### Fuad Salayevin yubileyinə

**Açar sözlər**: Fuad Salayev, Azərbaycan heykəltəraşlığı, plastika, abstrakt və xatirə heykəlləri, Azərbaycan Rəssamlıq Akademiyası

Məqalə Azərbaycanın görkəmli heykəltaraşı, xalq rəssamı, Azərbaycan Rəssamlıq Akademiyasının elm üzrə prorektoru, professor Fuad Məhəmməd Əmin oğlu Salayevin 80- illik yubileyinə həsr olunur. Burada heykəltaraşın gənclik və təhsil illəri, yaradıcılıq mərhələləri və fəlsəfəsi, həmçinin plastik məqsədləri təhlil olunur.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası ISSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 153-158

**Qorxmaz Əlilicanzadə**

AMEA-nın İncəsənət və Memarlıq İnstitutunun,
aparcı elmi işçisi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru dotsent,
alilicanzade@rambler.ru.

**UDK 7.03.791 (479.24)**

# "QARAVƏLLİ" TAMAŞALARININ YARANMASINDA MİLLİ ESTRADA SƏNƏTİNİN JANR NÖVLƏRİNİN ROLU

**Xülasə:** Elmi baxımdan Qaravəllinin tamaşaları ilə küçə tamaşalarını müqayisə etmək yanlış yanaşmadır. Bu tamaşa estrada sənətinə aiddir və "estrada tamaşası", "estrada proqramı", "əyləncəli estrada mərəkəsi", "Şou" kimi qiymətləndirilməlidir. Bu növ mərəkələrdə müxtəlif növ estrada janrlarını özündə cəmləşdirir. Müxtəlif növ janrlar ayrıca və ya sintez şəklində ifa olunur. Ritual və mərasimlərdə müxtəlif sənət janrlarının element və formalarını izləmək olar. Qaravəlli tamaşasının janr və məzmuna görə 4 qrupa bölünməsi Qaravəlli tamaşalarının o dövrün estrada janrlarının inkişafında mühüm rol oynadığını elmi sübut kimi təqdim etməyə imkan verir.

**Açar sözlər:** estrada, janr, rəqs, musiqi, mərəkə

Qaravəlli tamaşalarının meydan oyunları ilə müqayisə etmək düzgün yanaşma deyil. Bu növ tamaşalar estrada sənətinə aid edilməli və "estrada tamaşası", "estrada proqramı", "əyləncəli estrada mərəkəsi" kimi dəyərləndirilməlidir. Bu növ nümayişlərdə estrada sənətinin müxtəlif janr növləri öz təcəssümünü tapır. İfaçılar janr növlərini ya ayrılıqda, ya da sintez şəklində ifa edirlər. Ayin və mərasimlərin özündə estrada sənətinin janr növlərinin element və formaların müşahidə etmək olur.

Qaravəlli mənşəyini, kökünü Azərbaycan xalqının çox qədim ayin və mərasimlərindən götürərək, onları müasir bir formada birləşdirmişdir. Bu söz elə bu gündə xalq içində işlənilir. Məsələn, bu və ya digər bir şəxsin məzəli söhbəti həddini aşarkən deyirlər ki, daha bu qaravəlli oldu. Və yaxud baməzə, xoş sifət, zarafatçıl bir adam barəsində söhbət düşdükdə dərhal, onu tanıyaraq, "İşi qaravəllidir!" deyirlər.

Biz estrada sənətinin janr növlərinin köklərini araşdırdıqca, onların yaranmasını musiqi, rəqs, nağıl, dastan, rəvayət, şeir, qəzəl, meyxana, pantomima, kəndirbazlıq, gözbağlıca, dərvişlik, təlxəklik və s. ifaçılıq

üslublarında görürük. Və yuxarıda adı çəkilən estrada sənətinin janr növlərinin ifaçılarının bir yerdə iştirakı ilə el şənlikləri, bayram şənlikləri, kütləvi mərəkələr yaranmış və yüz illər boyu bu forma, üslub yaşayıb inkişaf etmişdir.

Qaravəllini də cəsarətlə bu siyahıya daxil etmək olar. Qaravəllidə iştirak edən ifaçılar müasir estrada sənətinin müxtəlif janr növlərinin nümayəndələri idi. Müasir estrada proqramlarına nəzər salsaq, görürük ki, orada da eyni zamanda müxtəlif janr növlərinin nümayəndələri bir yerdə iştirak edir. Estrada tamaşalarında isə yalnız danışıq janrının nümayəndələri iştirak edir. Estrada aktyorları öz estrada tamaşalarında oxuyur, rəqs edir, rəqqasələrin ifasından istifadə edir. Qaravəllidə də biz bunları görmüş oluruq. Bir sözlə, qaravəlli xalqın mənəvi, ictimai-mədəni ehtiyaclarından doğub pillə-pillə inkişaf edən əsl milli estrada sənətidir. Qaravəllini estrada sənətinin səyyar dəstəsi kimi qəbul etsək, heç də yanılmarıq, çünki onlar kəndbəkənd, şəhərbəşəhər gəzərək kəvsəc (qışa hazırlıq), mehrican (məhsul yığımı) bayramlarında iştirak edirmişlər. Ələsgər Nağıyevin «Qaravəllilərin dünənindən» adlı məqaləsində deyilir: «İctimai-əxlaqi qüsurları qamçılayan meydan teatrının ifaçıları bəzi vaxtlarda günün vacib məsələlərinə də toxunurdular. Şəhər və kəndləri gəzib məclislər quran, tamaşa göstərən Qaravəlli xalq teatrının dəstəsinə daxil olan personajlar bunlar idi: kəndirbaz, gözbağlıca, aşıq, sazəndə, xanəndə, təlxək və başqaları» [2, s., 43].

Mahmud Allahverdiyevin «Qaravəlli tamaşaları» kitabında oxuyuruq ki, «Qaravəlli» tamaşalarında göz bağlayıcılar, akrobatlar fəal iştirak etmiş, rəqqas və rəqqasələr rəqs etmiş, eyni zamanda buraya çoxcəhətli, şən məzhəkələr (farslar), lətifələr onun tərkibinə daxil olmuşdur» [2, s., 42]. Elçinin isə qaravəllilərlə bağlı məqaləsində məlum olur ki, «Qaravəlli» tamaşalarını zurnaçı və aşıq dəstələri müşayiət edir və bəzən tamaşadan əvvəl akrobatlar və hoqqabazların məzəli oyunları göstərilir, rəqs, lirik şeir, gözbağlıca səhnələri də özünə mühüm yer tuturdu» [1, s., 3].

Göründüyü kimi, "meydan teatrı" anlayışı burada xüsusi vurğulanır. Meydan deyiləndə estrada sənətinə xas olan kütləvi mərəkələr göz önündə canlanır. Belə ki, bu tamaşalar «müxtəlif yerlərdə – çöldə, şəhər və kənd meydançalarında, karvansara həyətlərində, güllü-çiçəkli bağlarda, hovuz ətrafında həm gündüz, həm də axşam göstərilirdi» [1, s., 3].

Meydanda səhnəni xatırladan ayrıca bir yer nəzərdə tutulurdu. Meydan həm salonu, həm də səhnəni xatırladırdı. Aktyorlar, tamaşaçılar meydanın ətrafında bardaş qurub əyləşirdilər. Tamaşaya isə meydanbaba – «rejissor» rəhbərlik edirdi. O, hətta tamaşanın gedişatı boyu şuluqluq salıb maneçilik törədən şəxsləri ya cərimə edir, ya da meydandan qovurdu. Burada aktyorla tamaşaçı arasında müəyyən bir hədd olmurdu. Tamaşaçılar hadisələrin yaxın iştirakçısı olur, yeri gəldikcə, aktyor-mükaliməçi onlara müraciət də edirdi. Həmin

dövr üçün aktual məsələlərdən birinə toxunduqda aktyor camaatdan soruşardı:

- Ay camaat, qazı dəlidir, ya yox?

Camaat:

- Bəli, dəlidir, - deyə yerlərindən dillənərdilər.

Tamaşanın istiqaməti bəzən elə bu sualların cavabından asılı olurdu. Bu cür meydan tamaşasının xüsusiyyətləri estrada sənətinin xüsusiyyətlərini özündə əks etdirir. Bundan əlavə, burada kəndirbaz, gözbağlıca, aşıq, sazəndə, xanəndə, təlxək, Kosa iştirak edirdilər. Keçəl və onların birlikdə vəhdət halındakı çıxışları müəyyən proqram çərçivəsində iş istiqamətləri estradadakı konsert proqramını xatırladırdı.

Bu tamaşalarda heç bir informasiya aşılayan dekor hazırlanmırdı, köhnə bir palaz, yaxud bir-iki həsir, qamış və ya çubuqdan hörülmüş arakəsmələrdən istifadə olunurdu. Gərdəyi xatırladan bu arakəsmə aktyorlar üçün səhnə arxasını əvəz edir və geyim dəyişdirmək üçün münasib yer sayılırdı. Camaatın oturduğu yerlər nəzərə alınaraq bir-birindən beş-altı metr aralıda iki dirək basdırılaraq, onları kəndir, zivə ilə (şəlrit) birləşdirirdilər. Kəndirlər həddən ziyadə çox tarım çəkilirdi. Söylədiyimiz həsir və palaz isə kəndirin üstünə atılardı. Əlavə olaraq, gecə vaxtı meydançanın qabaq hissəsində üçbucaqlı formada bir-birindən aralı dirəklər vurulurdu. Bu dirəklərin üstündə çıraqlar qoyulurdu ki, meydança işıqlı olsun. Tamaşaya camaatın gur axını üçün musiqi çalınır, nəğmələr, meyxanalar ifa edilirdi. Demək olar ki, bu tamaşaları zurnaçı və aşıq dəstəsi müşayiət edir, çox vaxt isə tamaşadan öncə akrobatlar, hoqqabazlar məzəli oyunlar nümayiş etdirirdilər. Həm də bu tamaşanın daimi iştirakçısı olan Kosanın özü də camaatı tamaşaya baxmağa dəvət edirdi. O, ulağın üstündə hər hansı şəhər və ya kəndə daxil olarkən, «"Qaravəlli" gəldi!», deyərək camaatı tamaşaya baxmağa səsləyirdi. Qaravəlli tamaşalarının peşəkar ifaçılarından sayılan Kosa həm də tamaşanın təşkilatçasına çevrilirdi.

Rus estradasının tarixinə nəzər salsaq skomoroxların yaradıcılığı ilə bizim qaravəlli yaradıcılığı arasında çoxlu oxşar cəhətlər görmək olar. Rusiyada skomoroxlar yarmarkalarda çıxış edirdilər. Bir yarmarkada eyni vaxtda bir neçə balaqan və balkonlar qurulurdu. Onlar arasında o qədər böyük məsafə olmurdu. Hər bir balaqan və balkonun öz skomoroxları olurdu. Həmin balkonlardan «Ded» adlı bir ifaçı - adından məlum olduğu kimi, ağ saqqallı, bığlı, qoca bir kişi başında papaq - yarmarkaya gələn kütləni müxtəlif şirin sözlərlə, hay-harayla öz balkonuna cəlb edirdi. Camaat toplaşandan sonra ifaçılar balkonda kukla oyunu nümayiş etdirirdilər. Əhali arasında məşhur olan «Petruşka»nın iştirakı ilə yumoristik, satirik səhnəciklər oynanılırdı. Sonra isə balkonun aşağısında prestidijitorlar, ağır girlər oynadan pəhlivanlar, balalaykanın müşayiəti ilə satirik kurletlər oxuyan ifaçılar, «Ded»in

köməkçiləri onunla birlikdə «rayeşnik»lər söyləyirdilər. Bu minvalla onlar xalqı əyləndirərək pul qazanırdılar.

Yenidən «Qaravəlliyə» nəzər salaq. Kosa ulağın belində kəndin içində gəzərək, müasir dillə desək, qaravəllini reklam edərək, camaatı meydana səsləyirdi. Qaravəlli başlamamışdan beş-on dəqiqə əvvəl meydan babanın (meydan bəyi də adlandırılır) köməkçiləri ətrafda olan camaatı müxtəlif şirin sözlərlə, zarafatlarla tamaşaya cəlb edirdilər. Bizə bu günə gəlib çatan Qaravəlli tamaşası neçə ildir ki, özfəaliyyət kollektivlərində, el şənliklərində oynanılır. Bunların proqramlarına nəzər salsaq görərik ki, orada meyxana deyişməsi, məişət əhvalatından bəhs edən səhnəcik, güləşçilər, mahnılar, rəqslər, Kosa və Keçəlin iştirakı ilə oyunlar vardır. Diqqətlə fikir verilsə, bəlli olar ki, bunlar əsl estrada proqramıdır. Həm də ayrı-ayrı hazır nömrələr bir proqramda cəmlənmişdir. Zaman keçdikcə hər dəfə hər hansı bir estrada nömrəsi yenisi ilə əvəzlənirdi. Qaravəllidə də bu prinsipdən istifadə edilir və onu hər dəfə yeniləşdirmək olurdu. Deyilənlərə görə, qara camaat bu tamaşaları sevdiyinə, daha çox yığışdığına görə onu Qaravəlli adlandırmışlar. Adətən «Qaravəlli» dedikdə məzəli hadisə və ifadələrlə dolu olan qısa pyeslər və tamaşaçıları güldürmək məqsədilə pərdəarası göstərilən söz oyunbazlığı nəzərdə tutulurmuş» [1, s., 4]. Respublikanın əməkdar incəsənət xadimi, kinorejissor və aktyor Məmməd Əlili öz xatirələrində danışardı: «O vaxtlar tamaşalarda antrakt olmazdı. Antrakt zamanı səhnədə pərdə bağlanardı, pərdənin arxasında isə səhnə ustaları tələsik dekorasiyaları, aktyorlar isə geyimlərini dəyişməyə başlayırdılar. 5-10 dəqiqə müddət ərzində pərdə önündə bəzən meyxanaçılar meyxana deyər, öncə göstərilən tamaşada iştirak etməyən aktyorlar intermediya oynayır, cəngi sədaları altında pəhlivanlar güləşir, sazəndələr və xanəndələr çalıb-oxuyurdular». Teatr afişaları və qəzet elanlarında görürük ki, tamaşaların sonunda vodevillər də oynanılmışdır. Elçin Aslanovun 1968-ci il tarixli «Ədəbiyyat və incəsənət» qəzetində «Qaravəllilər» adlı məqaləsindəki fikirləri əsas götürsək, XX əsrin əvvəllərində tamaşalarda pərdəarası və tamaşa sonu oynanılan intermediyalar və vodevillər «Qaravəlli» forma və üslubundan xəbər verir.

Qaravəlli tamaşalarında aktyorun ifa tərzi, düşdüyü vəziyyətlərə, qarşılaşdığı hadisələrə qarşı onun münasibəti tamaşanın satirik ruhunu daha da qüvvətləndirməkləyanaşı, onu xüsusi, dərin məna çalarları ilə zənginləşdirirdi. Aktyorların tamaşada istifadə vasitələri bir xurcun geyimdən ibarət olurdu. Onların paltar dəyişməyi ilə oyunda təzə bir obraz yaranırdı. Aktyor özünü müəyyən tipik obrazlara oxşatmaq üçün primitiv qrimdən – yumurta sarısı qatılmış un, hiss və kömür tozundan istifadə edirdi.

Janr və məzmun etibarilə qaravəlli tamaşalarını 4 qrupa bölmək olar:

1. Müəyyən milli ayinlə əlaqədar olan mərasim və alleqorik tamaşalar:
2. Xalq dastan və nağıllarının səhnələşdirilmiş tamaşaları:

3. Gülməli məişət tamaşaları;
4. Əyləncə məqsədilə nümayiş etdirilən kütləvi mərəkə.

Güman etmək olar ki, birinci qrupa aid edilən ayinlə əlaqədar mərasim tamaşalarından ibarət olan «Qaravəlli»də rəmzi ünsürlər üstünlük təşkil edirdi. Burada hadisələr və obrazlarla müəyyənləşdirilmiş inam, inanc və etiqadların simvolu işıqlandırılmışdır. Məsələn, Yaz bayramı ilə bağlı göstərilən tamaşalarda («Kosa öldü», «Kosa və Gəlin») bunu daha aydın sezmək olar.

«Kosa-Gəlin» tamaşasının məzmununa nəzər saldıqda görürük ki, «Təzə gəlin» (torpağın rəmzi) beli bükülmüş, qocalaraq taqətdən düşmüş Kosadan (qışın rəmzi) gileylidir. Bunu isə hiss edən Kosa onu qısqanır. Gəlinə olan bu qısqanclıq «torpağa» qısqanclıq deməkdir. Kosa min bir fənd-fel işlədərək onu hiylə ilə insanlardan gizlətməyə çalışır. O, qarşıdan gələn qışa kimi bir-təhər başını girləmək istəyir.

Xalqın arzu-istəyini tərənnüm edən, onun müdrüklüyünü təmsil edən diribaş Keçəl gəlir. Torpağın-Gəlinin isə zəhmətkeş, zirək, sağlam təfəkkürlü cavan bir insana ehtiyacı vardır. Keçəl özü də bu işə laqeyd deyildir. Çünki onun da Gəlinə gözü düşmüşdür. Bu işə isə ancaq Keçi (yazın rəmzi) əncam çəkə bilər. Hər bir işdə ayıq olan Kosa yazın gəlişinə maneə, əngəl törətməkdən ötrü Keçinin balalarını gizlədir. Uzun mübarizədən sonra Keçəl Keçinin köməyilə Kosanı - yəni qışı - məhv edir. Keçinin balaları da azadlığa çıxır. İnsanla torpaq bir-birinə qovuşurlar. Beləliklə, Gəlinlə Keçəlin toyu başlanır. Hamı yallı gedir, sevinir. Qaravəlli tamaşalarında məhz Kosa və Keçəl ümumiləşmiş rəmzi obrazlardır. Lakin Kosa müəyyən bir zaman ərzində xüsusən qaravəlli tamaşalarında zahirən eybəcər və gülünc qiyafədə təqdim edilmişdir.

Qaravəlli tamaşalarının mövzu rəngarəngliyi, tamaşaçıların diqqətini cəlb edən məqamlardan biridir. Bu mövzularda xalq öz həyatında rast gəldiyi əhvalatlara bənzər səhnələr görəndə nümayiş daha baxımlı olur. Janr və məzmun etibarilə qaravəlli tamaşalarını 4 qrupa bölünməsi bizə imkan verir ki, qaravəlli tamaşalarının o dövrlərdə estrada sənətinin janr növlərinin inkişafında mühüm rol oynadığını elmi şəkildə sübut kimi təqdim edək.

## Ədəbiyyat:


1. Elçin Aslanov (rəssm), “Qaravəllilər”, Ədəbiyyat və İncəaənət qəzetısi, 1968, №4 (12)
2. Hacıyav Ə.F., “Qaravəllinin dünənindən”, “Qobustan” İncəsənət toplusu, 1971, №4 (12)

**Gorhmaz Alilijanzade**

## The role of genres of national estrada art in the creation of the performances "Garavelli".

**Keywords:** Estrada, genre, dance, music, performance.

Scientifically, comparing Garavelli performances to street performances is a wrong approach. This type of performances belongs to estrada art and should be considered as "estrada performance", "estrada program", "entertaining estrada show (mereke)". In such productions, various types of estrada art genres are embodied. Different types of genres are performed separately or in synthesis. Elements and forms of estarada genres can be traced in rituals and ceremonies. Dividing the performance of "Garavelli" into 4 groups according to genres and content, allows us to present as scientific evidence that the performances of "Garavelli" played an important role in the development of genres of estrada art of that time.

**Горхмаз Алилиджанзаде**

## Роль виды жанров национального эстрадного искусства в создании спектаклей «Гаравелли».

**Ключевые слова:** эстрада, жанр, танец, музыка, представление.

С научной точки зрения сравнивать представления «Гаравелли» с уличными представлениями - неправильный подход. Этот вид представлений относится к эстрадному искусству и должен рассматриваться как «эстрадное представление», «эстрадная программа», «развлекательное эстрадное шоу (мереке)». В таких постановках воплощены разные виды жанров эстрадного искусства. Разные виды жанров исполняются отдельно или в синтезе. Элементы и формы жанров эстрадного искусства прослеживаются в ритуалах и церемониях. Разделение представления «Гаравелли» на 4 группы по жанрам и содержанию, позволяет представить в качестве научных доказательств, что представления «Гаравелли» играли важную роль в развитии жанров эстрадного искусства того времени.

**Mehriban Paşayeva,**

AMAE emarlıq və İncəsənət İnstitutu
sənətşünaslıq üzrə fəlsəfə doktoru

**UOT 78.07**

# TARZƏN ƏHMƏD BAKIXANOVUN MİLLİ MUSİQİ İRSİNİN İNKİŞAFINDA ORUNUB SAXLANMAĞINDA ROLU

.

**Xülasə:** Məqalə Azərbaycanın ən qocaman xalq musiqiçilərindən biri Əhməd Bakıxanova həsr olunub. Məqalədə Əhməd Bakıxanovun həyat və yaradıcılığından bəhs edilir, yaradıcılığının əsas xüsusiyyətləri tədqiq edilir, ifaçılığının musiqi xüsusiyyətləri göstərilir.
**Açar sözlər:** muğam, tar, not yazısı, xalq musiqisi

Əhməd Bakıxanov bütün yaradıcılığı boyu xalq-ifaçılıq ənənələrini qoruyub saxlamış və tarda muğam ifaçılığının özünəməxsus məktəbini yaratmış, xalq musiqisinin nümunələrini illər boyu öz hafizəsində saxlayaraq onları yaşatmışdır.

Onun yaradıcılığının əsasını Azərbaycan musiqisinin ənənələri təşkil edir. O, bu ənənələri inkişaf etdirərək xalq musiqisinin zənginləşməsinə çalışmışdır. Onun yaradıcılıq fəaliyyəti bir neçə istiqamətə bölünür. Həm muğam ifaçısı, həm pedaqoq, həm xalq çalğı alətləri ansamblının rəhbəri kimi, həm də xalq musiqisinin nota salınmasında rolu əvəzsizdir. Əhməd Bakıxanov muğam bilicisi kimi məşhurdur, onun adı əsas etibarı ilə muğamla bağlıdır. Əhməd Bakıxanov muğamı dərindən bilən, onun sözlərinə bələd olan, ifaçılıq sənətinə dərindən yiyələnən muğam biliciləri sırasında dayanır. Öz dövrünün məşhur muğam ustalarından Sadıqcan Əsəd oğlu, Qarabağlı Zeynal, Şirin Axundov, Qurban Pirimov, Mənsur Mənsurov kimi Əhməd Bakıxanov da özünəməxsus üslubu olan mükəmməl sənətkardır. Davud Məmmədbəyov "Muğam ustadı Əhməd Bakıxanov" kitabında yazır: Sözün yüksək mənasında başqa ifaçılardan seçilmək və fərdi ifaçılıq üslubuna malik olmaq musiqiçi üçün, demək olar ən mühüm şərtdir. Bu nöqteyi-nəzərdən də Əhməd Bakıxanov bir tarzən kimi xüsusi mövqe tutur. Həssas dinləyici tarın səsindən, tembrindən və mizrabın vurulmasından çalanın Əhməd Bakıxanov və ya başqa bir ifaçının olduğunu hiss edib ayırır. [5, səh. 5].

Əhməd Bakıxanov muğam ifaçılığı sahəsindəki fəaliyyəti daim diqqət mərkəzində olub. O, muğamı müasir dövrün tələblərinə uyğun olaraq

yeniləşdirir və təkmilləşdirirdi. Klassik ifaçılıq ənənələrini qoruyub saxlayaraq öz ifasını yeni ruhda təravətləndirir, Azərbaycan muğamlarını saf duyğularını üzə çıxarır və bu da onun yaradıcılığının ən mühüm cəhətlərindən biridir. O, milli ifaçılıq məktəbinin ənənələrini inkişaf etdirərək öz ifaçılıq qabiliyyəti ilə dinləyicilərin rəğbətini qazanmışdır.

Əhməd Bakıxanov ifaçılığı Azərbaycan tar məktəbinin ən yaxşı ənənələri ilə sıx surətdə bağlıdır. Onun ifası dinləyicini valeh edərək öz cazibəsi ilə fərqlənir. "Ustadın ifaçılığında ahəngdarlıq, zəriflik, incəlik, lal barmaqdan istifadə, dartma sim üslubu, sürüşdürmə və barmaqların nizamla növbələşməsi əsas yer tutur" [6, səh.5]. Onun ifaçılıq sənətinin xüsusiyyəti ondan ibarətdir ki, o başqa sənətkarları heç vaxt təkrarlanmayıb. Onun ifasında fərdlik nəzərə çarpır. Xüsusi ilə bu fərdlik muğamın ifası zamanı nəzərə çarpır. O, yalnız gözəl çalmaqla kifayətlənməyərək muğamın öz daxili xüsusiyyətindən əlavə, hər pərdədə yeni ahəng, yeni məna axtarır, ifasını özünəməxsus tərzdə dinləyiciyə çatdırırdı.

Əhməd Bakıxanovun müəllimlik fəaliyyəti çox zəngindir. Xalq musiqisindən dərs verən ilk müəllimlərdən biri də Əhməd Bakıxanovdur. İlk dəfə Üzeyir Hacıbəylinin təşəbbüsü ilə yeni təşkil olunmuş konservatoriyanın xalq çalğı alətləri şöbəsində dərs deməyə dəvət olunur. Əhməd Bakıxanov yeni tədris proqramı tərtib edərək onu genişləndirməyin lazım olduğunu qeyd edir. Yeni proqramın üstün cəhətləri ondan ibarətdir ki, muğamların sayı artır və bu proqrama dəramәd və rənglərin də tədrisi əlavə olunur. Əhməd Bakıxanovun yetişdirdiyi musiqiçilər, xalqımızın zəngin musiqi irsini mənimsəməklə bərabər, eyni zamanda onun inkişafı üçün əllərindən gələni etmişlər. Əhməd Bakıxanov xidməti nəticəsində onun sinfini bitirən tələbələr dövlət filarmoniyasının solistləri sırasında, müxtəlif musiqi məktəblərində, Azərbaycan radio və televiziyasında çalışaraq Əhməd Bakıxanovun keçdiyi təlim kurslarının mükəmməl bilicilərinə çevrilmişlər. Onun tələbələri sırasında fərdi çalğı xüsusiyyətlərinə yiyələnmiş musiqiçilərdən Baba Salahov, Əliağa Quliyev, Həbib Bayramov, Sərvər İbrahimov, Azər Mustafayevi göstərmək olar. Onların sıralarında olan Adil Gəray, Nicat Məlikov, Əliağa Quliyev, Əhsən Dadaşov, Həbib Bayramov Azərbaycan SSR-nin Əməkdar artisti adına layiq görülmüşlər.

Əhməd Bakıxanov həm də xalq çalğı alətləri ansamblının rəhbəri kimi də şöhrət tapmışdır. O, bu fəaliyyətinə hələ 30-cu illərdə başlamışdır. Ansamblın yaranması məsələsi Bakıxanovu narahat edir və o, belə bir ansamblın meydana gəlməsi üçün özündən əvvəl mövcud olan ansamblların ifaçılıq ənənələrini öyrənir.

Əhməd Bakıxanov ansamblın mükəmməl olması üçün daim axtarışlar aparmış, ansamblın repertuarını təzələmiş, ifaçılıq ənənələrini qoruyub saxlamışdır. Əhməd Bakıxanov ansamblın tərkibinə tar, saz, ud, kanon şax-

şax, qoşa nağara, zurna-balaban, tütək, Avropa alətlərindən fortepiano, qaboy əlavə etməklə ansamblın rəngarəng səslənməsinə nail olmuşdur. Əhməd Bakıxanov ansamblın repertuarına da diqqət yetirirdi. Repertuar muğam, təsnif, rəng, xalq mahnı və rəqsləri, bəstəkar mahnılarından ibarətdir.

O, muğamların ifasına diqqət yetirərək onları daha da zənginləşdirir, muğam dəsgahlarının yeni dəramədlər, təsniflər və rənglər əlavə edir. " Əhməd Bakıxanov ansambl ifaçılığında dəraməd və diringələrə, təsnif və rənglərə geniş yer verməklə muğamların ifasını daha da şirinləşdirir, dinləyicilərdə yüksək estetik zövq tərbiyə edirdi. Təsadüfü deyil ki, onun rəhbərlik etdiyi ansambl muğamları, xalq mahnılarını, diringələri düzgün, səlis, xalqın ruhuna uyğun şəkildə ifa edir və etməkdədir" [1, səh. 95].

Onun bir yeniliyi ondan ibarətdir ki, ustad sənətkar dəraməd və rəngləri özü bəstələyirdi. Bu da Əhməd Bakıxanovun xalq musiqisinin təbliği, geniş yayılması, nota salınması və qorunub saxlanması işindəki fəaliyyətinin bariz nümunəsidir.

O, bəstəkar N. Məmmovla birlikdə Azərbaycan muğamlarının nota köçürülməsində yaxından iştirak etmişdir. N. Məmmədov Əhməd Bakıxanovun ifasından, "Çahargah" və "Humayun" (1962), "Bayatı-Şiraz" və "Şur" (1962), "Segah", "Zabul" və "Rahab" (1965), muğamların instrumental ifaçılıq üslubunda, "Çahargah" (1970) muğamını isə vokal-instrumental variantda nota köçürmüşdür. N. Məmmədov bu muğamları nota köçürərkən Əhməd Bakıxanovun ifaçılıq üslubunu əsas götürmüşdür.

Sonralar Əhməd Bakıxanov özü muğamları, zərbi-muğamları, rəngləri nota köçürərək bu nümunələri çap etdirir. Nəticədə "Azərbaycan xalq rəngləri" (1964). "Azərbaycan ritmik muğamları" (1968), "Muğam, mahnı, rəng" (1975) kimi məcmuələr meydana çıxır. "Azərbaycan xalq rəngləri" məcmuəsində 71 rəng və dəraməd toplamışdır. Bu məcmuədə Ə. Bakıxanov özünün bəstələdiyi rənglərə təsadüf olunur.

Ə. Bakıxanovun "Azərbaycan ritmik muğamları" məcmuəsi 1968-ci ildə işıq üzü görür. Məcmuədə "Arazbarı", " Ovşarı", "Heyratı", "Kərəmi", "Mənsuriyyə", "Simayi-Şəms", "Mani", "Salami", "Bayati Əcəm", "Bayati Çoban" və s. ritmik muğamlar öz əksini tapmışdır. "Azərbaycan ritmik muğamları" məcmuəsi xalq musiqisini öyrənənlər, bəstəkarlar musiqi tədqiqatçıları üçün əvəzolunmaz vəsaitdir. Azərbaycan bəstəkarları öz yaradıcılıqlarında ritmik muğamlara müraciət etmişlər. Üzeyir Hacıbəyli "Arazbarı", F. Əmirov "Kürd Ovşarı", M. Məmmədov "Heyrati" ritmik muğamlarını simfonik orkestr üçün bəstələmişlər.

1975-ci ildə Ə. Bakıxanov "Muğam, mahnı, rəng" adlı məcmuəsi Çapdan çıxır. Məcmuəyə "Nəva" muğamı, "Sevgilimsən gözəl yar" mahnısı, "Səlami" müqəddiməsi və rəngi daxildir. Məcmuəyə daxil olan "Nəva" muğamı çox əhəmiyyətlidir.

Bu muğam tədricən unudularaq demək olar ki, çox az ifa olunur. Əhməd Bakıxanov "Nəva"ni nota köçürərək unudulmaqdan qoruyub saxlamış və təkmilləşdirmişdir.

Əhməd Bakıxanov demək olar ki, ömrünün çoxunu xalq musiqisinin toplanmasına, onları notlaşdırıb geniş kütləyə çatdırmağa sərf etmişdir. O, xalq musiqisi nümunələrini hafizəsində saxlayaraq onları təkmilləşdirib yayılmasına çalışırdı. Azərbaycan muğamlarının təsnif və rənglərinin inkişafında, qorunub saxlanmasında Əhməd Bakıxanovun rolu xüsusi yer tutur. O, öz fəaliyyəti ərzində Azərbaycan muğamlarının təsnif və rənglərinin nota köçürülməsi və nəşri ilə məşğul olmuşdur. O, bu nümunələrə yaradıcı münasibət bəsləyərək onları daha da cilalamış və inkişaf etdirmişdir. Onun musiqi mədəniyyətimizin inkişafında xüsusi bir yeri var. Azərbaycan xalq musiqisini qoruyub saxlamaq, toplamaq, nəşr etdirmək bu gün də aktualdır. Əhməd Bakıxanov kimi sənətkarlarımızın bu işdə fəaliyyəti diqqətə layiq və əvəz olunmazdır.

**Ədəbiyyat:**


1. Bakıxanov Ə.. "Muğam, mahnı, rəng". Bakı -1975
2. Bakıxanov Ə.. "Azərbaycan xalq rəngləri". "Azərnəşr". Bakı -1964
3. Bədəlbəyli Ə.. "İzahlı monoqrafik musiqi lüğrəti". "Elm". Bakı -1969
4. Hacıbəyli.Ü. "Azərbaycan xalq musiqisinin əsasları". "Yazıçı" Bakı -1965
5. Məmmədbəyov D.. "Muğam ustası Əhməd Baakıxanov". Azərnəşr"- 1966
6. Rəhmətov Ə.. "Əhməd Bakıxanov". "İşıq". Bakı – 1977


**Mehriban Pashayeva**

**The role of tarzan Ahmed Bakikhanov in the development and preservation of the national musical heritage**

**Key word:** mugham, tar, musical, notation, folk music.

This article devoted to Bakikhanov, one of the oldest folk musicians of Azerbaijan. The article describes Bakikhanov's life and work. The man features of his work studied, musical notations of his game were observed.

**Мехрибан Пашаева**

## Роль тарзана Ахмеда Бакиханова в развитии и сохранении национального музыкального наследия

**Ключевые слова:** мугам, тар, нотная запис, народная музыка.

Статья посвящена одному из старейших народных музыкантов Азербайджана Ахмеду Бакиханову. В статье говорится о жизни и деятельности Ахмеда Бакиханова, изучены основные черты его творчества, обозначены музыкальные особенности его игры.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası ISSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 164-168

**Yeganə Bayramlı**

Sənətşünaslıq üzrə fəlsəfə doktoru
AMEA Memarlıq və İncəsənət İnstitutu
"Muğamşünaslıq" şöbəsinin böyük elmi işçisi
*yegana-bayramli@mail.ru*

**UOT 787**

# KİTABİ-DƏDƏ QORQUD DASTANINDA QOPUZ SEMANTİKASI

**Xülasə:** Hazırki məqalədə qopuz simli musiqi alətinin Kitabi-Dədə Qorqud Dastanında semantikası araşdırılır. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün adı çəkilən alət təkcə musiqi aləti kimi deyil, ruhi aləmin dərk edilməsinə xidmət edən, eyni zamanda, mənaların dərk edilməsinə xidmə edən vasitə kimi aşkarlanmışdır.

**Açar sözlər:** "Kitabi-Dədə Qorqud" dastanı, simli musiqi aləti qopuzun semantikası.

Zəngin maddi və mənəvi dəyərlərə malik olan Azərbaycan xalqı öz genetik kodlarında əldə edib daşıdığı biliyi, əsrlər boyu inkişaf etdirərək, gələcək nəsillərə ənənəvi şəkildə varislik yolu ilə ötürmüşdür. Öz növbəsində bu zəngin maddi və mənəvi irsin bir qolu "muğam"dırsa, digəri də "ozan–aşıq" sənətidir.

Azərbaycan ənənəvi mədəniyyətinin ta qədimdən yol alıb gələn tarixində, dünyagörüşündə, həyat tərzində, ozan–aşıq sənəti müstəsna rola malikdir. Azərbaycan musiqisinin tarixi kökləri araşdırdıqda "Kitabi Dədə Qorqud" dastanın əhəmiyyəti, onun soy kökümüzü əks etdirməsi danılmazdır. Drezden kitabxanasında qorunub saxlanılan "Kitabi Dədə Qorqud" dastanı 1835–ci ildə alman şərqşünası H. Dits tərəfindən aşkar olunaraq tədqiqata cəlb olunmuşdur. Azərbaycan türklərinin etnik kimliyini, mədəniyyətini, tarixi əks etdirən dastanda oğuz türklərinin musiqi həyatı, musiqi janrları, musiqi alətləri haqqında zəngin məlumatları əks etdirən faktlara təsadüf olunur.

Tarixi mənbələrdən əldə olunan məlumatlara əsasən aşığın sələfi ozan olduğu kimi, saz simli musiqi alətinin sələfi qopuz simli mizrablı musiqi aləti olmuşdur. Saz simli mizrablı musiqi alətinin yaradıcısı və ifaçısı aşıq olduğu kimi, qopuz simli mizrablı musiqi alətinin yaradıcısı və ifaçısı ozan olmuşdur. Ozanlar xalqın xeyir və şər mərasimlərində iştirak edərək, biliyi kütləyə çatdıran maarifləndirici şəxslər olmuşlar. Bu baxımdan demək olar ki, ozanlar

həm də sinkretik təfəkkürə malik olan, özündə ezoterik biliyi daşıyan şəxsiyyətlər olmuşlar. Əldə etdiyi biliyi kütləyə yaymaq funksiyasını isə öz ruhi aləmi ilə bağlı olan və idrak təxəyyülünün məhsulu olan qopuz simli mizrablı musiqi aləti vasitəsilə həyata keçirmişlər. Ozan uzaqgörən, ön görücü, ilahi aləmlə trans vəziyyətində əldə etdiyi biliyin daşıyıcısı hesab olunurdu. Onun ötürdüyü informasiya kökə bağlılıq, millik gələcək nəslin inkişafı, həyatı dərk etməsi prinsipi nöqteyi-nəzərindən mühüm məna kəsb edirdi. Cəmiyyətin inkişafını təmin edən sağlam, müdrik təfəkkürə malik şəxsiyyətin yetişdirilməsi üçün bu vacib amillərdən hesab olunurdu. Bu nöqteyi nəzrədən mövcud ənənənin yaşadılması onun gələcək nəsillərə ötürülməsi zəruri addımlardandır. Böyüyüb başa çatdığı mühitin ənənələrini yaşadan, milli düşüncə tərzinə sıx bağlı olan, və onu nəsildən-nəsilə ötürən bu mühüm vəzifənin icraçısı ozanlar hesab olunurdu. Mifaloji rəvayətə əsasən qopuz musiqi alətinin yaradıcı Dədə Qorqud hesab olunur. Belə ki, aləti düzəltmək iddiasında olan Qorqud ata təsadüfən meşədə gəzərkən şeytanlardan necə qopuz düzəltmək lazım olduğunu eşidir. Digər bir ərvayətə əsasən isə Qorqud Ata əcəl qorxusu gələndə ölümün əlindən, labüdlükdən can qurtarmaq üçün içərisinə xalça sərilmiş qayıqda, su üzərində Qopuz çaldı, Suyu, Xalçanı, Qopuzu qoruyucu ölümsüzlük saydı. Zahirən gerçəklikdən uzaq olan mifoloji məna kəsb edən xalça, qopuz, su nümunəsi. Gerçəklikdə sakral mahiyət daşıyan, batini nöqteyi-nəzərindən və saflığın rəmzi olnsu, eyni zamanda, ilahi aləmlə bağlı olan qopuz simli mizrablı musiqi aləti və ruhi mətnin kodlaşmış məna çalarlarını özündə ifadə edən xalça bir növ mistik məna daşıyaraq hər üç element qoruyucu funksiya daşıyır.

"Kitabi Dədə Qorqud" dastanında qopuzun simvolik mahiyyət daşıması, onun ilahi aləmlə bağlılığı, həmçinin and, iman yeri olaması bu alətin əhəmiyyətli funksiyaya malik olmasından xəbər verir. Belə ki, xalqın ümid, güman yeri olan qopuz simli mizrablı musiqi alətinin yaradıcısı və ifaçısı olan ozanlar, kütlənin sevincini, kədərini bölüşərək ayin və mərasimlərində yaxından iştirak edərək bu prosesi öz alətində müşayət edərək səsləndirmişlər. "Qopuz götürüb eldən-elə, bəgdən-bəgə ozan gəzər" və yaxud döyüşün qan davasının qarşısının alınması üçün "Sənə and verirəm qolça qopuza"[3]. Burada hər iki nümunədən müşahidə olunur ki, qopuz musiqi aləti dastan boyu müqəddəs alət kimi təqdim olunur.

Görkəmli musiqişünas alim və bəstəkar Ə. Bədəlbəylinin «Musiqi lüğəti» kitabında ozanın kimliyi haqqında məlumat verilmişdir: "Ən qədim Azərbaycan aşıqlarının daşıdıqları ad. Ozan da aşıq kimi, xalqımızın professional nəğməkarı, çalğıçısı, şairi, nağıl deyəni, lazım gəldiyi halda, həm də rəqs (xoreoqrafiya) sənətindən də istifadə edərək incəsənətin bir neçə növünün sintezini öz yaradıcılığında təcəssüm və nümayiş etdirən ustad olmuşdur" [1]. Alimin fikrinə əsasən belə qənaətə gəlmək olar ki, hər iki sənət

növü tamlığın vəhdəti olaraq, özündə bir çox elm sahələrini birləşdirən sinkretik bilik növüdür.

Hələ erkən dövrlərdən formalaşmağa başlayan ozan–sənəti, xalq yaradıcılığı mühitində yaranmış, eyni zamanda xalqın etnik mədəniyyətinin təmsilçisi olaraq, onun dünyagörüşünün dərk olunmasına xidmət edən bir vasitə olmuşdur. Bu mənadan irəli gələrək qopuz simli mizrablı musiqi alətlətinin ifaçısı olan ozan, alətin ahəngdar tembrindən istifadə etməklə batin dünyaya köklənməklə əldə etdiyi biliyi kütləyə yayaraq onları maarifləndirmə funksiyasını icra edən şəxs olmuşdur.

Mənbələrdən əldə edilən məlumatlara əsasən, ozanlar həm də döyüş zamanı əsgərləri vətənpərvərliyə ruhlandıran, onlarda xüsusi “hal-əhval” əzmkarlıq yaradan şəxslər olmuşlar. Döyüşdə əzmkarlıqla vuruşan ozanlar, eyni zamanda, öz alətləri ilə ordunu önə apararaq, igidləri öz alətlərinin müşayəti ilə ruhlandıran şəxsiyyətlər olub. Qədim Osmanlı saraylarında, sərkərdələrin, xalq qəhrəmanlarının ordusunda ozan–şairlər və musiqiçilər yaxından fəaliyyət göstərərək onları maarifləndirən, biliyi əldə edib onu ötürən şəxslər olmuşlar.

Tədqiqatçılar hesab edirlər ki, erkən çağlarda qopzun simləri at quyruğundan düzəldilmişdir. At quyruğundan götürülmüş qıllar xüsusi tərzdə burulub tarımlanaraq sim kimi qopuza bağlanmışdır. Qopuzun pərdələri isə qoyun bağırsağından hazırlanmış kirişdən düzəldilmişdir [2]. Əsasən türk xalqlarının yaşadığı coğrafi ərazidə mövcud olan qopuz simli dartımlı musiqi alətinin müxtəlif növlərinə Avropa ölkələrndə (Ukrayna, Polşa, Macarıstan, Moldava) müxtəlif adlar altında “kobuz”, “kobza”, “komuz”, “komız” adı altında müşahidə edilir. Mənbələrdən əldə edilən məlumatlara əsasən oxşar ad altında formalaşan qopuz simli musiqi aləti eramızın IV-V əsrlərində türk tayfaları olan hunların Avropaya yürüşü (Xalqların Böyük Köçü) zamanı baş vermişdir.

Müasir dövrdə qopuzun iki növü daha geniş istifadə olunmaqdadır. Bunlardan biri “qıl qopuz” adı ilə mövcud olan yaylı simli musiqi alətləri qrupuna aid edilən iki simli qopuz növüdür. Mövcud olan yaylı qopuz Orta Asiya xalqları arasında, xüsusilə Qazaxıstanda geniş yayılan və hal-hazırda az istifadə edilən alətdir. Digəri isə müasir aşıq sazının sələfi hesab edilən üçsimli “qolça qopuz” simli mizrablı musiqi alətidir.

Əbdülqadir Marağai “Məqasid əl-əlhan” əsərində qopuzun iki növünün “rumlular qopuzu” və “ozan qopuzu”nun quruluşu barədə məlumatı diqqətə çatdırır. Elmi mənbələrdən əldə edilən məlumatlara əsasən “qopuz” sözünün etimologiyası qop qədim türkcədə “ucalıq”, “yüksəklik”, uz isə “avaz”, “sehrli musiqi ahəngi” anlamlarını ifadə edir. Qədim türk qopuzları, əsasən, ikisimli və üçsimli olmuşdur.

Mövcud olan risalələrlə tanışlıq zamanı Ə.Marağayinin elmi əsərlərində təsvir edilən aşıq, eyni zamanda, türkdilli xalqların mədəniyyət özəyinin əsasını təşkil edən ozanların, baxşıların incəsənətinin tarixinə dair qiymətli məlumatlara rast gəlinir. Eləcə də risalədə şifahi profesional musiqi janrları ilə yanaşı musiqi alətləri haqqında məlumata da təsadüf edilir. ozanların əsas çalğı alətini kimi "Rum qopuzu", "Ozan qopuzu", "Şıdırqı" adları ilə təqdim edilirdi. Məhz bu səbəbdən irəli gələrək ehtimal etmək olar ki, müasir sazın quruluşunun əsasını məşhur "Kitabi-Dədə Qorqud" dastanında qeyd edilən qıl qopuzun quruluşu ilə eyniləşdirilməsi Marağayinin əsərlərində əyani sübut kimi görünür.

Tədricən təkamül yolu keçən qopuz simli musiqi aləti öz yerini saz simli mizrablı musiqi alətinə dəyişərək günümüzə qədər gəlib çıxmışdır. Qopuzun saz musiqi aləti ilə əvəzlənməsi əvvəlki dünyagörüşündən uzaqlaşmaq meyli ilə bağlıdır. Fikrimizcə qopuz simli musiqi alətinin saz simli musiqi aləti ilə bağlılığı hər ikisinin müqəddəs alət hesab olunması və bu alətlərin hər ikisinin ruhi, ilahi aləmlə bağlılıq əlamətidir.

Əsrlər boyu qan yaddaşımıza hopan musiqilər və onların səsləndirilməsini təmin edən alətlər, dövr və zaman dəyişsə də heç biri unudulmur, yaddaşlardan silinmir. Əksinə təkamül və inkişaf yolu keçərək formasını dəyişərək çağdaş günümüzə qədər gəlib çıxır. Ozan ifaçılıq sənəti də həyatda itməmiş təkamül yolu keçən bu sənət növü öz yerini aşıq ənənəsinə dəyişməklə müasir dövrümüzdə də yaşamaqdadır. Qopuz simli mizrablı musiqi alətinin saz musiqi aləti ilə əvəzlənməsi bu alətin daha geniş səs akustik imkanlarına yaranan tələbdən irəli gəlir. Belə ki, iki simli qıl qopuz təkmilləşərək simlərinin sayı 8,9,11 simli, eyni zamanda qolu uzadılaraq, çanağının genişlənməsi, və pərdələrinin sayının artırılması sayəsində yeni inkişaf mühitinə qədəm qoydu. Dediklərimizdən belə nəticəyə gəlmək olar ki, həm qopuz musiqi aləti, həm də saz simli musiqi aləti hər ikisi ruhi dünya ilə bağlı olan musiqi alətləridir. Bu alətlərin ozan- aşıq ənənəsində böyük əhəmiyyəti vardır. Belə ki, qopuz-saz simli mizrablı musiqi alətlərində prosesə qovuşmaqla batin dünyadan əldə etdikləri biliyi kütləyə yayan şəxslər məhz ozanlar və aşıqlar olmuşlar. Həm Ozan həm də aşıq hər ikisi maariflənfirici, biliyi yayan, ötürən şəxslərdir. Bu mənada hesab etmək olar ki özündə sinkretik məna daşıyıcısı olan bu sənət növü müsəlmən Şərqinin özünəməxsusluğunun təcəsümüdür. Qopuzun Saz simli musiqi aləti ilə əvəzlənməsi isə onun həm texniki imkanları, həm də aksutik imkanlarının zəif olması ilə bağlıdır.

Azərbaycan milli və mənəvi mədəniyyətinin təmsilçisi olan qopuz simli musiqi aləti tədricən öz yerini saz simli mizrablı musiqi alətinə verərək sıradan çıxmışdır. Lakin tədqiqatçı M. Kərimov uzun illərdən sonra qopuz simli dartımlı musiqi alətini bərpa edərək qədim musiqi alətləri ansamblının tərkibinə salaraq, xalqımıza təqdim etmişdir.

**Nəticə:** Təqdim olunan məqalədən belə qənaətə gəlmək olar ki, "Kitabi Dədə Qorqud" dastanında adı çəkilən qopuz simli musiqi aləti öz quruluşuna və səslənməsinə görə təkcə musiqi aləti kimi təzahür olunmur. Dastanda mövcud olan alət ezoterik məna yükünü daşıyan, ilahi mənaların dərk eilməsinə xidmət edən, eyni zamanada, özündə yüksək informasiya daşıyan ötürücü cihaz rolunu icra edir.

### Ədəbiyyat:


1. Bədəlbəyli Ə. http://lugat.musigi-dunya.az
2. Baheddin Ö., Türk kültür tarixinə giriş IX c., Ankara, Başbakan Basımavi, 1987, 393 s.
3. Kitabi-Dədə Qorqu: əsil və sadələşdirilmiş mətnlər. Bakı:, Öndər nəşriyyat-2004. 376 s.


**Yegana Bayramli**

### Gopuz semantics in the epic "Kitabi-Dede Gorgud"

**Keywords:** Epic Kitabi-Dede Gorgud, semantics of gopuz The present article examines the semantics of gopuz stringed musical instrument in the Epic Kitabi-Dede Gorgud. In order to achieve the set goal, the mentioned instrument was discovered not only as a musical instrument, but also as a tool that serves the understanding of the spiritual world and at the same time serves the understanding of meanings.

**Егяна Байрамлы**

### Семантика Гопуз в эпосе «Китаби-Деде Горгуд»

**Ключевые слова:** эпос «Китаби-Деде Горгуд», семантика струнного музыкального инструмента гопуз.

В статье рассматривается семантика струнного музыкального инструмента гопуз в эпосе «Китаби-Деде Горгуд». Для достижения поставленной цели упомянутый инструмент был открыт не только как музыкальный инструмент, но и как инструмент, служащий пониманию духовного мира и одновременно служащий пониманию смыслов.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası ISSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 169-175

**Turanxanım Şirzadova**

AMEA-nın Memarlıq və İncəsənət İnstitutu
“Muğamşünaslıq” şöbəsinin böyük elmi işçisi
sənətşünaslıq üzrə fəlsəfə doktoru
sirzadovaturanxanim@mail.ru

**UOT 781**

# ELMİN HUMANİTARLAŞMASI PROSESİNİN BƏZİ ANLAYIŞLARIN YENİDƏN DƏRK EDİLMƏSİNDƏ ROLU

**Xülasə:** Təqdim edilən məqalədə “simmetriya” anlayışı haqqında bəhs edilir. Qeyd edilir ki, elmin himanitarlaşması prosesi bir sıra məsələlərin yenidən dərkinə imkan verir. Dəqiq və humanitar elmlərdə rast gələn bir sıra anlayışlar mahiyyətinə görə bir-birindən fərqlənən istiqamətlər arasında əlaqə yaradaraq özünün çoxtərəfliyini və universallığını nümayiş etdirir. Elmi fikirdə irəli sürülmüş “şüur konsepsiyası”na istinad riyazi və təbiət elmləri ilə əlaqəli olan “simmetriya”, “tarazlıq”, “nisbət” və d. anlayışların bədii mədəniyyət sahəsində də mühüm rol oynadığını göstərir. Məsələyə “simmetriya-asimmetriya” nümunəsində “batin-zahir” binar münasibətləri baxımından yanaşma simmetriyanın mahiyyətinin bir-birinin əksi olan anlayışların qarşılıqlı əlaqəsi ilə bağlı olduğunu göstərir.

**Açar sözlər:** simmetriya, humanitarlaşma, “şüur konsepsiyası”, “batin-zahir”, “simmetriya-asimmetriya”, dekorativ-tətbiqi sənət, miniatür sənəti

Elmin humanitarlaşması prosesi XXI əsrin tədqiqatçıları qarşısında aktuallığına görə mühüm əhəmiyyət daşıyan və ətraflı şəkildə araşdırılan məsələlərdən biridir. “Rasional” təfəkkürün fəallığının artmağa başladığı dövrlərdən etibarən dəqiq elmlər də öz inkişafının yüksək pilləsinə qalxmış və bu istiqamətdə bir çox kəşflər edilmişdir. Lakin bu kəşflərin bəşəriyyətin gələcəyi ilə bağlı bir o qədər də ümidverici vədlər verməməsini müşahidə edən alimlər belə bir mürəkkəb vəziyyətdən çıxışı alternativ yolların axtarışında görürlər. Bu səbəbdən demək olar ki, humanitarlaşma prosesinin elmin müxtəlif sahələrinə, eləcə də ənənəvi mədəniyyətə nüfuz etməsi XXI əsrdə baş verən hadisələrdən qaynaqlanaraq zamanın tələbi kimi özünü büruzə verir.

Mənbələrlə tanışlıq göstərir ki, elmin humanitarlaşması məsələsi bir çox tədqiqatlarda işıqlandırılmışdır. Müxtəlif sahələrin tədqiqatçıları spesifikliyini nəzərə alaraq araşdırdıqları istiqamətlə elmin humanitarlaşması

prosesini əlaqələndirməyə cəhd göstərir, məsələnin həlli yollarını təklif edərək bu istiqamətdə öz töhfələrini verməyə çalışırlar. Ənənəvi mədəniyyətin tədqiqi də bu prosesdən kənarda qalmamışdır. Lakin humanitarlaşma prosesinin ənənəvi mədəniyyətlə bağlı məhz hansı məsələlər dairəsinə təsir göstərməsi fikrimizcə diqqəti cəlb edən problem kimi özünü büruzə verir. Bu mənada, məqalədə qarşıya qoyulan başlıca məqsəd bədii mədəniyyət nümunələrinin kompozisiyasının, ornamentlərinin quruluşunun əsası kimi özünü büruzə verən bəzi anlayışların yenidən dərk edilməsini işıqlandırmaqdır.

Ötən əsrlərə nəzər yetirərkən müəyyən etmək olur ki, elmin humanitarlaşması müəyyən dövrlərdə aktuallığına görə mühüm əhəmiyyət kəsb edən (yəni aktivləşən), müəyyən dövrlərdə isə kölgədə qalan (yəni passivləşən) bir proses olmuşdur. Qeyd etmək lazımdır ki, bu prosesin artma-azalma dinamikası vahid biliyin bütövlüyünün parçalanaraq dəqiq və humanitar sahələrə ayrıldığı dövrlərdən öz başlanğıcını götürmüşdür. Lakin bir-birindən təcrid edilərək araşdırılmasına baxmayaraq, dəqiq və humanitar sahələr arasında əlaqə itməmişdir. Təsadüfi deyil ki, bəşəriyyətin mövcudluğunu sual altına qoyan bir sıra elmi kəşflərin edilməsinə cavab olaraq indiki dövrdə də humanitarlaşma prosesinin fəallaşdığını izləmək mümkündür. Məsələ ilə bağlı tədqiqatçıların fikirləri də diqqəti cəlb edir. Filosof Əli Abasov bununla bağlı yazır: "Elmin aqressiv və totalitar təzahürünü cilovlamaq imkanı, onun humanitarlaşmaya doğru dəyişdirilməsi dərketmənin bu istiqamətinin mentallığın çərçivəsindən kənarda olduğunu göstərir. Elm ağacına incəsənət ağacını peyvənd etmək lazımdır ki, düşüncənin yeni növü alınsın" [1, 200].

Qeyd edilənlərdən bu nəticəyə gəlmək olar ki, elmin humanitarlaşması təbii, olduğu kimi, həm də vacib prosesdir.

Elmin humanitarlaşmasının mahiyyətini, xüsusilə də ənənəvi mədəniyyətə təsirini dərk etmək üçün bu prosesin araşdırılmasında metodologiyanın seçimi mühüm rol oynayır. Bu mənada, elmi fikirdə musiqişünas Sevil Fərhadova tərəfindən irəli sürülmüş "şüur konsepsiyası"na istinad bir çox məsələlərin izah edilməsinə və yenidən dərkinə zəmin yaradır. Bədii mədəniyyət nümunələrinin kompozisiyasının və ornamentlərinin quruluşunda vacib əhəmiyyət kəsb edən bəzi anlayışları da bu məsələlər siyahısına aid etmək olar. Bu anlayışlardan biri də "simmetriya"dır.

"Simmetriya" anlayışının diqqət mərkəzində olması təsadüfi deyil. Tarixə ekskurs göstərir ki, "simmetriya" anlayışının dərk edilməsinə göstərilən maraq öz başlanğıcını hələ erkən dövrlərdən götürür. İlk baxışdan dəqiq elmlərlə əlaqələndirilsə də, "simmetriya" öncə bədii mədəniyyət sahəsi vasitəsilə öz aktuallığını büruzə vermişdir. Təbiəti, eləcə də özünü dərk

etməyə başlayan keçmiş dövrün insanı bu anlayışı kəşf etmiş, onun mahiyyətini anlamağa çalışmışdır.

Mənbələrlə tanışlıq göstərir ki, Zərdüştliyin qədim yazılı abidəsi olan "Avesta"nın qatlarının yazılmasında da məhz "simmetriya" qanunları əsas götürülmüşdür. Bu mənada, tədqiqatçı İ.S.Braginskiy Şərq dünyagörüşündə gözəllik haqqında ilkin təsəvvürün ölçü, ölçüyə uyğunluq anlayışlarının, yəni "ahəngdarlığın" rüşeymi ilə əlaqəsini vurğulamışdır. O, bu ahəngdar ölçülüyün əsas təzahürünü qatların sətirlərinin simmetrik quruluşunda izlənilməsini bildirmiş, "Avesta" yazılı mənbəsində təsadüf olunan "gözəl" sözünün etimoloji və semantik baxımdan "yaxşı", "xeyirxah" və digər müsbət qiymətləndirici sözlərlə bağlılığını qeyd etmişdir [2, 98].

Musiqişünas Sevil Fərhadova tərəfindən irəli sürülmüş "şüur konsepsiyası"nın mahiyyəti dünyanın iki – "rasional" və insanın potensial imkanlarında olan "irrasional" yolla dərki ilə bağlıdır [5]. Bu mənada, simmetriyanın "şüur konsepsiyası"na istinad edilərək işıqlandırılması bu anlayışın mahiyyətini anlamağa imkan verir.

"Simmetriya" anlayışı geniş mənada hər hansı dəyişikliklərdə, yenilənmələrdə (məsələn, mövqenin, enerjinin, informasiyanın və b.) təzahür edən uyğunluqdur, dəyişilməzlikdir, invariantlıqdır. Yunan dilindən tərcümədə "mütənasiblik", "birlikdə", "ölçürəm" kimi tərcümə edilən simmetriya bir-birinin əksi olan iki tərəfi qovuşdurur. Məhz bir-birinin əksi olan iki tərəfin mövcudluğu simmetriyanın mahiyyətinin ahəngdarlıqla və bu ahəngdarlıqdan yaranan gözəlliklə bağlılığını göstərir. Təsadüfi deyil ki, "harmoniya" ilə bağlı təlimlərini yayan Pifaqorçular ""simmetriya" sözünün əvəzinə "harmoniya" sözünü istifadə etməyi münasib hesab edirdilər" [4]. Bütün qeyd edilənlər onu göstərir ki, bir-birinin əksi olan iki tərəfin mövcudluğundan yaranan simmetriya ali mənada dərk edilən "ahəngdarlıq" anlayışı ilə əlaqəlidir.

Simmetriyanın həndəsə (güzgülü simmetriya; ox simmetriyası; fırlanma simmetriyası; nöqtəyə nəzərən simmetriya; sürüşmə simmetriyası); fizika (supersimmetriya; translasiya edilən simmetriya); biologiya (radial simmetriya; bilateral simmetriya); kimya; din və digər sahələr tərəfindən araşdırılması indiki dövrdə bu anlayışın əhatə dairəsinin genişliyini nümayiş etdirir. Sözsüz ki, qeyd edilən sahələrin spesifikliyi ilə uyğunlaşması universal anlayış kimi simmetriyanın elmin müxtəlif sahələrində özünü büruzə verməsinə zəmin yaradır. Bütün yuxarıda qeyd edilənlərin nəzərə alınması istər elm, istərsə də mədəniyyət sahəsində təzahür edən bu anlayışın ali mənada dəyərləndirilməsinin vacibliyini tələb edir.

Lakin qeyd etmək lazımdır ki, xüsusi elmi biliyə malik olmayan insan da simmetriyadan yaranan ahəngdarlığın və gözəlliyin sehrindən təsirlənir. Təsadüfi deyil ki, tədqiqatçı Y.S.Şosta "Qədim zamanlardan təbiətdə

müşahidə edilən formaların simmetriyası insana güclü təsir göstərirdi. O, simmetriyada qüdrətli yaradılışla daxil edilən qaydanı, ahəngdarlığı, kamilliyi görürdü. Simmetriyanın yaradanın müdrikliyinin təzahürü olması ilə bağlı inanclar bizim yüzilliyə qədər davam etdi. Simmetriyanın cazibəsi. onun qarşısında mistik ehtiram, simmetriyanın həqiqi məzmununun dərki ilə əvəz olundu" [6, 173] fikrini qeyd edir.

İnsanın ali mənalara nüfuz etməsi də çox zaman məhz mədəniyyət nümunələrinin seyr edilməsi nəticəsində mümkünləşir. Məsələn, Antik və İntibah dövrünə aid əsərlərin, eləcə də Orta əsr memarlıq abidələrinin, dekorativ-tətbiqi sənət nümunələrinin kompozisiyasının və ornamentlərinin simmetriya qanunlarına əsaslanaraq qurulmasının tamaşaçıda xüsusi hal-əhval yaratması qeyd edilənlərə misaldır.

Dekorativ-tətbiqi sənət nümunələrinin kompozisiyasının simmetriya qanununa əsaslanaraq qurulmasını bu nümunələrdə əksini tapan bəzi simvolların timsalında görmək olar. Məsələn, binar mənaların təzahürü olan, mifopoetik təfəkkür baxımından "həyat ağacı", "məhsuldarlıq ağacı", "mərkəz ağacı", "yüksəliş ağacı", nadir hallarda "ölüm ağacı", "yeraltı dünya ağacı" simvolu bu qəbildəndir.

Həyatda, eləcə də təbiətdə baş verən dəyişikliklərin aydınlaşdırılmasında "rasional" tərəfin fəallığı bütövlükdə ahəngdarlığın pozulmasına zəmin yaradır. "Birtərəfli görüntü" isə tədqiqatçı T.P. Qriqoryevanın qeyd etdiyi kimi, "insanı Həqiqəti qavramaq imkanından məhrum edir. Həqiqət bütövlük deməkdir" [3, 91-92]. Bu mənada, çox zaman dekorativ-tətbiqi sənət nümunələrində əksini tapan simvollarda "batin-zahir" nümunəsində bir-birinə əks olan iki tərəfin müxtəlif təzahürlərinə rast gəlmək mümkündür. Məsələn, hər iki tərəfində (sağ və sol, zahir və batin) ya canlı təbiət və yaxud insan fiqurları (allahlar, mifoloji personajlar,



**Şəkil 1. Saxsıda güllər. Xovlu xalça. Təbriz**



**Şəkil 2. Kərimov Lətif. Ağaclı. Xovlu, yun**

müqəddəslər və s.) təsvir olunan "dünya ağacı" həm üfüqi strukturu müəyyənləşdirir, həm də simmetriya oxu timsalında özünü büruzə verir. Mərasimin obyektinin və ya obrazın mərkəzdə, onun iştirakçılarının isə (məsələn, qurban kəsilən heyvanların - inək, maral, əvvəllər isə ağacla əlaqələndirilmiş insanın) sağ və sol tərəflərdə yerləşdirilməsi bunun əyani nümunəsidir.

"Həyat ağacı" simvoluna dekorativ-tətbiqi sənət nümunələrində, xüsusilə də xalçalarda təsadüf etmək mümkündür. Məsələn, Təbriz məktəbinə aid "Saxsıda güllər" ("Ağaclı") xovlu xalçasında (şək.1) olduğu kimi, sanki simmetriya oxunu əvəz edərək səthin üfüqi strukturunu müəyyənləşdirən, sağ və sol tərəfində tovuzquşular və keçilər təsvir olunan "həyat ağacı" qeyd edilənlərə misaldır.

Eyni kompozisiya quruluşunu Lətif Kərimovun "Ağaclı" xovlu xalçasında (şək.2) da görmək olar. Öncəki nümunə ilə müqayisədə "Ağaclı" xalçası canlı və cansız təbiətin zənginliyini nümayiş etdirməsə də müəllifin simmetriya prinsipinin təzahürlərindən biri olan "həyat ağacı" simvoluna nüraciət etməsi diqqətəlayiqdir.

"Həyat ağacı" simvolu miniatür sənəti nümunələrində də öz əksini tapmışdır. Rəssam Arif Hüseynovun miniatür üslubunda işlədiyi "Mis qablar" əsəri buna misaldır (şək.3). Qeyd etmək lazımdır ki, rəssam miniatürün kompozisiyasının qurulmasında simmetriya oxu timsalında kök, gövdə və budaqlardan ibarət olan "həyat ağacı" simvolunu əsas götürmüş, bu simvolun sağ və sol tərəflərində isə "zahir-batin" binar münasibətlərinin təzahür üsullarından olan kişi (sağ) və qadın (sol) obrazlarını yerləşdirmişdir. Diqqəti cəlb edən məqamlardan biri də miniatürün kompozisiya quruluşunda "həyat ağacı"nın sağ və sol tərəflərində bir-birinin güzgülü əksi kimi mis qabların simmetrik olaraq təsvir edilməsidir.

Bütövlüyün, tamlığın meydana gəlməsinin başlıca şərti iki bir-birinə əks tərəfin mövcud olmasıdır. Öncə qeyd edildiyi kimi, simmetriya da iki bir-birinə əks olan tərəf arasında tarazlıq yaradan prinsipdir. Lakin "simmetriya – yalnız tarazlıq deyil, eləcə də sükunətdir: tərəzinin bir tərəfinə əlavə yük artırmaq kifayətdir ki, tərəzi hərəkətə gəlsin. Tarazlıq pozularkən, simmetriya itir - hərəkət meydana gəlir" [4]. Bu mənada, simmetriyaya, yəni tarazlığa alternativ olan anlayış asimmetriya, yəni hərəkət özünü büruzə verir. Beləliklə, iki bir-birinə əks olan "sükunət-hərəkət", "simmetriya-asimmetriya" Şərq dünyagörüşünün, "batin-zahir" münasibətlərinin təzahür üsullarına çevrilir.

Bütün qeyd edilənlərdən bu nəticəyə gəlmək olar ki, həm "simmetriya" anlayışı, həm də "simmetriya-asimmetriya" münasibətləri "batin-zahir", "irrasional-rasional" nümunəsində iki bir-birinə əks olan tərəfin qarşılıqlı əlaqəsindən yaranan təmələ istinad edir.

Müəyyən zaman ərzində dünyanın dərk edilməsində "rasional" qütbün üstünlüyü, "simmetriya", "tarazlıq", "nisbət" kimi anlayışların dəqiqliklə əlaqələndirilməsinə baxmayaraq, məhz bədii mədəniyyətin, geniş mənada isə humanitar sahələrin vasitəsilə daha aydın şəkildə qavranıldığını göstərir. Bütün bunlar elmin humanitarlaşması prosesinin insanın mənəvi

kamilləşməsi, ruhən ucalması və ali fikri dərk etməsi yolunda mühüm funksiyanı həyata keçirdiyini nümayiş etdirir.

## Ədəbiyyat:


1. Абасов А. Парадоксы познания: кризис научного мировоззрения с. 199-220 // Проблемы истории, теории и методологии познания. Издательско-полиграфический центр ОЖА «Ени Несил». Баку 2001. 284 с.
2. Брагинский И.С. Древний Иран // История эстетической мысли. В 6-ти томах. Т. I, Древний мир. Средние века в Европе. Москва, 1985, с. 97-106.
3. Григорьева Т.П. Синергетика и Восток // Вопросы философии, 1997, №3, с. 90-102.
4. Понятия симметрии и асимметрии // https:// sfd6ad211f4630ceb. jimcontent.com
5. Фархадова С.Т. МУГА-монодия как тип мышления. Баку: Элм, 2001, 368 с.
6. Шоста Е.С. Науково-технічний збірник Комунальне господарство міст Морфологические принципы симметрии в композиции городской среды с. №112 . 172-176. pdf


## İllüstrasiyalar

1. Saxsıda güllər. Xovlu xalça. Təbriz məktəbi // Azərbaycan xalçaları.
2. Kərimov Lətif. Ağaclı. Xovlu, yun // Lətif Kərimov. Xalça sənəti. Bakı: Sərvət, 2013. s. 42.
3. Hüseynov Arif. Mis qablar. Kətan, yağlı boya //Azərbaycan nağılı. Dövlət Şərq muzeyi. Moskva, 2013, s. 22.

**Turanhanum Shirzadova**

## The role of the process of humanitarianization of science in the re-understanding of some concepts

**Keywords:** symmetry, humanization, the concept of consciousness, “internal-external”, “symmetry-asymmetry”, decorative applied art, miniature art

In the article talks about the concept of symmetry. It is noted that the process of humanitarianization of science allows the re-understanding of a number of issue. A number of concepts found in the exact and humanitarian sciences demonstrate their versatility and universality by creating a connection between directions that differ from each other in their essence. Although the reference to the concept of consciousness put forward in scientific thought is related to mathematics and natural sciences "symmetry", "balance", "proportion" etc. shows that concepts play an important role in the field of artistic culture. The approach to the issue from the point of view of inner-outer binary relations shows that the essence of symmetry in the example of symmetry-asymmetry belongs to the range of opposite and at the same time complementary concepts.

**Туранханум Ширзадова**

## Роль процесса гуманитаризации науки в переосмыслении некоторых понятий

**Ключевые слова:** симметрия, гуманитаризация, «концепция сознания», «внутреннее-внешнее», «симметрия-асимметрия», декоративно-прикладное искусство, миниатюрное искусство

В статье освещается вопрос, связанный с понятием «симметрия». Отмечается, что процесс гуманитаризации науки позволяет переосмыслить ряд вопросов. Некоторые понятия, которые встречаются в точных и гуманитарных науках, демонстрируют свою многогранность и универсальность, создавая связь между направлениями, которые по своей сути отличаются друг от друга. Ссылка на «концепцию сознания», которая выдвигается в научной мысли, показывает, что такие концепты как «симметрия», «баланс», «пропорция» и т. д. проявляются не только в математических и естественных науках, но и играют важную роль в области художественной культуры. Подход к вопросу с точки зрения бинарных отношений как "внутреннее-внешнее" показывает, что понятие «симметрия» (на примере «симметрия-асимметрия») принадлежит к тому ряду, которые представляют взаимодействие противоположных друг другу понятий.

**Mehriban Paşayeva**

AMEA Memaqrlıq və İncəsənət İnstitutu
sənətşünaslıq üzrə fəlsəfə doktoru

**UOT 786/789**

# MİLLİ MUSİQİ İRSİNİN QORUNMASINDA "BALAMAN MƏKTƏBİ" DƏRSLİYİNİN ƏHƏMİYYƏTİ

**Xülasə:** Bu məqalə "Balaman çalma məktəbi" dərsliyinə həsr olunub. Məqalədə ilk dəfə olaraq balabanda musiqi ifaçılığının öyrənilməsi məsələsi işıqlandırılır. Bu alətin mənası, quruluşu və təbiətindən bəhs edir. Simfonik orkestrdə balaban alətinin rolu qeyd olunur.
**Açar sözlər:** balaman, xalq çalğı aləti, ifaçılıq, xalq musiqisi

Milli musiqi irsinin qorunması dövrümüzün ən aktual məsələlərindən biridir. Bu baxımdan dahi dramaturq Hüseyn Cavidin oğlu Ərtoğrul Cavidin bir peşəkar musiqiçi kimi musiqi nəzəriyyəsi və musiqi folkloru sahəsində gördüyü işlər, irəli sürdüyü dəyərli fikirlər bu günə qədər əhəmiyyətini və aktuallığını itirməmişdir. Onun topladığı folklor nümunələri Hüseyn Cavidin ev muzeyində saxlanılır. Belə ki, hələ Pedaqoji İnstitutun ədəbiyyat fakültəsində oxuduğu illərdə özünü istedadlı bir tələbə kimi göstərmiş və folklor materiallarına yazdığı rəylərdə öz peşəkarlığını yüksək səviyyədə nümayiş etdirmişdir. Bu materialların yazdığı rəylərdə öz peşəkarlığını yüksək səviyyədə nümayiş etdirmişdir. Bu materialların arasında toplanmış nağıllar, bayatılar, laylalar, oxşamalar, dastanlar, aşıq poeziyası, muğam mətnləri, xalq mahnıları, folklor materialları, müxtəlif toy və yas mərasimlərinə aid nümunələr vardır. Eyni zamanda o, Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Bülbülün rəhbərliyi ilə yaranmış Elmi-Tədqiqat Musiqi Kabinəsində də çalışıb. ETMK-də fəaliyyət göstərdiyi zaman bir çox musiqi əsərlərinə və folklor musiqisinə rəy yazaraq musiqi nəzəriyyəçisi səviyyəsində layiqli qiymət vermişdir.

Ərtoğrul Cavid bir musiqiçi kimi də öz bacarığını göstərərək 34 xalq mahnısını nota köçürüb. Həmin nümunələr Cavid tərəfindən ilk addım olaraq milli musiqi sərvətimizin qorunub saxlanılmasında və gələcək nəsillərə çatdırılmasında böyük əhəmiyyətə malikdir.

Ərtoğrul Cavid tərəfindən hazırlanmış bu materiallar Azərbaycan Milli Elmlər Akademiyası və Hüseyn Cavidin ev muzeyinin təşəbbüsü ilə 13 cilddən ibarət "Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrul Cavid" adı altında toplu şəklində nəşr edilib.

1-10-cu cildləri 2011-ci ildə, 11-13-cü cildləri isə 2015-ci ildə çap olunmuşdur. Nəşri filologiya üzrə elmlər doktoryu Gülbəniz Babaxanlı hazırlayıb. Çoxcildlik müxtəlif mövzuları əhatə etdiyi üçün hər bir cildin öz adı var: "Azərbaycan adət-ənənələri və Ərtoğrul Cavid", "Azərbaycan klassik musiqi mətnləri və Ərtoğrul Cavid", "Azərbaycan dastanları və Ərtoğrul Cavid", "Azərbaycan aşıq yaradıcılığı və Ərtoğrul Cavid", "Balaman məktəbi dərsliyi və Ərtoğrul Cavid", "Ərtoğrul Cavidin nota köçürdüyü xalq mahnıları" və "Ərtoğrul Cavidibn yarımçıq qalmış əsərlər"...

«"Balaman məktəbi" dərsliyi və Ərtoğrul Cavid» adlı on birinci cild musiqişünas Saleh Əbdüləlimovun musiqi məktəbləri üçün tərtib etdiyi ilk dəfə çap olunmuş dərslikdir (2015). Dərslik 1937-ci ildə çapa hazırlansa da, o dövrün ictimai-siyasi vəziyyəti ilə əlaqədar nəşr edilməmişdir. "Balaman məktəbi" dərsliyinin orijinalı Ərtoğrul Cavid tərəfindən mühafizə edilərək onun şəxsi arxivində qorunub saxlanılıb. Müəlif "Balaman məktəbi" dərsliyinin tərtibatı ilə əlaqədar bütün məlumatları, eyni zamanda Bülbülün və digər şəxslərin rus dilində yazdığı önsözü Azərbaycan dilinə tərcümə edərək, həmçinin bu məqalə ilə əlaqədar olan iclas protokollarının toplanıb hazırlanmasına kömək göstərmişdir. Bu cildə xalq mahnıları, rəqslər, muğam parçaları ilə bərabər, Azərbaycan bəstəkarlarının, eyni zamanda Avropa və rus klassiklərinin musiqi əsərləri daxildir. Qeyd etmək lazımdır ki, dərsliyin müzakirəsinə aid bir neçə iclas keçirilib, protokolları dərsliyin girişində rus dilində verilib və Ərtoğrul Cavid tərəfindən Azərbaycan dilinə tərcümə olunub. İclasda Uzeyir Hacıbəyli, Bülbül, Səid Rüstəmov, professor Berolski, Quliyev Əbdüləlimov iştirak etmişlər. "Balaman məktəbi" dərsliyinin məzmunu haqqında ETMK-nın razılığı ilə Əbdüəlimov tərəfindən tərtiblənmiş məruzəsi və baş konsultant professor Berolskinin balamanda ifa qaydaları haqqında izahatı dinlənilib. Qeyd olunub ki, "Balaman məktəbi" dərsliyinin tərtib edilməsində müəllif Əbdüləlimov və baş konsultant professor Berolski çox məsuliyyətlə yanaşmışlar.

Bundan əlavə, iclasda "Balaman məktəbi" dərsliyinin məziyyətləri vurğulanaraq məzmunun müntəzəm şəkildə fərqlənməsi, materialların ardıcıl düzülüşü nəzərə alınaraq bütövlükdə irəli sürülən məsələyə cavab verdiyi qəbul olunmuş və təsdiqlənmişdir.

Eyni zamanda bəzi iradlar da bildirilib, Belə ki, professor Berolskiyə "Balaman məktəbi" dərsliyini yneidən korrektə etmək, balaman alətinin diapazonunu nəzərə alaraq dərsliyə oktava həcmində materiallar, şagirdlərə balaman alətinin qavranılmasını yüngülləşdirmək məqsədi ilə nəfəs işarələri əlavə edilməsi haqqında göstərişlər vermişdir. Elmi-Tədqiqat Musiqi Kabinetinin 1937-ci il aprel ayının 24-də keçirdiyi iclasın protokolunda "Balaman məktəbi" dərsliyinə aid bir neçə məsələlər irəli sürülüb. İclasa professor S.İ.Berolski, Q.Qarayev, müəllif Əbdüləlimov, Bülbül, katib Baxçisaraysev də qatılıblar. İclas iştirakçıları müəllif tərəfindən təqdim

olunmuş dərsliklə tanışlıqdan sonra belə qərara gəliblər ki, ilk növbədə, balaman alətinin adının duduk əvəzinə "balaman" adlandırılması daha mədəni və sırf milli cəhətdən məqsədəuyğundur. Balaman alətinin mənşəyinin müəyyənləşdirilməsi haqqında göstərişlər verilmişdir.

Müəllifin elmi bünövrəsinin (özülünü) olmadığına görə dərslik elmi cəhətdən əsaslandırılmamışdır. Buna görə də dərsliyin elmi rəhbərliyi və tərtibatı profesor Berolskiyə tapşırılmışdır. Elmi-Tədqiqat Musiqi kabinəsinin "Balaman məktəbi" dərsliyinə həsr olunmuş növbəti iclasında professor Berolski, Əbdüləlimov, ETMK elmi işçisi Cövdət Hacıyev, katib Baxçısaraysev iştirak edərək alətin nümayişi prosesində bəzi məqamları açıqlayıblar. Onlar dərsliyin planının iki müstəqil hissəyə bölünməsini məsləhət görmüşlər. Birinci hissəyə balaman alətində ifa yollarının təməlinin qoyulması, alətlə tanışlıq, elementar musiqi nəzəriyyəsi, məşğələlər; ikinci hissəyə isə milli musiqi nümunələrindən, həmçinin Avropa klassiklərinin musiqi nümunələrindən ibarət hissələrin salınması tövsiyə olunub. Müəllifin royektoru üzrə balamanın qapaqlarla təchizatı məşğələsinə görə ETMK-i eksperimental nümunənin hazırlanması ilə əlaqədar bu məsələni xüsusi iclasda müzakirəyə qoyub onun gələcək taleyinin həlli məsləhət görülüb. Müəllif Əbdüləlimova  tövsiyə edilib ki, plana uyğun olaraq dərsliyi yeni bölmələrlə zənginləşdirmək məqsədilə profesor Berolskiyə müraciət etsin. Bu baxımdan Berolski 1939-cu ilin noyabr ayında ETMK-nın rəhbərliyinə məktubla müraciət ünvanlayaraq, "Balaman məktəbi" dərsliyinin çapa hazırlanmasına aid görülən işlər haqqında hesabatı yazılı surətdə bildirmişdir. Nəticədə ETMK incəsənət xadimi Səid Rüstəmovun "Tar məktəbi" dərsliyinin nəşrindən sonra "Balaman məktəbi" dərsliyi  və sonra digər – kamança, saz, tütək – xalq musiqi alətləri məktəbinin hazırlanmasını qarşısına məqsəd qoymuşdur.

Dərsliyin giriş hissəsində profesor Berolskinin balaman aləti, onun quruluşu haqqında, balaman alətinin qoz və yaxud tut ağacından hazırlanması, alətin səs sırası haqqında məlumat verilir. Girişdə nəzəri hissə, notların böyüməsi, alterasiya işarələri, minor qammalar, xromatik qammalar, geniş şəkildə təsvir olunub. Məlumat balaman alətində ifanın tədrisi üçün onun xüsusiyyətləri haqqındadır. Dərsliyin birinci hissəsində nəzəri hissə, notlar, pauzalar alterasiya işarələri haqqında major, minor qammaları haqqında və balaman alətində ifanın ilkin məşğələləri, təcrübə məşğələləri, yarıqapanmış dəliklər üzrə məşğələlər, kvarta məşğələləri, müxtəlif ştrixlərlə çalmaq və bunlara aid musiqi nümunələri verilir. Məsələn, Üzeyir Hacıbəylinin "Əsgərin ariyası", A.Zeynallının "Uşaq və buz", "Qoyunlar" əsəri nümunə kimi verilir.

Triol məşğələlərə aid Kabalevskini, Üzeyir Hacıbəylinin, A.Zeynallının musiqi nümunələrinə nəzər salınır. Dərsliyin ikinci hissəsində

qammalar, melizmlər və sonra Üzeyir Hacıbəylinin "Bənd oldum", "Koroğlu", "Vağzalı rəqsi", M.Moqamayevin "Lalə", "Durna", "Radio marşı", S.Rüstəmovun "Bayat Kürd"ü nümunə kimi verilir. Bundan əlavə, dərslikdə balamanın ifasında nota köçürülmüş bir sıra xalq mahnıları da öz əksini tapır. Məsələn "Bənövşə", "Ay sallanıb gedən yar", "Durnam", "Qoyunlar", "Qarabağlı", "Gözəlim". Gördüyümüz kimi, alətdə muğam, xalq mahnıları, aşıq havaları, instrumental pyesləri də ifa etmək mümkündür. Bu da bir daha onu sübut edir ki, özünəməxsus gözəl, yumşaq səs tembrinə malik balaman alətinin nəfəsli musiqi aləti kimi ifa imkanları çox genişdir. Musiqi alətinin səsi orkestrdə maraqlı səsləndiyi kimi solo ifası zamanı da zövqü oxşayır.

Bülbül xalq musiqi alətlərinin və bu dərsliyin əhəmiyyətini qeyd edərək bildirmişdir ki, ilk növbədə, musiqi məktəblərinin şagirdlərini və musiqiçiləri balaman alətinin öyrənilməsinə istiqamətləndirirək musiqi biliyi və mədəniyyətinin zənginləşməsində köməklik göstərəcək. O qeyd etmişdir ki, dərslikdə həm Azərbaycan bəstəkarklarının, həm də Avropa və rus musiqi klassiklərinin əsərlərindən geniş istifadə edilmişdir. Bül-bül qeyd etmişdir ki, ayrı-ayrı xalq musiqi alətlərinin artıq Avropa simfonik orkestrində iştirakı nəinki orkestrin tərkibini zənginləşdirmiş, həmçinin bütövlükdə orkestrin səslənməsinə yeni kolorit gətimişdir. Buna görə də 1935-ci ildə Səid Rüstəmovun "Tar məktəbi" dərsliyinin nəşrindən sonra ETMK Əbdüləlimovun "Balaban məktəbi" dərsliyinin nəşrini hazırladı.

Qeyd etmək lazımdır ki, Səid Rüstəmovun ilk dəfə 1935-ci ildə nəşr etdiyi "Tar məktəbi" dərsliyi əvəzolunmayan bir vəsait kimi şagird və tələbələrin tədrisinə kömək göstərmişdir.

Eləcə də Bülbül Azərbaycan xalq musiqi mədəniyyətimizə təsirindən danışaraq qeyd etmişdir ki, Azərbaycan musiqi alətlərinin Avropa musiqi alətləri ilə yanaşı simfonik orkestrdə yer tutması xalq musiqi alətlərinin inkişafına kömək etməkdədir. Burada məqsəd xalq musiqi alətlərində çalanların orta və ali musiqi məktəblərində Avropa təhsili alaraq elmli musiqiçilər yetişdirilməsindədir. Bülbülə görə, "tar, kamança, qoşa balaban, dəf, qaval və bu kimi musiqi alətlərimizin" milli simfonik orkestrdə müəyyən yer tutması, Avropa instrumentləri ilə ahəngdar bir surətdə iştirakı milli kooritin duetlənməsinə səbəb olmaqla orkestronun ümumi dinləyişində bir çox yeni səslər və gözəlliklər əmələ gətirir.

Balaman məktəbi dərsliyinin əhəmiyyətindən danışarkən onu qeyd etmək lazımdır ki, bu dərslik, hər şeydən əvvəl, balamanın notla tədrisinin əsasını qoymuş, balamanın notlu xalq çalğı alətləri orkestrində mövqeyini möhkəmlətmiş, balaman ifaçıları Azərbaycan, rus və Avropa klassiklərinin əsərlərini ifa edərək mili musiqi alətimizin bədii-texniki imkanlarını nümayiş etdirmişlər.

**Ədəbiyyat:**

1. "Balaman məktəbi" dərsliyi və Ərtoğrul Cavid. 11-ci cild. Bakı, 2015
3. S.Rüstəmov. Tar məktəbi. Bakı, 1995

**Mehriban Pashaeva**

## The importance of the textbook "the school of playing in Balaman" in the protection of the national musical heritage

**Key words:** balaman, folk instrument, rendering, folk music.

This article is dedicated to the textbook "The school of playing in balaman". The questions of the study of note rendering in balaman are noted for the first time in the article. There is a told about the significance, the structure and character of this instrument. The role of the instrument balaman in symphonic orchestra is noted.

**Мехрибан Пашаева**

## Значение учебника «Баламанная школа» в охране национально-музыкального наследия

**Ключевые слова:** баламан, народный инструмент, исполнение, народная музыка

Эта статья посвящена учебнику «Школа игры на баламане». В статье впервые отмечаются вопросы изучения нотного исполнения на балабане. Говорится о значении, строении и характере этого инструмента. Отмечается роль инструмента балабан в симфоническом оркестре.

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası ISSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 181-186

**Fidan Rzayeva**

AMEA Memarlıq və İncəsənət İnstitutunun
kiçik elmi işçisi
fidanqasimova1881@gmail.com

**UOT 792.075; 792.071**

# ABBAS MİRZƏ ŞƏRİFZADƏNİN AZƏRBAYCANDA MUSİQİLİ TEATRIN TƏŞƏKKÜLÜNDƏ ROLU

**Xülasə:** Görkəmli sənətkar, romantik aktyor məktəbinin ən öncül nümayəndələrindən biri, böyük faciə aktyoru, rejissor Abbas Mirzə Şərifzadə (1893-1938) Azərbaycan teatrının və rejissor sənətinin təşəkkülündə böyük xidmətlər göstərmişdir. O, 1916-1930-cu illərdə dram tamaşaları ilə yanaşı, Z.Hacıbəyovun “Aşıq Qərib”, Ü.Hacıbəyovun “Leyli və Məcnun”, “Şeyx Sənan”, “Rüstəm və Söhrab”, “Şah Abbas və Xurşid banu”, “Əsli və Kərəm” operalarını, “Ər və arvad”, “Arşın mal alan”, “O olmasın, bu olsun” operettalarını səhnəyə qoymuşdur.

**Açar sözlər:** Abbasmirzə Şərifzadə, teatr, opera, operetta, rejissor, musiqi, dram.

“Nicat” müsəlman maarif cəmiyyətinin teatr bölməsi eşitdiyimiz kimi tatar dilində ən yaxşı dram və opera əsərləri üçün müsabiqə elan edir. Bu yaxınlarda gənc publisist və musiqiçi Üzeyir Hacıbəyov aranjeman etdiyi mahnını dərc etmək və səhnələşdirmək hüququ qazanıb. Ü.Hacıbəyovun “Leyli və Məcnun” operası tatar dilində. Bu opera müsəlman operasında ilkdir və ilk dəfə şənbə günü, yanvarın 12-də Tağıyev səhnəsində nümayiş olunacaq. Ən maraqlı əsər olacağına vəd verir” [7, s. 3]. Bu sətirlər 20-ci əsrin əvvəllərində Şərqdə yaranmaqda olan ilk müsəlman Opera Teatrının həyəcan siqnalı idi. Təşkilatlanmaqda olan Azərbaycan teatrında Ceyhun və Üzeyir Hacıbəyov qardaşlarının bu təşəbbüsü sayəsində 1908-ci ildə yeni bir sənət növü cücərməyə başladı. Bu, Bakı mühitində tanınan və sevilən janr idi. 19-cu əsrin sonlarında etibarən Avropa və Rusiyadan bir çox opera və balet truppaları Bakıya qastrol səfərləri edirdilər. Lakin Şərq üslubunda opera müsəlman cəmiyyəti üçün yeni hadisə idi. Ü.Hacıbəyov tərəfindən M.Füzulinin eyniadlı poeması əsasında yazılmış bu operanın premyerasına Azərbaycanın bir çox rayonlarından teleqrafla biletlər sifariş verilmişdi.

Artıq Azərbaycan teatrının təşkilatlanması uğrunda mübarizə aparan sənət fədailəri təzə yaranmış bu növə da böyük maraq göstərirdilər. Truppalar

halında fəaliyyət göstərən artistlər bir tərəfdən dram, faciə əsərləri səhnəyə qoyur, digər tərəfdən də opera və operattalar ifa edirdilər. Gənc bəstəkar Ü.Hacıbəyov müntəzəm şəkildə opera və operettaları səhnəyə qoymaq üçün ətrafına M.Kazımovski, Ə.Haqverdiyev, H.Ərəblinski, H.Sarabski, M.M.Məmmədov, Ə.Ağdamski, M.Əliyev, A.Şərifzadə və b. istedadlı sənət fədailərini toplamışdı. "Leyli və Məcnun" operasının uğurundan sonra Ü.Hacıbəyovun "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşid banu" (1911), "Əsli və Kərəm" (1912) operaları, "Ər və arvad" (1910), "O olmasın, bu olsun" (1911), "Arşın mal alan" (1913) operettaları "Müsəlman dram cəmiyyəti", "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin dram dəstələri tərəfindən H.Ərəblinskinin, H.Sarabskinin, A.M.Şərifzadənin rejissorluğu ilə dəfələrlə səhnəyə qoyulmuşdur. Tamaşalar bəzən uğurlu, bəzənsə uğursuz alınırdı. Mətbuatda ifaçıların səs imkanlarının aşağı səviyyədə olması, bəzi aktyorların öz rolunu yaxşı bilməməsi və ya səhnə əsərinin quruluşundakı müəyyən nizamsızlıqlar ilə bağlı tənqidi yazılar yer alırdı. Bu kimi iradların əsas səbəbi məşqlərin az təşkil edilməsində, ifaçıların tez-tez dəyişməsi və yeni artistlərin nəğmələrlə lazımi səviyyədə tanış olmamasında görülürdü. 1916-cı il 28 apreldə göstərilən "Leyli və Məcnun" tamaşası haqqında mətbuatda yazılırdı: "Xor sanki bilərəkdən əlindən gələni edirdi ki, musiqi ilə uyğunlaşmasın. Bütün artistlərin oyununda süstlük hiss olunurdu. İş o yerə çatdı ki, hətta tarzən Qurban Leylini oynayan artistin ölməli olduğu anda naümidlikdən "Segah"ın kədərli motivini oynaq "Tərəkəmə" ilə əvəz etdi" [6. s. 212].

Artistlərin musiqili teatra belə münasibətləri Ü.Hacıbəyovu çox narahat etdiyindən o, müstəqil dəstə yaratmaq qərarına gəlir. 31 avqust 1916-cı ildə mətbuatda Ü.Hacıbəyovun nəzarəti altında "Hacıbəyov qardaşlarının opera-operetta dəstəsi" adlı yeni truppanın yaradıldığı haqqında məlumat dərc edilir. Truppaya məşhur artistlər cəlb olunur. "Dram artistlərindən Abbasmirzə Şərifzadə dəxi Üzeyir bəy tərəfindən cəlb edilib, rejissorluq cəhəti ona tapşırılıbdır. Ondan əlavə paltar və dekorasiya işlərini idarə etmək üçün dəxi xüsusi bir adam təyin olunubdur" [5, s. 45]. Beləliklə, görkəmli faciə aktyoru dram dərnəklərində bir-birindən gözəl obrazlar yaratmaqla, səhnə əsərlərinə quruluş verməklə yanaşı, "opera-operetta dəstəsi"ndə də rejissor kimi fəaliyyət göstərməyə başlayır. Abbasmirzə Şərifzadə 1916-cı ildən etibarən "Hacıbəyov qardaşlarının müdriyyəti" truppasında (24 oktyabr 1919-cu ildən Türk Dövlət Dram Teatrosu, 1 iyul 1920-ci ildən Türk Dram Teatrı, 1925-ci ilin avqust ayından Böyük Hökümət Opera Teatrı adlanır) bir sıra opera və operettalara quruluşlar verib. O, müxtəlif illərdə Z.Hacıbəyovun "Aşıq Qərib", Ü.Hacıbəylinin "Əsli və Kərəm", "Şah Abbas və Xurşid banu", "Leyli və Məcnun" operalarını, "Arşın mal alan" və "O olmasın, bu olsun" operettalarını dəfələrlə səhnəyə qoyub. Lakin o dövrdə səhnəyə qoyulmuş

əsərlərin quruluşlarını bir-birindən çox da fərqli hesab etmək olmazdı. Demək olar ki, hər mövsüm əsasən ifaçılarda dəyişiklik apararaq yeni quruluş adı ilə tamaşalar təqdim olunurdu. Bunu A.Şərifzadənin müxtəllif illərdə quruluş verdiyi "Leyli və Məcnun" operası haqqında mətbuatda çıxan yazılardan görmək mümkündür.

1917-ci il 8 dekabrda Tağıyev teatrında A.Şərifzadənin quruluşunda göstərilmiş "Leyli və Məcnun" tamaşasında əvvəlkilərdən fərqli olaraq, Ə.Ağdamski Leyli obrazını deyil, Məcnunu oynayırdı. Leylini isə M.B.Bağırov ifa edirdi. "Kaspi" qəzetində çıxmış məqalədə yazılırdı: "Nəticədə Məcnun qrimi və geyimində çıxış edən Leyli alınmışdı: artistin boyu, duruşu, səsi və qadın rollarında işlətdiyi ədalar və hərəkət açıq-aşkar göstərirdi ki, o, öz rolunda deyil. Bu da tamaşaçıların narazılığına səbəb olmuşdu. Tamaşaçıların çoxu tamaşa qurtarmamış çıxıb gedirdi" [6, s. 216]. Bu, uzun illər Leyli obrazını oynayan Ə.Ağdamskinin uğursuzluğundan savayı rejissorun opera tamaşalarında təcrübəsizliyinin göstəricisi ola bilərdi. Bu cür radikal dəyişimlər, xüsusən də illərlə qəlibləşmiş bir ifanı dəyişməyin müsbət nəticə verməsinə inanmağın başqa cür izahı ola bilməz. Lakin iki il sonra (1919-cu il 18 yanvar) A.M.Şərifzadənin eyni əsərə verdiyi fərqli quruluş barədə mətbuatda çıxan yazıda isə qeyd olunur ki, havanın yağışlı olması tamaşaçıların alqışlarına mane ola bilmədi. "Məcnun rolunu oynayan H.Sarabski öz istedadını bütün genişliyi ilə göstərərək, tamaşaçıları III pərdədən sonra ağlatdı" [6, s. 220]. Bu, həmçinin A.M.Şərifzadənin həmin illər ərzində rejissorluq sahəsində, xüsusən də opera teatrı sahəsində əldə etdiyi təcrübənin, zəhmətin nəticəsi, uğurudur. "Operanın quruluş və ifaçılıq məsələsinə gəlincə biz, bu yolda sərf edilmiş zəhmət və diqqəti sevinclə qeyd edirik. Müsəlman səhnəsində müdriyyəyin bədii hissəsinə rəhbərlik edən gənc və talantlı artist Abbasmirzə Şərifzadə öhdəsinə tapşırılmış çətin vəziyyətə tam ciddiyyətlə yanaşır" [4, s. 65].

1918-ci il mart soyqırımından sonra getdikləri qastrollara səfərlərindən Bakıya qayıdan teatr truppaları ilə daha səmərəli işlər görmək üçün A.M.Şərifzadə "Müsəlman artistlər İttifaqı"nı yenidən bərpa etdi. Həm opera, həm də dram sahəsindəki geriliklərin aradan qaldırılması üçün 28 avqust 1919-cu ildə Hacıbəylilərin "Müdriyyəti" və "Müsəlman artistlər ittifaqı" birgə iclas keçirdilər. İclasda aktyorların, müğənnilərin, musiqiçilərin qıtlığı məsələsi müzakirə olundu. Yekun nəticədə dörd şöbədən (komediya, musiqi, dram, opera və operetta) ibarət kursların təşkil edilməsinə qərar verildi.

1918-1920-ci illər həm siyasi, həm də ictimai-mədəni sahədə Azərbaycan üçün olduqca mürəkkəb, çətin dövr idi. Bu illər ərzində A.M.Şərifzadə yorulmadan rejissor və aktyor kimi fəaliyyət göstərirdi. Həmin dövrdə onun ən yadda qalan quruluşu Mirzə Qədir İsmayılzadənin liberottosu əsasında Müslüm bəy Maqomayevin yazdığı "Şah İsmayıl" (1919)

operasının tamaşası oldu. "Operanın tamaşa üzərində rejissorluq işini əvvəlcə H.Ərəblinski, sonra isə A.M.Şərifzadə aparmışdır" [5, s. 63]. Tamaşanın premyerası martın 7-si, H.Ərəblinskinin dəfn mərasimindən sonra baş tutdu. A.M.Şərifzadənin "Şah İsmayıl" operasına 1924-cü ildə verdiyi quruluş da olduqca uğurlu alınmışdı. Tənqid tamaşa haqqında yazırdı: "Rejissor bu gecə var qüvvəsilə çalışaraq tamaşanı səhnə quruluşu və tərtibata olduqca müvəffəqiyyətli surətdə uyuşdurmuşdur. Rənklərdəki bəzi uyğunsuzluqları da Şərqdə müxtəlif rənklərin sevildiyini nəzərə alaraq yerli sayırıq. Rejissorun bu geçəki müvəffəqiyyətini təbrik edirik" [3, s. 159].

Lakin A.M.Şərifzadənin quruluşunda Hacıbaba Şərifovun "Tahir və Zöhrə" operası (5 sentyabr 1919-cu il) uğurlu alınmadı. Tamaşa bir dəfə göstərildikdən sonra proqramdan çıxarıldı. Ümumilikdə, opera sahəsində demək olar ki, yeniliyə, müsairliyə doğru irəliləyiş çox aşağı səvviyədə idi. Türk dilli aktrisaların yoxluğu, ifaçıların musiqi savadının kasadlığı, aktyorların bir truppada cəmlənməməsi, həmçinin tamaşa göstərmək üçün binanın olmaması kimi problemlərin həlli üçün A.M.Şərifzadə bir sıra addımlar atdı. O, ilk olaraq teatra yeni aktyor və aktrisalar dəvət etdi. "Azərbaycan" qəzetinin 22 oktyabr 1919-cu il nömrəsində teatra yeni qəbul olmuş aktyor və aktrisaların siyahısı verilmişdi [4, s. 47].

Mətbuatda çıxan yazılarda qeyd olunurdu ki, "Başda istedadlı Hacıbəyov qardaşları olmaqla təşkil edilmiş bir dəstənin tükənməz zəhməti sayəsində Azərbaycanın opera, operetta və dramdan ibarət əsil müsəlman truppası yaranmışdır. Biz müsəlmanların indi dəstə ilə teatra axışdıqlarını, hətta bir həftə qabaq bilet almağa cəhd etdiklərini görürük. Lakin Azərbaycan teatrını yaratmaq yolunda ağır zəhmətlərə qatlaşan adamların keçdikləri kələ-kötür yolların əzabını bilmirik... Hətta teatrların birinci sahibi olan bir müsəlmanın axır vaxtlarda teatrımızın pioneri olan artistlərə əl tutmaq istəmədiyini də bilirik..." [2, s. 532]. Burada sahibkar müsəlman dedikdə Hacı Zeynalabdin Tağıyev nəzərdə tutulurdu.

1920-ci il aprel ayının 28-də Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Bakı şəhərində bütün teatrların milliləşdirilməsi prosesi başladı. Birləşmiş Dövlət Teatrosunun nəzdində türk opera və dram dəstəsi truppaları təşkil edildi. "Azərbaycan İnqilab Komitəsinin qərarı ilə xalq maarif komissarı incəsənət şöbəsinə tapşırmışdır ki, bundan sonra hər iki həftədə ancaq bir dəfə opera və operetta oynanılsın, başqa vaxtlarda isə faciə və ya komediya tamaşaya qoyulsun. Bu ilki teatr mövsümü qurtarana kimi daha "Arşın mal alan" operettası tamaşaya qoyulmasın" [3, s. 32]. Xalq Maarif Komissarlığı 1922-ci il 17 dekabrda bu qərara uyğun olaraq "O olmasln, bu olsun" operettasını repertuardan çıxarmağı qərara aldı. Buna səbəb olaraq göstərildi ki, "teatr hal-hazırda tarixi bir vaxt keçirdiyinə görə yüngül musiqili komediyaları oynayan vaxt bir çox xətalara uğramaq

mümkündür” [3, s. 97].

O dövrün mətbuatına nəzər saldıqda A.M.Şərifzadənin opera truppasının təşəkülü prosesində çəkdiyi əziyyətləri, hazırladığı tamaşaları qeyd etməmək mümkün deyil. İstər dram teatrın, istərsə də opera teatrının yaradılmasında, təşkilatlanmasında A.M.Şərifzadənin xidmətləri danılmazdır. Bütün həyatını Azərbaycan teatrının inkişafına həsr edən sənətkar repressiya məngənəsinə salınanda da xalqına, vətəninə ən əsası, uğrunda canını fəda etdiyi teatrına xəyanət etməmişdir. Azərbaycan teatrına olan sadiqliyini son dəfə bu cümlə ilə ifadə etmişdir: “Ümumiyyətlə, mən teatrdan başqa bir şey tanımamışam” [4, s. 17].

**Ədəbiyyat:**


1. Kərimov, İ. Abbasmirzə Şərifzadə haqqında xatirələr. Bakı: Azərbaycan teatr cəmiyyəti, 1963, 172 s.
2. Məmmədli, Q. Azərbaycan teatrının salnaməsi. I cild. Bakı: “Azərnəşr”, 1975, 583 s.
3. Məmmədli, Q. Azərbaycan teatrının salnaməsi. II cild. Bakı: “Yazıçı”, 1983, 299 s.
4. Rəhimli, İ. Abbasmirzə Şərifzadə. Bakı: Şərq-Qərb, 2017, 152 s.
5. Rəhimli, İ. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı. Bakı: “Nağıl evi”, 2008, 376 s.
6. Мамедова, Р. Из истории Азербайджанского музыкального театре. Баку: “Элм”, 2006, 180 с.
7. Из жизни и прессы мусульман / “Каспий”, № 7, 1908, 9 января, 3 с.


**Fidan Rzayeva**

**The role of Abbas Mirza Sharifzade in the organization of musical theater in Azerbaijan**

**Key words:** Abbasmirza Sharifzade, theater, opera, operetta, director, music, drama.

An outstanding artist, one of the foremost representatives of the school of romantic actors, a great tragic actor, director Abbas Mirza Sharifzade (1893-1938) rendered great services in the Azerbaijani theater and director’s

art. In 1916-1930, in addition to drama performances, he staged the operas "Ashiq Garib" by Z. Hajibeyov. "Leyli and Majnun", "Rustam and Sohrab", "Asli and Karam", the operettas "Husband and wife", "Arshin mal alan", "If not that one, then this one" by U. Hajibeyov.

**Фидан Рзаева**

## Роль Аббаса Мирзы Шарифзаде в становлении музыкального театра в Азербайджане

**Ключевые слова:** Азербайджан, Аббасмирза Шарифзаде, театр, опера, оперетта, режиссёр, музыка, драма.

Выдающийся художник, один из крупнейших представителей школы актеров-романтиков, великий трагический актер, режиссер Аббас Мирза Шарифзаде (1893-1938) оказал большие заслуги в становлении азербайджанского театра и режиссерского искусства. В 1916-1930 годах помимо драматических спектаклей он поставил оперы З.Гаджибекова «Ашуг Гариб», У.Гаджибекова «Лейли и Меджнун», «Шейх Санан», «Рустам и Сохраб», «Шах Аббас и Хуршид Бану», «Асли и Карам», оперетты «Муж и жена», «Аршин мал алан», «О олмасын, бу олсун».

Memarlıq Tarixi və Nəzəriyyəsi, Abidələrin Bərpası ISSN 2311-5777
ŞÖBMA Volume 23 №2 2023 187-194

**Nurlanə Kərimli**

AMEA-nın Memarlıq və İncəsənət
İnstitututnun doktorantı

**UOT: 7.032**

# TÜRK MİFOLOJİ TƏSƏVVÜRÜNDƏ ŞƏR QADIN OBRAZI

**Xülasə:** Müəllifin təqdim etdiyi bu məqalədə, tarixi sənədlərin üzə çıxarılması istiqamətində aparılan araşdırmalar nəticəsində türk mifologiyasında meydana gələn qədim türklərin inancları və dünyagörüşü, mifdən inanca keçid, türk xalqları arasında şər qadın obrazının ümum süjetləri kimi mövzular əhatə olunmuşdur. Bu məqalədə qədim türk etnosunun mənəvi və mifoloji mədəni dəyərləri, onların yunan və slavyan mifologiyası ilə əlaqəsi fonunda nəzərdən keçirilir, mifoloji materiallara və tarixi mənbələrə əsaslanaraq, Albastı, Al Karısı və s. şər qadın obrazının mövcud olması faktları mühüm əhəmiyyət kəsb etməyə əsas verir.

**Açar sözlər:** Mifoloji düşüncə, şər qadın, türk xalqları, mərasim, inanc, Albastı

Ən qədim zamanlardan bəşəriyyət tarixinin ayrılmaz tərkib hissəsi kimi çıxış etmiş miflərin toplanmasına və dərcinə əsrlər öncə başlanılsa da, mifologiya barədə saysız hesabsız tədqiqat əsərləri yazılıb, dərc edilsə də bu sahədə görülməli işlər indiyə qədər görülmüş işlərdən hələ də daha çoxdur. Eyni sözləri qədim türk mifik süjet və motivlərinin toplanılması və dərci barədə də söyləmək olar. Türk xalqlarının mifoloji sistemi, xüsusən də şamanist türklərin mifoloji təsəvvürləri olduqca mürəkkəbdir. Bu təsəvvürlər hələ də yetərincə öyrənilmənmişdir. Bununla belə, ümumtürk mifologiyasının vahid süjet ətrafında bərpasına, ayrı-ayrı süjet və motivlər arasında əlaqənin sistemli şəkildə öyrənilməsinə, həmin süjet və motivlərin sonrakı tarixi mərhələlərin əlavə, dəyişiklik və müqayisə edərək, ilkin arxetiplərinin bərpasına kompleks şəkildə cəhd edilməmişdir, desək, bir o qədər də doğru olmaz. Heç şübhəsiz ki, mifologiya ibtidai cəmiyyətdə insanların sosial həyatını tənzimləməkdə xüsusi önəm daşıyırdı. İnsanlar öz düşüncələrini obrazlaşdıraraq şəxsi həyatlarını bu obrazlardan asılı olduğuna və bu təsəvvürlərində tam haqlı olduqlarına inanırdılar. Odur ki, qədim insanların, o cümlədən qədim türklərin həyat tərzini, eləcə də bədii düşüncəsinin fəaliyyətni mifoloji təsəvvürdən ayrı hesab etmək doğru olmaz. Miflərə, əfsanələrə, naıllara əsaslanaraq qadınların iman üzərində böyük təsirini olduğunu görürük. Bəzən yaxşılığı huri-mələk kimi

paylayırlar, bəzən dəhşətli bir cadugər kimi pislik edirlər. Onlara baxdığımızda qadın şər obrazı kimi görünür və yaradılışda həmişə ikincidir. Onlar arxa planda qalırlar. Həvva şeytanla əlbir olaraq Adəmin cənnətdən qovulmasına səbəb oldu. Yunan mifologiyasında yaradılan ilk qadın Pandora, şər qadın obrazı olaraq hər kəslə birlikdə yaradılmışdır. O, yer üzünə xəstəliklər, daşqınlar, zəlzələlər və müharibələr olan bir sandıqda göndərildi. Hekate, Circe, Medea sehrlərdən bəhrələnən cadugər qadın hesab edilmişlər. Yunan mifologiyasında pisliyi təmsil edən bütün simvollar qadın varlıqlardır: nifaq ilahəsi Eris, gecə ilahəsi Nyks və s.[1].

İlan kimi, baxışları ilə insanları daşa çevirən qadın məxluq olan qorxunc Meduza da qadındır. Nağıllarda bütün cadugərlər qadındır. Orta əsrlərdə cadugər ovlarında öldürülənlərin böyük əksəriyyəti qadın idi. Şeytanla əlaqə qurmaq, uçmaq, diri-diri yandırılımaq, adamyeyənlik etmək kimi səbəblər məhz demonik qadınlara məxsusdur. Nümunələrə nəzər saldıqda əslində şərin sinonimi qadın sözü kimi bir nəticə əldə edirik. Bunun səbəbi patriarxal nizam, mif və əfsanələr yaradan kişilərdir. Bu gün dağıdıcı fəlakətlərə qadınların adının verilməsi müzakirələrə səbəb olub. Bu hallar türk, yunan, xristian-yəhudi inanclarında və müasir mədəniyyətdə mühüm yer tutur. Türk inancında Al Karısı, Yunan mifologiyasında Lamiya və xristian-yəhudi inanclarında Liliti misal göstərmək olar. Onların görünüşü demək olar ki, bir-birinə bənzəyir. Bu müxtəlif mədəniyyətlərdə mövcud olan, lakin ortaq xüsusiyyətlərə malik olan qadın varlığının mənşəyinə Mesopotamiyada da rast gəlmək olar. Eramızdan əvvəl birinci minillikdə Akkad dilində yazılmış Daşqın əfsanəsində Hikmət Allahı Enki deyir:

“Bundan sonra xalq arasında üç qadın olsun!
Doğurdan da, doğurmayanda da qadınlar olsun!
İnsanlar arasında bir dişi cin olsun!
Uşağını doğmuş qadının qucağında qaçırsın!
Onlara qadağa qoyulsun və uşaq doğulmasına son qoyulsun! [3].

Lamiya yunan mifologiyasının ən qorxulu və ən bədbəxt qadınlarından biridir. Lamiya qadın başlı, uzun qulaq ayaqlı canavardır. Dayələr, uşaqlara deyirdi ki, onları qorxutsunlar. Rəvayətə görə, Lamiya gözəl qızdır və Zevs Heraya aşiq olmuşdu, amma qısqandığı üçün hər dəfə onun uşağını dünyaya gətirəndə gəlib onu öldürmüşdü. Bir müddət sonra Lamiya dəli olur və mağarada gizlənir və övladları canlı anaların düşməninə çevrilir. Gecələr yata bilmədiyi üçün uşaqları qaçırıb yeyir. Gecələr gözlərini çıxarıb çarpayının yanındakı qaba qoyar və yalnız bundan sonra Lamiyə özünü rahat hiss edərdi. Yunan mifologiyasında Lamiya bənzər digər varlıqlara da inanırdılar: Harpies, Empousa, Mormo, Mormolyke kimi “qapmaq və qaçmaq” deməkdir. Onlar dişi üzlü, qanadlı və sivri dırnaqlı canlılardır. Empousa, yeraltı ilahələrdən biri olan sehrbaz gecələr dəhşət saçır, hər cür qiyafəyə

bürünür, xüsusilə qadın və uşaqları öldürür. Bir ayağı tuncdan olan Empousa insan əti ilə qidalanırdı. Mormo da kiçik uşaqları qorxutmaq üçün istifadə edilən bir qadın obrazıdı. Ehtimal olunur ki, o, dəcəl uşaqları dişləyir və onları şikəst qoyur. Mormolyke elə Mormo kimidir uşaqları qorxutmaq üçün istifadə edilən bir demondur. Lilit, xristian və yəhudi inanclarında Adəmin ilk arvadı olduğuna inanılan qadın cindir. Adəmə bərabər sayılan ilk feminist Lilit üsyan etdi və Adəmə bərabər sayılmadığı üçün onun istəyi rədd edildi. Daha sonra Lilit Allahın gizli adını söyləyərək göyə qalxdı və cinlərin başçısı ilə yaxınlıq etdi. O, yüzlərlə uşaq dünyaya gətirib. Adəmə qayıtmağı razı salmaq üçün üç mələk göndərildi. Lakin geri dönməyəcəyini deyən Lilit əlavə etdi: “Körpələrdə sizin sirli adlarınızı görsəm and içirəm ki, onlara toxunmayacağam”. Bu andan etibarən Lilit körpə qatili kimi tanınmağa başlayır. Lilit gecə yeni doğulmuş körpələri tapır və onları öldürməyə başlayır. Beləliklə, onun qəzəbindən qorunmaq üçün müxtəlif talismanlar və amuletlər hazırlanırdı. Lilit gecələr gəzdiyi üçün onun adı ibrani və ərəbcə leelə- yəni “gecə” qoyulmuşdur. Yəhudilər bu gün də doğuş analarını tək qoymurlar. Həm də Lilit o evdə uşaq olduğunu anlamamaq üçün gecələr paltar yuyurlar [2]. Türk mifoloji düşüncəsində keçid dövrlərinin birinci mərhələsi doğum, evlilik və ölüm adlanır. Hər cəmiyyətdə olduğu kimi türk xalqlarında da doğum önəmlidir. Cütlük bir ailəyə çevrilir. Xüsusilə qadınlar üçün yeni bir status olan analıq başlayır. Yeni fərdin gəlişi ilə həm ailə, həm də cəmiyyət möhkəmlənir. Qədim türk adət-ənənələrində uşaq olmaması böyük bədbəxtlik hesab olunurdu. Bu səbəbdən sonsuzluğun qarşısını almaq üçün bir çox təcrübələr hazırlanmışdır. Qadın hamilə qaldığı andan uşağını qorumaq üçün müəyyən qidalardan, hərəkətlərdən uzaq durur. Türk xalqları qədim dövrlərdən doğumla bağlı saysız-hesabsız adətlər, mərasimlər və rituallar mövcuddur. İnanca görə, doğum edən qadının qəbri qırx gün açıqdır. Eynilə, hələ qırx yaşı olmayan bir kəs eyni dərəcədə təhlükə altındadır. Bu təhlükənin ən böyüyü bu gün bütün türk toplumlarında mövcud olmasıdır. Hətta Al Karısı olduğuna inanılır. Al Karısı “Al, Alanası, Alkızı, Albasması, Alarvadı, Alacama, Albıs, Albız və s. bütün türk dünyasında qeyri-adi canlılardan şər qadın obrazını təsvir edir” [4]. Azərbaycanda Hal Ana bütün cinlərin anasıdır və bu onun Lilitlə nə qədər eyni olduğunun göstəricisidir. Anadolu torpaqlarında Elazığda “El Karı” və Haftar, Ərzurumda Alkarısı, Malatyada Hibilik, Bingöldə Kapoz, Qaziantepdə Təpəgöz adı ilə tanınır. Batman, Bingöl, Diyarbakır oxşar rəvayətlərdə onu qadın ifritə - Pirevok, Pirebok, Piraboçik, Pirhevok kimi tanınan cin kimi təsvir edirlər. Anadoluda bu varlıq “Al Qızları” kimi də tanınır. Lakin bir inanca görə də bu qadınlar ruzi və bolluq mənbəyi hesab edilir. Əllərinin toxunduğu şeylər tükənməzdir. Onlar da “övliyalar” kimi müqəddəs sayılırlar. Albasma Alkarısı adlı cin tərəfindən törədilən mamaça xəstəlikdir. Onların inancına görə doğuş edən türk qadını yeddi gün tək qalmamalıdırlar. Tək qalsa, Alkarısı adlı cin gəlib

albastı xəstəliyinə duçar edər. Anadolu türklərinin inancına görə qayalı dağlarda, dərə kənarlarında, çöllərdə yerlərdə və tövlələrdə yaşayan pəri qızı kimi bir varlıqdır. Albastıya rast gələnlər onun uzun sarı saçlarını görüblər. Onu görən adam qorxu hissini itirərsə, Albastının o adamın ruhunu oğurlayıb huşunu itirməsinə, ağlını itirdiyinə və hər an öləcəyinə inanılır. Heyvanlar kimi keçi, tülkü, ilan, pişik, it, dana, hörümçək, quş, gəlin, kəfənli cənazə kimi müxtəlif qiyafədə görünür. Hündür, uzun barmaqlar və dırnaqlar, dağınıq saçlar, yağlı bədən, kiçik əllər və ayaqlar, dişli, bir dodaq yerdə, bir dodaq göydə, çılpaq gəzmək, sinəsinin biri geri atılmış, başının üstündə çox çirkin gözlü, qırmızı köynək geyinən varlıqdır. O, sırğalara minir və hara istəyir, gedir. Dəhşətli səsi var. Dəyişkən təbiətlidir, deyilənlərin əksini edir, ayaqları əksdir, qəribə varlıqdır. Digər formalarla yanaşı, ən çox ifritə şəklində görünür. Bəzən belə hesab edilir ki, Al Karısı qadının yanına quş şəklində gəlir. Buna quşların boğulması deyilir. İnanca görə, bu nəhəng qırmızı quşdur və "qırmızı quş" adlanır. Qırmızı Quş körpənin üstünə basaraq öldürür. Dobruca türkləri onu sarışın kök qadın, Fərqanə özbəkləri isə onu səliqəsiz görünüşlü, dağınıq saçlı yaşlı qadın kimi görürlər. Qaqauzlar onu nəhəng kimi təsvir edirlər. O, adətən qırmızı və qara uzun donlar geyinir və uzun saçlıdır, qadınların ciyərlərini qoparıb yeyərək öldürməyə çalışan cindir. Bir başqa inanca görədə o, qaraciyəri çıxarıb suya atır. Uluğ Kem çayının sahilində yerləşən Tuba-Uranha Şaman türk ənənələrinə görə, Albis subay qızın nəslindən olub. Qumlu yerlərdə və qayalıqlarda insanlar məskunlaşmayan boş yerlərdə tapınar və keçi kimi qışqırırlar. O, gözəl qız və ya gənc kimi görünməklə insanları özünə cəlb edir. Onlar aldada bilərlər. Albis qızları təqib edir və onları xəstələndirir. Şamanlar ilahilər oxuyur və Albiləri qovurlar. Şaman dualarında sarı qız kimi təsvir edilir. Altaylıların fikrincə, Almış şər ruhdur və Tanrı Erlikə məxsusdur. Bəzi yerlər albilərin vətəni sayıldığından orada heyvanlar otarılmır, ağaclar bitmir. Qırğız-qazax türklərinin mərasimlərinə görə, Albastı iki növdür, biri Qara Albastı, digəri Sarıdır. Qara Albastı ciddi və ləyaqətli bir ruh kimi təsvir edilərkən, Sarı Albastı canlı, həlim və şarlatan kimi müəyyən edilir. Sarı Albastı müəllim və ya şamanların oxuması ilə aradan qaldırılır. Qara Albastı yalnız onu görən insanlardan qorxur. Sarı Albastı sarışın qadın obrazındadır. Albastı yaşayış olmayan evlərdə və kimsəsiz yerlərdə tapılır, müxtəlif formalarda görünür. Qədim türklərin Al ruhu inancı ilə bağlı olan Albastı, Göy Tanrı dini inanc sisteminin güclü təzyiqi nəticəsində mifoloji düşüncədə arxa plana keçdikdən sonra şeytanlaşmışdır. Cin xassələri əldə etmək onun mənfi və pis varlığa çevrilməsinə səbəb olmuşdur. İnanca görə, "al" ruhu heç də həmişə şər ruh olmayıb. Qədim türk panteonunda güclü və ya himayədar tanrılardan birinə çevrildi. Baxmayaraq ki, bu gün onun şər qüvvə olduğuna dair sübutlar var. Bəzi əlamətlər onun qoruyucu bir ruh olduğunu göstərir. Uranha-Tuba

türklərinin şaman dualarında Cam Sarı Albastım deyə müraciət edir və kömək istəyir. Həmçinin "əl" sözünün atəş kultu ilə əlaqəsi var. Bu onu göstərir ki, bu ruh qədim zamanlarda qoruyucu ruh, od və ocaq ilahəsi olmuşdur. Altay və Yenisey Kams öz ayin və mərasimlərində "Vay!" deyə qışqırırdılar, bu, "Amin" sözünü əvəz edirdi. "Al" sözünün odla bağlı olduğunu göstərən digər bir dəlil isə onun bütün türk boylarında işlənməsidir. Çox vaxt keçirilən "Alaslama" mərasimidir. Alaslama Orta və Şərq türklərində odla təmizlənmə və bu xeyir-dua mərasimidir. Başqırdlar və oğuzlar arasında "Alaslama" və ya "Ələzləmə" mərasimi qırmızı parça ilə keçirilir. Onun bir parçası yandırılaraq xəstənin başının ətrafından yanmış kimi keçirilərək edilir. Bu daha çox müalicə formasıdır. Altay və Yenisey türklərində mərasim başlayanda şaman başqa bir ağacın bir parçasını tüstünün içinə atır və yandırır. Qədim türklərdə yandırmaq müqəddəs hesab olunur. Qədim şamanizm və atəş kultu ilə dərindən bağlıdır. Burada da "yandırma" müalicə üsuludur. Anadolunun bəzi yerlərində axşam saatlarında "qovdurma" baş verir. Türk xalqlarının qədim mifoloji düşüncəsində şərin qarışması-şər qüvvələrin rəmzi hesab edilir. Şər qüvvələr üzə cıxır aləmə qarışırlar hər yerdə onların insana xələl gətirə biləcəkləri deyilir. Azərbaycan dialektlərində xəstələnmək mənasında işlənilən "azarlamaq" sözü də "qovdurmaq" və buna görə də "Alızdamaq" ruhu ilə bağlıdır. Şumer od tanrısı Al həm də vəsvəsə pərisidir. Aldatmaq, manipulyasiya etmək, çaşqınlıq etmək, axmaq "Al" kimi sözlər onun ruhunun lütfdən düşməsindən yaranan sözlərdir. Bəzi türk xalqlarının dialektində olan sözlər nəzər salsaq görərik ki, eyni və yaxın mənada işlədilir. Alkamak: xeyir-dua vermək (Altay-Qırğız), Alqış: Təbriklər (bütün türklər), Al Ot: Ailə ocağında yanğın (yakutlarda), Al Ot: Möhtəşəm Od (Altay Kamlarının himnlərində), Əlaz – Alazlama: Odla təmizlənmə ayini [5]. Mifoloji təsəvvürdə qırmızı rəng bütün türklər tərəfindən müqəddəs sayılır. Özlərini Al Karısından qorumaq üçün uşağa qırmızı paltar geyindirilir, başına qırmızı tül bağlanır və qırmızı şirniyyatlar hədiyyə edilir. Doğuş edən anaya qırmızı rəngli şərbət verilir, gözmuncuğu taxılır, buxur yandırılır. Körpənin və ananın yatdığı yerə sağa-sola qayçı, bıçaq, bibər, soğan və sarımsaq qoyulur. Qara muncuqlar biləkdə taxılır.

Albastı tüfəngin səsindən qorxur, Albastı doğulsa, tüfəng partlayar bilər. Dəmirçilərdən və sobaçılardan qorxur, elə təsirli dəmirçilər və ya ocaqçılar var ki, Albastı qorxutmağa onların dəsmalı və ya köynəkləri bəs edir. Qurandan bir ayə oxunsa belə, Albastı yox olur. Onun dəmirdən və dəmirçidən qorxması, yaxasına ilişən sancaqdan qurtula bilməməsi inancı əks etdirir. Matriarxal quruluş dönəmində, ocağın, odun, ailənin qoruyucusu Albastının hakimiyyətinin itirməsi, patriarxal quruluşa keçid, dəmirçi kultunun meydana çıxması ilə bağlı olmuşdur. Al Karısının ən çox sevdiyi şeylərdən biri atın quyruğunu hörməkdir. Bu zaman onu tutmaq mümkündür. Al Karısı qaçmasın deyə onun yaxasına sancaq taxmalı, evə gətirərək ev işləri

